DOI:10.30546/gdu.5.2025

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
GƏNCƏ DÖVLƏT UNİVERSİTETİ

E L M İ
X Ə B Ə R L Ə R
J U R N A L I

FUNDAMENTAL, HUMANİTAR VƏ TƏBİƏT ELMLƏRİ SERİYASI

№ 5

GƏNCƏ – 2025

DOI:10.30546/gdu.5.2025

Baş redaktor: professor Yusif Yusibov

Redaksiya heyəti:dos. Pərvin Kərimzadə (baş redaktorun müavini)
dos. Asif Cavadov
prof. Həsənbala Sadıqov, prof. Şahin Tağıyev,
prof. Vaqif Novruzov, prof. Mübariz Yusifov,
prof. Sevda Qurbanəliyeva, prof. Telman Quliyev,
prof. Muğan Quliyev, dos. Oruc Hüseynov,
k.e.d. İspəndiyar Alverdiyev, dos. Əjdər Əsgərov,
dos. Aynur Məmmədova, dos. Şahin Xurşudov,

Elmi Xəbərlər jurnalı. GDU nun Elmi Şurasının 28 oktyabr 2025 –ci il tarixli (protokol № 2) qərarı ilə çap olunur.

Nəşrə məsul: Nəşriyyat şöbəsinin müdiri: G.T.Cəfərova

ELMİ XƏBƏRLƏR – Gəncə, 2025 № 5

DOI:10.30546/gdu.5.2025

MÜNDƏRİCAT

TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR

Almməmmədov Y.Ə. *E.Ə. I – eramızın I əsrində Ön Asiyada hərbi-siyasi proseslər və Atropatena*
DOİ:10.30546/gdu.*2025.5.6*
İsmayılov İ.A. *Türkiyə və Amerika Birləşmiş Ştatlari:1923-1932-ci illərdə ikitərəfli m ünasibətlərin qurulması*
DOİ:10.30546/gdu.*2025.5.14*
Ismayilov Sh. *Cultural and scientific integration of the Turkic world: the case of Azerbaijan and Türkiye*
DOİ:10.30546/gdu.*2025.5.35*
Sadıqlı*P.İ. *Amerika xalqinin ağacdan hazirladiqlari yaşayiş məskənləri və ev tipləri*
DOİ:10.30546/gdu.*2025.5.43*
Talishinsky E.B. *Information and psychological warfare: a new dimension of geopolitical rivalry*
DOİ:10.30546/gdu.*2025.5.52*
Süleymanov Y.İ. *Ərəb – Israil münaqişəsində ABŞ-ın mövqeyi*
DOİ:10.30546/gdu.*2025.5.59*
Aslanov E.M., Həsənova D.X., Qarayeva L.Ə. *Azərbaycanda etnik-siyasi birlik və müstəqillik ənənələri*
DOİ:10.30546/gdu.*2025.5.64*
Hacıyeva X.Z. *"Yeni qonşuluq" proqramında Cənubi Qafqaz dövlətləri*
DOİ:10.30546/gdu.*2025.5.69*

PEDAQOGIKA

Aslanova S.R.b *İbtidai təhsildə disqrafiyanın erkən diaqnostikasının elmi-pedaqoji əhəmiyyəti*
DOİ:10.30546/gdu.*2025.5.74*
Abasova S.A. *Baş beyin yarımkürələrinin zədələnməsi zamanı ali dəri- kinestetik funksiyaların tədqiqi*
DOİ:10.30546/gdu.*2025.5.77*
İsmayılova A.E. *Kibertəcavüz və onun gənclərin psixologiyasına təsiri*
DOİ:10.30546/gdu.*2025.5.82*
Bayramlı M.A. *Müasir Azərbaycanda sağlamlıq imkanları məhdud olan insanların reintegrasiya prosesində yeri və üzləşdikləri problemlər*
DOİ:10.30546/gdu.*2025.5.85*
Məmmədov S.R., Cəfərov F.T., Məmmədov V.S. b *Təhsil sistemində yeni çağırışlar*
DOİ:10.30546/gdu.*2025.5.90*
Qurbanova K.B. *Əqli geriliyi olan uşaqlarda oxu və yazı pozulmalarının xüsusiyyətləri*
DOİ:10.30546/gdu.*2025.5.95*

DOI:10.30546/gdu.5.2025

Yusifova T.V. *Koqnitologiya insanların koqnitiv fəaliyyətinin nəticələrinin qavranılmasını öyrənən elm kimi*
DOİ:10.30546/gdu.*2025.5.99*
Kadiyeva S.Ə. *Nitqin öyrədilməsində kommunikativ metodun yeri*
DOİ:10.30546/gdu.*2025.5.106*

FİLOLOGİYA

Abdullayeva S.S. *Azərbaycan dilində ərəb, fars, rus və avropa mənşəli alInma sözlər*
DOİ:10.30546/gdu.*2025.5.110*
Axundova T.H. *Linqvokulturoloji lüğətlərin bədii tərcümədə rolu*
DOİ:10.30546/gdu.*2025.5.116*
Бабашова Х.А. *Синтаксические модусы имплицитной антонимии как средство когезии (на материале русского и азербайджанского языков)*
DOİ:10.30546/gdu.*2025.5.123*
Əlizadə T.Ş., Nağıyeva D.Ə. *Şuşanın maarifpərvər ziyalısı – Əbdürrəhim bəy Haqverdiyev*
DOİ:10.30546/gdu.*2025.5.130*
Hacıyeva L.İ. Azərbaycan dilindəki paremioloji vahidlərin sərhədləri
DOİ:10.30546/gdu.*2025.5.138*
Həmidova A.N. *Rüfət Əhmədzadənin poeziyasında Mirzə Ələkbər Sabir izləri*
DOİ:10.30546/gdu.*2025.5.145*
Həsənova N.A. *Bədii mətnlərdə toponimlərin işlənmə xüsusiyyətləri*
DOİ:10.30546/gdu.*2025.5.149*
Heydərova X.İ. *Nəsimi poeziyasında Hürufi antropologiyaya aid terminlər*
DOİ:10.30546/gdu.*2025.5.155*
Ismayilova G.S. *Evaluating the influence of moderation on esl learner engagement in group conversations*
DOİ:10.30546/gdu.*2025.5.160*
Qəmbərova Q. *Azərbaycan dilinin şivələrindəki leksik dialektizmlərin Arpaçay şivələri ilə müqayisəsi*
DOİ:10.30546/gdu.*2025.5.164*
Nağiyeva J.X. *"Koblandibatir" etnoenergetik sistemin əvəzsiz nümunəsi kimi*
DOİ:10.30546/gdu.*2025.5.172*
Qəribova P.Y. *Azərbaycan və türk dillərində cəmlik şəkilçilərinin funksionallaşması*
DOİ:10.30546/gdu.*2025.5.179*
Zeynalova Z.H. *Azərbaycan coğrafi əfsanələrində təbiət kultunun poetik inikasi*
DOİ:10.30546/gdu.*2025.5.185*
Həmidov A. *Much, many, little, few, a lot of, plenty of sözlərinin azərbaycan dilinə tərcüməsi və qarşılığı*
DOİ:10.30546/gdu.*2025.5.190*

DOI:10.30546/gdu.5.2025

Касимова М.М. *Структурные элементы национального и интернационального типа характера*
DOİ:10.30546/gdu.*2025.5.194*
Rəsulova C.X. *Prezidentlərin andiçmə diskursunun mənəvi - idrakı və kommunikativ aspektləri*
DOİ:10.30546/gdu.*2025.5.199*
Həşimova N.P. *Şəxsiyyəti ifadə edən atalar sözlərinin məna gücü*
DOİ:10.30546/gdu.*2025.5.204*
Ismayilova S., Mustafazadeh S. *Business english in the modern socio-economic space*
DOİ:10.30546/gdu.*2025.5.209*
Talıbova A.S. *Qabriel Qarsia Markesin "Qaçırılma" əsərində tarixi-siyasi gerçəkliklər və yazıçı mövqeyinin bədii inikası*
DOİ:10.30546/gdu.*2025.5.213*
Гусейнли С.Г. *Согласных звуки азербайджанских слов в русской речи бакинцев*
DOİ:10.30546/gdu.*2025.5.219*

TƏLİM-TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ

Quliyeva T.Ə. *Dil təlimində üslubi əhəmiyyətli məsələlər: zəngin söz, ifadə ehtiyatı və zərif səslənmə*
DOİ:10.30546/gdu.*2025.5.224*
Məmmədova A.Ə., Musayeva X.E. *1-2-ci siniflərdə "mövzu üzrə rəsm" məşğələsinin tədrisində fəal təlim metodlarından istifadə yolları*
DOİ:10.30546/gdu.*2025.5.231*
Həsənov E.F., Əlizadə Ü.H. *Yanıqlar və donmalar zamanı müalicə bədən tərbiyəsi*
DOİ:10.30546/gdu.*2025.5.234*
Hüseynov F.B., Babayeva N.B. *Tam orta məktəblərdə gənclərin hərbi vətənpərvərlik tərbiyəsi işinin təşkili*
DOİ:10.30546/gdu.*2025.5.237*
Hüseynov F.B., Babayeva S.F., Ağayeva C.C. *Mülki müdafiədə istifadə olunan fərdi və tibbi mühafizə vasitələri*
DOİ:10.30546/gdu.*2025.5.240*
Məmmədova A.Ə., Kazımova S.E. *Təsvir sənətində süjet anlayışı*
DOİ:10.30546/gdu.*2025.5.246*
Orucova N.K., Qəzənfərova G.V. *Süd məshullarının xarab olmasına qarşı istifadə olunan mübarizə metodları*
DOİ:10.30546/gdu.*2025.5.249*
Həsənov E.F., Ağayev İ. M. *Şahmatçı psixoqramması*
DOİ:10.30546/gdu.*2025.5.254*

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 6-13

DOI:10.30546/gdu.5.2025

TARİX, ANTROPOLOGİYA VƏ SİYASİ ELMLƏR

UOT:94(479.24).

E.Ə. I – ERAMIZIN I ƏSRİNDƏ ÖN ASİYADA HƏRBİ-SİYASİ PROSESLƏR VƏ ATROPATENA

Alməmmədov Yasin Ətraf oğlu
AMEA-nın Abbasqulu ağa Bakıxanov adına
Tarix və Etnologiya İnstitutunun doktorantı
https://orcid.org/0009-0002-1204-7255
almmmdovyasin@gmail.com

Xülasə: *Müasir dövrdə ölkəmizin qədim tarixinin öyrənilməsinə maraq daha da artmışdır.*

Təqdim olunan məqalədə də dövlətçilik ənənələrimizin qədimliyini sübuta yetirən vacib mövzulardan birindən – Atropatena tarixindən bəhs olunur. Məqalədə tələtümlərlə dolu tarixi dövrdə - e.ə. I əsrdə, eramızın I əsrində, müharibənin və münaqişənin, zorakılığın və ekspansiyanın insan həyatının adekvat məzmunu olduğu bir şəraitdə - Ön Asiyada cərəyan edən proseslərin Atropatena dövlətinin sosial-iqtisadi və ictimai-siyasi həyatına davamlı və həlledici təsiri ardıcıl şəkildə izlənilir. Məqalədə, həmçinin e.ə. I əsrdə və e. I əsrində Atropatenaya rəhbərlik etmiş məşhur hökmdarların Roma-Parfiya qarşıdurması şəraitində həyata keçirdiyi daxili və xarici siyasətin əsas məzmunu və xarakteri açıqlanır, bu dövrdə Atropatenanın daxili siyasi vəziyyəti və beynəlxalq münasibətləri Ön Asiyada baş verən hərbi-siyasi dəyişikliklər kontekstində təsvir və təhlil edilir. I Artabazd (e.ə. 56-31), II Ariobarzan (e.ə. 20 - e. 4) və s. kimi görkəmli Atropatena hökmdarlarının hakimiyyəti dövründə Ön Asiyada, İranda və Cənubi Avropada baş vermiş ən vacib tarixi hadisələrə xüsusi diqqət ayrılır. Sözügedən dövrdə Atropatena hökmdarlarının həyata keçirdikləri xarici siyasətin prioritetləri, məqsədləri, istiqamətləri və nəticələri müəyyən edilir və müvafiq qaydada qiymətləndirilir.

Açar sözlər: Atropatena, Roma, Parfiya, Sasanilər, Ön Asiya.
Ключевые слова: Атропатена, Парфия, Рим, Сасаниды, Передняя Азия.
Keywords: Atropatena, Parthia, Rome, Sassanids, Western Asia.

Giriş

Dövlətçilik tariximizin mühüm səhifələrindən biri də e.ə. 321-ci ildən eramızın 227-ci ilinədək mövcud olmuş, Yaxın Şərqdə və Ön Asiyada baş verən ictimai-siyasi hadisələrə və proseslərə həlledici təsir göstərmiş Atropatena dövlətidir [20, s. 206]. Atropatena dövləti özünün əlverişli təbii-coğrafi şəraiti və mühüm geosiyasi mövqeyi ilə Ellinizm mədəniyyəti arealına daxil olan dövlətlər sırasında xüsusi rol oynamışdır [5, s. 38]. Beləliklə, mühüm və əlverişli ticarət yollarının, o cümlədən "Böyük ipək yolu"nun üzərində yerləşdiyi üçün Atropatena bəhs olunan dövrdə Roma və Parfiya kimi böyük dövlətlərin timsalında antik dünyanın güc mərkəzlərinin maraq dairəsinə daxil olmuş və elə bu səbəbdən siyasi qarşıdurmalara, regionda hərbi-siyasi qüvvələr nisbətinin dəyişməsilə meydana gələn geosiyasi şəraitə uyğun balanslaşdırılmış xarici siyasət yürütməyə məcbur olmuşdur. Bir sıra Atropatena hökmdarları isə sözügedən vəzifənin öhdəsindən bacaraqla gəlmiş, ölkənin suverenliyini və ərazi bütövlüyünü uğurla qoruya bilmişlər. İlk belə siyasəti isə Atropatena dövlətinin yaradıcısı sayılan Atropat həyata keçirmiş, Makedoniyalı İsgəndərin Şərqə hərbi yürüşləri ilə əlaqədar yaranan qeyri-müəyyən və ən incə məqamlarda möhkəm siyasi iradə və düzgün qərar qəbul etmək bacarığı nümayiş etdirərək Atropatena dövlətinin qurtuluşunu

DOI:10.30546/gdu.5.2025

təmin edə bilmişdir [4, s. 43]. Atropat Əhəməni aristokratiyasının görkəmli nümayəndələrindən biri və Makedoniyalı İsgəndərin Şərqə hərbi yürüşünə qədər Midiya satrapı olduğu üçün regionda cərəyan edən hadisə və prosesləri düzgün qiymətləndirə, adekvat qərar çıxara və real qüvvələri operativ şəraitdə səfərbər edə bilmişdi [8, s. 110]. Atropatın gələcək Atropatena çarlarına miras qoyduğu siyasi strategiya adekvat situasiyalarda dəfələrlə tətbiq edilmiş, xüsüsilə də e.ə. I və e. I əsərlərində Roma dövləti ilə Parfiya çarlığı arasında yaranmış hərbi-siyasi qarşıdurma şəraitində gözlənilən yüksək effekti vermişdir.

Atropatena tarixinin müasir tədqiqatçılarından biri olan H.Ə. Həsənov 2017-ci ildə rus dilində yazdığı "Makedoniyalı Aleksandr və Atropat. Atarpatena / Atropatena /Azərbaycan. E.ə. 331-321-ci illər" adlı əsərində ayrı-ayrı şərqşünasların C. Bosvort, C. Haylend, H. Berve və baş.) əsərlərinə istinad edərək, Atropat vəfat etdikdən sonra Atropatena dövlətinə onun Ayqobar və Mitrobat (lat. Aegobare və Mithrobaeus) adlı iki oğlunun - rəhbərlik etdiyini iddia edir [9, s. 66]. Müəllif həm də bir sıra antik dövr Azərbaycan toponimlərinə, həmçinin o dövrün onomastik nünunələrinə istinad edərək Atropatilərin pers (fars) olmadıqlarını göstərir. Məsələn, o, Ceyms Olbrixtin 2013-cü ildə yazdığı "Aleksandrdan sonra. Diadoxlar dövrü" (e.ə. 323-381) adlı əsərində Flavi Arriana (86-160) istinadlar edərək Atropatın Makedoniyalı İsgəndərin diadoxlarından biri olan, İsgəndrin ölümündən sonra regent elan edilən Perdikkaya (e.ə. 365-320) ərə verdiyi qızı ilə bağlı vacib ifadəni ("Atropatın qızı fars deyildi") [9, s. 69] xatırladır, bununla da dolayı yolla, həm Atropatın, həm də sonrakı Atropatilərin fars olmadığını təsdiq edir. H.Ə. Həsənov ərəbdilli müəllif Əd-Davadarinin əsərinə istinadlar edərək Artropatdan sonra Atropatenada siyasi hakimiyyətin həmişə irsi yolla - atadan oğula keçdiyini vurğulayır. Müəllif həm də qeyd edir ki, geosiyasi dəyişikliklərlə əlaqədar ayrı-ayrı tarixi epizodlarda Atropatena dövləti parfiyalılara tabe etdirilsə də, eramızın I əsrinin 30-cu illərinədək o, müstəqilliyini qoruyub saxlamışdır [9, s. 72]. Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirdikdə qarşımızda gərgin və dinamik hadisələrlə zəngin bir dövrün, qədim dünyanın hərbi-siyasi rəqiblərinin öz maraq dairəsi uğrunda qəti mübarizə apardığı bir dövrün mənzərəsi canlanır. Bu tarixin əsas aktorlarından biri də bugün də çox böyük maraq doğuran, alimləri və tədqiatçıları daim özünə cəlb edən Atropatena dövləti idi.

Roma-Parfiya münasibətlərinin Atropatenanın siyasi həyatına təsiri

E.ə. I əsrin sonu, e. I əsrinin əvvəllərindən Ön Asiyada və Cənubi Avropada öz maraq dairələri uğrunda kəskin mübarizə aparan Roma və Parfiya dövlətləri arasında münasibətlər daha da gərgin xarakter aldı. Belə bir şəraitdə Yaxın Şərqin vacib siyasi subyektlərindən biri hesab olunan Atropatena dövləti qeyri-adi şərtlər daxilində onun təhlükəsizliyinə zəmanət verə biləcək düzgün xarici siyasət həyata keçirməyə məcbur idi. Artıq qeyd edildiyi kimi, Atropatena hökmdarları dövlətin müstəqilliyini qoruyub saxlamaq naminə böyük güclərin hərbi-siyasi qarşıdurması fonunda (əvvəlcə selevki çarlığı ilə romalılar, sonra parfiyalılarla və romalılar arasında baş vermiş münaqişə) yaranan şəraitdən düzgün istifadə etməyə çalışırdı. Beləliklə, atropatenalılar Roma ilə Parfiya arasında baş verən hərbi münaqişədə bəzən Parfiyanı, digər hallarda isə Roma respublikasını müdafiə edirdi. Qeyd edək ki, Roma-Parfiya hərbi-siyasi qarşıdurması hələ eramızdan əvvəl II əsrdə başlanmış, e.ə. 53-cü ilin 9 may tarixində baş verən və Romanın məğlubiyyəti ilə başa çatan Karra (Türkiyənin Şanlıurfa əyalətində indiki Haran rayonu) döyüşündən sonra bir qədər səngimişdi [16, s. 44-45]. E.ə. 38-ci ildə baş vermiş Hindar döyüşündə isə Antoninin rəhbərlik etdiyi Roma legionları qələbə qazanmışdı. Hər iki döyüşdə atropatenalılar Parfiya çarlığının hərbi-siyasi müttəfiqi kimi çıxış etmişdilər. Lakin e.ə. 36-cı ildə Fraaspa şəhərinin mühasirəsi zamanı Mark Antoninin məğlubiyyəti və həmin dövrdə Roma respublikasında hakimiyyət uğrunda gedən mübarizənin kəskinləşməsi ilə bağlı Roma-Parfiya münaqişəsi qısa bir müddət səngimişdi. Bununla belə, tərəflər arasında hərbi toqquşmalar, kiçik fasilələrlə 224-cü ildə Parfiya Arşakilərinin Sasani

DOI:10.30546/gdu.5.2025

sülaləsi tərəfindən devrilməsinədək davam etmişdi. Sasani sülaləsinin İranda hakimiyyətə gəlməsindən sonra da bölgədə Romaya qarşı mübarizə davam etmişdi [17, s. 71].

Qədim dövlətlərin tarixinin öyrənilməsində antik yazılı qaynaqlarda rast gəlinən cədvəllərin, hüquqi sənədlərin və xəritələrin xüsusi rolu və əhəmiyyəti vardır. Lakin qədim xəritələrə istinad edilməsi zamanı bir sıra uyğunsuzluqların ortaya çıxması da təbiidir. Qeyd edək ki, eramızın V əsrinədək qədim dünyada mövcud olmuş dövlət və ölkələrin sərhədlərini indiki cizgilərdə, dəqiq təsvir edən xəritə olmamışdır. Eramızın I (Oktavian Avqustun hakimiyyəti dövrü) - V əsrləri arasındakı dövrdə hazırlandığı ehtimal olunan antik xəritə - "Peytinger cədvəli" və yaxud "Peytinger lövhəsi" (lat. Tabula Peutingeriana) isə yalnız sxematik cizgilərdə Qədim Roma şəhərinə aparan yolları və keçidləri, müxtəlif təyinatlı obyektləri, ayrı-ayrı yaşayış məntəqələrini və onların arasında olan məsafəni təsvir edirdi. Atropatena dövlətinə gəldikdə isə bütün antik mənbələrdə onun kifayət qədər nüfuzlu siyasi qurum olması haqqında məlumat verilir [14, s. 29]. Həmin mənbələr paytaxtı Qazaka şəhəri olan qədim Atropatenanın nisbətən dəqiq sərhədləri haqqında konkret fikir söyləməyə imkan verir. Atropatena dövlətinin geniş hüdudlarda təmsil olunması isə onun hərbi-siyasi qüdrətini, ona ayrı-ayrı vaxtlarda rəhbərlik etmiş hökmdarların siyasi iradəsinin gücünü, uzaqgörən və müdrik xarici siyasət yürütmələrini sübuta yetirir. Qeyd edək ki, Atropatena dövləti haqqında III yüzilliyə aid "Kəbeyi-Zərdüşt"ün (ŠKZ) divarları üzərində üç dildə həkk edilmiş Sasani mətnlərində də qiymətli məlumat verilir [7, s. 194-195]. Bütün bunlar Atropatenanın sıradan bir cografi məkan deyil, müəyyən hərbi-siyasi çəkisi, əlində, baş verən bütün hadisə və proseslərə təsir göstərmək mexanizmləri olan gerçək bir subyektin təsviri ifadəsidir.

Eramızdan əvvəl I əsrin ortalarından başlayaraq, Yaxın Şərqdə, Ön Asiyada və Roma respublikasının siyasi-mədəni arealına daxil olan çox böyük ərazilərdə siyasi, ideoloji və geostrateji baxımdan ciddi dəyişikliklər baş verdi. Bu, Romada respublika üsul-idarəsinin ləğvi və prinsipatlıq (lat. principatus - Senat iclasını açan 1-ci senator, Romada prinsipatlıq məzmun cəhətdən imperiya xarakteri daşısa da, respublika dövrü idarəçilik strukturları da ləğv edilməmişdi) rejiminin (e.ə. 27 - e. 284) yaradılması ilə bağlı idi. Məhz Oktavian Avqust (e.ə. 27-ci - e. 14-cü illərində Roma imperiyasının ilk prinsepsi) prinseps seçildikdən sonra Parfiya və Atropatena ilə əlaqədar daha aktiv xarici siyasət yürütməyə başladı. O, sözügedən ölkələrdə cərəyan edən sülalələrarası qovğalardan və hakimiyyət savaşlarından istifadə edərək Yaxın Şərq regionunda öz nüfuzunu gücləndirməyə qərar verdi. Bu barədə Oktavian Avqust hakimiyyətinin son dövründə yazdığı "İlahi Avqustun əməlləri" (lat. Res Gestae divi Auqust) adlı əsərdə məlumat vermişdir [2, s. 146]. Həmin dövrdə Parfiya dövlətinə Atropatena hökmdarı I Artabazd (e.ə. 56-31) ilə birlikdə Roma sərkərdəsi Mark Antoniyə qarşı mübarizə aparmış IV Fraat (e.ə. 37- e.ə. 2) və onun oğlu V Fraat (e.ə. 2 - e. 4) rəhbərlik edirdi. Məlum olduğu kimi bu dövrdə sözügedən hökmdarlar (IV Fraat və Oktavian Avqust) regionda cərəyan edən proseslərlə və ölkədaxili hadisələrlə əlaqədar yaranmış şəraitə uyğun addımlar atır, birgə qərarlar qəbul edir, kompromis müqavilələr imzalayırdılar. Qeyd edək ki, Roma-Parfiya hərbi-siyasi qarşıdurması Romada e.ə. 74-71-ci illərdə baş vermiş Spartak üsyanı dövründə gündəmə gəlmiş və e.ə. 71-ci ildə Roma senatı Parfiya və Atropatenaya Lutsi Lisini Lukullun (e.ə. 117-56, - plebey nəslindən Roma sərkərdəsi və e.ə. 74-cü ildə Roma konsulu) komandanlığı altında ordu göndərmişdi. Lakin atropatenalılar parfiyalılarla birlikdə Roma hərbi təcavüzünə layiqli müqavimət göstərmişdi. E.ə. 69-cu ildə Lutsi Lukullu Şərq yürüşündə Böyük Qney Pompey əvəz etdi. Bu zaman Roma Pont çarı (e.ə. 281-62-ci illərdə Kiçik Asiyanın qərbində qədim dövlət, Amasiya, Sinop və Perqam şəhərləri müxtəlif vaxtlarda paytaxtları olmuşdur) VI Mitridatla mübarizə aparırdı. Üçüncü və sonuncu Mitridat müharibəsi (e.ə. 74-63) ilə əlaqədar Böyük Pompey Parfiya ilə kompromis sülh müqaviləsi bağladı. Romada Birinci triumvirat (lat. triumviratus - "Üç kişinin ittifaqı", - e.ə. 59-53, -

DOI:10.30546/gdu.5.2025

Mark Lisini Krassın, Qay Yuli Sezarın və Böyük Qney Pompeyin Roma respublikasına müştərək rəhbərliyi) dövründə Parfiya ilə Roma arasında hərbi əməliyyatlar bərpa olundu. Bu zaman Birinci triumviratın əldə etdiyi yeni razılığa görə, Parfiya ilə Roma arasında nifaq obyekti saylan Suriya Mark Lisini Krassa verildi və o, e.ə. 55-ci ildə Parfiyaya qarşı yeni müharibəyə start verdi. E.ə. 54-53-cü illərdə o, Mesopotamiya şəhərlərini tutdu. Yerusəlim məbədini (Zarobabil məbədi – e.ə. 516 - e. 70) ələ keçirdi və qarət etdi. Yuxarıda qeyd olunduğu kimi e.ə. 9 may 53-cü il tarixində Karra (indiki Hərran) şəhəri yaxınlığında baş vermiş döyüşdə Mark Lisini Krassın oğlu Publi Krass həlak oldu, Mark Lisini Krass özü isə Parfiya sərkərdəsi Suren Mihranla danışıqlar apardığı zaman qətlə yetirildi. Bu hadisədən sonra Birinci triumvirat dağıldı və tezliklə keçmiş triumvirlər - Qay Yuli Sezarla Böyük Qney Pompey bir-birilərinin qatı düşmənlərinə çevrildilər. Bu isə e.ə. 49-cu ildə Romada yeni vətəndaş qarşıdurmasının (e.ə. 49-45) başlanmasına gətirib çıxartdı. Bununla da Poma-Parfiya münaqişəsi arxa plana keçdi. Yuli Sezarın (e.ə. 100-44) diktaturası dövründə (e.ə. 49-44) də Roma respublikasının Parfiya və Atropatena ilə münasibətləri sabit qaldı [19, s. 118]. İkinci Triumvirat (e.ə. 43-36, - Mark Antoni Kretik, Qay Oktavian Furin və Mark Emiliy Lepid) dövründə Roma ordusunun Parfiyaya və Atropatenaya hərbi yürüşlərinə start verildi. Bu dəfə yürüşlərə İkinci triumviratın üzvü - Qay Oktavian Avqustun bacısı Oktavia Minorun əri Mark Antoni Kretik (e.ə. 83-30) komandanlıq edirdi. Lakin sərkərdənin Parfiya və Atropatenaya yürüşləri uğursuzluqla başa çatdı. E.ə. 36-cı ildə Fraaspa (Atropatena) döyüşündə ağır məğlubiyyətindən sonra Mark Antoni yeni planlar qurmağa başladı. E.ə. I yüzilliyin 30-cu illərinin ortalarında "son Atropatilərin ən görkəmlisi sayılan I Artabazdın" [1, s. 253] dövründə Atropatenanın siyasi meyllərinin istiqaməti kəskin şəkildə dəyişdi və Romaya yönəldi. Bu zaman Roma imperatoru Oktavian Avqust da (e.ə. 27 - b.e.14) Atropatenaya münasibətdə daha liberal siyasət yürüdür, Artabazda müxtəlif şəkildə yardımlar edirdi. Lakin regionda baş verən hərbi-siyasi peoseslərin daha gərgin mərhələyə qədəm qoyması ilə əlaqədar I Artabazd daha ehtiyatlı xarici siyasətə üstünlük verirdi. Qeyd edək ki, o dövrdə hərbi-siyasi proseslərdə Armeniya hökmdarları da fəal iştirak edirdilər. Roma sərkərdəsi Mark Antoniyə gəldikdə isə o, Atropatenaya və Armeniyaya sahib olmaq niyyətindən hələ əl çəkməmişdi. Bu zaman Parfiya ilə Atropatena arasında yeni ixtilaflar baş qaldırdı. Belə ki, yaranmış şəraitdə Parfiya Atropatenanı özünə tabe etdirməyə can atırdı. Bu isə Atropatenanın Romaya meyl etməsinə gətirib çıxartdı və I Artabazd e.ə. 35-ci ildə Antoniyə sülh və dostluq təklif etdi. E.ə. 34-cü ildə isə o, Fraaspa ətrafında ələ keçirilmiş Roma bayraqlarını (lat. signa millitaria və ya aquila - "qartal" - Roma legionlarının döyüş bayraqları) Mark Antoniyə Kretikə qaytardı, üstəlik, qızı İotapanı Mark Antoninin oğlu və varisi Aleksandr Heliosa ərə verəcəyini bildirdi. Lakin e.ə. 32-ci ildə Mark Antoni ilə Qay Oktavian Avqust (e.ə. 44-cü ilə qədər Oktavi Furin, e.ə. 27-ci ildən isə Qay Oktavian Avqust) arasında vətəndaş müharibəsi başlandı. Mark Antoni və Kleopatra Aksium döyüşündə (e.ə. 31-ci il, 2 sentyabr) məğlub edildikdən sonra Qay Oktavianın əlinə keçməmək üçün İsgəndəriyyədə intihar etdilər. Mark Antoni Kretikin VII Kleopatra Filapatordan olan oğlu (Atropatena şahzadəsi İotapanın sözlüsü) Aleksandr Helios isə Misir çarlığı Roma legionları tərəfindən istila ediləbdə Atropatenada idi. Oktavianın əmrilə o da əsir götürülmüş və Romaya aparılmışdı. Bu şəraitdə I Artabazd o dövrdə (e.ə. I əsr) "Armeniya" adlanan ərazilərin bir qisminə də nəzarət etməyə başlamış və Romanın dəstəyilə həm parfiyalılara, həm də, armneniyalılara qarşı uğurlu mübarizə apara bilmişdi. Eyni zamanda mənbələr e.ə. 31-ci ildə I Artabazdın birləşmiş Parfiya-Armeniya hərbi qüvvələri tərəfindən məğlub edildiyini və əsir götürüldüyünü də qeyd edir. Bu hadisə isə Oktavian Avqustla Mark Antoni arasında baş verən qarşıdurmanın pik həddə çatdığı dövrdə, böyük ehtimalla Aksium döyüşü ərəfəsində baş vermişdi. Bununla belə, bəzi mənbələr I Artabazdın Aksium döyüşü ərəfəsində Mark Antoniyə yardım üçün hərbi dəstə göndərməsi

DOI:10.30546/gdu.5.2025

haqqında da məlumat verir. Böyük ehtimalla I Artabazd parfiyalılara əsir düşsə də bir yol tapıb əsirlikdən azad olmuş və mübarizəni davam etdirmişdi [1, s. 253]. Bundan sonra yaranmış vəziyyətlə (Aksium döyüşündə Oktavianın qələbəsi) əlaqədar I Artabazd artıq Roma respublikasının mütləq sahibinə (prinseps, imperator) çevrilən Avqustla yaxınlaşmış və onun dəstəyi ilə Atropatena və Armeniyada öz hakimiyyətini bərpa etmişdi. Roma imperatoru I Artabazda mərhəmət göstərərək, Mark Antoni ilə VII Kleopatranın oğlu Aleksandr Heliosa vəd edilən qızı İotapanı da ona təhvil vermişdi. E.ə. I əsin sonlarında Parfiya və Atropatenada artan siyasi gərginlik şəraitində Oktavian Avqust aktiv şəkildə proseslərə müdaxilə etməyə başladı. O, e.ə. 2-ci ildə I Artabazdın böyük oğlu Ariobarzanı (II Ariobarzan - e.ə. 20 - e. 4) Atropatena taxtında hökmdar kimi təsdiq etdi [14. s. 36]. Gənclik illərində bir müddət Romada yaşamış, romalıların həyat tərzini və Avropanın şəhər mədəniyyətini mənimsəmiş Ariobarzan Roma mədəni dəyərlərinə xüsusi qiymət verir və romalılara rəğbət bəsləyirdi. Roma hökmdarı Oktavian Avqust başda olmaqla qədim romalılar da, öz növbəsində II Ariobarzanı "öz adamları" hesab edir, Romanın Yaxın Şərqdə ən etibarlı istinadgahı kimi Atropatenaya güvənirdi. Bu zaman aşkar şəkildə parfiyalılara meyl edən armeniyalılar Oktavian Avqustun qəzəbinə tuş gəlmişdilər. Buna görə də o, Qay Yuli Sezar Vipsanianın (e.ə. 20 - e. 4 - Qay Oktavianın oğulluğa götürdüyü bacısı nəvəsi idi) komandanlığı altında Armeniyaya ordu göndərmişdi. Qısa müddət ərzində Armeniyanı özünə tabe etdirən Qay Vipsanian atasının əmri ilə bu ərazilərin idarəçiliyini də II Ariobarzana tapşırmışdı [1, s. 254, 255]. Bundan sonra e. I əsrinin 2-ci ilində Qay Yuli Sezar Vipsanian Fərat çayında yerləşən adada Parfiya hökmdarı IV Fraatla görüşmüş və orada tərəflər arasında sülh müqaviləsi imzalanmışdı. Həmin müqaviləyə əsasən, Armeniya iki imperiya arasında bufer zona elan edilmiş və həmin ərazilərin nəzarəti Atropatena çarlarına həvalə olunmuşdu. Buna görə, armeniyalılar üsyan qaldırmış və Qay Vipsaniana hücum edərək onu ağır yaralamışdılar. Vipsanian Romaya qayıtdıqdan sonra, e. 4-cü ilində Likiyada (indiki Antalya və Muqla) vəfat etmişdi [12, II, s. 101, 102]. Həmin il II Ariobarzan da dünyasını dəyişmiş, bununla da Romanın Atropatenada və Armeniyada möhkəmlənmək cəhdləri iflasa uğramışdı. Sözügedən ərazilər yenidən Parfiyanın təsiri altınadüşmüşdü. Bundan sonra, e.ə. 323-cü ildən Atropatenanı idarə edən Atropati sülaləsinin hakimiyyəti başa çatmış, ölkəyə rəhbərlik Arşakilər sülaləsinin kiçik qolunun əlinə keçmişdi [5, s. 53, 54]. Qeyd edək ki, Atropatenanı idarə edən Arşakilərin bəzi nümayəndələri (II Artaban, Pakor və b.) sonralar Parfiya hökmdarları olmuşdular. II Artabanın çarlığı isə qədim Atropatena tarixində daha önəmli dövr hesab olunur. II Artabanın (11-38) ata xəttilə Atropatilər sülaləsindən olması haqqında da bəzi mülahizələr var [13, s. 101].

Yulilər-Klavdilər sülaləsinindən olan ikinci Roma imperatoru Tiberinin (14-37) dövründə Atropatena Parfiya-Roma münasibətlərində, bir növ vasitəçi rolu oynayırdı. Lakin o dövrdə Romanın Atropatenaya təsiri daha kəskin xarakter almışdı [6, s. 20-21]. Roma imperatoru Klavdi Neronun (54-68) dövründə isə Roma ordusu Parfiyaya qarşı müharibəyə hazırlaşmışdı. 57-ci ildə Roma ordusunun Şərqə hərbi yürüşünə də start verilmişdi. Lakin Romanın daxili siyasi həyatında baş verən proseslərlə bağlı hərbi əməliyyatlar tam dayandırılmış və 66-cı ildə tərəflər arasında sülh müqaviləsi bağlanmışdı. Beləliklə, Roma-Parfiya qarşıdurmasında uzun müddət üçün paritet əldə olunmuş və tərəflər arasınada aktiv hərbi əməliyyatlar 1 əsr sonra Roma imperatoru Trayanın (Mark Trayan - 53-117, 98-117-ci illərdə "Antoninlər" sülaləsindən Roma imperatoru) dövründə bərpa olunmuşdu. Trayanın Parfiya yürüşü - 114-117-ci illərdə olmuş, imperatorun xəstələnməsi və ölümü ilə bağlı başa çatmışdı [10, S. 183-202].

Antik müəlliflərin Atropatena haqqında sonrakı məlumatları alanların hücumları ilə bağlıdır. Eramızın I əsrinin 70-ci illərində alanların Albaniyaya və Atropatenaya yürüşləri

DOI:10.30546/gdu.5.2025

dövründə Atropatenanı Parfiya hökmdarı I Vologezin qardaşı Pakor idarə edirdi. Eramızın 72-74-cü illəri arasında isə alanlar Xəzər dənizi sahillərində yerləşən əyalətlərə, o cümlədən Atropatenaya basqın etmişdilər. Onlar bu vaxt Azov dənizi ilə Xəzər dənizi arasında geniş ərazidə yaşayırdı. Arşakilərin nəslindən olan Atropatena çarı Pakor da alanların hücumlarının qarşısını ala bilməmişdi. Parfiya çarı Vologez (Balaş) əlacsız qalıb bu böyük təhlükənin qarşısını almaq üçün parfiyalılara düşmən olan Romaya müraciət etmişdi. Parfiya çarının müraciətinin romalılar tərəfindən rədd edilməsinə baxmayaraq, romalılar və parfiyalılar uzun müddət sülh və əmin-amanlıq şəraitində yaşamışdılar. Bütün bunlar Tit Flavi Vespasianın (69-79) dövründə Roma imperiyasının I Yəhudi müharibəsi (66-73) apraması ilə bağlı idi.

Qeyd edək ki, eramızın I yüzilliyində Atropatenanın siyasi vəziyyəti haqqında məlumatlar çox azdır [15, s. 136]. Bəzi ehtimallara görə, 213-223-cü illərdə Parfiya çarları arasında hakimiyyət uğrnda qarşıdurmalar zamanı Atropatena yenidən siyasi müstəqilliyini bərpa etmişdi. 224-cü ildə Sasanilər Parfiya Arşakilərini taxtdan saldı və İranda öz hakimiyyətini bərqərar etdi. Tarixşünaslıqda hakim olan bir mülahizəyə görə, Sasanilər 227-ci ildə Atropatenanı da öz dövlətlərinin tərkibinə daxil etmişdilər. Bununla belə, bəzi ehtimallara əsasən, bu zaman Azərbaycanda olan Arşaki hakimi Artabaz (sonuncu Parfiya çarı V Orduvanın oğlu və varisi idi) Sasanilərə tabe olmadı və hakimiyyətini ən azı 230-cu ilə qədər qoruyub saxlaya bildi [10, s. 125]. Bu faktı hökmdarın adından kəsilmiş gümüş pullar da sübuta yetirir. Bəzi məlumatlara görə, Atropatena müstəqilliyini 241-ci ilə qədər qoruyub saxlaya bilmiş, yalnız Sasani çarı I Şapurun (241-272) hakimiyyəti dövründə Sasanilərə tabe etdirilmişdi [11, s, 294]. Atropatena müstəqilliyini itirməsinə baxmayaraq, Sasanilər dövlətinin dini və ideoloji mərkəzi kimi mövqeyini uzun müddət qoruyub saxlamışdı. Beləliklə, Azərbaycanın cənub hissəsi üç əsrdən çox Sasanilər dövlətinin tərkibində qalmışdır. Sasani dövrü mənbələrində, o cümlədən Sasani çarı I Şapurun əmri ilə 262-ci ildə üç dildə qayalara həkk edilmiş Nəqşi-Rüstəm yazılarında ölkə Atropatena deyil, Adurbayğan və yaxud Adərbayğan kimi təqdim olunmuşdur [7, s. 194].

Nəticə

Göründüyü kimi, beş əsrdən artıq müddət ərzində son dərəcə çətin və mürəkkəb şəraitdə azadlığını və istiqlaliyyətini qorumağa çalışan atropatenalılar qədim dünya tarixində silinməz iz qoymuşlar. Atropatena qədim dünyanın fövqəldövlətləri sırasına daxil olmasa da Atropatdan başlayaraq [18, s. 116], hökmdarların həyata keçirdikləri dəqiq, düşünülmüş və balanslaşdırılmış xarici siyasət sayəsində uzun müddət ayaqda qalmağı, hərbi-siyasi proseslrin fəal aktorlarından biri kimi çıxış etməyi bacarmışdır. Lakin e.ə. I əsrin sonunda və e. I əsrinin əvvəlində Roma respublikasında prinsipatlıq rejiminin bərqərar edilməsi ilə əlaqədar həmin dövrün qüdrətli dövlətləri olan Roma ilə Parfiya arasında maraq dairələri uğrunda qarşıdurmalar növbəti mərhələyə qədəm qoydu və gərginlik xeyli artdı. Məqalənin mətnində təqdim olunan bir çox məqamlar da, məhz bu dövrdə Atropatena çarlarının yaranmış beynəlxalq situasiya ilə əlaqədar xarici siyasətdə mütəmadi dəyişiklikər etmələrinə aydınlıq gətirir. Onu da qeyd edək ki, o dövrdə Atropatenanın sərhədləri Starbonun qeyd etdiyi hüdudlardan daha geniş idi [3, s. 7]. Məhz e.ə. I əsrdə və e. I əsrində Roma respublikası və Parfiya imperiyası arasında baş verən hərbi qarşıdurmalarla bağlı bir çox müstəqil çarlıqlar fəaliyyətini dayandırmağa məcbur olmuşdular. Belə gərgin tarixi şəraitdə Atropatenanın ayaqda qalması və uzun müddət sverenliyini qoruması isə daha dərin elmi təhlillər tələb edən diqqətəlayiq haldır.

DOI:10.30546/gdu.5.2025

Ədəbiyyat

Azərbaycan dilində

1. Azərbaycan tarixi. Yeddi cilddə. I cild. (ən qədimdən b.e. III əsri). Bakı. "Elm" nəşriyyatı - 2007, 520 s.
2. Azərbaycanın qədim tarixinə dair yazılı mənbələr. Muntəxəbat. Bakı; Turxan NPB, 2014, 204 s.
3. Nəcəfoava İ.M. (2006). "Starbon Midiya və Atropatena haqqında". AMEA Tarix İnstitu tu. "Elmi əsərlər", 23-cü cild, S. 7
4. Səfərova İ.X. Flavi Arrian Atropat haqqında / Atropatena Azərbaycan tarixçilərinin tədqiqatlarında (məqalələr toplusu). Bakı, "Nəşriyyat" şöbəsi, 2024. - S. 23-27.

Rus dilində

5. Алиев И. Г. (1989). Очерк истории Атропатены. Баку: Азернешр, 160 с.
6. Алиев К. Г. (1987). Античные источники по истории Азербайджана, Элм, 132 с.
7. Аликберов А. К., Мудрак О.А. (2020). Арран и сопредельные страны в парфянском тексте трехъязычной надписи III в. на скале Ка'ба-йи Зардушт (ŠKZ) / Вопросы ономастики, Т.17 № 1
8. Арриан. Поход Александра / перевод с древнегреческого М.Е. Сергеенко. Ответств. ред. д. и. н. О.О. Крюгер. - Москва. МИФ. 1993, 384 с.
9. Гасанов, Г.А. (2017). Александр Македонский и Атропат. О возрождении страны под названием Атарпатена Азербайджан. 331-321 гг. до н.э. Москва, Вече, 304 с.
10. Дибвойз Н. (2008) Политическая история Парфии. СПб, Издательство СПбГУ, 816с.
11. Мишин Д. Е. (2014). Хосров I Ануширван (531-579), его эпоха и его жизнеописание и поучение в истории Мискавейх. - Москва, ИВ РАН, 696 с.
12. Патеркул В. (1985). «Римская история» / А.И. Немировский, М.Ф. Дашкова- Воронеж: Изд. Воронежского университета, Т II, 211 с.
13. Сафарова И.Х. (2023). По поводу происхождения Парфянского царя Артабана // Азербайджанская историография. Научные труды. Т 84, №1

İngilis dilində

14. Bunson M. (1994). Encyclopedia of the Roman Empire. - Facts on File,1994, - 512 з.
15. Considine, John P. Dictionaries in early modern Europe: lexicography and the making of heritage. - Cambridge University Pres, 2008, 393 p.
16. De Ruggiero, Paolo Mark Antony (2014). A Plain Blunt Man. Barnsley: Pen and Sword.
17. Dignas B., Winter E. Rome and Persia in late antiquitiy: neighbours and rivals. - Cambridge University Press, 2007, 347 p.
18. Heckel W. (2021). Whos Who in the Age of Alexander and his Suuccessors. From Chaironea to Ipsos (338-301 BC). - Barnsley: Greenhill Books, 554 p.
19. Kamm A. (2006). Julius Caesar: A Life. - London; New York: Routledge, 172 p.
20. Planhol Xavier de. (1987). Azerbaijani. Geography//Iranica. /7, 1987,Vol.III. Fascicle 2-3.

АТРОПАТЕНА И ВОЕННО-ПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ В ПЕРЕДНЕЙ АЗИИ В I ВЕКЕ ДО Н.Э. - I ВЕКЕ Н.Э.

Алмамедов Ясин Атраф оглы

Резюме

В современный период интерес к изучению древней истории нашей страны еще более возрос. В данной статье, также представлены результаты исследования одной из важнейших периодов истории Азербайджана - история Атропатены. В статье четко и

DOI:10.30546/gdu.5.2025

последовательно прослеживается устойчивое влияние процессов, происходящих в Передней Азии в исторический период с I века до н.э. - по I век н.э., богатый волнениями, когда войны и конфликты, экспансия, захват и насилие являлись адекватным содержанием тогдашней жизни человека. В данной статье, раскрывается характер и содержание внутренней и внешней политики правителей, возглавляющие Атропатену в I веке до н.э. – I веке н.э. - в период противостояния между Римом и Парфией. Внутриполитическая жизнь Атропатены и ее внешняя политика представляется и анализируется в контексте политических изменений, происходящих в Передней Азии, определяются основные цели и направления, а таккже главные итоги проведенной им международной политики.

ATROPATENA AND MILITARY-POLITICAL PROCESSES IN WESTERN ASIA IN THE 1ST CENTURY BC - 1ST CENTURY AD

Almamedov Yasin Atraf

Summary

In the modern period, interest in studying the ancient history of our country has increased even more. This article also presents the results of the study of one of the most important periods in the history of Azerbaijan - the history of Atropatena. The article clearly and consistently traces the stable influence of the processes occurring in Western Asia in the historical period from the 1st century BC to the 1st century AD, rich in unrest, when wars and conflicts, expansion, conquest and violence were an adequate content of human life at that time. This article reveals the nature and content of the domestic and foreign policies of the rulers who headed Atropatene in the 1st century BC – 1st century AD – during the period of confrontation between Rome and Parthia. The internal political life of Atropatena and its foreign policy are presented and analyzed in the context of the political changes taking place in Western Asia, the main goals and directions are determined, as well as the main results of the international policy it carried out.

Daxil olma tarixi 18 sentyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 14-34

DOI:10.30546/gdu.5.2025

UOT:94.

TÜRKİYƏ VƏ AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI: 1923-1932-Cİ İLLƏRDƏ İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN QURULMASI

İsmayılov İsmayıl Akif oğlu
Tarix üzrə fəlsəfə doktoru, dosent (attestatsız)
Gəncə Dövlət Universiteti
ismayilov81@mail.ru | ismayil.ismayilov@gdu.edu.az

Xülasə: *Bu məqalə 1923-1932-ci illər arasında Türkiyə Cümhuriyyəti ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin formalaşması prosesini araşdırır. Türkiyənin müstəqilliyini əldə etdiyi və yeni xarici siyasət strategiyalarını müəyyənləşdirdiyi bu dövrdə, ABŞ ilə diplomatik və iqtisadi əlaqələrin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Məqalədə, Atatürkün xarici siyasət prinsiplərinin ABŞ ilə münasibətlərə təsiri, həmçinin iki ölkə arasında ticarət və diplomatik əlaqələrin qarşılaşdığı çətinliklər və nailiyyətlər təhlil olunur. Eyni zamanda, dövrün beynəlxalq siyasi mühitinin və ABŞ-ın qlobal siyasətinin Türkiyə-ABŞ əlaqələrinə təsirləri qiymətləndirilir. Tədqiqat, erkən mərhələdə formalaşan bu münasibətlərin gələcəkdəki strateji əməkdaşlıq üçün zəmin yaratdığını vurğulayır.*

Açar sözlər: Türkiyə-ABŞ münasibətləri, ikitərəfli əlaqələr, Atatürkün xarici siyasəti, diplomatik əlaqələr, iqtisadi əməkdaşlıq, 1923-1932-ci illər, beynəlxalq siyasət

Keywords: Turkey-U.S. relations, bilateral relations, Atatürk's foreign policy, diplomatic relations, economic cooperation,1923-1932, international politics

Ключевые слова: Турецко-американские отношения, двусторонние связи, внешняя политика Ататюрка, дипломатические отношения, экономическое сотрудничество, 1923-1932 годы, международная политика

GİRİŞ

Birinci Dünya Müharibəsindən sonra Osmanlı İmperiyasının süqutu ilə yaranan siyasi boşluq və beynəlxalq müstəvidə güc mübarizəsi fonunda Türkiyə Respublikası milli müstəqilliyini qorumaq və ərazi bütövlüyünü təmin etmək məqsədilə xarici siyasətini yenidən formalaşdırdı. Mustafa Kamal Atatürkün liderliyi altında qurulan yeni dövlət, beynəlxalq tanınma və iqtisadi inkişaf üçün xarici əlaqələrin qurulmasına xüsusi önəm verdi. Bu prosesdə Amerika Birləşmiş Ştatları ilə münasibətlər önəmli yer tutdu.

1923-cü ildə Türkiyə Respublikasının rəsmi şəkildə elan edilməsindən sonra ABŞ, yeni yaranan bu dövləti suveren və müstəqil bir ölkə kimi tanıdı və ikitərəfli əlaqələrin inkişafı üçün zəmin yaratmağa başladı. ABŞ-ın Türkiyəyə olan marağı həm siyasi, həm də iqtisadi sahədə qarşılıqlı fayda təmin etməyə yönəlmişdi. Bu illərdə Türkiyə ilə ABŞ arasında diplomatik nümayəndəliklər quruldu, ticarət əlaqələri genişləndi və iqtisadi əməkdaşlıq təşəbbüsləri ortaya çıxdı. ABŞ Türkiyəyə investisiyalar və texnoloji dəstək göstərməklə ölkənin modernləşmə prosesinə dolayısı ilə töhfə vermək istəyirdi.

Atatürkün xarici siyasətində önəmli yer tutan "Yurtda sülh, dünyada sülh" prinsipi, iki ölkə arasında münasibətlərin dostluq və əməkdaşlıq mühitində inkişaf etməsinə əsas oldu. Eyni zamanda, 1923-cü ildə imzalanan Lozanna Sülh Müqaviləsi ilə Türkiyənin yeni beynəlxalq statusu təsbit olundu və ABŞ ilə münasibətlərdə bu müqavilənin təmin etdiyi status-kvo qorundu. Bu, Türkiyənin suverenliyinə və ərazi bütövlüyünə qarşı hörmətin bir göstəricisi idi.

DOI:10.30546/gdu.5.2025

1923-1932-ci illər ərzində ABŞ və Türkiyə arasında iqtisadi əlaqələr tədricən dərinləşdi. Ticarət dövriyyəsinin artırılması, xüsusilə kənd təsərrüfatı məhsulları və sənaye malları sahəsində qarşılıqlı maraqlar əsas rol oynadı. Eyni zamanda, ABŞ-ın təklif etdiyi təhsil, texniki və iqtisadi yardım proqramları Türkiyənin modernləşmə hədəfləri ilə üst-üstə düşürdü. Bu əməkdaşlıq Türkiyənin həm daxili iqtisadi inkişafına, həm də beynəlxalq ticarətdə rəqabət qabiliyyətinin artırılmasına dəstək verdi.

Tədqiqatın məqsədi: Bu tədqiqatın məqsədi 1923-1932-ci illər arasında Türkiyə və Amerika Birləşmiş Ştatları arasındakı siyasi, iqtisadi və diplomatik münasibətlərin əsas xüsusiyyətlərini araşdırmaq və bu dövrdə qurulan əlaqələrin iki ölkənin xarici siyasətində oynadığı rolu müəyyən etməkdir.

Tədqiqatın vəzifələri: Bu tədqiqatın əsas vəzifəsi 1923-1932-ci illərdə Türkiyə və ABŞ arasında münasibətlərin formalaşma prosesini tarixi kontekstdə araşdırmaq və bu münasibətlərin hüquqi, siyasi və iqtisadi əsaslarını təhlil etməkdir. Atatürkün "yurdda sülh, dünyada sülh" prinsipinə əsaslanan xarici siyasət anlayışının bu münasibətlərə necə istiqamət verdiyi qiymətləndirilmişdir. Eyni zamanda, diplomatik və iqtisadi əlaqələrin inkişaf dinamikası və konkret əməkdaşlıq təşəbbüsləri müəyyənləşdirilmişdir. Tədqiqat həmçinin həmin dövrün beynəlxalq siyasi şəraitini, xüsusilə ABŞ-ın qitədənkənar siyasətini və Türkiyənin yeni mövqeyini nəzərə alaraq ikitərəfli münasibətlərin qarşılıqlı təsir mexanizmlərini təhlil etmişdir. Beləliklə, erkən dövrdə Türkiyə-ABŞ münasibətlərinin formalaşmasına təsir edən daxili və xarici amillər kompleks şəkildə qiymətləndirilmişdir.

Metodoloji əsaslar: Tədqiqatda əsasən tarixi sənədlər və arxiv materialları təhlil edilmiş, həmçinin dövrün mətbuatı və rəsmi hesabatlar əsasında keyfiyyətcə yanaşma tətbiq olunmuşdur. Müxtəlif mənbələrdən toplanan məlumatlar sistemli şəkildə analiz edilərək mövzunun ümumi mənzərəsi yaradılmışdır.

1. Atatürk dövründə xarici siyasətin əsas prinsipləri.

Mustafa Kamal Paşa Atatürk tərəfindən formalaşdırılan xarici siyasət, Türkiyənin milli müstəqilliyinə və ərazi bütövlüyünə hörmətin qorunmasını əsas prinsip kimi qəbul etmişdir. Atatürk bu prinsipi beynəlxalq münasibətlərdə dəyişməz bir xətt olaraq xarici dövlətlərə qarşı ardıcıl şəkildə irəli sürmüşdür. O, dövlətlərin bir-birinin daxili işlərinə qarışmaması və beynəlxalq münasibətlərdə bərabərlik hüququnun qorunması məsələsində qətiyyətli mövqe nümayiş etdirmiş, bu yanaşmanın sülh və qarşılıqlı hörmətə əsaslanan bir beynəlxalq sistemin bünövrəsi olduğunu vurğulamışdır [1, s. 45].

Atatürk dövrünün xarici siyasətində iki əsas istiqamət xüsusi əhəmiyyət daşıyırdı. Birinci istiqamət, Atatürkün “Yurdda sülh, cahanda sülh” (“Yurtda sülh, dünyada sülh”) prinsipidir. Bu prinsip ölkə daxilində sabitliyin təmin olunmasını və xarici siyasətdə qarşılıqlı anlaşma və dinc münasibətlərin qorunmasını əsas götürürdü. Bu yanaşma, Türkiyənin müharibədən yeni çıxmış bir ölkə olaraq beynəlxalq münasibətlərdə sabit və müstəqil mövqe tutmasını təmin etməyə xidmət edirdi [1, s. 46].

1920-ci illərin sonlarında ABŞ-ın Ankara səfirliyi tərəfindən Vaşinqtona göndərilən hesabatlarda da Türkiyənin xarici siyasətində sabitlik, neytrallıq və beynəlxalq hüquqa hörmətin ön planda olduğu qeyd edilmişdir. Bu sənədlərdə Atatürkün beynəlxalq münasibətlərdə sülh və dostluq siyasəti izlədiyi vurğulanmışdır [3, s. 800].

İkinci əsas istiqamət isə 1923-cü ildə imzalanan Lozanna Sülh Müqaviləsi ilə müəyyən olunmuş siyasi status-kvonun qorunması məqsədinə xidmət edən siyasətdir. Bu müqavilə Türkiyə Respublikasının beynəlxalq hüquq subyekti kimi tanınmasını və onun ərazi bütövlüyünün qəbulunu təmin etmişdir. Atatürkün xarici siyasətində Lozanna Müqaviləsi yalnız bir sülh razılaşması deyil, həm də Türkiyənin beynəlxalq münasibətlərdə suveren və

DOI:10.30546/gdu.5.2025

bərabərhüquqlu bir aktor kimi mövqeyinin təməl hüquqi və siyasi sənədi kimi qorunurdu [2, s. 51].

Mustafa Kamal Atatürk dövrü olaraq tanınan 1923-1938-ci illər, Türkiyə Cümhuriyyətinin xarici siyasət tarixində həm zaman baxımından, həm də məzmun baxımından iki əsas mərhələyə bölünə biləcək ardıcıl və məntiqli bir dövr təşkil edir. Bu dövr, Türkiyənin müstəqilliyini təmin etdikdən sonra beynəlxalq arenada öz yerini müəyyənləşdirmə və qoruma strategiyasını əks etdirir. Beləliklə, xarici siyasətin inkişafını daha yaxşı başa düşmək üçün 1923-1938-ci illər iki ayrı, lakin bir-biri ilə əlaqəli mərhələyə bölünür.

Birinci mərhələ (1923-1932) Türkiyənin yeni formalaşan dövlət kimi milli xarici siyasətin əsas prinsiplərinə uyğun olaraq fəaliyyət göstərdiyi dövrdür. Bu illərdə Türkiyə, 1923-cü ildə imzalanan Lozanna müqaviləsi ilə müəyyən edilən siyasi status-kvonun qorunması, habelə müqavilənin həll etmədiyi məsələlərin və yeni ortaya çıxan problemlərin sülhsevər, lakin fəal xarici siyasət vasitəsilə həllinə yönəlmişdir. Bu mərhələ, həmçinin Türkiyənin milli maraqlarını qorumağa və beynəlxalq arenada mövqeyini möhkəmləndirməyə çalışdığı dövrdür. Dövrün Türkiyə və ABŞ arxiv sənədləri göstərir ki, Atatürkün xarici siyasəti, əsasən, qarşılıqlı hörmət və bərabərhüquqlu əlaqələrə əsaslanırdı; ABŞ diplomatları da Türkiyənin bu dövrdə neytrallıq siyasətini və regional sabitliyi prioritet saydığını qeyd etmişdir [1, s. 102; 3, s. 763].

İkinci mərhələ (1932-1938) isə daha mürəkkəb beynəlxalq mühitdə Türkiyənin regional və qlobal sülhə töhfə verdiyi, həmçinin ikitərəfli və çoxtərəfli beynəlxalq münasibətlərdə fəal rol oynadığı dövrdür. Bu mərhələdə Türkiyə, Lozanna müqaviləsindən qaynaqlanan qalan məsələləri əsasən həll etmiş və xarici siyasətini yalnız milli maraqlara deyil, həm də beynəlxalq əməkdaşlıq və sülhün qorunmasına yönəltmişdir. ABŞ arxivləri bu dövrdə Türkiyənin beynəlxalq təşkilatlara üzvlüyü və sülhə xidmət edən diplomatik fəaliyyətlərinin ABŞ tərəfindən diqqətlə izlənildiyini göstərir [2, s. 218; 4, s. 1250]. Bu isə Türkiyənin sülhsevər xarici siyasət strategiyasının beynəlxalq səviyyədə tanınmasına səbəb olmuşdur.

Lakin, qeyd etməliyik ki, Mustafa Kamal Atatürk, hələ Anadoluda Milli Mübarizə apararkən, İstanbul hökumətindən fərqli olaraq həm daxili, həm də xarici siyasətdə milli maraqlara əsaslanan müstəqil bir yol tutmuşdu. Bu, yeni formalaşan Türkiyə dövləti üçün də, həyati əhəmiyyət kəsb edirdi. Çünki bölgədə güc balansı pozulmuş, imperialist dövlətlər arasında sərt rəqabət hökm sürürdü. Xüsusilə İngiltərə, Osmanlı imperiyasının dağılmasından sonra yeni yaranan Türkiyə üzərində təsirini saxlamaq üçün siyasi və diplomatik təzyiqlərini davam etdirirdi. İngiltərə 1923-cü ildə imzalanan Lozanna Sülh Müqaviləsini böyük istəksizliklə qəbul etmiş, bu sənədi imperiyanın maraqlarına zidd bir məğlubiyyət kimi qiymətləndirmişdi. İngiltərə müttəfiqlərini günahlandırsalar da, əslində böyük geosiyasi məğlubiyyətlə üzləşmişdi və diplomatik vasitələrlə Türkiyənin mövqeyini zəiflətmək istəmişdi [5, s. 134-138].

Atatürk milli suverenliyin qorunmasını əsas prinsip kimi qəbul edərək, beynəlxalq hüququn bərabərhüquqlu prinsiplərinə sadiq qalmışdır. O, dövlətlərin daxili işlərinə qarışmamaq və sülhü təmin etmək strategiyasını seçmiş, bununla da Türkiyənin regional və beynəlxalq səviyyədə sabit və etibarlı bir aktor kimi tanınmasına nail olmuşdur [6, s. 70-80].

Bu dövrdə ABŞ da Türkiyənin müstəqil xarici siyasətinə diqqətlə yanaşırdı. ABŞ diplomatik arxivlərindəki materiallar göstərir ki, Vaşinqton Türkiyənin regional sülh və stabilliyə verdiyi töhfələri müsbət qiymətləndirir və İngiltərənin Türkiyəyə qarşı təsir cəhdlərini izləyirdi. ABŞ üçün Türkiyə strateji əhəmiyyət kəsb edən körpü ölkə idi və buna görə də, Atatürkün müstəqil siyasətini dəstəkləyərək ikitərəfli münasibətləri inkişaf etdirməyə başladı [7, s. 523-526].

DOI:10.30546/gdu.5.2025

Digər tərəfdən, Sovet İttifaqı da Türkiyə ilə münasibətlərində balans siyasəti aparırdı. Sovetlər, Osmanlı imperiyasının dağılmasından sonra bölgədə nüfuz qazanmaq istəyir və Türkiyə ilə diplomatik əlaqələri önəmli sayırdı. Atatürkün "Yurdda sülh, cihanda sülh" şüarı Sovetlər üçün də maraqlı idi, çünki onlar regionda gərginliyin azalmasını istəyirdilər. 1921-ci ildə imzalanan Moskva və Kars müqavilələri iki ölkə arasında sərhədləri müəyyənləşdirərək qarşılıqlı təhlükəsizlik zəmanəti verdi. Bu müqavilələr Atatürkün Sovet İttifaqı ilə sülh və əməkdaşlıq siyasətinin təzahürü idi [8, s. 45-50; 9, s. 22-40].

Sovet İttifaqı dövrün xarici siyasətində Türkiyəyə qarşı təzyiq vasitəsindən çox, strateji tərəfdaşlıq kimi yanaşırdı. Bu, Qərb imperializminə qarşı ortaq maraqların mövcud olduğu şəraitdə xüsusilə önəmli idi. Lakin Sovetlər də Türkiyənin müstəqil və milli siyasətini tanımaqla yanaşı, öz geosiyasi maraqlarını qoruyurdu [10, s. 110-115].

Beləliklə, Atatürkün xarici siyasət strategiyası yalnız İngiltərə və digər imperialist güclərin təzyiqlərinə qarşı dayanmaqla kifayətlənmədi, həm də ABŞ və Sovet İttifaqı ilə mürəkkəb, balanslaşdırılmış münasibətlər qurmağa imkan verdi. Bu diplomatik manevrlər Türkiyənin beynəlxalq arenada mövqeyini gücləndirdi və müstəqil xarici siyasət yolunun davamlılığını təmin etdi.

İngiltərə, 1923-cü ildə Lozanna Sülh Müqaviləsinin imzalanmasından sonra Türkiyənin beynəlxalq arenada artan nüfuzundan ciddi narahatlıq hiss edirdi. Bu narahatlıq əsasən, Türkiyənin müstəqil və aktiv xarici siyasət yürütməsi, yeni qurulan respublikanın regional və qlobal səviyyədə öz mövqeyini gücləndirməsi ilə bağlı idi. İngilis hökuməti, xüsusilə Osmanlı İmperiyasının çöküşündən sonra itirdiyi strateji mövqeləri geri qaytarmaq və Türkiyəni öz təsir dairəsində saxlamaq üçün müxtəlif vasitələrə əl atmışdır. Bu çərçivədə, İngiltərə diplomatiyası Türkiyənin xarici əlaqələrini nəzarətdə saxlamaq və onun qərarvermə prosesinə təsir etmək məqsədilə diplomatik təzyiqlərdən istifadə etmiş, həmçinin yerli və beynəlxalq mediada Türkiyənin xarici siyasətini zəiflətmək üçün təbliğat aparmışdır [5, s. 18-38].

Bununla belə, Türkiyə, Qazi Mustafa Kamal Atatürkün rəhbərliyi altında, Lozanna müqaviləsinin verdiyi hüquqi əsaslardan və milli suverenlik prinsiplərindən möhkəm yapışaraq, xarici siyasətini suverenlik və müstəqillik çərçivəsində qurmağa davam etmişdir. ABŞ arxivlərindəki materiallara əsasən deyə bilərik ki, Vaşinqton Türkiyənin bu müstəqil xarici siyasət yanaşmasını diqqətlə izləyir və Türkiyənin regional stabillikdə oynadığı rolu yüksək qiymətləndirirdi. Amerika diplomatları, xüsusilə 1920-1930-cu illərdə Türkiyə ilə ikitərəfli əlaqələri inkişaf etdirmək üçün səy göstərir, eyni zamanda İngiltərənin Türkiyəyə təsir etmə cəhdlərini diqqətlə müşahidə edirdi [7, s. 425-430].

Bu dövrdə ABŞ, Türkiyənin Qərb dünyası ilə əlaqələrinin genişlənməsində və beynəlxalq təşkilatlara inteqrasiyasında mühüm dəstək verirdi. ABŞ-ın bu siyasəti, həm Sovet İttifaqının regiondakı təsirini balanslaşdırmaq, həm də Türkiyəni mümkün strateji tərəfdaş kimi qorumaq məqsədini güdürdü. Eyni zamanda, İngiltərə ilə ABŞ arasında Türkiyənin gələcəyi və xarici siyasət istiqamətləri barədə diplomatik rəqabət müşahidə olunurdu [9, s. 310-320].

1991-ci ildə İraq prezidenti Səddam Hüseyn ABŞ-ın müttəfiqi olan Küveytə müdaxilə etdi. ABŞ və onun müttəfiqləri bu təhlükəni məhv etmək üçün ABŞ ordusunun generalı Norman Şvartskopfun başçılığı altında "Səhrada Fırtına" şərti adı altında hərbi əməliyyatını həyata keçirdi. Sovet İttifaqının dağılması ABŞ-ı yeganə super güc dövlətinə çevirdi. Artıq onun qarşısında maneə yox idi.1993-cü ildə prezident Bill Klintonun vasitəçiliyi ilə İsraillə Fələstin arasinda Qəzza-Əriha sazişi (Yol xəritəsi) sazişi imzalandı. Sazişə görə Fələstin muxtariyyəti yaradildı. 2001-ci il 11 sentyabr hadisələri nəticəsində ABŞ 2003-cü ilin martında İraqa müdaxilə təşkil etdi. Səddam Hüseyn rejimi devrildi və ABŞ-a meylli qüvvələr hakimiyyətə gəldi. 2004-cü ilin noyabrında FAT-ın sədri Yasir Ərəfatın vəfatı Fələstin hərəkatında daxili çaxnaşmaları büruzə verdi və qruplaşma nəticəsində bir neçə hərəkatlar yarandı,hansı ki, bunlar da ayrı-ayrı dövlətləri özlərinə müttəfiq seçdilər. 2006-cı ildə Yaxın Şərqdə yenidən müharibə alovlandı . ABŞ-ın birbaşa dəstəyi ilə İsrail Livana qarşı hərbi əməliyyatlara başladı. Arqument kimi radikal Hizbullah təşkilatının İsrailə raket zərbələri endirməsi göstərilirdi. Bu susqun həmrəyliyin içərisində yenə əvvəlkindən Vaşinqton səsi daha çox eşidilir. ABŞ humanitar fəlakət və beynəlxalq normaların pozulması hesabına olsa belə öz müttəfiqinin, yəni İsrailin özünümüdafiə hüququna dəstək verdi.

2006-cı il avqustun 15-də BMT Təhlükəsizlik Şurası bağlı qapılar arxasında növbədənkənar toplantı keçirdi və hərbi əməliyyatların dayandırılması üçün çox səylər göstərmiş oldusa da, lakin qətnamə ABŞ tərəfindən qəbul olunmadı. ABŞ Prezidenti Corc Buş-oğul öz növbəsində bildirdi ki, regionda baş verən hadisələrdə günahkar Hizbullah qruplaşması və onun arxasında dayanan Suriyadır. Atəşin dayandırılmasını "vaxtsız" addım hesab edən ABŞ hamını atəşkəs üçün şəraitin yaradılmasına, yəni İsrailin şərtlərinin qəbuluna çağırdı. ABŞ-dan fərqli olaraq Avropa Birliyi atəşin dayandırılmasına çağırdı. 2006-cı il müharibəsində İsrail Hərbi Hava və Dəniz Qüvvələrinin fəaliyyəti ona gətirib çıxartdı ki, İkinci Dünya müharibəsindənsonra Livanda ən böyük evakuasiya həyata keçirildi.

Artıq 2006-cı il dünya tarixinə İsrail-Livan müharibəsi kimi düşdü. XX əsrdə müharibələrin dəfələrlə qurbanı olmuş Livanın dinc əhalisi yenə də qanına qəltan edildi.

Bir çox Avropa ölkələri İsrailin Livana təcavüzünü pisləsə də ABŞ İsraili nəinki maddi və texniki cəhətdən dəstəklədi, hətta atəşkəsin olmasina mane olmaq üçün BMT-də öz veto hüququndan da istifadə etdi.

İsrail-Ərəb münaqişəsi, o cümlədən İsrail-Livan münaqişəsi ABŞ-ın Yaxın Şərq siyasətinin tərkib hissəsidir. Bu münaqişə İsrail dövləti yaranandan sonra daha ciddi xarakter alsa da, əslində etnik və ya dini münaqişə deyil. Bu münaqişələrin əsasını XIX əsrin sonu XX əsrin əvvəllərində Böyük Britaniya tərəfindən qızışdırılması və İkinci Dünya müharibəsindən

DOI:10.30546/gdu.5.2025

sonra məhz ABŞ tərəfindən idarə edilərək ABŞ-ın Yaxın Şərqdəki siyasətinin həlli üçün istifadə edilməsi faktını da görmək heç də çətin deyil.

Ərəb-İsrail münaqişələriin tarixi belə bir sualı ortaya qoyur: ABŞ Ərəb-İsrail münaqişələrinin həllində maraqlıdırmı? Ərəb-İsrail münaqişəsi tarixən ABŞ tərəfindən yaradilmasa da bu xalqlar arasındakı tarixi çəkişmələrdən və toqquşmalardan ABŞ və İngiltərə sonrakı dövrlərdə öz məqsədləri üçün məharətlə istifadə etmişlər.

İkinci Dünya müharibəsindən qalib çıxmış və dünyanın yenidən bölüşdürülməsində öz təsir gücünü durmadan genişləndirən ABŞ öz iqtisadiyyatında enerjiyə artan tələbatı nəzərə alaraq Yaxın Şərqə xüsusi önəm vermişdir.

Yaxın Şərq regionunda böyük neft yataqlarının nəzarətə alınması məqsədilə regionda yerləşən ölkələrin daxilində hər hası münaqişələrin yaradilması ABŞ-ın xarici siyasəti üçün kifayət etmirdi. Yaxın Şərqdə dayanıqlı müttəfiqin əldə edilməsinə və onun ərazisindən hərbi məqsədlər üçün istənilən vaxt istifadə etmək imkanının olmasına böyük ehtiyac var idi. Bu ölkə nəinki ABŞ-ın faktiki olaraq hərbi bazası rolunu oynamalı, həmçinin ondan region ğlkələrinə qarşı zor vasitəsi kimi istifadə etmək mümkün olmalı idi. Bu ölkə hər an ABŞ-ın hərtərəfli dəstəyinə arxalanaraq ABŞ-ın Yaxın Şərqdə müstəmləkəçilik siyasətini həyata keçirməli, mümkün hərbi qarşıdurmaları öz üzərinə götürməklə belə təhlükələri ABŞ-ın sərhədlərindən xeyli uzaqlaşdırmalı və ABŞ-ın arasıkəsilməz "kiçik müharibələrlə" bağlı bəşəriyyət qarşısındakı tarixi məsuliyyətini bölüşdürməli idi. Belə ölkə Yaxın Şərqdə İsrail oldu. Belə missiyanı yerinə yetirmək üçün İsrailin seçilməsi hec də təsadüfi deyildi. ABŞ siyasi həyatında, iqtisadi və maliyyə bazarında güclü nüfuza malik olan Sionist lobbisi yalnız İsrail kimi ölkəyə tam arxalana bilərdi.

İsrail lobbisinin ABŞ xarici siyasətinə güclü təsiri haqqında Mearşemer C. və Uolt S. tərəfindən hazırlanmış "İsrail lobbisi və ABŞ-ın xarici siyasəti" adlı məqalə xüsusilə diqqəti cəlb edir. İsrail lobbisinin ABŞ-ın xarici siyasətinə aparıcı təsiri və Yaxın Şərq ölkələri üçün son əlli ildə yaranan təhlükələr , həmçinin yaxın onilliklərdə regionda baş verməsi ehtimal olunan yeni təhlükələr haqqında bu məqalədə geniş şərh verilir.

Məhz bu səbəbdən 1947-1948-ci illərdə Fələstin ərazisində İsrail dövlətinin yaradılması ABŞ tərəfindən dəstəklənmiş və sonrakı dövrlərdə ABŞ-İsrailalyansı ən yüksək səviyyədə inkişaf etmişdir. Bu alyansın əsasında təkcə ABŞ-ın İsrail lobbisinin siyasi və iqtisadi maraqları yox, həmçinin ABŞ-ın neft maraqlarının dayandığı şübhə doğurmur. 2004-cü ilin məlumatlarına görə yalnız Fars (İran) körfəzi ölkələri ABŞ-ın idxal etdiyi neftin təqribən 24 faizini təmin edir. Bu, ABŞ-ın istehlakının 10 faizindən çoxdur. Hələ 1990-cı ildə Fələstin Azadlıq Təşkilatının lideri Yasir Ərəfat deyirdi ki, "Şimal dənizində neft tükənəndə Birləşmiş Ştatlar Ərəb neftini almaq istəyəcək. Amerikanın öz nefti tükənməyə başlayanda və ABŞ-ın istehlakı artanda isə Amerika Ərəblərə daha çox ehtiyac duyacaqdır". Dünyada neftə olan ehtiyacın ildən ilə artmasını və alternativ enerji daşıyıcılarının hələ yaxın zamanlarda nefti əvəz edə bilməyəcəyini nəzərə alsaq, ABŞ-ın neft uğrunda mübarizəsinin kəskinləşəcəyini və Yaxın Şərqdə geosiyasi vəziyyətin getdikcə gərginləşəcəyi söyləmək olar.

Yaxın Şərq regionunda ciddi siyasi və iqtisadi maraqları olan ABŞ bu Ərəb – İsrail münaqişəsinin həllinin mümkün olduğu dövrlərdə də onun dondurulması və ya gərginliyin saxlanılması yolunu tutmuşdur. İsrail dövləti yaradildıqdan sonra, onun açıq-aşkar dəstəklənməsi və ona hər cür, o cümlədən hərbi, maliyyə və siyasi yardımların göstərilməsi, İsrailin Yaxın Şərqdə İsraili hər an zor tətbiq etməsinə "yaşıl işığın" yandırılması, əslində bu münaqişələrin sonrakı dövrlərdə daha da dərinləşməsinə səbəb olmuşdur. 1966-cı ildə ABŞ tərəfindən İsrailin müasir hərbi texnika ilə silahlandırılması və BMT-nin 1956-cı ildə İsrailin silahlandırılmaması ilə bağlı qəbul etdiyi qətnamənin kobud şəkildə pozulması sonrakı dövrlərdə, ocümlədən 1982-ci və 2006-cı illərdəki İsrail-Livan qrşıdurmasının başlanğıcını

DOI:10.30546/gdu.5.2025

qoymuşdur. Fələstinin müstəqilliyini nəzərdə tutan BMT qətnamələrinin yerinə yetirilməsi üçün İsrailin siyasi dairələrinə heç bir təzyiq göstərməyən ABŞ, əksinə dünya neftinin üçdə ikisinə malik olan Yaxın Şərqdə münaqişə ocaqlarının mövcüdluğunda çox maraqlıdır. Odur ki, İsrailin Yaxın Şərq regionunda zor vasitəsi kimi istifadə edilməsi üçü onun silahlandırılmasına ABŞ tərəfindən durmadan yardım göstərilir.

Ədəbiyyat

1. Azərbaycan Sovet Ensiklopediyası X cilddə, Bakı, 1976-1987.
2. R. F. İvanov “Duayt Eyzenhauer”, Bakı, “İşıq” Nəşçriyyatı, 1985.
3. M. Qasımlı “Avropa və Amerika Ölkələrinin Ən Yeni Tarixi”cilddə, 2-ci cild, Bakı, 200 8.
4. Советская Историческая Энциклопедия» в 16-ти томах, Москва, 1961-1976.
5. А.Н. Яковлев «От Трумена До Рейгана», Москва, 1985.
6. А.Н. Яковлев «ЦРУ Против СССР» Москва, 1985.
7. Э.А. Иванян «Белый дом: президенты и политика»,Москва, 1975.
8. В. Корионов «Соединенные Штаты как они естЬ» Москва,1974.
9. Сто Великих Правителей XX Века», Москва, 2000.
10. ABŞ Demokratiyası Haqqında Əsas Mətnlər. Tərtibçi Melvin İ. Urofski Siyasi və İqtisadi Araşdırmalar Mərkəzi (FAR CENTRE),2005.

ПОЗИЦИЯ США В СТОЛКНАВЕНИЯХ МЕЖДУ ИЗРАИЛЕМ И АРАВИЕЙ

Сулейманов Яхья Исрафил оглы

Резюме

За последние 60 лет, опирались на политику США в отношении Ближнего Востока, надо учитывать тот нюанс что несмотря на те военные действия Израиля в отношении других стран и его результаты, США всегда придерживалась в урегулирование этих столкновений. Через некоторое время аргументы вынесенные Израилем были однозначно поддержаны США.

THE POSİTİON USA İN RELATİONS BETWEEN ISRAEL AND ARABIA

Suleymanov Yakhya

Summary

The last 60 years, look at the politicy of USA for Middle East considered that military actions of Israel other countres and theirs rezults, USA tray regulated these wars. Some times passed argumentes take Israel the same time supported by USA.

Rəyçi: dosent Allahverdiyeva Gültəkin
Daxil olma tarixi 17 oktyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 64-68

DOI:10.30546/gdu.5.2025

UOT:94(479.24).

AZƏRBAYCANDA ETNİK-SİYASİ BİRLİK VƏ MÜSTƏQİLLİK ƏNƏNƏLƏRİ

Dosent Aslanov Elgün Məhəmmədəli oğlu
Həsənova Dünya Xaliq qızı, Qarayeva Ləman Əhməd qızı
Azərbacan Dövlət Aqrar Universiteti
e.aslanov85@mail.ru

Xülasə: *Məqalədə ölkəmizi bu günlərə çatdıran Azərbaycan Milli ideologiyası haqqında mülahizələr verilir. Yazıçı bu prosesdə Heydər Əliyevin danılmaz rolunu qeyd edir. Əsasən oxucuların diqqətini Heydər Əliyevin hakimiyyətda olduğu dövrdə görülmüş işlərə yönəldir. Təkcə strategiyalar və fəaliyyətlər haqqında deyil, həm də bu ideologiyanın nəticələri haqqında məlumat verir. Bundan əlavə, azərbaycanlıları bu ideyaları inkşaf etdirmək və həyata keçirmək üçün istiqamətləndirmək vacib olduğu qeyd olunur. Azərbaycan əvvəllər ağır vəziyyətdə idi, lakin bu hakimlik altında ölkəmiz bugünkü vəziyyətə gəlib çatmişdir. Üstəlik, Heydər Əliyevin qoyub getdiyi irs xalqımızı vətənpərvərlik və həmrəylik dəyərləri ilə inkişafa sövq edib.*

Açar sözlər: milli dövlətlər, azərbaycançılıq, sülalə hakimiyyəti, istiqlal ruhu, gənc millət, qədim xalq, etnik mənşə, Cənubi Qafqaz türkləri, azərbaycanafobiya, milli oyanış, demokratik təfəkkür, burjua milləti, etnik-miili müqəddərat.

Key words: national governments, national, dynastic power, the spirit of independence, young people, old people, ethnic origin, the South Caucasus the Turks, the national awakening of democratic thinking, bourgeois nation.

Ключевые слова: национальные государства, азербайджанство, династическая власть, дух независимости, молодая нация, древний народ, этническое происхождение, турки Южного Кавказа, азербайджанофобия, национальное пробуждение, демократическое мышление, буржуазная нация, этническая чистка.

Bəşər tarixində baş vermiş hadisələr mövcudluq kateqoriyası baxımından iki tipə ayrılır: təsadüfi hadisələr və zəruri hadisələr. Təsadüfi hadisələr konkret bir məkanda, məhdud zaman kəsiyində baş verir və ümumdünya tarixinə həlledici təsir göstərmir, dövrün və nəsillərin yaddaşında iz qoymur. Zəruri tarixi hadisələrə gəldikdə isə, onlar qaçılmaz və qarşısıalınmaz xarakter daşıyır, tanrının, təbiətin, insanların hökmü ilə, mütləq şəkildə baş verir və Ümumdünya tarixinin gedişində əhəmiyyətli dönüş yaradır. Beləliklə, əkslikləri həll etmək üçün mühüm üsul kimi ortaya çıxan zərurət təsadüflər içərisindən özünə yol açır və bu zaman təsadüflər zərurətin "təzahür forması və əlavəsi" kimi çıxış edir [1, 175]. Azərbaycan xalqının 1991-ci ildə istiqlaliyyət əldə etməsi və Azərbaycanın müstəqil dövlət kimi bərqərar olması, məhz "zəruri tarixi hadisələr" kateqoriyasına aiddir. İlk növbədə bu, onunla izah olunur ki, əsrlər boyu müstəqillik və dövlətçilik ənənələri olan bir xalq uzun müddət asılılıq şəraitində, yaxud əsarət altında yaşaya bilməz. Çünki "müstəqillik" adlı bir tanrı nemətindən dadmış xalqın genotipində istiqlal ruhu heç vaxt ölmür. Bu ruh nəsillərə ötürülür və tarixi şərait yaranan kimi yenidən təzahür edir.

Bəzi nüfuzlu şəxslərin "Azərbaycan dövləti", "Azərbaycan xalqı", "azərbaycançılıq" kimi fenomenlər haqqında fikirləri – Azərbaycan adlı dövlətin yalnız 1918-ci ilin mayında yaranması, əvvəllər bu adda heç bir dövlətin, yaxud tarixi məkanın olmaması "ideyası" ölkədə ictimai, elmi-kütləvi və akademik səviyyədə birmənalı qarşılanmamışdır. Əlbətdə ki, şanlı tarixi olan bir xalqın özü və dövlətçiliyi haqqında əsatir yaratmasına ehtiyac yoxdur. Real tarix yalanı, saxtakarlığı, mif yaratmağı sevmir. O, analitik sintezə və realizmə

DOI:10.30546/gdu.5.2025

əsaslanmalıdır. Bu prinsiplər əsasında Azərbaycan tarixinə nəzər salanda qarşımızda möhtəşəm bir mənzərə canlanır. Çünki Azərbaycan tarixinin ontologiyası real faktlara əsaslanır. Rəsmən "Azərbaycan" adının siyasi subyekt kimi 1918-ci ildə yaradılmış, Şərqin ilk Demokratik Cümhuriyyətinə verilməsi təkzibolunmaz tarixi faktdır [8, 33-34]. Lakin bu o demək deyil ki, "Azərbaycan" fenomeninin cəmi 100 illik tarixi var. Müasir Azərbaycan milləti doğurdan da gənc millətdir. Lakin bu baxımdan "gənc" epiteti Azərbaycana münasibətdə milli oyanış, demokratik təfəkkür, burjua milləti anlayışları ilə əlaqədar işlənilə bilər. Antropoloji və etnik-mədəni cəhətdən isə Azərbaycan xalqı qədim xalqdır. Onun "Azərbaycan" adı altında tarixi ən azı 1300 il bundan əvvəl başlayır. İlk dəfə bu ölkəni ərəblər VII əsrdə "Azərbaycan" adlandırmışlar. "Azər" sözü ərəbcədən "od" deməkdir. Müsəlman ərəblər bu məmləkətə ilk dəfə gələndə başdan başa atəşpərəst əqidəli əhalini "azərbaycanlılar" adlandırdılar. Yəni "atəşə sitayiş edənlər", "odu canları kimi sevənlər və qoruyanlar". Demək olarki, bütün ərəb tarixçiləri – Əl-Məsudi, İbn Hordadbeh, Həmdullah Qəzvini və b. öz əsərlərində "Azərbaycan" adını cənubda Zəncandan, Qəzvindən və Həmədandan tutmuş Şimalda Dərbəndə qədər ərazilərə aid edirlər.

Qədim Azərbaycanın ərazisində Aratta, Lullubi, Kuti, Manna, Midiya, Atropatena, Albaniya, Arran, Şirvan, Muğan və s. adlı qədim dövlətlər və tarixi məkanlar olmuşdur. Bu adlar sözügedən qurumlara güclü etnosların adları ilə əlaqədar, yaxud məkanın coğrafi xüsusiyyətlərinə görə verilmişdir. Xilafət dövrünə aid mənbələrdə 4-cü əmirliyin, daha sonra "Əl-Cəzirə" adlı 3-cü əmirliyin tərkibində "Azərbaycan" adlı əyalət var idi. Xilafətin hərbi-siyasi əsaslarını sarsıtmış Xürrəmilər hərəkatının Azərbaycanda olmasını, Babək Xürrəminin Azərbaycan türkü olmasını heç bir arqumentlə inkar etmək olmaz. "Azərbaycan xilafətin vilayətidir. Dörd əyalətdən – Arran, Muğan, Quştasfi və Şirvandan ibarətdir. Əhalisinin az bir hissəsini iranlılar, böyük hissəsini isə türklər təşkil edir" [6, 180]. Babəkin igidliyi, Azərbaycan xalqının azadlıq mübarizəsi haqqında məlumatı, o dövrün ərəb tarixçiləri verir. Bu mənbələrdə Babək Azərbaycanın azadlığı uğrunda vuruşan, fars, ərəb, yaxud qafqazlı kimi deyil, məhz azərbaycanlı inqilabçı kimi təqdim olunur.

Xilafətin tənəzzülü dövründə türk mənşəli Sacilərin və Salarilərin türk olması, məhz Azərbaycan adlanan tarixi məkanı vahid dövlətdə birləşdirməsi real faktdır. Bu dövrdə hakim sülalə tərəfindən sözügedən istiqlaliyyət obyektinin Azərbaycan deyil, məhz Sacilər dövləti, Salarilər dövləti, Atabəylər dövləti adlandırmalarını izah etmək də çətin deyil. Bildiyimiz kimi Orta əsr dövlətlərinin monarxiya quruluşu, adətən sülalənin adını və şöhrətini tarixi məkanın, yaxud hakim etnosun adından yüksək tuturdu. Məhz buna görə Azərbaycan tarixində Saci istiqlaliyyəti, Atabəylər istiqlaliyyəti, Səfəvilər istiqlaliyyəti anlayışları "Azərbaycan" anlayışından daha dominant xarakter kəsb etmişdir. Lakin onların hamısının məhz Azərbaycan xalqının dövlətçilik tarixi olmasını heç kim inkar edə bilməz. Bu dövlətlərin hər biri Azərbaycanda təşəkkül tapıb, onların mərkəzi şəhərləri tarixi Azərbaycan şəhərləri olub. Hökmdarları "Azərbaycan mənşəli" hökmdar – şah, padşah, atabəy titulu daşıyıb. Onların təbəələri, Azərbaycan türkcəsində danışan yerli azərbaycanlılar olub.

İran tarixçiləri Xilfətin tənəzzülü dövründə Əfqanıstanda, Orta Asiyada və Azərbaycanda yaranmış müstəqil feodal dövlətləri "İran intermessosu" (lat. intermedius – aralıq, yəni İran imperiyaları arasında aralıq dövr) adlandırırlar [3, 110]. Lakin İran tarixçiləri nədənsə belə bir vacib məqamı izah etməyi unudurlar ki, əgər adı çəkilən sülalələr doğurdan da "İran intermessosudursa" niyə İranda deyil, onun hüdudlarından kənarda təzahür etmişdir? Niyə onu tarixi vəzifə kimi, məhz türk-azərbaycan hökmdarları yerinə yetirirdi. Fars şovinizminə hər vəchlə haqq qazandırmağa çalışan İran alimləri, guya Y-xromosomlarını tədqiq edərək belə bir nəticəyə gəlmişlər ki, tarixən türk dilinin, azərbaycan-türk etnik amilinin İranda belə geniş və davamlı təmsil olunması, guya siyasi elitada təmsil olunan

DOI:10.30546/gdu.5.2025

azsaylı türk kişilərinin fəaliyyəti ilə bağlıdır, lakin onlar İran xalqlarının populyasiyasına son dərəcə zəif təsir göstərmişlər.

Ümumiyyətlə "Milli dövlətlər" fenomeni Yeni dövr tarixinin hadisəsidir [2, 144-181]. Orta əsrlərdə, bütün dünya dövlətləri tayfa, sülalə mahiyyəti daşıyırdı. Bu həm Avropada, həm də Asiyada belə idi. Azərbaycan da bu baxımdan istisna deyildi. 1923-cü ilə qədər Anadolu türklərinin dövlətçilik arealına daxil olan ərazi Osmanlı dövləti, Ottoman imperiyası, yaxud Əla Porta, Yüksək Porta (osm. Babi-Ali) adlanırdı və sülalənin başçısı I Osman Qazının (1281-1336) və Osmanlı vəzirinin dəftərxanasının adı ilə bağlı idi [7, 26-41]. Demokratik quruculuq, parlamentarizm və respublikaçılıq tarixi isə 1923-cü ildən başlayır. Lakin türk tarixçilərinə və türk xalqına dövlətçlik tarixinin cəmi 93 il olmasını demək ən azı gülməli olardı. Hindistan tarixində Harappa sivilizasiyasından başlamış Böyük Moqollar imperiyasına qədər 57 dövlətdən heç biri Hindistan adlanmayıb. Amma hind xalqının heç bir nümayəndəsi dövlətçilik tarixinin 1947-ci ildən başlamasını, Hindistan xalqının 70 yaşlı xalq olmasını, heç vaxt Hindistan adlı dövlətin olmamasını heç ağlına da gətirmir.

Bu nümunələri Avropa xalqlarının dövlətçilik və etnik-siyasi inkişaf tarixinə də aid etmək olar. Məsələn, fransızlar, almanlar, ispanlar, ingilislər qədim dövrdə qotlar adlanırdı. Lakin adı çəkilən xalqlar qotları öz əcdadları və onların yaratdıqları, fərqli adlar altında dövlətləri öz dövlətləri hesab edirlər. Ümumiyyətlə, bu gün Yer kürəsində yaşayan bəzi xalqların ümumi cəhətlərini nəzərə almasaq (monqoloid cizgiləri, neqroid əlamətləri, hind xüsusiyyətləri və s.), təmiz antopoloji xüsusiyyətlərini qoruyub saxlamış xalq yoxdur. Hər bir etnosun müasir antropoloji ifadəsi, həmçinin mədəni durumu sırf sinkretik xarakter daşıyır.

Səfəvilər dövlətinin Orta əsrlər Azərbaycan dövlətçiliyinin şah əsəri olması tarixi faktdır. Lakin onun Azərbaycan dövləti deyil, Səfəvi dövləti adlanmasının səbəbi də məlumdur. O, imperiya xarakterli dövlətdir. İmperiyapərəstlik isə xalqın əqidəsi deyil, ayrı-ayrı şəxslərin və hökmdarların mütləq hakimiyyətə can atan iradi potensiyasının, yəni subyektiv volyuntarizmin məhsuludur. Xalqın siyasi əqidəsi isə demokratizm, plyuralizm, parlamentarizmdir. Odur ki, orta əsr imperiyaları, bir qayda olaraq məkanın, millətin, xalqın deyil, hakimiyyət subyektinin adını əbədiləşdirirdi. Hakimiyyətin subyekti isə burada millət deyil, hökmdarın mütləq nüfuzudur.

Səfəvilərdən sonra Əfşarlar, Qacarlar, Pəhləvilər kimi dövlətlər tarixən dövlətyaradan etnos olmuş Azərbaycan türklərinin yaratdıqları və idarə etdikləri dövlətlər olub. Məlum səbəblərdən, yəni Səfəvi hökmdarı I Abbasdan başlayan farslaşdırma siyasətinin davamı olaraq, onlar "Fars dövlətləri" kimi qələmə verilir.

Xanlıqlara gəldikdə isə onlar müstəqil feodal qurumları olaraq, tarixdə İran xanlıqları kimi deyil, məhz Azərbaycan xanlıqları kimi qalıb. Azərbaycandakı xanlıqlar tipində Rusiya tarixində də 300 il davam edən feodal pərakəndəliyi – knyazlıqlar dövrü olmuşdur və onlardan heç biri Rusiya adı daşımamışdır. Lakin Rusiya tarixində bu dövr rus xalqının dövlətçilik tarixi kimi öyrənilir [4, 69 -74].

1925-ci ildə Pəhləvilər öz dövlətlərini İran dövləti adlandırdılar. Reza Pəhləvinin (1878-1944) anası Nuş Afərin Ayrumlı və həyat yoldaşı Tac əl-Mülk Ayrumlı (Nimtac xanım – 1896-1982) etnik azərbaycanlı idilər. Reza Pəhləvinin və Tac əl-Mülkün oğlu, sonuncu İran şahı Məhəmməd Reza Pəhləvinin həyat yoldaşı Fərəh Diba (1938) isə əslən Bakılı olan azərbaycanlı, Sen-Sir hərbi məktəbinin məzunu Söhrab Dibanın qızı idi. Onun İranda Şahbanu olduğu dövrdə (1967-1979) azərbaycanlılar özünəməxsus intibah dövrü yaşamış və Azərbaycanın mədəni muxtariyyəti məsələsi gündəmə gəlmişdi. 1979-cu il İran İslam inqilabı, əslində azərbaycanlı Şahbanu Fərəh Dibanın siyasi fəaliyyətinə qarşı fars şovinizminin klerikal xarakterli qiyamı idi [5, 160].

DOI:10.30546/gdu.5.2025

Ümumiyyətlə, 1979-cu ilə qədər Məzdəkilər hərəkatından tutmuş, İranda baş vermiş bütün inqilabların və üsyanların aparıcı qüvvəsi azərbaycanlılar olmuşlar. Fars bürokratiyası daim Azərbaycanın inqilab ruhundan qorxmuş və həmişə sərt qabaqlayıcı tədbirlər görmüşdür. Bu gün isə inqilabdan qorxan İran hakim dairələri Cənubi Azərbaycanda etnik birliyi sarsıtmaq məqsədi ilə, sahillərində azərbaycanlıların kompakt yaşadığı Urmiya gölünü qurutmaq, imkan daxilində Cənubi Azərbaycanda yerləşən neft və qaz ehtiyyatlarını istismar etməmək və bununla da burada təşkilatlanmağa qadir olan kütlənin konsentrasiyasının qarşısını almaq kimi tədbirlər görürlər.

Azərbaycanın 1922-ci ildə Zaqafqaziya federasiyasının tərkibində ittifaqa daxil olmasından sonra, 1926-cı il 17 dekabrda başlanmış əhalinin I Ümümittifaq siyahıya alınmasında azərbaycanlılar "Cənubi Qafqaz türkləri kimi" qeydə alınmışdı. Hələ ADR dövründə İran hökumətinin təkidlə "Azərbaycan" və "azərbaycanlı" ifadələrinə qarşı çıxması, onların "tatar", "müsəlman" sözləri ilə əvəz edilməsi isə "Azərbaycan" etnik genotipi, "Azərbaycan" siyasi fenomeni qarşrısında tarixi xofun, Məzdək, Cavanşir, Babək, Şah İsmayıl, Səttar xan, Məhəmməd Xiyabani, Şeyx Cəfər Pişəvəri qüdrətindən doğan tarixi "Azərbaycanafobiyanın" ifadəsi idi. "Azərbaycan" adının elə bir qüdrətli və sakral mahiyyəti var ki, o çoxəsrlik tarixi boyu bütün təsadüfi elementlərin içərisində itib-batmadı, hər kəs, hər şey gəldi, "Azərbaycan" süsgəncindən keçdi, "azərbaycanlaşdı".

1993-cü ildə Ümummilli ilder Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində Azərbaycan adlanan gənc bir dövlətin davamlı mövcudluğu və inkişafı təmin olundu. Bu gün "azərbaycançılıq" ideyası və multimədəni dəyərlərin qorunması prinsipləri çərçivəsində Azərbaycan Respublikası adlı bir məkanda vahid Azərbaycan xalqı adlanan mehriban bir ailədə müxtəlif millətlərin və etnik azlıqların nümayəndələri gələcəyin şanlı tarixini yazır.

"...Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!". İllər öncə Ulu Öndər Heydər Əliyevin qürur, fəxr hissi ilə dilə gətirdiyi və Yer üzündəki azərbaycanlıların dillər əzbərinə çevrilən bu sözlər həm də millətimizin, dövlətimizin parlaq gələcəyinin yol xəritəsini cızan milli parol oldu.

"Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır", - deyən böyük vətənpərvər Heydər Əliyevin təməlini qoyduğu azərbaycançılıq ideologiyasının məntiqi və uğurlu nəticəsi idi ki, 44 günlük Vətən müharibəsini qalibiyyətlə sonuclandırdıq, torpaqlarımızın işğalına son qoyduq, ərazi bütövlüyümüzü, suverenliyimizi tam təmin etdik. Azərbaycan xalqı bu möhtəşəm həmrəylik bünövrəsi üzərində Zəfər qalası ucaltdı, üzərindəki məğlubiyyət damğasından qurtuldu, qalib, qürurlu vətəndaşlara çevrildi. O cümlədən də bu Zəfər dünyada yaşayan həmvətənlərimizin qürur mənbəyinə çevrildi.[9]

Bu etnik-siyasi birlik sarsılmaz və əbədidir.Azərbaycan xalqı gənc xalq deyil, onun çoxəsrlik tarixi var. Biz bu tarixlə fəxr edirik və onun həqiqi sahibləri yalnız bizik.

Ədəbiyyat

1.Маркс К., Энгельс Ф. Собрание сочинений. Изд. 2, Т 39.
2.Meyer J. W., Boli J., Thomas G. M., Ramirez F. O. World Society and the Nation-State // American Journal of Sociology. 1997.
3.Минорский В.Ф. "Исследование Истории Кавказа", Кембридж, 1953.
4.Рыбаков С.В. Раздробленность на Руси. Ее оценка в российской историографии. Екатеринбург, 1995.
5.Taheri, Amir. The Unknown Life of the Shah. Hutchinson, 1991.
6.Томара М. Бабек. М 1936

DOI:10.30546/gdu.5.2025

7.Трепавлов В. В. «Ваша высокая порта»,Российская государственность в системе традиционных представлений о монархии у народов Евразии XV-XVII вв.
8.Шнирельман В. А. Войны памяти: мифы, идентичность и политика в Закавказье / Рецензент: Л. Б. Алаев. М., 2003.
9. https://azerbaijan-news.az/az/posts/detail/zefer-hemreyliyi-1703976054

ТРАДИЦИИ ЭТНОПОЛИТИЧЕСКОГО ЕДИНСТВА И НЕЗАВИСИМОСТИ В АЗЕРБАЙДЖАНЕ

Асланов Ельгун Магеррам оглы, Гасанова Дунйа Халиг кызы,
Караева Ляман Ахмед кызы

Резюме

Статья посвящена таким актуальным вопросам, как азербайджанство, Азербайджанская нация, Азербайджанская государственность, обсуждаемым в широких аудиториях и являющимся объектом исследований научной литературы. Классификация научных фактов, доказывающих древность Азербайджанского государства и народа, обозрение различного характера власти и традиций государственности в средневековой и новой истории являются основными мотивами статьи. В статье, в методической последовательности и с неоспоримыми фактами прослеживается исторический путь, ведущий к Азербайджану, азербайджанство и современной Азербайджанской государственности. Статья может стать научным пособием в выяснении спорных вопросов, возникших на современном этапе этнополитических отношений.

TRADITIONS OF ETHNO-POLITICAL UNITY AND INDEPENDENCE IN AZERBAIJAN

Aslanov Elgun Magerram, Gasanova Dunya Khalig,
Garayeva Leman Akhmed

Summary

The articleis discussed a wide range of audiences, and as an object of research in the scientific literature, presented the nation, is dedicated to topical issues as the history of Azerbaijani statehood. The scientific facts which prove the antiquity of the Azerbaijani people and Azerbaijani state classification, and a new era in the history of medieval traditions and distinctive character of the state government and the main motives is the interpretation of the article. The article appeared in the stage of development of ethnic and political relations system of scientific material to clarify issues that may be controversial.

Rəyçi: dosent Abdullayeva Sevda
Tarix kafedrasının 17 sentyabr 2025-ci il tarixli iclasın 02 saylı protokolu
Daxil olma tarixi 10 oktyabr 2025-ci il

DOI:10.30546/gdu.5.2025

UOT:94(479.24).

“YENİ QONŞULUQ” PROQRAMINDA CƏNUBİ QAFQAZ DÖLƏTLƏRİ

t.ü.f.d., dosent Hacıyeva Xatirə Ziya qızı
ADU Qafqazşünaslıq vəAzərbaycan tarixi kafedrası
hajiyeva_1506@mail.ru
Orchid id:0000 0002 3962 6612

Xülasə: *Avropaya inteqrasiyanın genişlənməsi kontekstində 2002-ci ildən etibarən Aİ-nin qonşuları olacaq dövlətlərlə yeni əməkdaşlıq alətinin işlənməsinə başlandı. "Mehriban qonşuluq Sazişi” kimi müəyyən edilmiş proqramda əməkdaşlığın yeni alətləri, ilkin olaraq mövcud olan “Tərəfdaşlıq və əməkdaşlıq Sazişi”, həmçinin TACIS proqramı əsasında işlənib hazırlanması nəzərdə tutulmuşdu. “Yeni qonşuluq proqramının” məqsədi sərhədyanı əməkdaşlıq potensialının, sərhədyanı ərazilərin yəni, qonşuların sosial-iqtisadi inkişafının dəstəklənməsindən ibarət idi. 2004-cü ilin may ayının 12-də Avropa qonşuluq siyasəti. Ölkələrlə strategiya və məruzələr” adlı dərc olunmuş sənədd qonşuluq” çərçivəsində əməkdaşlığın əsas istiqamətləri göstərilirdi.*

Açar sözlər: Avropa İttifaqı, Yeni Qonşuluq, Cənubi Qafqaz, Kris Patten, Əməkdaşlıq
Keywords: European Union, New Neighbourhood, South Caucasus, Chris Pattenn, cooperation
Ключевые слова: Европейский Союз, Новое Соседство, Южный Кавказ, Крис Паттен, сотрудничество

Giriş. Sərhədlərinin qeyri-leqal miqrasiyadan təhlükəsizləşdirmək Aİ vətəndaşlarını beynəlxalq terrorizm, mütəşəkkil cinaətkarlıq və narkoticarət kimi, qeyri ənənəvi risklərdən qorumaq, yeni üzv dövlətlərə təhlükəsizlik,iqtisadi, stabil cəmiyyət qurmaq cəhdləri Avropa İttifaqını Mərkəzi və Şərqi Avropa, Cənubi Qafqaz, Rusiya və Baltikyanı dövlətlərlə bir sıra xüsusi proqramlar hazırlamağa təhrik edirdi. Bu proqramların əsas məqsədi və mahiyyəti qitənin müxtəlif ölkələri ilə inteqrasiya əlaqələrini genişləndirmək gələcəkdə onların Avropa İttifaqı ölkələri ilə əlaqələrini tənzimləmək idi. [1, s.593]

Avropaya inteqrasiyanın genişlənməsi kontekstində 2002-ci ildən etibarən Aİ-nin qonşuları olacaq dövlətlərlə yeni əməkdaşlıq alətinin işlənməsinə başlanmışdı. Avropa Komissiyasının bu yeni təşəbbüsünün xarakterini müəyyən edən əsas ifadə "Avropada yeni bölüşdürücü xətlərin yaranmasından qaçmaq" [5] çağırışı olmuşdur.

Avropa Komissiyasının yeni təşəbbüsü. İnkişaf etməyə başlamış yeni əməkdaşlıq proqramının ilk sənədi Kris Pattenin və Havyer Solanın Şuraya ünvanlandığı 07.08.2002 tarixində birgə məktubunda nəzərdə tutulan proqramın coğrafi çərçivələri, məqsədləri və həyata keçirilmə üsulları təsvir edilmişdir.

Məktubda qeyd edilirdi ki, Aİ-nin gələcək inkişafı üçün mövcud üç sərhəd regionlarından (Aralıq dənizi, Balkan və Şərqi) ən çox təsirə malik Şərq regionu olacaqdır.

Belə əməkdaşlığın əsas məqsədi " bizim təhlükəsizliyin əsasını təşkil edən sərhədlərimiz boyu stabilliyin, çiçəklənmənin, ümumi dəyərlərin və hüquqi normaların inkişafıdır ". [5]

"Mehriban qonşuluq Sazişi” kimi müəyyən edilmiş proqramda əməkdaşlığın yeni alətləri, ilkin olaraq mövcud olan “Tərəfdaşlıq və əməkdaşlıq Sazişi”, həmçinin TACIS proqramı əsasında işlənilməsi nəzərdə tutulurdu.

Aİ-nin Kopenhagendəki dekabr sammitində (2002-ci il) Fransanın təkidi ilə proqram çərçivəsinə Aralıq dənizi regionunun dövlətləri daxil edildi [6] və beləliklə də "qonşu" dövlətlərin seçimində coğrafi amil ideyası dağılmış oldu. Məhz bu mərhələdə işlənilən

DOI:10.30546/gdu.5.2025

proqram indiki ikili "Genişlənmiş Avropa-yeni qonşuluq" adını almış olmuşdu.

"Yeni qonşuluq proqramının" məqsədi sərhədyanı əməkdaşlıq potensialının, sərhədyanı ərazilərin yəni, qonşuların sosial-iqtisadi inkişafının dəstəklənməsindən ibarət idi. 2004-cü ilin may ayının 12-d" əAvropa qonşuluq siyasəti. Ölkələrlə strategiya və məruzələr" adlı dərc olunmuş sənədd" əqonşuluq" çərçivəsində əməkdaşlığın əsas istiqamətləri göstərilirdi. Bunlara aşağıdakılar aiddir:

- İqtisadi və elmi-texniki əməkdaşlığın stimullaşdırılması;
- Siyasi dialoq və islahatlar;
- Sərhədyanı ərazilərin inkişafı üçün sərhədyanı və fiziki infrastrukturun yaxşılaşdırılması;
- Ticarətin və tərəfdaş ölkələrin Aİ-nin daxili bazarında mövqelərinin tədricən yüksəlməsi;
- Ətraf mühitin mühafizəsi və bərpa olunan enerji mənbələrinin istifadəsinin artırılması;
- Hüquq və daxili siyasətin tənzimlənməsi;
- Sərhədyanı turizmin və istirahətin inkişafı, turizmin infrastrulturunun modernləşdirilməsi, sərhəddə xüsusi əhəmiyyət kəsb edən mədəniyyət abidələrinin mühafizəsi;
- Enerji, nəqliyyat, informasiya və ictimai kommunikasiyanın inkişafı;
- Yerli icmaların təşəbbüsünün müdafiəsi;
- Sosial siyasət və insanlar arasında əlaqələrin inkişafı;
- Regionların mədəni özünəməxsusluğu və mədəni irsi;
- Terrorizmlə, kütləvi məhvedici silahlarının yayılmasına qarşı mübarizədə birgə fəaliyyət.

Bütün bu istiqamətlər öz əksini əməkdaşlıq üçün hazırlanmış xüsusi fəaliyyət planlarında tapmışdır.

AQS proqramında iştirak Cənubi Qafqaz dövlətlərinə müəyyən imkanları yaratmış olacaqdır. Bunlar aşağıdakılardır:

- İqtisadi, sosial, siyasi islahatların həyata keçirilməsi, demokratiyanın genişləndirilməsi sayəsində Avropa İttifaqının daxili bazarında müəyyən mövqeyə yerə tutmaq imkanı;
- Vətəndaşların, əmtəələrin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək məqsədilə gələcək inteqrasiya proseslərinə qoşulmaq;
- Avropa İttfaqının üzvü olan dövlətlərlə səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, yeni maliyyə mənbələrinin əldə edilməsi, ümumdünya ticarət təşkilatına üzv olmağa dəstək, miqrasiya, narkotiklər və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq.
- Artıq 2004-cü ilin may ayında Aİ AQS-nın reallaşması üçün 225 milyon avro vəsait ayırmışdı.

Cənubi Qafqazda "Avropa qonşuluq siyasətinin" inkişaf istiqamətlərini müəyyənləşdirən Avropa Komissiyasının ilkin müraciətində Cənubu Qafqaz dövlətlərinin "bu gün proqramın cografi çərçivəsinə daxil olmayan" [9] kimi qeyd edilməsi, cənubi Aralıq dənizi ölkələri ilə bağlı hadisə yada saldıqda, açıq bəhanə olduğu müşahidə edilirdi.

Bu "ideya" Gürcüstandakı "məxməri inqilabdan" əvvəlcə irəli sürülmüşdü. Bu vaxta qədər biz Gürcüstandakı vəziyyətdən çox narahat idik: ekspertlərin öldürülməsi, insanların oğurlanması və s. Ona görə də biz hesab edirdik ki, "müvəffəqiyyətsiz dövləti" həvəsləndirməyə ehtiyac yoxdur. Bu düşünülmüş qərar deyil, daha çox müəyyən qərarın qəbul edilməsinə imkan verməyən hadisələrin toplusundan ibarət idi. [8]

Proqram tərtibatçılarının fikrincə isə Cənubi Qafqaz ölkələri Avropa İttifaqının üzvü olan 25 dövlətdən heç biri ilə birbaşa sərhədə malik deyildilər. Digər tərəfdən hər üç ölkə

DOI:10.30546/gdu.5.2025

Avropa Şurasının və ATƏT-in müəyyənləşdirdiyi meyarlara cavab verməli idi. (Məsələn: Ermənistanın Azərbaycana təcavüzü və.s.).

Hər bir halda Cənubi Qafqazın "Genişlənmiş Avropa - yeni qonşuluq" proqramına qoşulmaması həm Avropa İnstitutları, həm də ekspertlər tərəfindən tənqid dalğası ilə üzləşdi.

Parlamentin məruzəsində münaqişələrin nizama salınması kimi bir təşəbbüsün vacibliyini nəzərə alaraq Cənubi Qafqaz dövlətləri üçün "Genişlənmiş Avropa-yeni qonşuluq" proqramı çərçivəsində xüsusi siyasət hazırlanması tövsiyə edilirdi. [4]

Bununla razılaşmayan Azərbaycan, Ermənistan və Gürcüstan Avropa qonşuluq siyasətindən kənarda qalmalarına etiraz etdilər.

Cənubi Qafqazın "Yeni qonşuluq" siyasətinə qoşulması. Azərbaycan, Gürcüstan və Ermənistan "yeni qonşuluq" siyasətinə qoşulmasına səbəb olan amillərdən biri təşkilatın sərhədlərinin Qara dəniz sahillərinə qədər genişlənməsi oldu. 2007-ci ilin yanvarında Ruminiya və Bolqarıstanın Aİ üzvlüyünə daxil olması ilə Cənubi Qafqaz dövlətlərindən Gürcüstanın Aİ ilə coğrafi sərhəddi yaranmış oldu. Qara Dənizə birbaşa çıxışı olmayan Azərbaycan və Ermənistan is" əQara Dəniz region" adlanan geniş mənalı qonşu ölkələr qrupuna daxil idilər.

Ümumilikdə isə Avropa qonşuluq siyasəti Avropa İttifaqının Qafqaz regionuna nüfuz etməsi üçün ən yaxşı vasitələrdən biri sayılırdı.

2004-cü il yanvarın sonunda ÜXSTS-in Ali nümayəndəsi ilə məsləhətləşmələrin və Aİ-nin regiondakı Xüsusi nümayəndəsinin tövsiyələri əsasında Şura, Komissiyanı 2004-cü ilin iyunun sonuna kimi Azərbaycan, Ermənistan və Gürcüstanı "Genişləndirilmiş Avropa-yeni qonşuluq" proqramı çərçivəsinə daxil edilməsi ilə bağlı tövsiyələrin işlənib hazırlanmasına çağırdı. [3]

Nəhayət, 2004-cü il iyunun 14-də Komissiyanın Avropa "yeni qonşuluq siyasətinin strategiyası" [9] müraciəti əsasında, Şura proqramın üç Cənubi Qafqaz dövlətinə aid edilməsi barəsində qərar qəbul etdi.

Proqramda müəyyən çatışmazlıqlarına baxmayaraq Cənubi Qafqazın dövlətlərinə aid edilməsi mühüm simvolik bir jest olub Aİ-nin Cənubi Qafqaz ilə münasibətlərində yeni mərhələnin açılışı demək idi.

Aİ-nin bu xarici siyasətinin regionda xarici siyasət prioritetlərinin daha düzgün bölmək istəyin Cənubi Qafqazla əməkdaşlığın siyasi istiqamətləərini seçməyə və nəticədə iqtisadi əlaqələrin daha zəruri olduğunu dərk edilməsinə gətirib çıxarırdı.

Yüksək səviyyəli görüşlər Avropa İttifaqının proqramınadaxil etmək haqqında qəti qərar qəbul etməyə imkan Verdi. 2004-cü il iyunun 14-də Azərbaycan, Gürcüstan və Ermənistan "qonşuluq" proqramının tam üzvü oldular.

Proqramın tam hüquqlu iştirakçısı olmaq prinsipinə uyğun olaraq Cənubi Qafqaz dövlətləri Avropa İnstitutların insan hüquqlarına hörmət, qanunların aililiyini təmin etmək, xarici siyasət sahəsində beynəlxalq hüquq normalarına hörmət, ölkədə iqtisadi və social dəyişikliklərin keçirilməsi kimi dəyərlərə ciddi riayət edildiyini nümayiş etdirmək məcburiyyətində idilər.

2005-ci il martın 2-də Avropa Komissiyası Avropa Şurasına "Avropa qonşuluq siyasəti- Ermənistan, Azərbaycan, Misir və Livana tövsiyələr" [2] adlı müraciət dərc etdirdi. Müraciətdə region dövlətlərinə korrupsiya və dələduzluqla mübarizə, qanunların aliliyinin möhkəmlənməsi və demokratik nəzarət, dövlət sektorunun modernləşməsi, keyfiyyətli və şəffaf idarəçilyin yaranması, bazar iqtisadiyyatının xeyrinə islahatların keçirilməsinin dəstəkələnməsi tövsiyə edilirdi.

Nəticə. Ümumilikdə, Cənubi Qafqaz dövlətləri üçün Avropa qoşuluq siyasətinin

DOI:10.30546/gdu.5.2025

əhəmiyyəti nə ilə izah edilir. Əvvəla Avropa qonşuluq siyasəti, onların xarici siyasətinin diversifikasiyasına yönəlməsinə səbəb olurdu. Bu da öz növbəsində Rusiya ilə müqayisədə Cənubi Qafqaz dövlətlərinə diqqətin artmasına, onlara dəstəyin daha da çoxalmasına səbəb olurdu. Digər tərəfdən Cənubi Qafqaz dövlətləri Avropaya inteqrasiyada israrlı olub, uzun müddətli perspektivdə Avropa İttifaqına daxil olmağa çalışırdılar.Bu dövlətlər Avropanın aparıcı siyasi və iqtisadi xəttiilə yaxınlaşmaq üçün yollar axtarırdılar. Xüsusilə Ermənistan ümid edirdi ki, onun Avropa İttifaqı ilə sıx təmasları Türkiyəyə yönələn təzyiqləri artıracaq, nəticədə Türkiyə Ermənistanla Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarınişğalı ilə bağlanan sərhədləri açaçaqdır. Avropa İttifaqı və onun Cənubi Qafqazdan olan tərəfdaşları Avropa qonşuluq siyasətinə digər dünya ölkələrinin regiona diqqətini cəlb etmək və siyasi iqtisadi problemlərinin həll etmək imkanı kimi yanaşırdılar.

Ədəbiyyat

1. Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti – Bakı; Şərq-Qərb, 2007
2. Communication de la Commission au Conseil. Politique europeenne de voisinage-Recommandationa pour /Armenie/Azerbaidjan et la Georgie, et pour /Egypte et le Liban.com (2005). 72 fianl.02.03.2005
3. European Commission , Communication “European Neighbourhood Policy Strategy Paper” com (2004) 373 fianl, Brussels, 12.5.20004
4. Napoletano P.Report on “Wider Europe – Neighbourhood: A New Framework for relations with our Elastern and southern Neighbours, European Parliament, committee on foreign Affair. Human Reights, common security and defence policy 5.11.2003 5.0378/2003 final.
5. Patten Chris, Solana Javier. Vider Europe, letter to the VAC, 07.08.2002
6. Алан Делетроз, аналитик Международной кризисной группы, комментарий на семинаре «Caucasian Preconditions for the development of a Commen European Rolucy towards the Sonthorn Caucasus», Heinrich Bolt Foundation, Brussels, 9.11.2004
7. Гайнанов Р.Р. Перспективы реализации программы «Восточное партнёрство» в странах Южного Кавказа на период 2014-2020 гг. Мир и политика №9 сентябрь 2013 г.
8. Патрик Дюроп. Европейскаякомиссия, ДСRelex, отдел по предоьврщению конфликтов и кризисному урегулированию, личная беседа, Брюссель, октябрь 2004.
9. Мамедли А. Демократия и надлежащее управление в контексте Восточного Партнёрства: Взгляд из Азербайджана // Восточное Партнёрство для Южного Кавказа/ Под. ред. И. Менагаришвили, Л.Асатиани – Тбилиси: Грузинский Биографический центр. 2011

SOUTH CAUCASUS COUNTRIES IN THE EU NEW NEIGHBOURHOOD PROGRAMME

Hajiyeva Khatira Ziya

Summary

In the context of expanding European integration, since 2002 the European Union has begun to develop new ways of cooperation.

At first, before the development of new mechanisms, the Good Neighbourhood Programme was based on the Partnership and Cooperation Agreement and the Tacis Programme.

The role of the New Neighbourhood Programme is to deepen cooperation with adjacent territories. In the "European Neighbourhood Policy" Programme "Discussions and

DOI:10.30546/gdu.5.2025

Strategy" within the framework of "Neighbourhood" published on 12 May 2004, the fundamental priorities for the implementation of the programme were outlined. The European Union allocated 225 million euros to the ENP in 2004.

In January 2004, the EU Council called for recommendations on the inclusion of Azerbaijan, Armenia and Georgia in the framework programme "Wider Europe - New Neighbourhood". Based on the EU Commission's appeal of 14 June 2004 "Strategy for the New Neighbourhood Policy", the Council adopted a resolution on the inclusion of all South Caucasus states in the Wider Europe - New Neighbourhood Programme.

СТРАНЫ ЮЖНОГО КАВКАЗА В ПРОГРАММЕ ЕС "НОВОЕ СОСЕДСТВО"

Гаджиева Хатира Зия кызы

Резюме

В контексте расширения Европейской интеграции с 2002 года Европейский Союз начал разрабатывать новые способы сотрудничества.

На первых порах, до разработки новых механизмов Программа "Добрососедское сотрудничество" базировалось на соглашении "О Партнерстве и Сотрудничестве" и Программе Tacis.

Роль Программы "Новое соседство" заключается в углублении сотрудничества с сопредельными территориями. В опубликовенной 12 мая 2004 года Программе "Политика еврососедства" обсуждения и стратегия" в рамках" Соседство" были обозначены основополагающие приоритеты для реализации программы. ЕПС. Европейским Союзом в 2004 г. было выделено 225 млн. евро.

В январе 2004 г. Совет ЕС прозвал подготовить рекомендации в связи с подключением Азербайджана, Армении и Грузии в рамочную Программу "Расширенная Европа - новое соседство". На основе обращения Комиссии ЕС от 14 июня 2004 года "Стратегия политики Нового соседства", Совет принял резолюцию о включении всех Южно Кавказских государств в Программу расширенная еврососедства.

Rəyçi:t.e.d.,prof.İbrahim Kazımbəyli
Daxil olma tarixi 08 oktyabr 2025-ci il

DOI:10.30546/gdu.5.2025

PEDAQOGİKA

UOT:37.

İBTİDAİ TƏHSİLDƏ DİSQRAFİYANIN ERKƏN DİAQNOSTİKASININ ELMİ-PEDAQOJİ ƏHƏMİYYƏTİ

dosent Aslanova Səbinə Ramiz qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ORCID 0009-0001-4052-1631
Sabina-aslanova@bk.ru

Xülasə: *Məqalədə disqrafiyanın mahiyyəti, səbəbləri və növləri elmi-nəzəri baxımdan təhlil olunur. Yazılı nitqin pozulmasının neyropsixoloji əsasları izah edilir və ibtidai təhsildə disqrafiyanın erkən diaqnostikasının vacibliyi vurğulanır. Məqalədə erkən diaqnostikanın uşağın fərdi inkişaf xüsusiyyətlərini müəyyən etmək və yazı prosesində yaranan psixoloji çətinliklərin qarşısını almaq baxımından əhəmiyyəti geniş şəkildə araşdırılır. Müəllim və loqopedin əməkdaşlığı, fərdi tədris proqramlarının hazırlanması və valideyn dəstəyi korreksiya prosesinin effektivliyini artırır. Erkən müdaxilə uşaqların təhsil uğuruna və psixoloji sabitliyinə müsbət təsir göstərir.*

Açar sözlər: disqrafiya, erkən diaqnostika, yazılı nitq, ibtidai təhsil psixolinqvistika
Keywords: dysgraphia, early diagnosis, written speech, primary education, psycholinguistics
Ключевые слова: дисграфия, ранняя диагностика, письменная речь, начальное образование, психолингвистика

Müasir dövrdə uşaqlarda öyrənmə çətinliklərinin ən çox rast gəlinən formalarından biri yazılı nitq pozulması – disqrafiya hesab olunur. Disqrafiya yalnız hərf və ya yazı səhvləri ilə məhdudlaşmır; bu, beyin fəaliyyətindəki funksional əlaqələrin, fonematik qavrayışın, vizual-kinestetik mexanizmlərin və nitq strukturunun pozulması ilə xarakterizə olunan kompleks bir neyropsixoloji problemdir [1, s.12]. Yazı prosesi insanın idrak, qavrama, yaddaş və motor koordinasiya sistemlərinin vəhdəti nəticəsində formalaşır. Bu sistemlərdəki istənilən pozulma yazılı nitqin düzgünlüyünə təsir göstərir.

Tədqiqatçılar qeyd edirlər ki, disqrafiya məktəb dövründə müşahidə olunsa da, onun formalaşması əsasən məktəbəqədər yaşda baş verir [2, s.21]. Uşağın danışıqda, eşitmədə və səsləri fərqləndirməkdə çətinlikləri varsa, bu hallar sonradan yazı prosesinə də sirayət edir. Buna görə də disqrafiyanın erkən profilaktikası məktəbəqədər yaşdan başlanmalıdır.

Disqrafiyanın yaranması çoxfaktorludur və bioloji, psixoloji və sosial amillərin birgə təsiri ilə əlaqəlidir. A.N. Kornev disqrafiyanı "şifahi nitqin, eşitmə və görmə analizatorlarının qarşılıqlı fəaliyyətində pozulma" kimi xarakterizə etmişdir [3, s.35].

Əsas səbəblər aşağıdakılardır:

- Fonematik eşitmə və tələffüz mexanizmlərinin zəif inkişafı;
- Görmə qavrayışının və analiz-sintez bacarığının pozulması;
- Nitqin qrammatik quruluşunun zəif formalaşması;
- Kiçik motorikanın geridə qalması;
- Psixoloji və emosional gərginlik;
- Beynin sol yarımkürəsinin funksional disbalansı [4, s.49].

Bəzi hallarda disqrafiya genetik meyllərlə və ya hamiləlik dövründə dölün oksigen çatışmazlığı, doğuş travmaları, infeksiyalar kimi nevroloji faktorlarla da əlaqədar olur [5, s.28].

Tədqiqatçılar disqrafiyanın bir neçə növünü fərqləndirirlər [6, s.15]:

DOI:10.30546/gdu.5.2025

1. Akustik disqrafiya – səslərin fonematik fərqləndirilməsində çətinlik, məsələn, “ş” və “s”, “b” və “p” kimi səslərin qarışdırılması.

2. Optik disqrafiya – hərflərin vizual qarışması (məsələn, “p” və “q”, “d” və “b”).

3. Aqrammatik disqrafiya – cümlə strukturunda qrammatik səhvlərin çoxluğu (“mən kitab oxuyuram” əvəzinə “mən kitab oxuyur”).

4. Motor disqrafiya – yazı zamanı əl hərəkətlərinin koordinasiyasının pozulması.

5. Məntiqi-semantik disqrafiya – fikir ardıcıllığının və mətnin mənasının pozulması.

Bu növlər bəzən bir-biri ilə kombinə şəklində müşahidə olunur və kompleks korreksiya tələb edir.

Yazılı nitqin formalaşması beynin müxtəlif sahələrinin inteqrasiyasına əsaslanır. Neyropsixoloq A.R. Luriya qeyd etmişdir ki, yazılı nitq çoxmərhələli funksional sistemin nəticəsidir və hər hansı bir mərhələdə pozulma yaranarsa, bütöv sistemin fəaliyyəti pozulur [7, p.44]. Disqrafiyanın neyropsixoloji əsasları fonematik eşitmə, vizual analiz, kinestetik yaddaş və motor proqramlaşdırmanın inkişaf səviyyəsi ilə birbaşa bağlıdır.

Disqrafiyanın profilaktikası uşaqlarda düzgün nitqin formalaşdırılması, diqqət, yaddaş, eşitmə və motor bacarıqların inkişafı ilə başlanmalıdır. Məktəbəqədər yaşdan etibarən uşaqla sistemli ünsiyyət, artikulyar məşqlər, ritmik oyunlar və qrafomotor fəaliyyətlər disqrafiyanın qarşısını almağa kömək edir [9, s.31].

Korreksiya mərhələsində loqopedik məşğələlər əsas yer tutur. Burada uşağın fərdi nitq xəritəsi hazırlanır, səslərin differensial tələffüzü, hərf-səs uyğunluğu, vizual qavrayış və motor koordinasiya üzərində iş aparılır. Psixoloq və pedaqoqun əməkdaşlığı, ailə dəstəyinin təmin olunması korreksiya prosesinin effektivliyini artırır.

Disqrafiya yalnız pedaqoji deyil, həm də neyropsixoloji yanaşma tələb edən mürəkkəb öyrənmə pozulmasudur. Onun erkən yaşda aşkarlanması uşağın yazılı nitq bacarıqlarının formalaşması üçün əsas şərtdir. Müəllim, loqoped və valideyn arasında qarşılıqlı əməkdaşlıq, fərdi yanaşma və sistemli korreksiya məşğələləri nəticəsində disqrafiyanın təsiri minimuma endirilə bilər. Erkən profilaktika və düzgün diaqnostika uşağın akademik uğurunun və psixoloji sabitliyinin əsas təminatçısıdır.

Erkən diaqnostika uşağın fərdi inkişaf xüsusiyyətlərini və yazı prosesində qarşılaşa biləcəyi psixoloji çətinlikləri vaxtında müəyyən etmək baxımından əsas əhəmiyyətə malikdir. Yazılı nitq pozulmalarının ilkin mərhələdə aşkarlanması yalnız texniki səhvlərin düzəldilməsi ilə kifayətlənmir - bu proses uşağın ümumi psixi və nitq inkişafına təsir edən amillərin sistemli qiymətləndirilməsini tələb edir. Erkən diaqnostika müəllim və loqoped arasında davamlı və strukturlaşmış əməkdaşlıq mexanizmini zəruri edir. Müəllim sinifdə uşaqların yazı davranışını diqqətlə müşahidə etməli, yazı nümunələrini qeyd etməli, müşahidələr əsasında fərdi fərqləri müəyyənləşdirməli və bu məlumatları loqopedlə paylaşmalıdır. Loqoped isə bu məlumatları analiz edərək, uşağın yazılı nitqindəki spesifik çətinlikləri və onların səbəblərini təyin edir.

Bu yanaşma nəticəsində uşaqlar üçün fərdi tədris proqramları hazırlanır ki, bu proqramlar onların yazı bacarıqlarını mərhələli şəkildə inkişaf etdirmək məqsədini daşıyır. Tədris proqramı uşağın nitq inkişaf səviyyəsinə uyğun olaraq xüsusi tapşırıqlar və məşğələlər ehtiva edir, eyni zamanda təlim materiallarını sadələşdirir və məqsədli olaraq nitq-motor bacarıqlarını gücləndirir. Erkən müdaxilə uşağın emosional vəziyyətinə də müsbət təsir göstərir: uşaqların özünüqiymətləndirməsi artır, təlim prosesinə olan marağı güclənir və emosional gərginlik azalır.

Nəticədə erkən diaqnostika yalnız disqrafiyanın dərinləşməsinin qarşısını almır, həm də uşağın təhsil uğurunun və psixoloji sabitliyinin əsasını qoyur. Bu səbəbdən ibtidai təhsil səviyyəsində sistemli və davamlı diaqnostik fəaliyyət məktəb proqramının vacib hissəsinə

DOI:10.30546/gdu.5.2025

çevrilməlidir. Belə sistemli yanaşma nəticəsində uşaqlar yalnız yazı bacarıqlarını deyil, həm də ümumi nitq və psixi funksiyalarını inkişaf etdirərək gələcək təhsil mərhələlərində uğurla iştirak edə bilirlər.

Ədəbiyyat

1. Aslanova S. R. Korreksiya pedaqogikasının əsasları. Bakı: ADPU, 2019.
2. Hüseynova N. Nitq pozulmaları və onların korreksiyası. Bakı: Elm və Təhsil, 2020.
3. İmanova L. Psixolinqvistika və yazı bacarıqları. Bakı: Maarif, 2018.
4. Корнев А. Н. Нарушения письма и чтения у детей. СПб.: Речь, 2003.
5. Лалаева Р. И. Дисграфия и дислексия у младших школьников. М.:Просвещение, 2005.
6. Levina R. E. Основы теории и практики логопедии. M., 1981.
7. Luria, A. R. The Working Brain. New York: Basic Books, 1973.
8. Frith, U.(1985). Beneath the surface of developmental dyslexia.Surface Dyslexia, 301–330.
9. Snowling, M. J., & Hulme, C. (2012). Interventions for children's language and literacy difficulties. IJLCD, 47(1), 27–34.

THE SCİENTİFİC AND PEDAGOGİCAL SİGNİFİCANCE OF EARLY DİAGNOSİS OF DYSGRAPHİA İN PRİMARY EDUCATİON

Aslanova Sabina Ramiz

Summary

Azərbaycanın davamlı inkişafını təmin etmək, gələcək inkişafın neft amilindən asılılığını azaltmaq indi qarşıda duran əsas vəzifələrdən biridir. Bununla bağlı strateji hədəfləri müəyyən edən zəruri normativ-hüquqi sənədlər qəbul edilmiş və yeniləri də hazırlanmaqdadır. Prezident İlham Əliyev 2021-ci il fevralın 2-də "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, müstəqil Azərbaycan iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşamaqdadır. Ölkədə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin edib. Son 17 ildə dinamik inkişaf əsasında ölkə iqtisadiyyatının həcmi 3 dəfədən çox böyüyüb, güclü sosial-iqtisadi infrastruktur yaradılıb, demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalıb, Azərbaycan yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənib.

Qəbul edilən sənəddə ən mühüm məsələlərdən birinin də rəqabətədavamlılıq olduğu göstərilir. Rəqabətədavamlılığın çox mühüm iştirakçısı olan insan kapitalına xüsusi diqqət yönəldilir. Sənəddə əsas hədəflərdən biri də insan kapitalına verilən önəmlə bağlıdır. İnsan kapitalını formalaşdıran amillərə önəm verilməklə onlar üzərində fokuslanılır. Bu prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı üç məqsədə nail olunması nəzərdə tutulur:

1. XXI əsrin tələblərinə uyğun təhsil.
2. Yaradıcı və innovativ cəmiyyət.
3. Vətəndaşların sağlam həyat tərzi.

Sənəddə qeyd edilir ki, dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır. Strateji dövrdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan "ömürboyu təhsil"ə xüsusi önəm verilməlidir. Erkən və məktəbəqədər təhsilin əhatə dairəsi genişlənməli və mərhələlərlə müvafiq yaşda olan bütün uşaqları əhatə etməlidir.

DOI:10.30546/gdu.5.2025

Cəmiyyətin inkişafının təminatçısı olan ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmə davam etdirilməli, məzmun islahatları dərinləşməli, inteqrativ tədris təcrübəsi inkişaf etdirilməlidir.

Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir.

İnsanların yüksək keyfiyyətli təhsil almaq imkanları genişləndirilməli, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalıdır, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalıdır.

Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı təmin olunmalıdır.

Göründüyü kimi sənəddə insan kapitalının formalaşdırılması və bilik iqtisadiyyatına əsaslanan yeni təhsil sisteminin, mühitinin və mexanizminin yaradılması, təhsilin bütün pillələri və səviyyələri üzrə həyata keçiriləcək lazımi fəaliyyət istiqamətləri əksini tapmışdır.

Hazırda təhsilin inkişafı istiqamətində əsaslı islahatlar həyata keçirilsə də, bütövlükdə tam və arzuolunan inkişafa nail olmaq hələ ki, mümkün olmamışdır. Bu baxımdan, ölkəmizdə təhsil sahəsində həllini gözləyən problemlər var və onların aradan qaldırılması vacibdir. Onu da qeyd edək ki, ali təhsil sahəsində üzə çıxan problemlər digər təhsil pillələri ilə sıx bağlıdır və onun həlli yalnız özünə bağlı deyil. Ona görə də ali təhsil sferasında olan problemlərin həlli digər təhsil pillələrində olan çatışmazlıqlarla birlikdə mümkün ola bilə[1:2]r.

Ümumi olaraq Azərbaycanın təhsil sistemində olan problemləri aşağıdakı kimi qeyd etmək olar:

- Təhsil sisteminin bütün mərhələlərində müxtəlif fənlər üzrə müəllim çatışmazlığı hələ də tam olaraq həll olunmamışdır;
- Ölkəmizdə məktəbəqədər təhsilə cəlb olunma səviyyəsi aşağıdır. Belə ki, məktəbəqədər təhsillə əhatə səviyyəsi 32%-ə çatıb. 2021-ci ildə kəndlərdə qeydiyyat səviyyəsi şəhər ilə müqayisədə (müvafiq olaraq 20,1% və 44,8%) aşağı olmuşdur;
- İlk peşə-ixtisas və orta ixtisas təhsili kurikulumları müasir tələblərə cavab vermir;
- Sərişteyə əsaslanmayan, əmək bazarında yetərincə rəqabətli olmayan əmək haqqı sistemi və maddi stimullaşdırma mexanizmlərinin adekvat olmaması təhsildə müəllim amilinin inkişafına mənfi təsir göstərmişdir;
-Təhsil sistemində tənzimləmə, idarəetmə və nəzarət funksiyalarının dəqiq müəyyən edilməmişdir;
- Ali təhsil müəssisələrində Boloniya sistemi ilə yanaşı köhnə tədris metodlarının da tətbiqi tədrisin keyfiyyətinin aşağı düşməsinə səbəb olur;
- Məktəblərdə və ali təhsil müəssisələrində xarici dillərin tədrisinin aşağı səviyyəsi ölkədə təhsil alan tələbələri dil biliyini inkişaf etdirməsi üçün əlavə kurslara üz tutmağa məcbur edir;
- Orta təhsil müəssisələrində tədrisin kifayət qədər effektli təşkil edilməməsi səbəbindən məktəblərə paralel olaraq repetitorluq kursları sürətlə artmaqdadır[2:3].
- Ali təhsil müəssisələrində əmək bazarının tələblərinə uyğun olmayan, səmərəsiz kadr hazırlığı ölkədə bəzi sahələrdə kadr çatışmazlığı ilə, bəzi sahələrdə isə işsizlik probleminin yaranması ilə nəticələnmişdir;
- Ali təhsil müəssisələrini bitirənlərin işlə təmin olunması istiqamətində məqsədyönlü fəaliyyətin zəif aparılması təhsil sisteminin ən böyük problemlərindən biri hesab oluna bilər.

Beləliklə, ölkəmizdə təhsil sisteminin inkişaf etdirilməsi istiqamətində davamlı addımlar atılsa da, bu və ya digər problemlər hələ də öz həllini tapmamışdır. Lakin bu

DOI:10.30546/gdu.5.2025

problemlərin həll olunması ölkənin davamlı inkişafı üçün vacibdir. Buna görə də ölkə rəhbərliyi bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirir.

Təhlil və Müzakirə

Azərbaycan təhsil sistemində son illər ərzində bir sıra müsbət dəyişikliklər müşahidə olunur[4:5]:

✓ Rəqəmsal təhsil platformalarının (məsələn, "Khan Academy Azərbaycan", "Virtual məktəb") tətbiqi;

✓ Milli Kurikulumun yenilənməsi, STEAM tədrisinə keçid;

✓ "Təhsildə inkişaf və innovasiyalar üzrə qrant layihəsi" çərçivəsində müəllim təşəbbüslərinin dəstəklənməsi;

✓ PISA PISA (Programme for International Student Assessment), və digər beynəlxalq qiymətləndirmələrdə iştirakın artırılması.

Bununla belə, aşağıdakı problemlər hələ də aktualdır:

✓ Regionlar üzrə təhsil keyfiyyətində fərqlər;

✓ Müəllim hazırlığı və xidmətdə olan müəllimlərin müasir metodikaya keçid çətinlikləri;

✓ Rəqəmsal bərabərsizlik (internetə çıxış, texnika çatışmazlığı);

✓ Şagirdlər arasında motivasiya və öyrənmə mədəniyyətinin zəifliyi.

Təhsildə bu və ya digər problemlərin azaldılması üçün aşağıdakı perspektiv tədbirlərin görülməsi təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına imkan yarada bilər:

- Yeni kurikulumların hazırlanması və tətbiqi;

- Dərsliklərin təkmilləşdirilməsi və müasir dövrə uyğunlaşdırılması, xüsusən ali təhsil müəssisələrində sovet dövründən qalma dərsliklərin yeniləri ilə əvəz olunması;

- Ali təhsil müəssisələrinə ixtisas seçimi prosesinə daha ciddi nəzarət olunması, xüsusən əmək bazarının tələbi ilə üst-üstə düşməyən ixtisasların başqaları ilə əvəz olunması, eləcə də abituriyentlərə ixtisas seçimi öncəsi ixtisaslarla bağlı ətraflı məlumatların verilməsi (ixtisasların gələcəkdə abituriyentlərə nə qazandıra biləcəkləri, iş prosesində hansı işləri görəcəkləri haqqında ətraflı məlumatları əks etdirən broşuraların yayımlanması ixtisas seçimi səhvlərinin aradan qaldırılmasına yardımçı ola bilər);

- Ali təhsil müəssisələrində tətbiq olunan Boloniya sisteminin təkmilləşdirilməsi;

-Müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və daha gənc kadrların tədris prosesinə cəlb olunması;

-Ucqar kəndlərdə yeni məktəblərin inşası və burada təhsilə cəlb olunma səviyyəsinin yüksəldilməsi (xüsusən qızların təhsilə cəlb olunması istiqamətində ardıcıl fəaliyyətin həyata keçirilməsi);

- Orta və ali təhsil müəssisələrində xarici dillərin tədrisinə yerli müəllimlərlə yanaşı xaricdə təhsil almış, eləcə də xarici müəllimlərin cəlb edilməsi və ya xarici dil müəllimlərinin peşəkarlıq səviyyəsini artırmaq üçün onların müvafiq ölkələrdə kurs keçmələrinə imkanlar yaradılması[6:7];

- "Müəllimlərin əlavə qazanc mənbəyi axtarması" probleminin həlli üçün əməkhaqlarının yüksəldilməsi, eləcə də, stimullaşdırıcı mexanizmlər və səmərəli monitorinq sistemi vasitəsilə müəllim fəaliyyətinin keyfiyyətinin artırılması;

- Təhsildə maliyyələşdirmə sisteminin tədrisin keyfiyyətinə görə müəyyən edilməsi;

Qeyd edək ki, orta və ali təhsil müəssisələri üçün nəzərdə tutulan bu təkliflərin həyata keçirilməsi dövlət orqanlarının üzərinə düşsə də, bu işdə məktəb müəllimləri və tələbələrin də fəallığı və onların proseslərdə yaxından iştirakı həmin problemlərin həllinin sürətlənməsinə imkan yarada bilər.

DOI:10.30546/gdu.5.2025

Nəticə

Təhsil sistemindəki çağırışlara cavab verə bilmək üçün kompleks, uzunmüddətli və strateji yanaşma tələb olunur. Aşağıdakı təkliflər ön plana çıxır:

✓ Müəllimlərin rəqəmsal və pedaqoji bacarıqlarının sistemli inkişafı üçün illik minimum təlim saatlarının tətbiqi;

✓ STEAM təhsili və layihə əsaslı öyrənmə metodikasının genişləndirilməsi;

✓ Regionlarda rəqəmsal infrastrukturun tam təmin olunması və genişzolaqlı internetin məktəblərə verilməsi;

✓ Ekoloji və inklüziv təhsilin dərs proqramlarına inteqrasiyası;

✓ Təhsil sisteminin beynəlxalq akkreditasiyalar və sertifikatlaşdırma modelləri ilə uyğunlaşdırılması;

✓ Şagirdlərin fərdi öyrənmə trayektoriyalarının yaradılmasına imkan verən texnoloji platformaların tətbiqi.

Bu islahatların yalnız dövlət tərəfindən deyil, özəl sektor, QHT-lər və beynəlxalq təşkilatlarla əməkdaşlıq şəklində həyata keçirilməsi daha səmərəli olacaq.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi (2023). *Milli Təhsil İnkişaf Strategiyası 2022–2030*.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı, 2013.
3. . Bunyadova F., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı, 2000.
4. lyasov M.İ. (2018). Pedaqoji peşəkarlıq və müəllim səriştəliliyinin müasir problemləri. Bakı, Elm və təhsil.
5. Kazımov N. (2006). Məktəb pedaqogikası. Bakı, Çaşıoğlu.
6. Paşayev Ə., Rüstəmov F. (2007). Pedaqogika. Bakı, Nurlan
7. Mehrabov A. və b. Pedaqoji texnologiyalar. Bakı, 2006.

NEW CHALLENGES IN THE EDUCATION SYSTEM

Mammadov Sabir Rustam, Cafarov Fazil Tatarxan,
Mammadov Vilayat Sabir

Summary

Globalization, rapidly developing technologies, demographic changes and transformations in the labor market are deeply affecting the modern education system. When traditional education models do not respond adequately to these changes, problems such as skills gaps, declining teaching quality and social inequality emerge. This article systematically examines the main challenges faced by the education system, and their causes and possible solutions are analyzed scientifically.

НОВЫЕ ВЫЗОВЫ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

Маммадов Сабир Рустамович, Джафаров Фазиль Татархан оглы
Маммадов Вилаят Сабир оглы

Резюме

Глобализация, стремительное развитие технологий, демографические изменения и трансформация рынка труда оказывают глубокое влияние на современную систему образования. Когда традиционные модели образования не отвечают этим изменениям, возникают такие проблемы, как дефицит квалифицированных кадров, снижение качества преподавания и социальное неравенство. В данной статье систематически рассматриваются основные проблемы, с которыми сталкивается система образования, а также проводится научный анализ их причин и возможных решений.

Rəyçi: f.ü.f.d., dosent Zeynalov Sahib Adıgözəloğlu
Daxil olduğu tarix 08 oktyabr 2025-c

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 95-98

DOI:10.30546/gdu.5.2025

UOT:37.

ƏQLİ GERİLİYİ OLAN UŞAQLARDA OXU VƏ YAZI POZULMALARININ XÜSUSİYYƏTLƏRİ

Qurbanova Könül Bayram qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
ORCID 0009-0008-1308-361
Konulqurban91@gmail.com

Xülasə: *Məqalədə əqli geriliyi olan uşaqlarda oxu və yazı proseslərində müşahidə edilən əsas çətinliklər, onların yaranma səbəbləri və psixoloji-pedaqoji xüsusiyyətləri araşdırılır. Müxtəlif dərəcəli əqli gerilik hallarında oxu və yazı bacarıqlarının inkişaf dinamikası təhlil olunur, həmçinin korreksiya və təlim prosesində tətbiq edilə biləcək metodlara nəzər salınır.*

Açar sözlər: əqli gerilik, oxu pozulmaları, yazı pozulmaları, disleksiya, disqrafiya, korreksiya.

Keywords: mental retardation, reading disorders, writing disorders, dyslexia, dysgraphia, correction.

Ключевые слова: задержка психического развития, нарушения чтения, нарушения письма, дислексия, дисграфия, коррекция

Bu gün təhsilin əsas məqsədlərindən biri hər bir uşağın fərdi inkişaf imkanlarını nəzərə almaq və ona öz potensialını göstərmək imkanı yaratmaqdır. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar-xüsusilə də əqli geriliyi olanlar-bu baxımdan daha çox diqqətə və fərdi yanaşmaya ehtiyac duyurlar. Onların təlim prosesində ən çox rast gəlinən çətinliklərdən biri oxu və yazı bacarıqlarının formalaşması ilə bağlı olur.

Əqli geriliyi olan uşaqlar dünyanı bir qədər fərqli şəkildə qavrayırlar. Onların qavrayış, diqqət, yaddaş və düşünmə prosesi yavaş gedir. Bu uşaqlar üçün sözlərin səsini tanımaq, hərfləri yadda saxlamaq, səslə hərf arasında əlaqə qurmaq çətin olur. Bəzən onlar bir sözü tanıyırlar, amma mənasını tam anlamırlar. Bu səbəbdən oxu və yazı bacarıqlarını öyrənmək uzunmüddətli və mərhələli iş tələb edir.

Müasir dövrdə psixoloqlar və pedaqoqlar (məsələn, L.S. Vıqotski, A.R. Luriya, M.S. Pevzner, R.E. Levina və Azərbaycan alimlərindən F.Əliyeva, S.Məmmədov və digərləri) sübut ediblər ki, belə uşaqların öyrənmə potensialı var — sadəcə olaraq, onlara fərqli üsullar, vizual və praktiki yanaşma lazımdır. Əgər tədris prosesi uşağın səviyyəsinə uyğun təşkil olunarsa, o zaman bu uşaqlarda da oxu və yazı bacarıqları tədricən formalaşır, nitq inkişaf edir və təlimə maraq yaranır.

Oxu və yazı bacarıqları sadəcə məktəb fənninin tərkib hissəsi deyil. Onlar uşağın ünsiyyət bacarığının, özünüifadə imkanlarının və dünyagörüşünün formalaşmasında əsas rol oynayır. Əqli geriliyi olan uşaqlarda bu bacarıqların zəifliyi yalnız akademik deyil, həm də sosial çətinliklərə səbəb olur-belə uşaqlar öz fikirlərini ifadə etməkdə, başqalarının dediklərini anlamaqda və cəmiyyətə inteqrasiya olmaqda çətinlik çəkirlər.

Bu mövzunun aktuallığı da məhz buradadır: əqli geriliyi olan uşaqlarda oxu və yazı proseslərinin öyrənilməsi yalnız pedaqoji deyil, həm də psixoloji, sosial və hətta emosional baxımdan vacibdir. Bu uşaqlara düzgün yanaşma onların gələcək həyat keyfiyyətini, təhsil uğurlarını və sosial münasibətlərini müəyyənləşdirir.

DOI:10.30546/gdu.5.2025

Əqli gerilik-insanın idrak fəaliyyətində, yəni düşünmə, anlama, yadda saxlamə və informasiyanı təhlil etmə qabiliyyətində yaranan davamlı ləngimə və ya pozulmadır. Bu hal uşağın ümumi inkişaf dinamikasına, xüsusilə də təlim və sosial uyğunlaşma bacarıqlarına ciddi təsir göstərir [1, s. 36]. Əqli geriliyi olan uşaqların psixoloji və pedaqoji inkişaf xüsusiyyətləri tipik inkişaf edən uşaqlardan əhəmiyyətli dərəcədə fərqlənir.

Tibbi baxımdan əqli gerilik mərkəzi sinir sisteminin orqanik zədələnməsi, prenatal və postnatal dövrlərdə baş verən travmalar, genetik və ya metabolik pozulmalar nəticəsində yarana bilər [4, s.42]. Pedaqoji baxımdan isə bu termin uşağın öyrənmə tempinin və idrak fəaliyyətinin yaş səviyyəsinə uyğun olmaması ilə xarakterizə olunur.

Əqli geriliyin ən çox istifadə olunan təsnifatı **yüngül**, **orta** və **ağır dərəcələrə** bölünür [5, s. 19]:

Yüngül dərəcə (debilitet) – uşaqlar sadə bilikləri mənimsəyə bilir, lakin analitik düşünmə, məntiqi əlaqə qurma bacarıqları zəif olur.

Orta dərəcə (imbesillik) – uşaqda nitq və ünsiyyət formaları məhduddur, müstəqil düşünmə demək olar ki, yoxdur.

Ağır dərəcə (idiotiyə qədər) – bu uşaqlar özünəxidmət bacarıqlarında, sosial münasibətlərdə və təlim fəaliyyətində ciddi məhdudiyyətlər göstərirlər [2, 122.]

Əqli geriliyi olan uşaqların ən səciyyəvi xüsusiyyətlərindən biri **idrak proseslərinin ləngliyi və qeyri-sabitliyidir**. Onlarda diqqət tez yayınır, yaddaşda saxlanan informasiya sürətlə unudulur, təfəkkür isə konkret vəziyyətlərlə məhdudlaşır. Bu səbəbdən onların oxu və yazı kimi yüksək psixoloji proseslərə əsaslanan fəaliyyətləri daha çətin formalaşır.

Əqli geriliyi olan uşaqlarda idrak prosesi — yəni qavrayış, yaddaş, diqqət, təfəkkür və nitq — bir-biri ilə qarşılıqlı əlaqədə, lakin natamam şəkildə inkişaf edir (3, s.9].

Qavrayış bu uşaqlarda çox vaxt səthi və fragmentar xarakter daşıyır. Onlar bir obyektin ümumi formasını görsələr də, onun hissələrini və xüsusiyyətlərini fərqləndirməkdə çətinlik çəkirlər. Məsələn, “kitab” sözünü eşidəndə yalnız “oxumaq” anlayışını düşünür, amma onun materialını, səhifələrini, funksiyasını təsəvvür etmir.

Yaddaş daha çox mexaniki səviyyədə fəaliyyət göstərir. Uşaqlar eşitdiklərini və gördüklərini çox çətin yadda saxlayır, lakin tez-tez təkrarlandıqda qısa müddətlik xatırlaya bilirlər.

Diqqət qeyri-sabitdir; uşaqlar tez yorulur, bir fəaliyyət növündən digərinə keçərkən əvvəlkini tam unuda bilirlər.

Təfəkkür əsasən konkret obrazlara əsaslanır. Abstrakt düşüncə və anlayışlararası əlaqələr onlarda çox zəif inkişaf edir. Məsələn, “heyvanlar” anlayışını ümumiləşdirməkdə çətinlik çəkir, “pişik”, “it”, “inək” kimi konkret obrazlarla məhdud qalırlar.

Nitq isə həm qrammatik, həm fonetik, həm də semantik cəhətdən zəif formalaşır. Söz ehtiyatı az, cümlə quruluşu sadə, qrammatik formalar isə çox vaxt səhv olur [1, s. 34.]

Bütün bu xüsusiyyətlər bir yerdə oxu və yazı proseslərinin formalaşmasına birbaşa təsir göstərir.

Oxu və yazı insan nitq fəaliyyətinin ən mürəkkəb formalarıdır. Oxu zamanı uşaq vizual simvolları (hərfləri) fonetik səslərlə əlaqələndirir, beynində sözün səsini və mənasını birləşdirir. Yazı zamanı isə bu proses əks istiqamətdə baş verir – fikir səsə, səs isə qrafik simvolla ifadə olunur [2, s. 67].

DOI:10.30546/gdu.5.2025

Bu fəaliyyətlər bir çox psixoloji sistemlərin birgə işləməsini tələb edir: görmə qavrayışı, fonematik eşitmə, motor bacarıqlar, diqqət və yaddaş, nitq və təfəkkür.

Əqli geriliyi olan uşaqlarda bu sistemlər arasında əlaqə zəif qurulduğuna görə oxu və yazı vərdişləri ləng, parçalı və səhvlərlə müşayiət olunur.

Sovet psixoloqları **L.S. Vıqotski** və **A.R. Luriya** əqli geriliyi olan uşaqlarda nitq və yazı proseslərinin inkişafını izah edən əsas elmi istiqamətin müəlliflərıdir.

Vıqotskinin "yaxın inkişaf zonası" anlayışına görə, uşaq müəyyən fəaliyyətləri təkbaşına edə bilməsə də, böyüklərin və ya müəllimin dəstəyi ilə onları yerinə yetirə bilər [1, s. 58]. Bu, əqli geriliyi olan uşaqlar üçün xüsusilə aktualdır, çünki onların öyrənmə potensialı məhdud olsa da, tam yox deyil.

A.R. Luriya isə nitq fəaliyyətini **beynin funksional sistemləri** ilə əlaqələndirərək göstərmişdir ki, oxu və yazı prosesləri beyin qabığının müxtəlif sahələrinin birgə işinin nəticəsidir. Bu sistemdəki hər hansı pozulma (məsələn, sol yarımkürədəki leksik və ya motor mərkəzlərin zəif fəaliyyəti) uşaqlarda yazı və oxu problemlərinə səbəb ola bilər [2, s. 105].

Əqli geriliyi olan uşaqlarda oxu və yazı bacarıqlarının inkişafına təsir edən bəzi amilləri sadalaya bilərik. Bu bacarıqların formalaşmasına bir sıra daxili və xarici amillər təsir göstərir: **Daxili amillər:** Sinir sisteminin yetkinlik səviyyəsi; İdrak proseslərinin inkişaf dərəcəsi; Nitq mədəniyyəti və lüğət ehtiyatı [3, s.41] **Xarici amillər:** Təlim mühitinin keyfiyyəti; Müəllimin yanaşma tərzi; Ailə münasibətləri və motivasiya səviyyəsi [5, s.28]

Əqli geriliyi olan uşaqların yazı və oxu fəaliyyətində bəzi əsas çətinliklərlə qarşılaşırlar bunlara fonematik səsləri fərqləndirməkdə çətinlik; hərflərin formal oxşarlığını qarışdırmaq; qrammatik strukturun pozulması; diqqətin və motivasiyanın tez itməsi; oxuduğunu və yazdığını anlamama aid edilir.Məsələn, uşaq "balıq" sözünü oxuyarkən "baliq" deyə bilər. Yazıda da eyni səhvi təkrarlayır. Əqli geriliyi olan uşaqlarda oxu və yazı pozulmalarının diaqnostikasının əhəmiyyəti olduqca vacibdir.Diaqnostika bu uşaqlarda tədris prosesinin başlanğıc mərhələsində aparılmalıdır. Müəllim və loqoped uşağın oxu, yazı, diqqət və yaddaş səviyyəsini müəyyən edərək fərdi tədris planı qurmalıdır. Ən geniş istifadə edilən metodlar: Fonematik eşitmə testləri; Qısa mətnlərlə oxu tapşırıqları Diktant və sərbəst yazı nümunələrinin təhlili; Qavrayış və diqqət testləri (məsələn, "Voord" və "Leiter" testləri) (4, s. 36).

Əqli geriliyi olan uşaqlarda oxu və yazı prosesi çoxsaylı psixoloji və neyroloji faktorların qarşılıqlı təsiri altında formalaşır. Onların öyrənmə tempi ləng, idrak prosesi qeyri-sabit, qavrayış və diqqət isə məhduddur. Buna baxmayaraq, düzgün pedaqoji yanaşma və sistemli korreksiya vasitəsilə bu bacarıqlar inkişaf etdirilə bilər.

Əsas məsələ uşağı "bacarmır" kimi deyil, "fərqli öyrənir" kimi qəbul etməkdir. Müəllim bu uşaqlarda motivasiyanı və marağı oyatmaqla, tədricən oxu və yazı proseslərini mənimsətməyə nail ola bilər.

Ədəbiyyat

1. Vıqotski, L.S. (1982). *Psixologiya və pedaqogika məsələləri*. Moskva: Pedqoqika. səh. 68
2. Luriya, A.R. (1973). *Human Brain and Mental Processes*. New York: Harper & Row. səh. 155
3. Piaget, J. (1970). *Psychology and Pedagogy*. New York: Viking Press. səh. 108
4. Həsənov, M. (2005). *Uşaq inkişafı və təlim problemləri*. Bakı: Elm Nəşriyyatı. səh. 62
5. Əlizadə, N. (2004). *İnkişaf psixologiyası və pedaqogika*. Bakı: Təhsil Nəşriyyatı. səh. 40
6. Məmmədova, S. (2010). *Xüsusi pedaqogika: Oxu və yazı pozulmaları olan uşaqların təlimi*. Bakı: Təhsil Nəşriyyatı. səh. 35

DOI:10.30546/gdu.5.2025

7. Əliyev, R. (2012). *Əqli geriliyi olan uşaqlarda nitq və yazı pozulmalarının korreksiyası*. Bakı: Elm və Təhsil. səh. 67
8. Thompson, G. (2015). *Special Education for Children with Intellectual Disabilities*. London: Routledge. səh. 50
9. Smith, J., & Brown, L. (2013). *Reading and Writing Difficulties in Children with Cognitive Impairments*. New York: Springer. səh. 55
10. Vinq, P. (2008). *Early Intervention Strategies for Children with Learning Disabilities*. Oxford: Oxford University Press. səh. 42

FEATURES OF READING AND WRITING DISORDERS IN CHILDREN WITH MENTAL RETARDATION

Gurbanova Konul Bayram gizi

Summary

The article examines the main difficulties observed in the reading and writing processes of children with mental retardation, their causes and psychological and pedagogical characteristics. The dynamics of the development of reading and writing skills in cases of various degrees of mental retardation are analyzed, and methods that can be applied in the correction and training process are also considered.

ОСОБЕННОСТИ НАРУШЕНИЙ ЧТЕНИЯ И ПИСЬМА У ДЕТЕЙ С ЗАДЕРЖКОЙ ПСИХИЧЕСКОГО РАЗВИТИЯ

Гурбанова Кёнуль Байрам кызы

Резюме

В статье рассматриваются основные трудности, наблюдаемые в процессе чтения и письма у детей с задержкой психического развития, их причины и психолого-педагогические особенности. Проанализирована динамика развития навыков чтения и письма при различных степенях умственной отсталости, а также рассмотрены методы, которые могут быть использованы в коррекционно-обучающем процессе.

Rəyçi: ped.ü.f.dok.dos. S.R.Aslanova
ADPU-nun Xüsusi təhsil kafedrasının 8 oktyabr 2025 -cü il tarixli iclasın 2 saylı protokolu
Daxil olma tarixi 08 oktyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 99-105

DOI:10.30546/gdu.5.2025

UOT:37.

KOQNİTOLOGİYA İNSANLARIN KOQNİTİV FƏALİYYƏTİNİN NƏTİCƏLƏRİNİN QAVRANILMASINI ÖYRƏNƏN ELM KİMİ

dosent Yusifova Tünzalə Vəli qızı
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialı
veliqizi@mail.ru

Xülasə: *Məqalədə koqnitologiyanın müstəqil elm sahəsi təşəkkül tapması və müstəqil metodoloji baza kimi formalaşması prinsipləri təhlil edilmişdir. Bu məqsədlə məqalədə koqnitologiyanın yaranmasını şərtləndirən səbəblər və əsas nəzəri mənbələr təhlil edilmişdir. Məqalədə dilçilik və digər elmlər sahəsində keyfiyyət dəyişiklikləri kontekstində intensiv inkişaf edən koqnitiv yönümlü fənlərarası tədqiqatın yeni sahəsi - koqnitivistikanın strukturu araşdırılır. Məqalədə koqnitologiya koqnitiv elmlərinin inteqrasiyası və idrak prosesi və koqnitiv təcrübələri haqqında biliklərin təşkilinin öyrənilməsinin paradiqmal modeli kimi nəzərdən keçirilir. Müəllif həm də koqnitiv elmin əsas paradiqmal xüsusiyyətlərinin təsvirini verir. Məqalədə koqnitologiya bilik və idrak, insanların dünyanı qavrayışının nəticələri və məlumatların düşünülmüş və sistemləşdirilmiş tərzdə toplanması, şüurda müəyyən şəkildə reprezentasiya olunmuş, mental və ya koqnitiv proseslərin əsasını təşkil edən predmet-idrak fəaliyyəti haqqında elm kimi izah edilmişdir.*

Açar sözlər: koqnitivistika, koqnitologiya, paradiqm, antroposentrizm, bilik, koqnitiv psixologiya, freym, informasiya

Key words: cognitivism, cognitology, paradigm, anthropocentrism, knowledge, cognitive psychology, frame, information

Ключевые слова: когнитивистика, когнитология, парадигма, антропоцентризм, знание, когнитивная психология, фрейм, информация

XX əsrdə dilçiliyin ziddiyyətli, çoxvektorlu inkişafı əsrin sonlarında dilin öyrənilməsində sistemlilik və antroposentrizm ideyasının prioritet mövqeyinin ümumi şəkildə tanınmasına və bununla əlaqədar olaraq bütün dil sahələri və kateqoriyalarında özünü göstərən insan fəaliyyətinin izlərinin axtarışına gətirib çıxardı. Bu, həm tədqiq olunan materialın, həm də ona yanaşmaların müxtəlifliyi və fərqli təsvir üsullarından istifadədə özünü göstərirdi.

Müasir dilçilikdə antroposentrik paradiqmin bərqərar olması ilə əlaqədar tədqiqatçıların əsas diqqəti dil və insan təfəkküründün qarşılıqlı əlaqəsi və asılılığının, yeni şeylərin öyrənilməsi proseslərində dilin rolunun, eləcə də insanın dünya haqqında biliklərinin formalaşması və inkişafının öyrənilməsinə yönəlmişdir. "Dildə insan" probleminə dönüş XX-XXI əsrlər dilçiliyində əsas istiqaməti, dil işarələri vasitəsi ilə məlumatın kodlaşdırılması, mənimsənilməsi, işlənib hazırlanması və transformasiya xüsusiyyətlərini öyrənən koqnitiv dilçiliyin yaranmasına səbəb oldu [1].

Ötən əsrin sonlarında koqnitiv elmin yaranması və koqnitiv istiqamətin yayılması koqnitiv dilçiliyin inkişafında əlamətdar hadisə olmuşdur. Yeniliyinə baxmayaraq, koqnitiv elm zəngin tarixə malikdir. İnsan intellekti, təfəkkür qanunları, bilik mənbələri və onun əldə olunması prosesləri çoxdan məntiq, fəlsəfə, fiziologiya və psixologiya elmlərində öyrənilməsinə cəhdlərin olmasına baxmayaraq, koqnitiv elm çərçivəsində köhnə suallar müasir elmdə yeni elmi biliyin paradiqmlərinin yaranması ilə əlaqədar olaraq yeni mahiyyət qazanaraq inkişaf edir, tamamlanır, şərh olunur və yenidən düşünülür.

Müasir tədqiqatçılar ən mürəkkəb və sirli təbiət hadisələrindən birinin - insan şüuru və onun əsasında duran mexanizmlərin təbiətini və təfəkkür və xarici aləmi dərketmə

DOI:10.30546/gdu.5.2025

xüsusiyyətlərini izah etməyə çalışırlar. Səylərini cəmləşdirmək üçün müxtəlif istiqamətlər və elm sahələrinin alimləri inteqrasiya olunmuş koqnitiv elm çərçivəsində birləşməyə çalışırlar [2]. Son onilliklər ərzində adi dil daşıyıcısının dünyanı necə dərk və təsnif etdiyini, bütün həyat təcrübəsini dildə necə istifadə etdiyini və bilikləri necə topladığını izah etməyə çalışan bir çox model yaradılmışdır [3]. Bu problemlərin həlli yollarının axtarışında tez-tez artıq məlum olan modellərdən, məsələn, freym, ssenari, prototip, koqnitiv metafor və s. nəzəriyyələrdən istifadə edilir və işlənir [4].

Koqnitiv istiqamətin mühüm xüsusiyyəti, onun tərəfdarlarının qeyd etdiyi kimi, "diqqətin obyektdən subyektə köklü keçididir, yəni nitqin yaranması və qavranılması subyektin onun malik olduğu biliklər əsasında həyata keçirilən konstruktiv fəaliyyəti kimi qəbul edilir" [5, s. 404].

Koqnitiv dilçilikdə dil insanın koqnitiv fəaliyyətinin növlərindən biri, insanın dil vahidlərində olan məlumatları kodlaşdırdığı və dekodlaşdırdı koqnisiya vasitəsi hesab olunur. Dildə təfəkkür strukturları öz-özlüyündə mövcud deyil, özünəməxsus forması olan işarələr şəklində maddiləşir. Dilin bu ikitərəfliliyi onu insanın koqnitiv fəaliyyətinin digər növlərindən fərqləndirir. Dil informasiyanın ifadə olunduğu və işləndiyi işarələr sistemi olduğundan onun öyrənilməsi semiotik və koqnitiv yanaşmaların qarşılıqlı əlaqəsinə diqqət yetirməyi tələb edir. Koqnitiv dilçilikdə nitq fəaliyyəti şüurun daxili koqnitiv strukturlarının (koqnitiv modellər, mental reprezentasiyalar və s.) manipulyasiya etmək kimi qəbul edilir.

Müasir elmin və elmi fəaliyyətin indiki inkişaf mərhələsinin əsas xüsusiyyətləri, bir tərəfdən, onun texnolojiləşdirilməsi prosesinin intensiv davam etməsi, müxtəlif təcrübə yönümlü tətbiqlərin genişlənməsi, digər tərəfdən, insanın təbiətini dərk etmək üçün səylərin artması ilə səciyyəvidir. XX əsrin dilçiliyi onun cildini əhəmiyyətli dərəcədə dəyişdirən bir sıra "dönüşlərə" məruz qalmışdır. Ənənəvi məsələlərə antroposentrik bucaq altından yanaşma, öz növbəsində, həm bir sıra yeni problemlər ortaya çıxarmış, həm də linqvistik biliyinin strukturunda blokların düzülüşünə təsir etmişdir. Beləliklə, qnoseoloji məsələlər periferik mövqedən ön plana keçdi, onların dərk edilməsi və inkişafı prinsipcə yeni əsaslarla həyata keçirilməsinə başlanıldı. Sonuncular, fikrimizcə, əsl "koqnitiv inqilabı" və ya "koqnitiv dönüşü"nə səbəb olan üç əsas amilin nəticəsi kimi formalaşmışdır. Dilçilik sahəsində bu, onun inkişafının qeyri-klassik formasına keçidi şərtləndirən qnoseologiyanın antropolojiləşdirilməsidir və bu ayrı-ayrı elm sahələrində, o cümlədən dilçilikdə inqilabi dəyişikliklər kimi şərh edilə bilər. Nəticədə elmin siması, onun obyekti və subyekti, onun praktika ilə əlaqəsi əhəmiyyətli dərəcədə dəyişdi, biliyin obyekti və subyekti arasındakı əlaqə onların bir-birinə nüfuz etməsinə, koqnitiv prosesin subyektivləşməsinə və relyativləşməsinə doğru dəyişdi ki, bu da öz növbəsində həqiqətin dərk edilməsi və vasitələrinə təsir göstərməyə bilməzdi. Cəmiyyətin inkişafının əsası kimi biliyin, xüsusən də elmi biliyin rolunun görünməmiş şəkildə artması ilə ictimai həyatın bütün sahələrinin informasiyalaşdırılması ilə bağlı kapitalın maddi formasından onun yeni formasına - biliyə (informasiyaya) keçid istiqamətində cəmiyyətdə baş verən keyfiyyət dəyişikliklərini qeyd etməmək olmaz.

Koqnitiv elmin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, o, insanın koqnitiv və əqli fəaliyyəti ilə bağlı problemlərin son dərəcə geniş spektrini əhatə edir, intellektual qabiliyyətlərin təbiəti, mahiyyəti, fəaliyyəti və inkişafını öyrənməkdə maraqlı olan müxtəlif elm sahələrini birləşdirir. Bu fənlər arasına həm birbaşa əlaqəli olanlar, həm də ənənəvi olaraq əlaqəli hesab edilməyənlər və yalnız antroposentrik paradiqm şərçivəsində yaxınlaşma meylləri müşahidə olunan elmlər də daxildir. Koqnitologiya olduqca mürəkkəb daxili əlaqələrlə səciyyələnən kompleks bir hadisədir. Koqnitiv elmini fərqləndirən metodlar və vəzifələrin müxtəlifliyi onu deməyə əsas verir ki, onun vahid bir fenomen kimi dərk edilməsi yalnız metanəzəri, fəlsəfi-metodoloji təhlil səviyyəsində mümkündür.

DOI:10.30546/gdu.5.2025

Keçən əsrin sonları fizika, riyaziyyat, kibernetika, informatika, biologiya və s. kimi dəqiq elmlər sahəsində çoxsaylı araşdırmalara, nəzəri və təcrübi nəticələrə səbəb olan informasiya nəzəriyyəsinin sürətli inkişafı ilə səciyyələnir və informasiyanın əldə edilməsi, işlənib hazırlanması və saxlanmasını öyrənən bir sıra fənlərin inkişafına səbəb olmuşdur. Bu fənlərdən biri də müasir koqnitiv dilçiliyin tərkib hissələrindən birinə çevrilmiş, dil vahidlərin strukturu və məzmununu təsvir etmək və izah etmək üçün köhnə ənənəvi kateqoriyalara yenidən nəzərdən keçirərərk, idrak, qavrayış, təfəkkür, müşahidə, təxəyyül, psixi prosesləri və digər prosesləri ön plana çıxaran koqnitiv elm və ya koqnitologiya idi.

Koqnitiv psixologiya koqnitiv dilçiliyin formalaşması üçün ən mühüm mənbələrdən birinə çevrilmişdir. Dilin fəaliyyəti həqiqətən psixoloji mexanizmlərə əsaslanır, çünki dil insanın dünya və ya biliklə qarşılıqlı əlaqəsinin kateqoriyalara bölünmüş təcrübəsinin toplanması və qorunmasında ən mühüm həlqədir və hər hansı bir təcrübənin əsasını qavrayış və yaddaş təşkil etdiyindən, dil və idrakın psixologiya çərçivəsində öyrənilən perseptiv xüsusiyyətlərini nəzərə almadan öyrənilməsi qeyri-mümkündür. .

Deməli, koqnitiv psixologiyanın təsiri dilin tədqiqində elmi paradiqmlərin dəyişməsinə gətirib çıxarmış ki, bu da koqnitiv dilçilik çərçivəsində düşüncə proseslərinin əks olunması və ifadə formasına çevrilmişdir. Beləliklə, ötən əsrin sonlarında dilə insanın idrak fəaliyyətində iştirakı nöqteyi-nəzərindən, təkcə şüur və düşüncə proseslərinə ən təbii çıxışı təmin edən bir vasitə kimi deyil, həm də şüurun strukturları haqqında bildiyimiz və onları istənilən təbii dildə təsvir etməyə imkan verən mental proseslərin verbal ifadə vasitəsi kimi baxmağa ehtiyac yaranmışdır.

İdrak və bilik problemlərinə marağın gücləndirilməsi və diqqətin artırılmasında, onun başa düşülməsinə yanaşmaların yenilənməsində xüsusi rol təkamül qnoseologiyasına - fənlərarası istiqamətə aiddir, onun daxilində insanın koqnitiv qabiliyyətlərinin ümumi xüsusiyyətləri - qavrayış, təfəkkür, şüur, yaddaş yeni mövqedən öyrənilir. Bu epistemologiya koqnitiv elmdə, informasiya texnologiyalarında effektivliyini sübut edən müasir təkamül və koqnitiv konsepsiyalarının sintezinə yönəlmişdir. Bu kontekstdə insanın idrakı, Ç.P.Merkulovun da yazdığı kimi, "ətraf mühitə və insanların daxili koqnitiv vəziyyətlərinə informasiya nəzarətinin spesifik forması kimi çıxış edir. Bu nəzarətin effektivliyi bəşəriyyətin koqnitiv və sosial-mədəni təkamülü zamanı inkişaf edən koqnitiv qabiliyyətləri ilə təmin edilir" [6, s.8].

XX əsrin ortalarında elmi metodologiyada yeni bir istiqamət – koqnitologiya intensiv inkişaf mərhələsinə qədəm qoymuşdur. Bilik, idrak, informasiya, insan şüuru və təfəkkürü və müvafiq sistemlərin daşıyıcısı kimi insan beyni onun diqqət mərkəzində yer alır. E.S. Kubryakovanın fikrincə, koqnitologiya "bilik və idrak, insanların dünyanı qavrayışının nəticələri və məlumatların düşünülmüş və sistemləşdirilmiş tərzdə toplanması, şüurumuzda müəyyən şəkildə reprezentasiya olunmuş, mental və ya koqnitiv proseslərin əsasını təşkil edən predmet-idrak fəaliyyəti haqqında elmdir" [7, s. 34].

Koqnisiya koqnitiv dilçiliyin əsas anlayışıdır, o, bilik və təfəkkürün dildə təcəssümünü əhatə edir və buna görə də kqonisiya və koqnitivizmin koqnitivistika ilə sıx bağlıdır. İnsan haqqında bütün elmlərin kompleksində, ilk növbədə, dil və insan fəaliyyətinin digər növləri arasındakı münasibətlərin qarşılaşması artıq bir aksioma çevrilmişdir. Dil, mədəniyyət və cəmiyyətlə müqayisədə koqnitivistlərə insanın davranışını anlamaq üçün geniş imkanlar yaradır [8, s.9].

Koqnitiv dilçilik aşağıdakı sualları qoyur və cavab verməyə çalışır: a) bilik şüurumuzda necə reprezentasiya olunur?; b) məlumatlar sistemi hansı vahidlərdən ibarətdir?; c) təfəkkür prosesində insan hansı vahidlərlə əməliyyat aparır?

DOI:10.30546/gdu.5.2025

Müasir elmi paradiqmdə insanın koqnitiv fəaliyyətinin problemləri, insan beynində baş verən proseslər və bu proseslərin nəticəsi kimi biliklər fərqli aspektlərdən işıqlandırılır. Elmi biliyin inkişafındakı köklü dəyişikliklər koqnitiv inqilabı adlanır. Bununla bağlı N. Xomski yazır ki, "koqnitiv inqilab ağıl/beyin vəziyyətlərinə və onların insan davranışını necə şərtləndirdiyinə, xüsusən də koqnitiv vəziyyətlərə: bilik, anlama, şərh vəziyyətlərinə və s. aiddir" [9, s.37].

Dil və insanın mental təşkilinin sarsılmaz vəhdətini qəbul edən koqnitiv dilçilik N.Xomskinin "dil strukturunun xüsusi tədqiqi insan dərrakəsini başa düşməyə yardım edə bilər" [10, s.6] ideyasını metodoloji prinsipə çevirmiş oldu. Bi, əslində, dil və psixologiyanın ittifaqının, yəni dil hadisələrinin insanın koqnitiv qabiliyyətini işıqlandırmaq imkanlarının etirafıdır.

Koqnitiv dilçilik koqnitiv elmi ilə eyni suallara cavab verən bir elmi sahə kimi yaranmış, lakin o, həmin suallara dillə bilavasitə əlaqədə nəzərdən keçirir. Eyni zamanda, koqnitiv dilçilik təcrid olunmuş dil formaların tədqiqinə əsaslanmır, onları insanın dünyaya empirik baxışını, onun dildə konseptuallaşma yollarını, bütün idrak təcrübəsini və ətraf mühitə təsirləri özündə cəmləşdirən kateqoriyalar və məlumatların işlənməsi mexanizmlərini necə əks etdirməsi mövqeyindən baxır.

Koqnitivizmə görə, insan işlənib hazırlanması sistemi kimi, insanın davranışı isə onun daxili vəziyyətinin terminləri ilə izah və şərh olunur. Problemin həlli bilavasitə dilin istifadəsi ilə bağlı olduğundan, dilin koqnitivistlərin diqqət mərkəzinə düşməsi tam təbiidir [11, s.17-33]. Koqnitologiyada əsas diqqət insan koqnisiyasına yönəlib, təkcə müşahidə edilə bilən hərəkətləri deyil, onların zehni təsvirlərini, simvollarını və biliyə əsaslanan hərəkətləri yaradan insan strategiyalarını öyrənir. İnsanın idrak aləmi onun hər hansı insan fəaliyyətinin nitq-təfəkkür əsasını təşkil edən dilin fəal iştirakı ilə baş verən davranış və fəaliyyəti ilə öyrənilir. Beləliklə, koqnitivizmin ən mühüm prinsiplərindən biri insanın zehni fəaliyyətində müəyyən sxemlər, proqramlar və planlar əsasında rəhbər tutaraq, məlumatı aktiv şəkildə qavrayan və işləyib hazırlayan kimi şərh edilməsidir. Koqnitiv elmin özü isə insan beynindəki psixi prosesləri idarə edən ümumi prinsiplər haqqında elm kimi baxılmağa başladı.

İnsan təcrübəsinin kateqoriyalaşmasıı insanın koqnitiv fəaliyyəti ilə bağlıdır, çünki insanın idrak fəaliyyəti zamanı əldə edilən informasiyalar dil formalarında ifadəsini tapır. Ümumilikdə dil şüuru və sözün mənası onun fraqmenti kimi insanların sosial təcrübəsi, dünya haqqında biliklər, ifadə formasının strukturlaşması və qeydə alınması və fərdi şüurda biliyin faktiki saxlanması formasıdır. Koqnitiv prosesləri dil ilə əlaqəlidir və "dildə maddiləşmiş" proseslər formasını alır [12]. Beləliklə, koqnitiv dilçilik müasir antroposentrik paradiqm çərçivəsində koqnitivizm əsasında yaranır, linqvistik tədqiqatların üfüqlərini əhəmiyyətli dərəcədə genişləndirir. XX əsrdə dilə onun insanın koqnitiv fəaliyyətində iştirakı baxımından baxmaq zərurəti yaranmışdır. Subyekt-idrak fəaliyyəti zamanı əldə edilən informasiyanı insana müxtəlif kanallarla qəbul edir, lakin koqnitiv dilçilikdə tədqiqat predmeti onun yalnız dil formalarında əks olunan və qeydə alınan hissəsidir.

Təfəkkür fəaliyyətinin bir çox nəticələrinin verbal şəkildə ifadə edildiyi üçün deyil, "biz şüurun strukturları haqqında yalnız bu strukturlar haqqında ünsiyyət qurmağa və onları istənilən təbii dildə təsvir etməyə imkan verən dil sayəsində bilirik" (13, s.21), yəni şüur və təfəkkür proseslərinə ən təbii çıxışı təmin edən dildir.

Koqnitiv dilçiliyin qarşısında aşağıdakı vəzifələri dayanır:

1) biliyin konseptuallaşdırılması və kateqoriyalaşdırılması proseslərinin tədqiqi, mədəniyyət konstantlarının ifadə vasitələri və üsullarının təsviri;

2) xalqların konseptsferlərini təşkil edən universal konseptlər sisteminin təsviri;

DOI:10.30546/gdu.5.2025

3) bütün konseptual sistemin yaradılması üçün ən vacib, müəyyən bir xalqın konseptual fəzasını təşkil edən konseptlərin müəyyənləşdirilməsi və təsviri.

Dünya və insan haqqında biliklər, dil bilgisi və dil haqqında biliklər, reallığın konseptuallaşması prosesləri, dünyanın və onun fraqmentlərinin konseptual mənzərəsinin formalaşma mexanizmləri, habelə onların dildə obyektivləşdirilməsi müasir koqnitiv dilçiliyin nəzərdən keçirdiyi əsas sahələrdən biridir.

Elmi ədəbiyyatın və koqnitiv aspektdə aparılan tədqiqatların təhlili belə qənaətə gəlməyə imkan verir ki, indiki inkişaf mərhələsində koqnitiv dilçiliyin qarşısında üç problem durur: a) dil biliklərinin təbiəti; b) dil biliklərinin mənimsənməsi; c) dil biliklərindən necə istifadə olunması.

Buna görə də tədqiqatlar, V. A. Maslovanın yazdığı kimi, əsasən aşağıdakı istiqamətlərdə aparılır: 1) dil işarələrində təqdim olunan biliyin növləri və tipləri və bu işarələrdən biliyin çıxarılması mexanizmi, yəni şərh qaydaları; 2) dil işarələrinin yaranması və inkişafı şərtləri və onların fəaliyyətini tənzimləyən qanunlar; 3) dil işarələri və onlarda əks olunan mədəni reallıqlar arasındakı əlaqə [14, s. 26]. Beləliklə, koqnitiv dilçiliyin mərkəzi problemini "dərrakə – dil – reprezentasiya – konseptuallaşma – kateqoriyalaşma – qavrayış" koqnitiv zəncirdə asılılıqlar və münasibətlərin təyin edilməsi ilə bağlı sualların ardıcıllığı kimi təqdim etmək olar.

Koqnitiv elm aşağıdakı fundamental fikrə əsaslanır: təfəkkür freymlər, ssenarilər, modellər və digər bilik strukturları kimi daxili (mental) təsvirlərin manipulyasiyaları təmsil edir. Deməli, biz strukturlaşmış biliklərin qlobal kvantları kimi konseptlərlə düşünürük.

Bu fakt dilçiliyin özünə də təsirsiz ötüşməmişdir: dilçilikdə dəyər yönümlərində dəyişiklik baş vermi və beləliklə, insanın təfəkkür prosesləri və sosial əhəmiyyətli hərəkətlərini öyrənmək istəyi yaranmışdır. İnformasiyanın alınması, işlənib hazırlanması və saxlanması prosesləri linqvistik tədqiqatların mərkəzində dayanır. Bundan əlavə, insan yeni informasiyanı aldıqda onu artıq şüurunda olanlarla əlaqələndirir və bununla da yeni mənalar yaradır. Koqnitiv dilçilikdə əməliyyat vasitəsi yaddaşın əməliyyat vahidləri – freymlər, konseptlər, geştaltlar və s-dir. Beləliklə, koqnitiv dilçilik dünyanın mənzərəsini modelləşdirməyə, dil şüurunun strukturunu modelləşdirməyə yönəlmişdir. Təfəkkür problemlərinin həlli bilavasitə dilin istifadəsi ilə bağlıdır, çünki dil semiotik baxımdan kommunikativ sistemlərin ən güclüsüdür. O, nəinki məlumat və biliklərin ötürülməsi və qəbuluna vasitəçilik edir, həm də insanın xaricdən aldığı məlumatları işləyib hazırlayır, yəni xüsusi dil freymləri yaradır. Beləliklə, dil dünyanın dil mənzərəsini yaratmaq üçün yaddaşdakı biliklərin təşkili və sistemləşdirilməsi üçün imkanlar yaradır.

Koqnitiv elm təfəkkür fəaliyyətinin prosesləri və nəticələrini onların həyata keçirilməsinin bilavasitə reallığında müəyyən etmək vəzifəsini öz üzərinə götürür. Onun vəzifəsi şüurda dünyanın kateqoriyalaşmasını təyin etmək, realı koqnisiya və qiymətləndirmə proseslərini və onların dünya və insan fəaliyyəti ilə münasibətlərində yaranan şüurun konseptual strukturlarını təsvir etməkdir. Koqnitiv dilçiliyi "dilin ümumi koqnitiv mexanizmi kimi mərkəzində yer aldığı istiqamət" kimi müəyyən etmək olar [11, s.21]. Əsas müddəa dil və koqnisiya arasında qırılmaz əlaqədir [7, s.35]. Diqqət mərkəzinə dilin insanın ətraf dünya haqqında biliklərinin mənimsənməsi, işlənməsi, təşkili, saxlanması və istifadəsi ilə əlaqəli olan struktur və işlənmə aspektləri düçür. Deməli, təfəkkür və beyin haqqında ən müxtəlif məlumatların fəal iştirakı ilə ifadə olunan koqnitiv dilçiliyin fənlərarası olması labüddür. Müəyyən dil faktlarının koqnitiv dilçilik baxımından izahı və təsviri digər elmlərin empirik məlumatları ilə uyğunlaşdırılmalıdır.

İşin elmi nəticəsi: Koqnitologiya koqnitivistikanın tərkib hissəsi kimi ayrı-ayrı elm sahələrinin inteqrasiyasının nəticəsidir, amma onlardan metodu, predmeti və s. fərqlənir.

DOI:10.30546/gdu.5.2025

Məsələ eyni obyektə malik müxtəlif bilik sahələrinin ümumiləşdirilməsindən deyil, konkret koqnitiv elmlərə münasibətdə metaelm kimi çıxış edən yeni elm sahəsinin yaranmasına səbəb olan keyfiyyətcə yeni sintezdən gedir. Koqnitiv elm üç səviyyəli struktur kimi təqdim oluna bilər: konkret koqnitiv elmlər, kqonitologiya (metaelm) və fəlsəfi epistemologiya. Koqnitiv elm konkret koqnitiv elmlər ilə fəlsəfə və dilçilik arasındakı əlaqəyə vasitəçilik edir. Mənbəyi psixologiya elmi ilə sıx bağlı olan koqnitologiya ilkin olaraq fəaliyyətin koqnitiv aspektlərini, ətraf gerçəkliyin qavranılması, dərk edilməsi və başa düşülməsi problemlərini öyrənən elm sahəsi kimi yaranmışdır.

İşin elmi yeniliyi: Məqalədə "koqnitologiya" anlayışı konkret mənbələr üzrə tədqiq edilmiş və ümumilikdə mənbələrdəki ayrı-ayrı fikirlər ümumiləşdirilmişdir.

İşin tətbiqi əhəmiyyəti: Məqalənin nəticələrindən dil və mədəniyyətin əlaqəsi, koqnitiv tədqiqatları üzrə aparılacaq məqalə və tezisləri üçün yardımçı mənbə kimi çıxış edə bilər.

Ədəbiyyat

1. Краткий словарь когнитивных терминов / Е.С. Кубрякова, В.З. Демьянков, Ю. Г. Панкрац, Л. Г. Лузина; Под общ. ред. Е. С. Кубряковой. - Москва : Филол. фак. МГУ, 1996. - 245 с.
2. Gleitman L., Liberman M. The cognitive science of language: Introduction // An invitation to cognitive science. – Cambridge (Mass). 1995. – Vol. 1: Language. – P. 32-45; Heine B. Cognitive foundations of grammar. – Oxford, 1997. – 325 p.
3. Лакофф Дж. Мышление в зеркале классификаторов // Новое в зарубежной лингвистике. - М., 1988. - Вып. 23: Когнитивные процессы. - С. 118-143; Лакофф Дж., Джонсон М. Метафоры, которыми мы живем // Язык и моделирование социального взаимодействия. - М., 1987. - С. 113-128; Филлмор Ч. Фреймы и семантика понимания // Новое в зарубежной лингвистике. - М., 1988. - Вып. 23: Когнитивные процессы. - с. 80-118; Херадствейт Д., Нарвесен У. Психологические ограничения на принятие решений // Язык и моделирование социального взаимодействия. - Москва, 1987. - с. 69-81; Шпербер Д., Уилсон Д. Релевантность // Новое в зарубежной лингвистике. - Москва, 1988. - Вып.23: Когнитивные процессы. - с. 119 -140; Олкер Х.Р. Волшебные сказки, трагедии и способы изложения мировой истории // Язык и моделирование социального взаимодействия. - Москва, 1987. - с.146-155.
4. Баранов А.Н., Добровольский Д.О. Постулаты когнитивной семантики // Известия РАН. Сер. лит. и яз. - М., 1997. - № 1. - с. 8-17; 36. Михальчук И.П. Концептуальные модели в семантической реконструкции: (Индоевропейское понятие "закон") // Известия РАН. Сер. лит. и яз. - Москва, 1997. - № 4. - с. 27-39; Берестнев Г.И. О "новой реальности" языкознания // Науч. докл. высш. шк. Филол. науки. - Москва, -1997. - № 4. - с. 25- 133; Почепцов О.Г. Языковая ментальность: способ представления мира // Вопросы языкознания. - Москва, 1990. - №6. - с. 28- 37; Seiler H. A functional view on prototypes // Conceptualization and mental processing in Language. Berlin, 1993. – P. 27- 45
5. Лингвистика на исходе XX века: Итоги и перспективы: Тезисы международной конференции: В 2-х т. - Москва, 1995. -536 с.
6. Меркулов, И. П. Когнитивные способности / И. П. Меркулов ; Рос. акад. наук, Ин-т философии, Гос. ун-т гуманитарных наук. - Москва : Ин-т философии РАН, 2005. 179 с.
7. Кубрякова Е.С. Начальные этапы становления когнитивизма: лингвистика - психология - когнитивная наука // Вопросы языкознания. 1994. № 4. С. 34.
8. Маслова В.А. Когнитивная лингвистика: учеб. пособие / В.А. Маслова. – 2-е изд. – Мн.: ТетраСистемс, 2005. – 256 с.

DOI:10.30546/gdu.5.2025

9. Хомский Н. Язык и мышление. Язык и проблемы знания. – Благовещенск: БГК Им. И. А. Бодуэна Де Куртенэ, 1999, -252 с.
10.Хомский Н. Язык и мышление / Пер. с англ. Б.Ю. Городецкого; Под ред. В.В. Раскина, С предисл. В.А. Звегинцева, Моск. гос. ун-т им. М.В. Ломоносова. Филол. фак. Публикации Отд-ния структурной и прикл. лингвистики. Под общ. ред. В.А. Звегинцева. — Москва : Изд-во Моск. ун-та, 1972. — 122 с.
11.Демьянков В.З. Когнитивная лингвистика как разновидность интерпретирующего подхода // Вопросы языкознания, 1994. – №4. – с.17-33.
12.Кубрякова Е.С. Язык и знание: На пути получения знаний о языке: Части речи с когнитивной точки зрения. Роль языка в познании мира / Рос. Академия наук. Ин-т языкознания. – М.: Языки славянской культуры, 2004. – 560 с.
13.Кубрякова Е.С. Части речи с когнитивной точки зрения. - Москва, 1997 – 331 с.
14.Маслова В. А. Когнитивная лингвистика: учебное пособие. – Минск: ТетраСистемс, 2014. – 256 с.

COGNITOLOGY AS A SCIENCE THAT STUDIES THE UNDERSTANDING OF THE RESULTS OF HUMAN COGNITIVE ACTIVITY

Yusifova Tunzala Vali

Summary

The article deals with the principles of the formation of cognitology as an independent scientific field, and its formation as an independent methodological base. The article analyzes the reasons and main theoretical sources that conditioned the emergence of cognitology for this purpose. The article analyzes the structure of cognitivism, a new field of cognitively oriented interdisciplinary research that is intensively developing in the context of qualitative changes in linguistics and other sciences. The article considers cognitology to be a paradigmatic model for the integration of cognitive sciences and the study of the organization of knowledge about the cognitive process and cognitive experiences. The author also describes the main paradigmatic features of cognitive science. The article presents cognitology as a science about knowledge and cognition, the results of people's perception of the world and the deliberate and systematized collection of information, the subject-cognitive activity that is represented in consciousness in a certain way and forms the basis of mental or cognitive processes.

КОГНИТОЛОГИЯ КАК НАУКА, ИЗУЧАЮЩАЯ ВОСПРИЯТИЕ РЕЗУЛЬТАТОВ КОГНИТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ ЧЕЛОВЕКА

Юсифова Тунзала Вели кызы

Резюме

В статье анализируются принципы формирования когнитологии как самостоятельного научного направления и как самостоятельной методологической базы. С этой целью в статье анализируются причины и основные теоретические источники, приведшие к возникновению когнитологии. В данной статье рассматриватеся структура когнитивистики – новой области когнитивноориентированных междисциплинарных исследований, интенсивно развивающихся в контексте качественных изменений в области лингвистики и других наук. В статье выделяется когнитология как парадигмальная модель интеграции когнитивных наук и организации знания о процессе познания и когнититивных практиках. Автором также дано описание основных парадигмальных признаков когнитивной науки. В статье рассматривается когнитология как наука о знании и познании, представляющая собой результаты восприятия людьми окружающего мира, а также целенаправленный и систематический сбор информации, представленной в сознании определенным образом, и субъектно-познавательную деятельность, составляющую основу психических или когнитивных процессов.

Rəyçi: filol.f.d., dos.Cəmil Babayev
Daxil olma tarixi 10 iyul 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 106-109

DOI:10.30546/gdu.5.2025

UOT:37.

NİTQİN ÖYRƏDİLMƏSİNDƏ KOMMUNİKATİV METODUN YERİ

dosent Kadiyeva Sevda Əbdülsəməd qızı
Azərbaycan Tibb Universiteti
seva.kadi@mail.ru

Xülasə: *Kommunikativ bacarıqlara yiyələnmək üçün müəllim aşağıdakı tapşırıqlara müraciət edə bilər: tələbələrin müəllimin qısa suallarına tez cavab verdiyi və ya sualları özləri başlatdıqları reaksiya məşqləri; şəkil əsasında hekayə tərtib etmək; müəllim tərəfindən qeydə alınan və ya təkrarlanan dialoqa qulaq asıb bundan sonra özləri növbə ilə onu yenidən qururlar, bəzən sözləri əvəz edirlər. Bu cür tapşırıqlar kifayət qədər çox ola bilər. Ancaq bəzi tövsiyələr var ki, onlara əməl etmədən hər hansı bir çalışma, tələbələrin hansısa bir fəaliyyəti səmərəsiz ola bilər. Fəaliyyətin uğurlu olması üçün aşağıdakı tövsiyələrə əməl olunması arzuolunandır: dərslərdə həmişə mehribanlıq mühitinin yaradılması; hər dərsə nitqin daxil edilməsi; həmsöhbətin bilik səviyyəsindən kənara çıxılmaması; tələbənin tənqid edilməməsi və sözünün kəsilməməsi.*

Açar sözləri: tapşırıq, nitq, söz, təhsil, tədris, bacarıq, fəaliyyət, dialoq, mətn
Keywords: task, speech, word, education, teaching, skill, activity, dialogue, text
Ключевые слова: задание, речь, слово, образование, обучение, навык, деятельность, диалог, текст

Giriş. Son illərdə təhsil almaq üçün Azərbaycana gələn əcnəbi tələbələrin sayının artmasını müşahidə edirik, bu da təhsilverənlərdən bilik və bacarıqlarının artırılmasını tələb edir, əcnəbi tələbələrə Azərbaycan dilinin tədrisi üçün müəyyən vəsaitlərin hazırlanması, yeni tədris metodların tətbiqi üçün zərurət yaradır. Bu sayədə təhsilimizin və Azərbaycanın xarici ölkələrdə tanınması, tədris sistemimizin inkişafı və yenilənməsi üçün yeni imkanlar yaranır.

Metodologiyanın inkişafının hazırkı mərhələsi öyrənmənin optimallaşdırılması problemini ən yaxşı şəkildə həll etmək üçün dil və öyrənmə metodlarını bir-birinə uyğunlaşdırmaq üçün müxtəlif tədris metodlarına (induktiv və deduktiv) yönəlmə ilə xarakterizə olunur.Müasir metodologiyada yeni (ikinci) dilin öyrədilməsi vasitəsi kimi kommunikativ metoda xüsusi yer verilir. Danışıq fəaliyyəti kimi nitqin özünəməxsus xüsusiyyətləri vardır. Spesifik xüsusiyyətlər motivasiya, fəallıq, məqsədyönlülük, fəaliyyətlə əlaqə, təfəkkürün kommunikativ funksiyası ilə əlaqə, şəxsiyyətlə əlaqə, situasiya, müstəqillik, temp və s. Kommunikativlik bir metodologiya kateqoriyası olaraq nitq fəaliyyətinin digər məzmun xətləri - dinləmə, oxuma, yazma üçün tədris yeni metodlarının yaradılmasına əsas ola bilər. Çünki nitqdə baş verən dəyişiklik və yeniliklər müəllimlərdən bu dəyişikliklərə uyğun metodların yaradılması və öyrədilməsini tələb edir. Bununla belə, bu metodun köməyi ilə həll olunan əsas vəzifə şifahi nitqin bilik və bacarıqlarını mənimsəməkdir, digər məqsədlərə nail olmaq isə köməkçi xarakter daşıyır.

Qeyd edildiyi kimi, dilin praktiki mənimsənilməsi nitq fəaliyyətinin dinləmə, danışma, oxuma, yazma kimi növlərində nitq bacarıqlarının mənimsənilməsi zərurəti daxildir. Azərbaycan dilinin öyrənilməsinin ilk addımlarından biri də əcnəbi tələbələrə şifahi və yazılı nitq bacarıq və vərdişləri kompleksinin öyrədilməsidir. Buna isə ancaq aydın məşqlər sistemi, situasiya oyunlar, təlim və təcrübə üçün dialoqların qurulması ilə nail olmaq mümkündür.

Tələbələr arasında ən təsirli və həyata keçirilməsində çox maraq doğuran məşq növləri fşfğıdakılardır:

DOI:10.30546/gdu.5.2025

1. "Aşağıdakı suallara cavab verin." Bu cür məşqləri yerinə yetirərkən təkcə aktiv nitq fəaliyyəti deyil, həm də intensiv düşüncə prosesləri stimullaşdırılır.

2. “Dostunuzdan soruşun...”, “Müəyyən lüğətdən, feilin zamanlarından, müəyyən sual sözlərindən istifadə edərək lövhədə duran tələbəyə sual verin” və s.

3. "Təsəvvür edin ki, siz oxu zalındasınız. Əgər sizdən bir iş (nəyisə etmək, nəyisə ötürmək) xahiş olunsa, nə deyərdiniz?" Və ya “Nə üçün bir şey edə bilməyəcəyinizi izah edin (harasa get, dəvəti qəbul et, dərsliyi ver və s.).

Bu cür məşqlərdə qrup həyatının praktiki ifadələrindən istifadə etmək bacarığını yoxlamaq asandır: "Qrup yoldaşınız çox sakit oxuyur. Eşitmə qabiliyyətiniz zəifdir. Oxucuya nə deyəcəksiniz?" və ya "Sən dərsə gecikmisən. Müəllimə nə deməlisən?"

4. "Bu obyektləri (hadisələri, şəxsləri və s.) müqayisə edin" və ya "Eşitdikləriniz haqqında öz fikrinizi bildirin. Eşitdiklərinizlə razılaşın və ya razılaşmayın, ifadənizi motivasiya edin."

Başlanğıc qruplarda yuxarıda göstərilən yaradıcı məşqlərin sistemli şəkildə yerinə yetirilməsi situasiyalı nitq təcrübəsinin imkanlarını genişləndirir və güclü praktiki nitq bacarıqlarının inkişafına kömək edir.

Didaktik və rollu oyunlar ilkin mərhələdə dilin öyrədilməsi vasitələrindən biri kimi çıxış edir. Tələbələrin maraq və yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi vasitəsi kimi didaktik və rollu oyunlar əcnəbi dil qruplarında təlimin ilkin mərhələsində Azərbaycan dilinin tədrisində səmərəli metod və üsullardan biridir. Diqqətlə düşünülmüş və yaxşı həyata keçirilən oyun dil materialının tətbiqinə və möhkəmləndirilməsinə, müxtəlif nitq fəaliyyətlərində (dinləmə, danışma, oxuma, yazma) müvafiq bilik və bacarıqların formalaşmasına kömək edir. Dərsdə oyunların əsas məqsədi fonetikanın, lüğətin, qrammatikanın sürətli və möhkəm mənimsənilməsi, şifahi nitqin inkişaf etdirilməsi üçün edilən məşqlər (həm hazırlıqlı, həm də spontan) və tərcümədir. Belə oyunlar təlimin müxtəlif mərhələlərində istifadə oluna bilər. Təlimin birinci və ikinci pillələrində fonetika, lüğət və qrammatika üzrə oyunlar keçirilməlidir, bu oyunlarda səslərin, sözlərin, cümlələrin tələffüz bacarıqlarının məşq edilməsi, lüğətin toplanması və ən çox istifadə olunan nitq modellərinin mənimsənilməsi; üçüncüsü, əsas diqqət nitqin inkişafına və toplanmış lüğətin keçilmiş qrammatik strukturlarda praktiki istifadəsinə verilir.

Bütün oyunları quruluşuna görə qruplara bölmək olar. Müəyyən bir oyunun seçimi dərsin məqsədləri, məzmunu, mərhələsi ilə müəyyən edilir və auditoriyanın çıxışı, tələbələrin reaksiyası, maneələri və onların hazırlıq səviyyəsi əsasında müəllim tərəfindən müəyyən edilir. Didaktik və rollu oyunlar müxtəlif linqvistik hadisələri başa düşməyə kömək edən oyun situasiyaları yaratmaq üçün qeyri-məhdud imkanları ehtiva edir. Buna görə də, onları tələbələrin idrak fəaliyyətinə fəal təsir göstərən digər texnika və vasitələrlə bərabər tutmaq olar. Metodoloji baxımdan dil öyrətməkdə rollu oyunun böyük faydası var. Rollu oyun sabit didaktik quruluşa (təhsil və peşə-pedaqoji məqsədlərə) malik olan sosial-psixoloji təlimdir. Metodologiyada rollu oyunun didaktik strukturu dedikdə onun komponentlərinin - məqsədlərin, məzmunun, rolların, sosial-psixoloji və didaktik şəraitin, mərhələlərin məcmusu başa düşülür. Birinci mərhələ rollu oyunun hazırlanması, ikincisi oyunun aparılması, üçüncüsü isə oyunun nəticələrinin kollektiv müzakirəsidir.

Dialoji nitq üzərində işləyərkən müxtəlif təlim tapşırıqları yerinə yetirilir ki, onların məqsədi leksik vahidləri, qrammatik materialı, şablon ifadələri bacarıqla işlətmək və təbii ki, konkret situasiyada dialoq aparmaq bacarığını inkişaf etdirməkdir. Rollu oyunun tələbləri bunlardır: a) tələbələrin dil bilik səviyyəsinə uyğun olmalıdır; b) nitqin stimulaşdırılmasını ehtiva etməlidir; c) ipucu ehtiva etməlidir; d) maraq və təxəyyülünü oyatmaq, həyat təcrübəsini nəzərə almaq.

DOI:10.30546/gdu.5.2025

Sözlərin və yığılmış leksik materialın öyrənilməsi prosesi dilin tədrisində böyük rol oynayır. Hər hansı bir dili öyrənərkən sözlərin əzbərlənməsi prosesində təkrarın rolu hər kəsə yaxşı məlumdur. Sözlərin yaxşı öyrədilməsinə və möhkəmləndirilməsinə baxmayaraq, müəyyən müddətdən sonra əlavə möhkəmləndirmə aparılmasa tələbələr tərəfindən öyrənilən leksik baza unudulur.

Bu sözlərin öyrənilməsi prosesinin xüsusiyyətləri ilə izah olunur. Sözlərin yalnız izah və möhkəmlənməsi nəticəsində onlar hələ də "uzunmüddətli yaddaş" deyilən sferaya düşmür və müəyyən müddətdən sonra unudulur. Və yalnız sözlərin sonrakı düzgün təşkil edilmiş təkrarının köməyi ilə kifayət qədər güclü müvəqqəti əlaqələrin formalaşmasına, sözlərin nitq fəaliyyətində və müəyyən vaxt intervallarında sərbəst istifadə oluna biləcək dərəcədə yadda saxlanmasına nail olmaq olar. Əvvəllər öyrənilmiş leksik material həm oxu, həm də qrammatika dərslərində müxtəlif leksik məşqlərin yerinə yetirilməsi prosesində təkrarlanmalıdır. Mətnləri seçərkən, onların lüğəvi təkrar imkanları nəzərə alınmalıdır, yəni məşqlərin yaddaşda təkrarlanan lüğətin bərpasına və nitq fəaliyyətində istifadəsi üçün zəruri olan söz ehtiyatı ilə əməliyyatlara nə qədər töhfə verdiyini nəzərə almaq lazımdır.

Nəticə. Beləliklə, sözləri təkrarlamaq üçün ən təsirli məşqləri müəyyən etmək üçün əvvəllər öyrənilmiş aktiv lüğəti təkrarlamaq üçün aşağıdakı təlim sistemlərini qeyd etmək lazımdır:

1. Tələbələrin yaddaşında leksik materialın bərpasına və onun nitqin konkret mövzusu ilə əlaqələndirilməsinə yönəlmiş məşqlər. Bu, müəllimin tapşırığına uyğun olaraq tələbələr tərəfindən əvvəllər öyrənilmiş sözlərin qruplaşdırılması ola bilər;

2. Tələbələrə əvvəllər öyrənilmiş leksik materialdan söz, cümlə daxilində istifadə etmək bacarığını təmin edən tapşırıqlar. Bu məşqlərə aşağıdakılar daxil ola bilər: təkrar söz ehtiyatı ilə ifadələr və cümlələr qurmaq, təkrar söz ehtiyatını cümlələrlə əvəz etmək, təkrar sözlər olan cümlələri Azərbaycan dilindən ingilis dilinə və ingilis dilindən Azərbaycan dilinə tərcümə etmək (şifahi və yazılı);

3. Tələbələrə əvvəllər öyrənilmiş lüğətdən real ünsiyyət aktına yaxın şəraitdə istifadə etmək imkanı verən məşqlər. Məsələn, lüğətin təkrarı prosesində tələbələrə aşağıdakı tapşırıqlar verilə bilər: verilmiş situasiyaya uyğun dialoqu tamamlamaq, dialoqda təkrarlanan sözlərdən istifadə etmək; müəyyən bir vəziyyətlə bağlı dialoqda əvvəlki dərslərdə öyrənilmiş sözlərdən istifadə etmək; verilmiş situasiya üzrə monoloqda lüğət ehtiyatından istifadə etmək və s.

Lüğətin təkrarı üsulları leksik materialın özünün təbiətindən, qrupun şəraitindən, müəllimin lüğətin təkrarı üçün ayırdığı vaxtdan və s. asılı olaraq müəyyən dərəcədə dəyişə bilər. Bununla belə, bütün hallarda lüğətin təkrarı üsulları tələbələrin zehni və nitq fəaliyyətini maksimum dərəcədə aktivləşdirməli və ilk növbədə söz ehtiyatına, bütün təkrarlama metodlarına əsaslanan müxtəlifliyə əsaslanmalıdır. Tələbələr tərəfindən həyata keçirilən müxtəlif nitq fəaliyyətləri onların dili daha yaxşı qavramasına kömək edir. Danışıq nitqinin qavranılması və dərk edilməsinin özü mürəkkəb zehni fəaliyyət, intensiv yaddaş işi ilə müşayiət olunur. Dil formasının müvəffəqiyyətlə qavranılması və nitqin mənasını başa düşməsi üçün bacarıqları inkişaf etdirmək, ötürülən məlumatın mənası haqqında düşünmək vərdişini formalaşdırmaq və qarşıya qoyulan məqsəddən asılı olaraq diqqəti yönləndirmək lazımdır.

DOI:10.30546/gdu.5.2025

Ədəbiyyat

1. Бабанский Ю.К. Выбор методов обучения в средней школе/ Ю.К. Бабанский. – М.: Политиздат, 1981. -176 с.
2. Наумова О.В. (Институт языкознания РАН) Развитие методики преподавания иностранных языков: обзор основных направлений.с.153 (https://iling-ran.ru/library/sborniki/for_lang/2014_06/7.pdf)

О РОЛИ КОММУНИКАТИВНОГО МЕТОДА В ОБУЧЕНИИ РЕЧИ

доцент Кадиева Севда Абдулсамед кызы

Резюме

Для развития коммуникативных навыков преподаватель может прибегнуть к следующим заданиям: упражнения на реакцию, в которых студенты быстро отвечают на короткие вопросы преподавателя или сами задают вопросы; составление рассказа по картинке; прослушивание диалога, записанного или повторенного преподавателем, с последующим его самостоятельным воспроизведением. Таких заданий может быть довольно много. Однако существуют рекомендации, без соблюдения которых любая работа, любая деятельность студентов может оказаться неэффективной. Для успешной деятельности желательно соблюдать следующие рекомендации: всегда создавать на занятиях атмосферу дружелюбия; включать речевую деятельность в каждое занятие; не выходить за рамки уровня знаний студентов; не критиковать и не перебивать их.

THE PLACE OF THE COMMUNICATIVE METHOD IN TEACHING SPEECH

Associate Professor Kadiyeva Sevda Abdulsamad

Summary

To master communicative skills, the teacher can resort to the following tasks: reaction exercises, in which students quickly answer the teacher's short questions or initiate questions themselves; composing a story based on a picture; listening to a dialogue recorded or repeated by the teacher and then reconstructing it themselves, sometimes replacing words. There can be quite a lot of such tasks. However, there are some recommendations, without following which any work, any activity of students may be ineffective. For the activity to be successful, it is desirable to follow the following recommendations: always create an atmosphere of friendliness in the lessons; include speech in each lesson; do not go beyond the level of knowledge of the interlocutor; do not criticize and do not interrupt the student.

Rəyçi: prof.N.H.Hacıyeva
ATU-nun Azərbaycan dili kafedrasının 4.07.2025-ci il tarixli iclasın 07 saylı protokolu
Daxil olma tarixi 16 sentyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 110-115

DOI:10.30546/gdu.5.2025

FİLOLOGİYA ELMLƏRİ

UOT:80.

AZƏRBAYCAN DİLİNDƏ ƏRƏB, FARS, RUS VƏ AVROPA MƏNŞƏLİ ALINMA SÖZLƏR

p.ü.f.d. Abdullayeva Səminə Sabir qızı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Samina.abdullayeva.80@mail.ru

Xülasə: *Məqalə göstərilir ki, alınmalar Azərbaycan dilinin fonetik, tələffüz-deyiliş, qrafik və morfoloji qaydalarının tələbləri əsasında qaydaya salınır, həm orfoepik və həm də orfoqrafik tənzimlənmə üsullarına uyğunlaşdırılır. Əks halda arasıkəsilmədən dilə daxil olan alınmalar böyük bir xaos yaradar. Azərbaycan dilinə daxil olan alınmaların əsas mənbələri ərəb-fars və rus-Avropa dilləridir. Bu qrupdan olan leksik vahidlərin özünəməxsus struktur tərkibi və orfoepik normaları vardır. Ərəb mənşəli sözlər bir çox hallarda fars sözləri ilə qaynayıb-qarışmış tərkibdə Azərbaycan dilinə daxil olaraq bu dildə intensivləşmiş, yeni norma mühiti yaratmışdır. Odur ki, vaxtı ilə Azərbaycan dilinə daxil olmuş ərəb mənşəli sözlərin müəyyən qismi adaptasiya olunaraq öz mənşəyindən kəskin şəkildə fərqlənmişlər. Azərbaycan dilində intensivləşərək sabit normaya düşmüş ərəb mənşəli sözlər cəmiyyət həyatının müxtəlif sahələrinə dair anlayışlar bildirir. Fars mənşəli sözlərin Azərbaycan dilinə daxil olması uzun zamanlar ərzində mövcud olan ictimai-siyasi, iqtisadi və mədəni əlaqələrin nəticəsidir. Həmçinin, fars dilinin poeziya standartlarından istifadə meyillərinin artması Azərbaycan dilində yazılan əsərlərdə fars sözlərindən istifadə olunmasına axarlı bir yol açmışdır.*

Açar sözlər: alınma leksika, morfoloji qaydalar, leksik vahidlər, sabit norma

Ключевые слова:заимствованная лексика, морфологические правила, лексичес кие единицы, фиксированная норма

Key words: borrowed vocabulary, morphological rules, lexical units, fixed norm

Azərbaycan dilinin lüğət tərkibinin inkişafında, genişlənməsində və zənginləşməsində alınma leksikanın da mühüm rolu vardır. Alınma leksika lüğət tərkibinə necə gəldi, pərakəndə şəkildə daxil olmur. Alınmalar, ilk növbədə mənbə dildəki struktur tərkibinə uyğunluğunu saxlamaqla Azərbaycan dilinin norma və qaydalarına adaptasiya edilərək işlədilir. Azərbaycan dilinə daxil olan alınmaların əsas mənbələri ərəb-fars və rus-Avropa dilləridir. Bu qrupdan olan leksik vahidlərin özünəməxsus struktur tərkibi və orfoepik normaları vardır. Bunları müxtəsər şəkildə aşağıdakı kimi ümumiləşdirmək olar: 1) *Ərəb mənşəli sözlər*. Ərəb mənşəli sözlərin Azərbaycan dilinə daxil olması islam dininin meydana gəlməsi, yayılması və ərəb mədəniyyətinin Azərbaycan mədəniyyətinə ictimai dünyagörüşünə inteqrasiyası ilə bağlıdır. Ərəb mənşəli sözlər bir çox hallarda fars sözləri ilə qaynayıb-qarışmış tərkibdə Azərbaycan dilinə daxil olaraq bu dildə intensivləşmiş, yeni norma mühiti yaratmışdır. Odur ki, vaxtı ilə Azərbaycan dilinə daxil olmuş ərəb mənşəli sözlərin müəyyən qismi adaptasiya olunaraq öz mənşəyindən kəskin şəkildə fərqlənmişlər. Odur ki, bəzi mənbələrdə deyildiyi kimi, hətta Azərbaycan dilində öz mühitini dəyişmiş sözlərin bir çoxunun ərəb mənşəli olduğunu təyin etmək də çətinləşmişdir [4]. Ərəb mənşəli sözlər Azərbaycan dilinə islam mədəniyyəti ilə bağlı daxil olduğu üçün belə bir keçid prosesi *dillərin qarşılıqlı zənginləşməsi, həmçinin, mədəniyyətlərarası dialoq və əlaqələrin genişlənməsi nəticəsi kimi nəzərə alınır* [9, s.20]. S.Cəfərov yazır ki, "*Ərəblər islam dinini yaymaqla əlaqədar istila etdiyi ölkələrin xalqlarını öz dillərinin güclü təsiri altına alır. Ərəb dilinin islam dini təbliği*

DOI:10.30546/gdu.5.2025

ilə əlaqədar olaraq uzun müddət göstərdiyi təsir nəticəsində bu dildən dilimizə bir çox sözlər keçir" [2, s.45]. Azərbaycan dilinə daxil olan ərəb mənşəli sözləri tarixi normalaşma baxımından iki qismə bölmək olar: *birincisi*, Azərbaycan dilində ümumişlək səviyyədə işlənərək normalaşmış sözlər, ikincisi vaxtı ilə Azərbaycan ədəbiyyatında işlənən, lakin daimi, sabit normaya düşə bilməyən sözlər. Azərbaycan dilində intensivləşərək daimi və sabit normaya düşmüş sözlər ictimai fəaliyyətin ayrı-ayrı sahələrini əhatə edir. Belə sözlər, ilk baxımdan milli mənşəli sözlərdən ciddi fərq yaratmadan "*həm yazılı dildə, həm də ümumxalq dilində işlənmişdir. Forma və məzmunu bir neçə dəyişmiş tək-tək sözləri istisna etməklə Azərbaycan dilindəki ərəb və fars sözləri vasitəsiz alınmadır*" [14, s.34-34]. Azərbaycan dilində ümumişlək səviyyədə norma hüququ qazanmış aşağıdakı kimi sözlərə gündəlik həyatda rast gəlmək olur: *kitab, dəftər, qələm, məktəb, məktub, katib, insan, adam, idarə, məlum, məlumat, məna, müşgül, əməl, iman bəndə, vicdan, razı, qəribə, dairə, təmkin, müəllim, təhlil, təhsil, tərbiyə, təcrübə, savad, əlifba* və s. Azərbaycan dilində ərəb mənşəli şəxs adları ümumiyyətlə populyardır. Məsələn, *Məhəmməd, Əli, Həsən, Hüseyn, Rza, Musa, Yusif, Yaqut, Mahmud, Məcid, Vəli, Vilayət Qabil, Həmzə, Qərib, Malik, Əkrəm, Əhəd, Əjdər* kimi adları buna nümunə göstərmək olar. *İkinci* qism sözlər klassik mənbələrdə işlənmiş olsa da artıq onlar köhnəlmişdir, mənası daha çox klassik dil məsələləri ilə məşğul olan mütəxəssislər tərəfindən araşdırılır və anlaşıqlı olur. Belə sözlərə dair aşağıdakı kimi nümunələri misal göstərmək olar: *əqarib* (qohumlar), *əqva* (qüvvətli), *əqvam* (millətlər), *əşhər* (məşhur), *iqdam* (qovuşma), *istimdad* (imdad istəmə), *mənazir* (mənzərələr), *məmnu* (qadağan edilmiş), *mübin* (aşkar) və s. Klassik yazılarda, o cümlədən poeziya dilində ərəb və fars sözlərindən icbari istifadə üsulları hətta Məhəmməd Füzuli kimi böyük bir şəxsiyyəti də narahat etdiyindən bunu qəzəl dilində aşağıdakı kimi ifadə edirdi:

Ol səbəbdən farsi ləfzilə çoxdur nəzm idim,
Nəzmi-nazik türk ləüzi ilə ikən düşvar olur.
Ləhceyi-türki qəbəli-nəzmi-tərkib etməyib
Əksərən əlfazi namərbutü-nahəmvar olur.
Məndə tövfiq olsa da düşvar asan eylərəm
Növbahar elğac tikəndən bərgi-gül izhar olur [5, s.362].
(O səbəbdən fars dili ilə nəzm çoxdur
Gözəl nəzm türk dili ilə ikən çətin olur.
Türk dili nəzm tərkibini qəbul etməyib
Əksərən sözləri rabitəsiz və kobud olur
Məndə qabiliyyət olsa o çətini asan edərəm
[Necə ki,] novbahar olanda tikandan gül yarpağı əmələ gəlir].

Bu qitədə 41 söz vardır. Onlardan 18-i Azərbaycan, 12-si ərəb, 9-u fars dilinə aiddir, ikisi fars-ərəb tərkiblidir. Deməli 23 söz ərəb və fars dillərinə, cəmi 18-i Azərbaycan dilinə aiddir. Bu isə klassik mərhələdə Azərbaycan poeziya dilindəki qeyri-normallığın açıq mənzərəsini göstərir. Ərəb-fars sözləri ilə norma pozulduğu üçün dil də ağırlaşmış olur.

2) *Fars mənşəli sözlər*. Ərəb mənşəli sözlər kimi fars mənşəli sözlər də Azərbaycan dilinin lüğət tərkibində mühüm yer tutmuşdur. Klassik dövrdə Azərbaycan bədii sənət ustaları ana dilində möhtəşəm ədəbi-bədii nümunələr yaratdığı kimi fars dilində də gözəl poetik incilər yaratmışlar. Belə bədii sənət nümunələrinin bir çoxu hətta fars müəlliflərinin yaratdığı əsərləri də üstələmişdir. Təsadüfi deyildir ki, farsların özləri də onların dillərində yazan Azərbaycan sənətkarlarına qibtə ilə yanaşmış və belə şəxsiyyətoəri hətta öz adlarına çıxmağa da cəhd göstərmişlər. Mübaliğəsiz demək olar ki, özünün dünyada məşhur olan poemalarını fars dilində qələmə almış, Nizami Gəncəvini fəxrlə İran ədəbiyyatının görkəmli nümayəndələri sırasında dünya ictimaiyyətinə təqdim etməkdən belə çəkinməmişlər. Klassik

DOI:10.30546/gdu.5.2025

Azərbaycan poeziya dilində bir çox fars sözlərinin işlənməsinə təsadüf olunması istisna sayılmamalıdır. Fars mənşəli sözlərə nəinki qəzəl-qəsidə janrında yazılmış əsərlər də, hətta ümumxalq sadə şifahi danışıq dilinə yaxın üslubda yazılmış bədii nümunələrdə də rast gəlmək mümkündür. Mirzə Şəfi Vazehdən aşağıdakı klassik janra aid nümunə üçün qəzəli misal göstərmək olar:

Nə qədər kim fələkin sabiti-səyyarəsi var
Ol qədər sinədə qəmzən oxunun yarəsi var
Deyil əflakdə kövkəb görünən çərxi-büləND
Olubən didə sərana sənə nəzzarəsi var
Rüzigarı qara daim gecəsi tar keçər
Hər kimin eşqdə bir yari sitəmkarəsi var
Necə qan cuşə gəlib eyləməsin ahü-fəğan
Könlümün dideyi-giryan kimi fəvvarəsi var
Ol qəzəndir ki, bu Vazeh dedi bir dərd əhli
Zahirən lalə otağında qonaq-qarəsi var [20, s.58].

Bu qəzəldə işlənən fars mənşəli *didə* (göz), *ruzigar* (zaman), *sitəmparə* (zülmkar), *cuş* (qaynama, coşma), *dərd* (ağrı, kədər), *lalə* (gül), *sərapa* (başdan-ayağa), *tar* (qaranlıq), *dideyi-giryan* (ağlar göz), *çərxi-büləND* (fırlanan uca asiman), *ahü-fəğan* (ah, fəryad, ağlayıb sızlamaq) kimi söz və tərkiblər bədii təmtəraq, bər-bəzək yaratmaq üçün işlədilmişdir. Buradakı *dörd, ruzigar, cuş, lalə* kimi sözlər ümumişləkdir, hamı tərəfindən anlaşılır və ümumişlək olduğu üçün də leksik norma çərçivəsindədir. Lakin *didə, tar, sitəmparə, dideyi-giryan, çərxi-büləND, ahü-fəğan* kimi söz və tərkiblər ümumişlək söz kateqoriyasından kənardır, sənətkar tərəfindən sərbəst şəkildə qələmə alınmışdır. Ona görə leksik norma sayılmır. Belə üslubi neytrallıq hətta şifahi danışıq dili üslubunda qələmə alınan aşıq poeziyasında da müşahidə edilir:

Anlamaz nadan eşitsə
Deyər hədyandı bu söz
Əhli-ürfan məclisində
Ləli mərcandı bu söz
Müxtəsər türki-zəban
Bil, dəyirmandı bu söz
Ab şəcərə, ahən səngə
Gör necə cövlan verir [1, s.235].

Burada işlənən *nadan* (qanmaz), *hədyan* (mənasız, boş), *zəban* (dil), *ab* (su), *ahən* (dəmir), *səng* (daş) sözləri fars mənşəlidir. Bunlardan *nadan, hədyan* sözləri Azərbaycan dilində işlək olmuş və buna görə də norma hüquqlu sayılır. *Zəban, ab, ahəng, səng* sözləri isə Azərbaycan dilinin leksikonuna daxil olmamışdır, sənətkarın fərdi üslubuna xas olaraq ixtiyari şəkildə işlədilmişdir. Odur ki, bu tipli sözlər Azərbaycan dilinin leksik normasını təcəssüm etdirmir. Belə sözlərin mənasını daha çox lüğətlər vasitəsi ilə aydınlaşdırmaq mümkündür. Bunlara dair aşağıdakı nümunələri misal göstərmək olar: *azərm* (abır həya), *azurdə* (incik), *asib* (bəla), *aftab* (günəş), *ahu vəqi* (ceyran baxışlı), *badigird* (qasırğa), *badna* (sürətli yeriyən, hərfən yelayaq), *bəzm* (məclis), *bamdad* (sübh), *baran* (yağış), *bargah* (saray), *bədhal* (kefsiz), *duruğ* (yalan) və s. [8, s.7-77, 104-133]. Bununla birlikdə dilimizin lüğət fonduna daxil olmuş bir sıra fars mənşəli sözlər də vardır ki, onlar şifahi danışıq üslubunda işlənərək intensivləşmiş, norma halına düşmüşdür. Belə sözlər öz intensivliyinə görə Azərbaycan dili lüğət fondunun, demək olar ki, ayrılmaz bir tərkib hissəsinə çevrilmişdir. Bunlara dair aşağıdakı kimi nümunələri misal göstərmək olar: *avaz, azad, ahəngdar, aşikar, balış, bərpa, dost, düşmən, gövhər, gümrah, günbəz, lalə, narınc, nargilə,*

DOI:10.30546/gdu.5.2025

nişanə və s. N.Cəfərovun fikrincə Azərbaycan dili ilə fars dilinin yaxınlığı ərəb dilindən daha əvvəl və daha intensiv olmuşdur. Bu mənada ki, hətta "*Bir məsələni də unutmaq olmaz ki, farsca özü ilə ərəbcəni də çəkib gətiridi…*" [3]. Ərəb və fars mənşəli sözlər bir zamanlar Azərbaycan dilinə intensiv şəkildə daxil olmaqla müəyyən məqamlarda hətta milli mənşəli sözlərin özlərini də sıxışdırmış lüğət fondunda ümumişlək leksikaya çevrilə bilmişdir. Xüsusən fars mənşəli sözlərin hələ "Kitabi-Dədə Qorqud"da fəal işlənməsi buna nümunə kimi göstərilə bilər. Bununla əlaqədar V.Piriyev yazır ki, "*Kitabi-Dədə Qorqud»da işlənən fars dilindən alınmalarla onların Azərbaycan türkcəsindəki ekvivalentləri arasında uzun müddət davam edən mübarizə getmişdir. Bu mübarizədə bəzən bir sıra türk sözləri vətəndaşlıq hüququ qazanmış, bəzən isə əksinə, sırf Azərbaycan sözləri qalib gəlmiş, yaxud bu sözlərin hər ikisi vətəndaşlıq hüququ qazanaraq yaşamaqdadır*" [16]. Bunların bəziləri artıq köhnəlmiş olsa da (hərəm, təbərzin, mühərcim, izdivac, zikr, əba, kəşkül, bazubənd, sövdəgər, rübənd) və s. dilin ifadə planında uzun müddət işlənməklə diaxron-sinxron səviyyədə norma hüququna malik olmuşdur [17,s.163-165]. Burada dil kontaktlarının mövcudluğunda areal təmaslarının başlanğıc rolunu əlbəttə ki, istisna etmək mümkün deyildir. Sonrakı mərhələdə, xüsusən, islamın meydana gəldiyi vaxtlarda ərəb və fars dillərinin dominant rolunun artması da söz keçidlərinə öz təsirini göstərmişdir. A.Məmmədova bu məsələ ilə əlaqədar öz mövqeyini aşağıdakı kimi ifadə edir: "*Lüğət tərkibimizdə alınma sözlərin daxil olmasının bir sıra səbəbləri vardır ki, bunlardan birincisi uzun müddət ərəb və ars dillərinin hakim mövqedə durmasıdır. Bundan başqa elmi əsərlərin bu dillərdə yazılması, şair və ədiblərin bu dildə təhsil alması klassik ədəbiyyatımıza bir çox fars və ərəb alınmalarının daxil olmasına şərait yaratmışdır*" [15, s.168-169]. Ərəb-fars mənşəli sözlərin potensialı klassik dövrdə güclü olsa da müasir dövrdə onların norma hüququ qazanmış qismi daha azdır. Həmçinin onu da nəzərə almaq lazımdır ki, Azərbaycan dilinə beynəlxalq informasiya mühitinin genişlənməsi ilə əlaqədar daxil olan Avropa mənşəli sözlərin bir qismi onları leksik-terminoloji baxımdan sıradan çıxarmaq üzrədir. Bununla yanaşı şifahi danışıq dilində cilalanıb sabit normayva düşmüş sözlərin əvəzlənməsinə heç bir zəruri ehtiyac yaranmadığı kimi icbari təsirlərə də yer qalmır. B.Xəlilovun oturuşmuş ərəb-fars mənşəli sözlər barəsindəki mövqeyi də bu cəhətdən maraq doğurur [7].

3) *Rus və Avropa mənşəli sözlər.* Azərbaycan dilinə rus və Avropa mənşəli sözlərin keçid tarixi XIX əsrin ikinci onilliyindən başlamışdır. Bu xüsusda "Azərbaycan ədəbi dili tarixi" kitabında yazılır ki, «*Rus dili vasitəsi ilə Avropa sözlərinin dilimizə daxil olması tarixi XIX əsrdən başlanır. Çünki Şimali Azərbaycanın Rusiyaya qatılması nəticəsində Azərbaycan xalqı ilə rus xalqı arasında siyasi, ictimai, iqtisadi, mədəni əlaqələr də yaranıb inkişaf etmişdir*" [13, s.33]. T.Hacıyevin fikrincə XIX əsrdə Azərbaycan dilinə rus dilindən və rus dili vasitəsi ilə yeni söz və terminlərin daxil olması ərəb-fars axınını sıxışdırılması ilə nəticələnmişdir. Bu isə öz növbəsində Azərbaycan dilində yeni leksik-terminoloji normaların baş verməsini şərtləndirmişdir [6, s.36-37]. Rus-Avropa dillərindən Azərbaycan dilinə daxil olan alınmaların norma məsələləri T.Yaqubovanın "Azərbaycan mətbuat dilində alınmalar" adlı kitabında da geniş şəkildə təhlil edilir [21, s.120-130]. Mövcud tədqiqatlarda Azərbaycan dilinə daxil olmuş rus dili və Avropa dilləri mənşəli terminlər bir qayda olaraq rus və Avropa dilləri mənşəli söz qrupları adı altında araşdırılıb təhlil edilir. N.Məmmədli bu məsələyə diqqəti yönəldərək belə nəticəyə gəlir ki, vaxtı ilə Azərbaycan dilinə Avropa dillərindən alınmalar rus dili vasitəsi ilə daxil olduğu üçün təqdimat da buna uyğun aparılmışdır. Hazırda isə proses tamamilə dəyişmiş, Azərbaycan dilinə Avropa mənşəli sözlər artıq beynəlxalq informasiya inteqrasiyası ilə əlaqədar rus dilinin təsirindən kənar şəkildə daxil olur [14, s.120-127]. Qeyd etmək lazımdır ki, ötən əsrdə Azərbaycan dilinin rus dili alınmaları hesabına zənginləşməsi ideyasının həyata keçirilməsi ilə əlaqədar çoxlu tədqiqat işləri

DOI:10.30546/gdu.5.2025

aparılmış, rus dili və onun transdilçilik mövqeyi bir çox hallarda idealizasiya edilmişdir. Lakin son dövrün tədqiqatlarında rus və digər Avropa mənşəli sözlərin Azərbaycan dilinə keçidi barədə orijinal mövqedən yanaşma prinsipinə xüsusi bir üstünlük verilməsi nəzərdə tutulur [11; 12; 18; 19]. Bununla yanaşı etiraf etmək lazımdır ki, Azərbaycan dilinin lüğət fondunun inkişafında və zənginləşməsində rus dili və rus dili vasitəsi ilə baş verən alınmaların mühüm rolu olmuşdur. Hərçənd müasir dövrdə Azərbaycan dilinə beynəlxalq inteqrasiya məkanından Avropa dillərinə məxsus alınmalar daha intensiv şəkildə daxil olur. Onların qaydaya salınmasında, normalaşdırılmasında isə Azərbaycan dili qaydaları başlıca tənzimləyici rol oynayır.

Ədəbiyyat

1. Aşıq Ələsgər. Bütün əsərləri. Bakı, OL MMC, 2014, 504 s.
2. Cəfərov S. Müasir Azərbaycan dili (4 hissədə) II h., Leksika. Bakı, Şərq-Qərb, 2007, 192 s.
3. Cəfərov N. Azərbaycan dilinin tarixində ərəbcə və farsca: kluis. az /xaber/ yazarlar/azerbaycan-dilinin-tarixinde-erebce-ve-farsca-73801: 19 sentyabr, 2022.
4. Dilimizdəki alınma və milli sözləri fərləndirmək üçün YENİ TƏSNİFAT. 05.02.2018. =zerdab.com/?p=05865.
5. Füzuli M. Əsərləri, 6 cilddə, I c., Bakı, Şərq-Qərb, 2005, 400 s.
6. Hacıyev T. Azərbaycan ədəbi dilinin tarixi. 2 hissədə, II hissə, Bakı, Elm, 2012, 392 s.
7. Xəlilov B. Dildən əcnəbi sözləri, oturuşmuş sözləri çıxarmaq olarmı?: modern.az/edebiyyat-215870/dilden-ecnebi-szleri-oturuşmuş-szleri-cixarmaq-olarmi/.
8. Klassik Azərbaycan ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. İki cilddə, I c., Bakı, Şrəq-Qərb, 2005, 416 s.
9. Kərimova N. Azərbaycan dilində alınma sözlərin əsas xüsusiyyətləri. Elmi tədqiqat. Onlayn Beynəlxalq Jurnal. İmpakt Faktor: 1.172.2024/cild.4.Sayı6/19-22 s., s.20.
10. Qasımov İ. Azərbaycan terminologiyası. Bakı, Mütərcim, 2007, 264 s.
11. Quliyeva S. Mətbuat dilində işlənən alınma terminlər.//Terminologiya məsələləri. Bakı, Elm, 2003, s.86-92.
12. Quliyev T. Azərbaycan ədəbi dilində terminoloji yeniləşmə. Bakı, Nurlan, 2005, 290 s.
13. Mehdiyeva S. və başqaları. Azərbaycan ədəbi dili tarixi. Dörd cilddə, III c., Bakı, Şərq-Qərb, 2007, 836 s.
14. Məmmədli N. Azərbaycan dilində alınma terminlər. Bakı, Elm və təhsil, 2017, 488 s.
15. Məmmədova A. Aciz "Divan"ında alınmalar dil vahidi kimi. //Filologiya məsələləri, №2, 2024, s.168-173.
16. Piriyev E. Fars sözləri: dede.musiqi-dunya.az/f/fars-soz.html.Azərbaycan Yazıçılar birliyi, 2012.
17. Rzayeva Ç. Folklor mətnlərində işlənən ərəb və fars kökənli arxaik sözlər// İpək yolu, № 1, 2022, s.159-166.
18. Sadıqova S. Azərbaycan dilində terminologiyanın təşəkkülü və inkişafı. Bakı, Elm, 2005, 348 s.
19. Sadıqova S. Azərbaycan terminologiyasının konseptual əsasları. Bakı, OPTİMİST, MMC çap mərkəzi 2023, 704 s.
20. Vazeh M.Ş. Nəğmələr. Bakı, Şərq-Qərb, 2004, 96 s.
21. Yaqubova T.R. Azərbaycan mətbuat dilində alınmalar. Bakı, MVM, 2008, 153 s.

DOI:10.30546/gdu.5.2025

СЛОВА АРАБСКОГО, ПЕРСИДСКОГО, РУССКОГО И ЕВРОПЕЙСКОГО ПРОИСХОЖДЕНИЯ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Абдуллаева Самина Сабир кызы

Резюме

В статье показано, что заимствования регулируются на основе требований фонетических, произносительно-произносительных, графических и морфологических правил азербайджанского языка и адаптированы как к орфоэпическим, так и к орфографическим методам регулирования. В противном случае заимствования, поступающие в язык беспрерывно, создали бы большой хаос. Основными источниками заимствований, поступающих в азербайджанский язык, являются арабо-персидские и русско-европейские языки. Лексические единицы этой группы имеют свой структурный состав и орфоэпические нормы. Слова арабского происхождения во многих случаях проникали в азербайджанский язык в смешанном составе с персидскими словами, усиливаясь и создавая новую нормативную среду в этом языке. Поэтому со временем определенная часть слов арабского происхождения, вошедших в азербайджанский язык, была адаптирована и резко отличалась от своего происхождения. Слова арабского происхождения, которые получают всё большее распространение в азербайджанском языке, выражают понятия, связанные с различными сферами общественной жизни. Внедрение слов персидского происхождения в азербайджанский язык является результатом давних социально-политических, экономических и культурных связей. Кроме того, рост тенденции к использованию поэтических норм персидского языка проложил путь к использованию персидских слов в произведениях, написанных на азербайджанском языке.

ARABIC, PERSIAN, RUSSIAN AND EUROPEAN ORIGIN WORDS IN THE AZERBAIJAN LANGUAGE

Abdullayeva Samina Sabir

Summary

The article shows that borrowings are regulated based on the requirements of the phonetic, pronunciation-pronunciation, graphic and morphological rules of the Azerbaijani language, and are adapted to both orthoepic and orthographic regulation methods. Otherwise, borrowings that enter the language without interruption would create great chaos. The main sources of borrowings that enter the Azerbaijani language are the Arabic-Persian and Russian-European languages. Lexical units from this group have their own structural composition and orthoepic norms. Words of Arabic origin in many cases entered the Azerbaijani language in a composition mixed with Persian words, intensifying and creating a new norm environment in this language. Therefore, over time, a certain part of the words of Arabic origin that entered the Azerbaijani language were adapted and sharply differed from their origin. Words of Arabic origin, which have become increasingly common in the Azerbaijani language, express concepts related to various areas of social life. The introduction of words of Persian origin into the Azerbaijani language is the result of long-standing socio-political, economic and cultural relations. Also, the increase in the tendency to use the poetic standards of the Persian language has paved the way for the use of Persian words in works written in the Azerbaijani language.

Rəyçi: p.f.d. Əliyev Həmzə Qəmbər o.
Azərbaycan Dövlət Pedaqoji Universiteti 11 iyun 2025-ci il tarixli iclasın 20 saylı protokolu
Daxil olma tarixi 09 iyul 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 116-122

DOI:10.30546/gdu.5.2025

UOT:81.

LİNQVOKULTUROLOJİ LÜĞƏTLƏRİN BƏDİİ TƏRCÜMƏDƏ ROLU

Axundova Tairə Hacıağa qızı
Dövlət Gömrük Komitəsinin Akademiyası

Xülasə: *Bu məqalədə linqvokulturoloji lüğətlərin bədii tərcümə prosesində əvəzsiz rolu ətraflı şəkildə araşdırılır. Bədii tərcümə yalnız sözlərin bir dildən digərinə çevrilməsi prosesi deyil, həm də müəllifin mədəni kimliyinin, estetik duyumunun və dünya görüşünün tərcüməçi vasitəsilə digər mədəniyyətə ötürülməsini nəzərdə tutur. Bu baxımdan, linqvokulturoloji yanaşma tərcümə prosesinin ayrılmaz hissəsinə çevrilir. Belə ki, bu cür lüğətlər dil vahidlərinin yalnız leksik mənalarını deyil, onların daşıdığı mədəni məna qatlarını, simvolik və tarixi kontekstlərini də təqdim edir.*

Məqalədə vurğulanır ki, hər bir xalqın dili onun milli-mədəni kodunu daşıyır. Məsələn, frazeoloji vahidlər, sabit ifadələr, etnik-realiyalar, mifoloji obrazlar və kulturoloji yüklü sözlər birbaşa tərcüməyə tabe olmur. Bu zaman linqvokulturoloji lüğətlər tərcüməçiyə həmin ifadələrin hədəf dildə ekvivalentini axtarmaqda və ya ekvivalentin olmadığı hallarda şərh və ya adaptasiya yolu ilə məna ötürməkdə yardımçı olur.

Açar sözlər: linqvokulturoloji lüğət, bədii tərcümə, mədəni kontekst, leksik-mədəni komponent, frazeoloji vahidlər, milli-mədəni reallıqlar, kulturoloji məna, tərcümə strategiyaları, mədəniyyətlərarası ünsiyyət, adekvatlıq.

Ключевые слова: лингвокультурологический словарь, художественный перевод, культурный контекст, лексико-культурный компонент, фразеологизмы, национально-культурные реалии, культурологический смысл, стратегии перевода, межкультурная коммуникация, адекватность.

Key words: linguocultural dictionary, literary translation, cultural context, lexical-cultural component, phraseological units, national-cultural realities, cultural meaning, translation strategies, intercultural communication, adequacy.

Son zamanlar dilin mədəniyyətlə qarşılıqlı əlaqəsi baxımından araşdırılması son zamanlar intensivləşmişdir. Bu günə qədər tərcümə problemlərinə həsr olunmuş çoxsaylı elmi ədəbiyyatın mövcudluğuna baxmayaraq, bu sahədə aparılan araşdırmalar hələ də davam etməkdədir. Müasir dönəmdə tərcüməyə "mədəniyyətlərarası kommunikasiyanın", "iki mədəniyyətin təması"nın forması kimi yanaşılır. Bu marağın artması insan və cəmiyyətin dünyadakı mövcudluğunun spesifik forması kimi mədəniyyət fenomeninin dərk edilməsinə olan ehtiyacla bağlıdır.

Müasir dilçiliyin ümumi inkişafı nəzəri və praktik baxımdan antropomərkəzli elmi paradiqmalara əsaslanan, misli görünməmiş dərəcədə aktivləşmiş idrak araşdırmaları ilə xarakterizə olunur. Dilçilik elm, çoxəsrlik tarixə malik olmaqla, bu gün də müasir ictimai inkişaf kontekstində və insanların idrak ehtiyaclarına uyğun şəkildə inkişaf etməkdə davam edir.

Dilçilikdə son illər dil və mədəniyyət əlaqəli tədqiqatlar xüsusi canlanma əldə etmişdir. Bu tədqiqatlar adətən, antropomərkəzli baxışdan çıxış edərək dilin funksiyalarını "insan faktoru" ilə əlaqələndirir və göstərir ki, dil bir fərdin cəmiyyətdə qazandığı təcrübələrin, dünyagörüşünün və modelinin ifadəsidir. Bu modellər onun mifoloji, konkret-təsviri, fəlsəfi və s. düşüncə və dünyagörüşünün məhsuludur.

Linqvokulturologiya – dil-mədəniyyət əlaqəli nəzəriyyələr dilin demək olar ki, bütün vahidlərinin milli-mədəni semantikasını təşkil edir. Bu semantika konseptləri ifadə edir və

DOI:10.30546/gdu.5.2025

xalqın milli təbiətini, cəmiyyətin quruluşunu, mədəniyyətin, incəsənətin, məişətin xüsusiyyətlərini əks etdirir.

Bütün lingvokoqnitiv tədqiqatlar üçün əsas prinsip budur: milli-mədəni semantikaya malik sözlər, anlayışlar və ifadələr xüsusi mənalar daşıyır. Onlar müəyyən vəziyyətlərlə və nominasiyalarla əlaqəlidir. Buraya həmçinin metaforik ifadələr, xüsusi sabit ifadələr və frazeoloji vahidlər, atalar sözləri də daxildir. Dil və mədəniyyətin əlaqəsinin öyrənilməsində linqvokulturoloji lüğətlərin tərtibinin böyük rolu vardır. Marağa səbəb olan lüğətlərin sırasında yalnız dilin quruluşunu və sistemini deyil, həm də müxtəlif xalqların dünyagörüşündəki milli-mədəni xüsusiyyətləri əks etdirən linqvistik və ensiklopedik lüğətlər də yer alır. Məlumdur ki, ilk lüğətlər orta əsrlər dövründə – əvvəlcə əlyazma, daha sonra isə çap şəklində – şumerlərdə meydana çıxmışdır.

Leksikoqrafiya tarixində məqsədi təkcə dilin leksikasını deyil, həm də dünya haqqında bilikləri ideoqrafik lüğət formasında sistemləşdirmək olan lüğətlər də məlumdur. Məsələn, Y.N. Karaulovun "Linqvistik konstruksiya və ədəbi dilin tezaurusu" adlı əsərində [5, s. 56] müxtəlif xalqların dünyagörüşünü təsvir edən qədim Çin, Hind və ərəb ideoqrafik tezaurus lüğətləri haqqında məlumat verilir.

Linqvokulturoloji lüğətlərin tərtibi yalnız xarici dillərin deyil, həm də ana dilinin öyrənilməsində çox faydalıdır. Lüğətlərin növlərinə nəzər salsaq görərik ki, linqvokulturoloji lüğətlər o qədər də yayılmış lüğət növləri deyil. "*Lüğət cəmiyyətin sosial və mədəni fəaliyyətinin, mədəniyyətlərarası əlaqələrin məhsulu olaraq, kommunikasiya üçün əhəmiyyətli olan sosiomədəni konnotasiyaları əks etdirir*," – deyə E.İ. Arxipova "Linqvokulturoloji aspektdə ideoqrafik lüğətlər" adlı əsərində yazır [3].

Azərbaycanda lüinqvokulturoloji lüğətin ilk nümunəsi 2025-ci ildə tərtib olunmuşdur [4]. Lakin Musa Adilovun "Qanadlı sözlər" kitabı Azərbaycan dilində yazılmış ilk linqvokulturoloji lüğətə nümunə sayıla bilər. Lakin bu əsər yalnız Azərbaycan dilində işlənmiş qanadlı ifadələrin izahına həsr olunmuşdur. Rus dilçiliyinə nəzər saldıqda görürük ki, bu dildə hazırlanmış lüğətlər linqvokulturoloji lüğətlərin ilk rüşeymi kimi dəyrləndirilə bilər. V.P. Feliçinski və V.M. Mokiyenkonun "Rusca frazeoloji vahidlər" lüğəti, V.P. Feliçinski və Yü. Proxorovanın "Rus atalar sözləri və qanadlı ifadələr"i, İ.V. Zaxarenko, V.V. Krasnıx, D.B. Qudkovun rəhbərliyi il"ə Rus mədəniyyət sahəsi" lüğətləri və s. Bu tip sözlüklər kulturoloji şərhlərlə birlikdə hazırlanmışdır.

Lakin bu və başqa nümunələrin əksəriyyəti yalnız rus dilinə aid idi. Digər dillərlə müqayisə aparan işlər azdır. Halbuki milli-mədəni semantika təkcə bir dilə xas deyil. Bu mövzuda daha geniş müqayisəli araşdırmalara ehtiyac var.

Linqvokulturoloji lüğətlər, bir tərəfdən, yeni elmi-linqvistik paradiqmanın – linqvokulturoloji sahənin – terminoloji lüğətləri, digər tərəfdən isə hər hansı bir dilin linqvokulturoloji məkanını və xalqln linqvokulturoloji icmasının linqvokoqnitiv bazasının xüsusiyyətlərini açan tezaurus tipli lüğətlərdir. Belə lüğətləri şərti olaraq dörd qrupa bölmək olar: 1.Xalqın mədəniyyət konseptləri və linqvokulturoloji məkanının təsviri lüğətləri; 2.Frazeologizmlər və paremiyalara dair linqvokulturoloji lüğətlər; 3.Xalqın mədəni reallıqlarını klassik ədəbiyyat əsərləri əsasında təsvir edən lüğətlər; 5.Terminoloji lüğətlər.

Filoloji mühitdə və geniş oxucu kütləsi arasında aşağıdakı leksikoqrafik əsərlər geniş tanınır:

Birinci qrupa Y.S. Stepanovun lüğəti aiddir. Bu lüğətdə rus mənəvi dəyərləri leksikoqrafik təcrübədə ilk dəfə olaraq konseptual və dil mənzərəsi sistemində təsvir edilmişdir [14].

Belə rus mədəni konseptləri – pravda (həqiqət), zakon (qanun), slovo (söz), lyubov (sevgi), dusha (ruh), xleb (çörək) və digərləri – rus xalqının dünyagörüşü prizmasında

DOI:10.30546/gdu.5.2025

linqvokulturoloji izaha məruz qalmışdır. Bu anlayışların kulturoloji təhlili rus bədii ədəbiyyatından, frazeologiya və paremiyalardan gətirilmiş sitatlar və nümunələrlə zənginləşmişdir.

Məhz bu lüğətin ön sözündə müəllif məntiqi anlayış ilə mədəniyyət konsepti arasındakı fərqi obrazlı şəkildə belə ifadə edir: "*...anlayış düşünülür, konsept isə yaşanır*" [10, s. 47].

Orta məktəblərdə təhsil alanlar üçün nəzərdə tutulmuş L.K. Mullaqalievanın "Rus mədəniyyəti reallıqları" adlı lüğəti tematik prinsip əsasında qurulmuşdur və rus mədəniyyətinin müxtəlif sahələrinə (ailə, qohumluq, bayram və adətlər, sənətkarlıq və s.) aid açar anlayışları izah edir [10].

İkinci tip lüğətlərə linqvoölkəşünaslıq və linqvokulturoloji lüğətlər daxildir. Bu lüğətlərin əsas məqsədi milli-mədəni özünəməxsusluğun izahıdır. Frazeologizmlərin və atalar sözlərinin özünəməxsusluğu, onların etimologiyası və işlənmə kontekstləri xüsusi maraq doğurur. Alimlərin fikrincə, mədəniyyət baxımından ən sıx işarələnmiş dil vahidləri sabit ifadələrdir – idiomlar, frazeologizmlər, atalar sözləri və deyimlər, qanadlı ifadələrdir. Çünki məhz bu vahidlər milli dünyagörüşü sisteminin xüsusiyyətlərini əks etdirir. Bu səbəbdən, dilin sabit ifadələrinin obrazlı-motivasiya əsasları şifrlənmiş şəkildə ola bilər və onların mənası yalnız leksik komponentlərin izahı ilə açıqlana bilməz.

İlk linqvoölkəşünaslıq lüğətləri ana dilinin xarici dil kimi digər xalqlara öyrədilərkən yaranmışdır. Bu, təsadüfi deyil, çünki öyrənilən dildə sabit ifadələrin düzgün və yerində işlədilməsi dil biliyinin yüksək səviyyəsini göstərir. Məsələn, Y.E. Proxorov və V.P. Felitsınanın "Rus atalar sözləri və deyimləri. Linqvoölkəşünaslıq lüğəti" [11] əsərində "*Hədiyyəlik atın dişinə baxmazlar*" atalar sözünün mədəni mənası izah edilir. Bu atalara sözü Azərbaycan dilində "*Bəy verən atın dişinə baxmazlar*" şəkilndə ifadə olunur. Əslində hər iki variant eyni semantikanı daşıyır.

Tarixən at istər azərbaycanlılar, istərsə də ruslar üçün əsas təsərrüfat qüvvəsi sayıldığı üçün qiymətli olmuşdur. Alıcılar atın yaşını və yararlılığını müəyyən etmək üçün dişlərinə baxırdı. Qoca atlarda dişlər adətən aşınmış və qeyri-bərabər olurdu. Lakin at hədiyyə olaraq verilmişdisə, artıq onun yaşı və durumu əhəmiyyətini itirirdi. Lüğətdə bu atalar sözlərinin nitqdə hansı hallarda istifadə edildiyi də izah olunur.

Rus frazeologizmlərinin obrazlı motivasiyası və mədəni mənası isə V.M. Mokiyenkonun "Rus frazeologizmləri. Linqvokulturoloji lüğət" [9] əsərində təqdim olunur.

Əgər linqvoölkəşünaslıq lüğətləri Azərbaycan, rus, ingilis dillərini xarici dil kimi öyrənənlər üçün nəzərdə tutulubsa, linqvokulturoloji lüğətlər geniş kütlələrə mədəniyyətlə bağlı məlumatları ötürmək məqsədi daşıyır, çünki onlar xalqın linqvokulturoloji məkanını təsvir edir. "*Bu lüğətdə xalq folklorunda və ədəbiyyatda (xüsusi adlar və sabit ifadələr, mifoloji obrazlar, heyvanlarla bağlı simvollar və s.) geniş təmsil olunan vahidlər yer alır ki, bu da xalqın dünyagörüşü mənzərəsinin və onun dildə əksinin formalaşmasına təsir edir*", – deyə "Rus mədəni məkanı. Linqvokulturoloji lüğət"in müəllifləri qeyd edirlər [12, s. 2].

Bu tip lüğətlər dildəki mədəni reallıqların təsvirini təqdim edir. Lüğətin üstün cəhəti bədii ədəbiyyat və folklordan götürülmüş geniş kulturoloji materialın istifadəsidir.

Hər iki tip lüğət istifadəçilərdə linqölkəşünaslıq və linqvokulturoloji kompetensiya formalaşdırır. Bu da öyrənilən dilin dil və mədəniyyətin vəhdətindəki dünyagörüşünü qavramağa imkan verir [2].

Bədii ədəbiyyat materialları əsasında xalqın mədəni reallıqlarını təsvir edən linqvokulturoloji lüğətlər milli ədəbiyyatın öyrənilməsi və milli mədəniyyəti və mentaliteti ilə tanışlıq baxımından böyük əhəmiyyət daşıyır [13; 15; 16].

DOI:10.30546/gdu.5.2025

"*Əvvəlki əsrlərə aid ədəbiyyat nümunələrinin milli-mədəni komponentlərinin arxaikləşməsi, bu əsərlərin tədris prosesində linqvokulturoloji təhlilinin vacibliyini artırır*" [16, s. 5].

Bu qrupda olan lüğətlərdə zəngin kulturoloji material əsasında klassik əsərlərdəki söz və ifadələrin izahı verilir. Bu leksik vahidlər köhnəlmiş mədəni reallıqları bildirir və müasir oxucular üçün anlaşılmazdır. Tematik şəkildə qurulmuş bu tip ensiklopediyalar oxucunu o dövrün sosial təbəqələri və rütbələri, ənənələri və bayramları, geyim tərzləri, çəki və uzunluq ölçüləri, nəqliyyat vasitələri, torpaq bölgüsü və artıq tarixi inkişaf nəticəsində əhəmiyyətini itirmiş çoxsaylı milli reallıqlarla tanış edir.

Nəhayət, dördüncü qrupa daxil olan terminoloji lüğətlərin məqsədi, linqvokulturoloji sahədə işlənən termin və elmi anlayışların sistemləşdirilməsidir. Hələlik bu sahədə ilk və yeganə terminoloji lüğət məşhur rus alimləri D.B. Qudkov və M.L. Kovşovanın tərtib etdiyi "Linqvokulturoloji terminlər lüğəti"dir [7].

M.V. Kovşovanın sözlərinə görə, bu tip lüğətlərin məqsədi: linqvokulturoloji əsas anlayışların təhlili, yaxın sahələrdəki oxşar terminlərlə fərqləndirilməsi, bu terminlərin sistemli şəkildə təsviridir [6, s. 49].

Yuxarıda təqdim olunan müxtəlif tipli linqvokulturoloji lüğətlərin icmalı, linqvokulturoloji elmi paradiqmanın nailiyyətlərinin sistemləşdirilməsinin zəruriliyini sübut edir. Məhz bu zərurət bu nəşrin müəlliflərini linqvokulturoloji ensiklopedik lüğətin hazırlanmasına sövq etmişdir.

Bizim fikrimizcə, müəyyən frazeoloji vahidlərin semantikası və daxili forması yalnız konkret dil cəmiyyətinin yaradıcı təfəkküründə əsaslanaraq şərh edilə bilər. Bu ifadələr ümumbəşəri idrak modellərinin nümunəsi kimi göstərilsə də, onları tam anlamaq üçün müxtəlif dillərdən nümunələr müqayisə edilməlidir.

Yuxarıda da qeyd etdiyimiz kimi Azərbaycan dilinin ilk linqvokulturoloji lüğəti 2025-ci ildə nəşr olunmuşdur. Bu ikidilli linqvokulturoloji lüğət "Rus-Azərbaycan, Azərbaycan-rus dilinin linqvokulturoloji" lüğətidir. Lüğətdə rus dilindəki sabit ifadələr əks olunmuş, onların Azərbaycan dilindəki qarşılıqları verilmişdir. Bu sabir idadələr əsasən atalar sözləri və zərb məsəllər, frazeoloji ifadələrdir. Hər iki dilidəki bu tip ifadələr hər iki xalqın mədəniyyətinin göstəricisi kimi meydana çıxır. Məsələn, *Терпение и труд всё перетрут-Səbr ilə halva bişər ey qora səndən, bəsləsən atlaz olar tut yarpağından.* "İfadənin fəlsəfi-konseptual mənası budur:milli konnatasiya dilimizdəki ifadənin obrazlı quruluşundadır:qoradan halva, tut yarpağından atlas(ipək)almaq ancaq səbrlə və lazımi əmək sərf etməklə başa gəlir" [4, s.283].

Belə müqayisələr milli-mədəni fərqlilikləri və ya oxşarlıqları üzə çıxarmağa kömək edir — ya tam ziddiyyətlər, ya da formal baxımdan eyni olan, lakin semantik cəhətdən fərqli ifadələr ortaya çıxır.

Milli-mədəni semantikası olan ifadələrin müxtəlif dillərdəki müqayisəsi geniş ümumiləşdirmələr aparmaq, universal və spesifik xüsusiyyətləri müəyyənləşdirmək üçün geniş imkanlar yaradır. Bu lüğət əsasən rus və azərbaycan dillərindəki frazeoloji vahidlərin milli-mədəni tərəfini əhatə etmək üçün nəzərdə tutulmuşdur.

“Molla Nəsrəddin" jurnalında çalışdığı dövrdə, yazıçının 1909-cu ildə "İki hekayət" adlı kitabı çap edilmişdir. Bundan başqa, yazıçının məqalələri arasında xatirə şəklində olanlar da var idi. Onun "İki il" və "Beş il" adlı yazılarında, özünün məsləkdaşları olan Mirzə Ələkbər Sabir və Əliqulu Nəcəfzadə Qəmküsar haqqında təəssüratları yer alır (4, 155). Bu əsərlərdə, adıçəkilən sənətkarların yoxluğu ilə bağlı yaranan təəssüf və kədər hissləri ifadə olunur. Haqverdiyev, həmçinin, bu sənətkarların ideyalarının və əməklərinin əhəmiyyətini vurğulayaraq, onların izlərinin xalq arasında yaşadığını göstərmək istəyir (7, 107).

"Artistlik sənəti haqqında" miniatür məqaləni teatr aktyorlarından biri olan Sidqi Ruhullaya tövsiyə və ya vəsiyyət də adlandırmaq olar. 10 cümlədən ibarət bu yazıda ədib Sidqi Ruhullanın timsalında aktyorluğu dünyada millətə və mədəniyyətə böyük xidmətlərdən hesab edir. "Artist üzünü unlayıb acı həqiqətləri sənətin şəkəri ilə şirinlədib camaata yedirdir", – deyən Əbdürrəhim bəy Haqverdiyev bu sənətin xalq kütləsi üzərində təsirinə diqqət çəkir (4, 156).

"Molla Nəsrəddin" haqqında xatiratım" məqaləsi də ədibin maraq yaradan yazılarındandır. Yazıda Əbdürrəhim bəy Haqverdiyev iyirmi beş il fəaliyyət göstərən jurnal və onun naşiri Mirzə Cəlil haqqında xatirələrini qeyd etməklə bərabər, "Mirzə Cəlil məsləkindən dönmədi, az dostları ilə birlikdə sonda qalib gəlib, həmişəlik bir ad və

DOI:10.30546/gdu.5.2025

Azərbaycan ədəbiyyatında xüsusi bir cığır – "Molla Nəsrəddin" dövrü qoya bildi", – deyir. Məqalədə müəllif jurnalın Şuşa ictimai-siyasi-ədəbi həyatına necə təsir etməsini, Şuşa ziyalılarının jurnala münasibəti məsələsinə toxunaraq qeyd edir ki, "Molla Nəsrəddin"in birinci nömrəsi Şuşada çox insanın hüsn-rəğbətini qazandı (4, 158).

Haqverdiyevin məqalələri 1905-ci ildən etibarən "Molla Nəsrəddin" jurnalı başda olmaqla, "İrşad", "Tazə Həyat", "Kaspi", "Sənayei-nəfisə", "Kommunist", "Dan Ulduzu", "Revolyusiya i Kultura", "Maarif işçisi" və "Ədəbiyyat" kimi jurnal və qəzetlərdə yayımlanmışdır. Yazıçının məqalələrinin əsas mövzularından biri teatr olmuşdur. Haqverdiyev, "Azərbaycanda teatr", "Azərbaycanda xalq tamaşaları və dini dramlar", "Pəri cadu haqqında qeydlər" və digər məqalələrində Azərbaycanda teatrın inkişafını və onun xalq oyunları ilə oxşar tərəflərini müzakirə etmişdir. Əlavə olaraq, Azərbaycanın müasir teatrının banisi Mirzə Fətəli Axundzadənin teatr fəaliyyəti haqqında da danışmış, "Mirzə Fətəli Axundovun həyat və fəaliyyəti", "Mirzə Fətəlini faciəsi", "Mirzə Fətəli və ərəb əlifbası" adlı məqalələrini yazmışdır.

Əbdürrəhim bəy Haqverdiyev, dramaturq olmaqla yanaşı, özünəməxsus ədəbi sənət üslubu ilə Azərbaycan ədəbiyyatında xüsusi yer tutmuşdur. Onun "Marallarım" seriyasına daxil olan hekayələri, yol xatirələrindən ilhamlanaraq qələmə aldığı "Xortdanın cəhənnəm məktubları", inqilabdan sonra yazdığı satirik hekayələri ("Yeni təbabət", "Qaban" və s.), eləcə də "İanə" və "Sarı toyuq" kimi əsərləri hər zaman oxucuların diqqətini cəlb etmişdir. Bu hekayələr Azərbaycan Sovet nəsrinin 1920–30-cu illərində yeni əsərlər yazmağa başlayan Mir Cəlal, Sabit Rəhman və digər yazarların inkişafında mühüm rol oynamışdır. Müəllif hekayələrində burjuaziyanın səhvlərini, sosial xəstəliklərini tənqid etmiş, əsərlərinə satirik üslubun müxtəlif formalarını tətbiq etmişdir. Məsələn, "Mürtüb dəftəri" və "Həmşəri pasportu" hekayələrində cəmiyyətin çatışmazlıqları tənqid edilmişdir (10, 62).

Yazıçının hekayələrində özünəməxsus cəhətlərdən biri də mövzunu izah edərkən oxucunun daha rahat anlaması üçün haşiyələrdən istifadə etməsidir. "Pir", "Seyidlər ocağı", "Qiraət" və "Cəhənnəm məktubları" hekayələri bu baxımdan diqqətəlayiq əsərlərdir. Bu haşiyələr sayəsində yazıçı fikirlərini oxucuya daha rahat şəkildə çatdırmaqla bərabər, əsərin təsirini də artırmışdır. Hekayənin özü kimi maraqla oxunan haşiyələrdə köhnə şəhər evlərinin quruluşu, adətlər, köçərilərin həyatı, Oktyabr inqilabından əvvəl teatrın mövcud vəziyyəti, hacıların, məşədi və seyyidlərin törətdiyi hiylələr haqqında məlumatlar verilmişdir (6).

Müəllif yaradıcılığı dövründə maarifləndirici məqamları ön plana çəkmiş, dövrün eybəcərliklərini, cahilliyi ifşa etmişdir.

Əbdürrəhim bəy Haqverdiyevin ümumilikdə 80-dən çox hekayəsi var və onun hekayələri də daxil bütün əsərləri öz aktuallığı ilə hər zaman maraq doğurur.

Ədəbiyyat

1. Camalov K. Molla nəsrəddinçilərin maarifçilik ideyaları. Bakı, Elm və təhsil, 2015
2. Hacıyev C. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı, Azərb. Universiteti nəşriyyatı, 1955
3. Haqverdiyev Ə. Seçilmiş əsərlər. Bakı, Lider nəşriyyatı, 2005
4. Haqverdiyev Ə. Həyatı və yaradıcılığı. Bakı, Elm və təhsil, 2018
5. Haqverdiyev Ə. Seçilmiş əsərləri. II. Bakı, Azərnəşr, 1971
6. Əhmədov B. XX əsr Azərbaycan ədəbiyyatı tarixi (I cild). Bakı, Elm və təhsil, 2011
7. Əsgərli Z. Əbdürrəhim bəy Haqverdiyevin publisistikası. Bakı
8. Sarabski H. Köhnə Bakı. Bakı, Şərq-Qərb, 2006
9. Məmmədov K. Əbdürrəhim bəy Haqverdiyev. Bakı, Gənclik, 1970
10. Məmmədov M. Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı. Bakı, Nurlan, 2008

DOI:10.30546/gdu.5.2025

11. Şamiloğlu Ş. Əbdürrəhim bəy Haqverdiyevin bioqrafiyası. Suallarla dolu 1916-1919-cu illər". Bakı, Qızlar Universiteti, Elmi əsərlər, 2010

.

SHUSHİN ENLİGHTENER-İNTELLECTUAL – ABDURRAHİM BEY HAGVERDİEV

Alizada Tamara Sharbat, Nagiyeva Durdana Asad

Summary

Azerbaijani writer and dramatist, public and political figure, classic of Azerbaijani literature, Abdurragim Bey Hagverdiev was one of the leading figures of the literary and cultural environment of the late 19th and early 20th centuries. He started his literary activity while studying in Shusha. For forty years of literary activity, Hagverdiev wrote stories, plays, feuilletons, librettos, scientific and feuilleton articles. Researchers divide the writer's creativity into three periods: the first period (1892–1905), the second period (1905–1920) and the third period (1920–1933).

Part of the work of Abdurragim Beka Hagverdieva is made up of journalistic works. With his works, he strove to convey democratic and enlightened ideas to the broad masses of the people. He criticized the indifference and inertia of society. The writer demanded and advocated civic activity and patriotism for the progress of society.

Apart from being a playwright, Abdurragim Bey Hagverdiev occupied a special place in Azerbaijani literature with his unique literary style. The stories written by him played an important role in the development of Azerbaijani Soviet novelists Mir Jalal, Sabit Rahman and other writers who began to write new works in the 1920s and 1930s. The author's stories criticized the shortcomings of society. In total, Abdurragim Beka Hagverdieva has more than 80 short stories, and all his works, including short stories, always arouse interest in their relevance.

Abdurragim bek Hagverdiev, who began his professional literary activity with dramatic works from the end of the 19th century, made several short translations from Russian literature before this period. These translated works also had an impact on the Azerbaijani reader.

ШУШИНСКИЙ ПРОСВЕТИТЕЛЬ-ИНТЕЛЛЕКТУАЛ – АБДУРРАХИМ БЕК ХАГВЕРДИЕВ

Ализаде Тамара Шербетовна, Нагиева Дурдана Асадовна

Резюме

Азербайджанский писатель и драматург, общественный и политический деятель, классик азербайджанской литературы Абдуррагим бек Хагвердиев был одним из ведущих деятелей литературно-культурной среды конца XIX — начала XX веков. Свою литературную деятельность начал во время учебы в Шуше. За сорокалетнюю литературную деятельность Хагвердиев писал рассказы, пьесы, фельетоны, либретто, научные и фельетонные статьи. Творчество писателя исследователи делят на три периода: первый период (1892–1905), второй период (1905–1920) и третий период (1920–1933).

Часть творчества Абдуррагим бека Хагвердиева составляют публицистические произведения. Своими произведениями он стремился донести до широких масс народа демократические просветительские идеи. Он критиковал равнодушие и инертность

DOI:10.30546/gdu.5.2025

общества. Писатель требовал и пропагандировал гражданскую активность и патриотизм для прогресса общества.

Абдуррагим бек Хагвердиев, помимо того, что был драматургом, занимал особое место в азербайджанской литературе со своим уникальным литературным стилем. Написанные им рассказы сыграли важную роль в развитии азербайджанских советских прозаиков Мир Джалала, Сабита Рахмана и других писателей, которые начали писать новые произведения в 1920-х и 1930-х годах. Рассказы автора критиковали недостатки общества. Всего у Абдуррагим бека Хагвердиева более 80 рассказов, и все его произведения, включая рассказы, всегда вызывают интерес своей актуальностью.

Абдуррагим бек Хагвердиев, начавший свою профессиональную литературную деятельность с драматических произведений с конца XIX века, до этого периода сделал несколько коротких переводов из русской литературы. Эти переведенные произведения также оказали влияние на азербайджанского читателя.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Məfkurə Hüseynova
ATU-nun Azərbaycan dili kafedrasının 10 iyun 2025-ci il tarixli iclasın 03 saylı protokolu
Daxil olma tarixi 18 iyun 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 138-144

DOI:10.30546/gdu.5.2025

UOT:811.512.162.

AZƏRBAYCAN DİLİNDƏKİ PAREMİOLOJİ VAHİDLƏRİN SƏRHƏDLƏRİ

Hacıyeva Leyla İlham qızı
Bakı Slavyan Universitetinin doktorantı
leyla_hacyeva@bk.ru

Xülasə: *Paremioloji vahidlər, dilin ən zəngin və dildə intensiv şəkildə işlənən elementlərindən biri olaraq, dilin strukturunda, mədəniyyətin daşıyıcısı olaraq mühüm bir rol oynayır. Paremioloji vahidlər, müəyyən bir sosial və mədəni mühitin təcrübələrini və dəyərlərini özündə cəmləşdirən dil konstruksiyalarından ibarət olur. Paremioloji vahidlər, ümumiyyətlə, dərin məna daşıyan, həyat dərslərini, əxlaqi və sosial prinsipləri çatdıran ifadələrdir. Bu dil vahidləri, xalqın dünyagörüşünü, həyat təcrübəsini, mənəvi və sosial dəyərlərini əks etdirən, yaddaşdan yaddaşa ötürülən ifadələrdir. Paremioloji vahidlərə atalar sözləri, frazeologizmlər, məsəllər və afarozimlər daxil olur. Lakin bu vahidlərin sərhədləri bəzən dilçilikdə mübahisələr doğurur. Paremioloji vahidlər dedikdə hansı dil vahidləri nəzərdə tutulur? Bəzi alimlər paremiologiya sahəsinə yalnız atalar sözləri və məsəlləri aid etsələr də, digər qisim alimlər bu dil vahidlərinin sərhədlərini genişləndirib frazeologizmləri, aforizmləri də paremiologiyanın tədqiqat sahəsinə aid edirlər.*

Məqalədə paremioloji vahidlərin sərhədləri məsələsinə aydınlıq gətirilməsinə cəhd göstərilmişdir. Mövzunun tədqiqində müxtəlif alimlərin əsərlərindən istifadə edilmişdir.

Açar sözlər: sərhəd, paremiologiya, sərhəd, atalar sözü, frazeologizm, məsəl, aforizm.

Key words*:* boundary, paremiology, proverb, idiom, maxim, aphorism.

Ключевые слова: граница, паремиология, пословица, фразеологизм, изречение, афоризм.

Giriş:

Dil, yalnız ünsiyyət vasitəsi olmaqla qalmır, həm də xalqın mədəniyyətini, adət-ənənələrini, düşüncə tərzini və dünyagörüşünü özündə əks etdirir. Bu proses müxtəlif frazeoloji vahidlər, atalar sözləri, məsəllər və aforizmlər vasitəsilə həyata keçirilir. Bu dil vahidlərinin hər biri özünəməxsus xüsusiyyətlərə və funksiyalara malik olsa da, müəyyən ortaq cəhətləri də vardır. Paremioloji vahidlərin sərhədləri dinamik və dəyişkən bir xüsusiyyətə malikdir. Onların semantik və struktur sərhədləri həm dilin, həm də mədəniyyətin inkişafına bağlı olaraq dəyişir. Dilin təbiəti, cəmiyyətin dəyişən dəyərləri və mədəni fərqliliklər paremiya sərhədlərinin yenidən tərtib olunmasına səbəb olur. Müasir dövrdə internetin və sosial medianın gücü ilə bu sərhədlər daha da genişlənir. Beləliklə, paremiya sərhədləri yalnız dilin deyil, həm də cəmiyyətin, mədəniyyətin və sosial münasibətlərin təhlilini tələb edən bir mövzu olaraq qalır.

Əsas mətn:

Paremioloji vahidlər dilin və mədəniyyətin qarşılıqlı əlaqəsini və inkişafını nümayiş etdirən, eyni zamanda dünya haqqında ümumi anlayışları özündə cəmləşdirən mühüm dil vahidləridir. Onlar, müxtəlif vəziyyətlərdə həyat təcrübəsini və insanın sosial dünyasını izah etmək üçün istifadə olunan əsas vasitələrdən biridir. Paremioloji vahidlər, bir cümlə və ya ifadənin müəyyən bir mənada təkrarlanan, məşhur və bəzən qısa şəkli olaraq mövcud olan ifadələrdir. Bu ifadələr çox zaman müdriklik, xalq təcrübəsi, həyat dərsləri və ya bir dəyəri ifadə etmək məqsədilə istifadə olunur.

Paremioloji vahidlər dedikdə, xalqın həyat təcrübəsini, müdrikliyini və dünyagörüşünü əks etdirən və dil vasitəsilə nəsildən-nəslə ötürülən ifadələr nəzərdə tutulur, əsasən atalar sözləri və məsəlləri ehtiva edir. Bununla belə frazeologizmlər və aforizmlərin də paremioloji

DOI:10.30546/gdu.5.2025

sistemə daxil olub olmaması qismən mübahisəli məsələlərdəndir. Bu haqda öz fikirlərimizi bildirmədən əvvəl atalar sözləri, məsəllər, frazeologizmlər və aforizmlərin spesifik xüsusiyyətlərini qeyd etməyimiz vacibdir. Atalar sözləri — xalqın təcrübəsindən irəli gələrək yaranan, müdrikliyə əsaslanan və adətən qısa şəkildə ifadə olunan ifadələrdir. Atalar sözləri, cəmiyyətdə dəyərləndirilən davranışları və həyati dərsləri bir növ insanlara diktə edir. Atalar sözləri və məsələlər, xalqın mədəniyyətində, düşüncə tərzində və dünyagörüşündə mühüm yer tutan dil vahidləridir. Bu iki növ paremiyalar — atalar sözləri və məsələlər — hər biri özünəməxsus xüsusiyyətlərə malikdir və dilin funksional strukturunda fərqli rollar oynayır. Lakin, həm oxşar, həm də fərqli xüsusiyyətlərə malik olmaları, onları təhlil edərkən xüsusi diqqət tələb edir.

Məsəllər - xalqın müdrikliyini əks etdirən, lakin konkret həyat vəziyyətlərini ümumiləşdirməyən, mücərrəd və geniş mənalı ifadələrdir. Məsəllər, təbiət hadisələri, insan təbiəti və sosial həyatla bağlı dərslər verərək, daha çox mənəvi və ümumi davranış prinsiplərini vurğulayan ifadələrdir.

Məsəllər həyatın müxtəlif aspektlərinə dair ümumi mənalar daşıyan, daha abstrakt və ümumi olub, əksər hallarda təbiət hadisələrini, insan davranışlarını və sosial həyatı izah edən daha geniş anlamlı ifadələrdir.

Paremioloji vahidlərin sərhədləri mövzusunda müəyyən iki əsas yanaşma vardır: **Semantik sərhədlər**: Paremioloji vahidlər, dilin müəyyən semantik strukturunu əks etdirən ifadələrdir. Bu ifadələr zamanla mühafizə olunmuş mənasını qoruyur, lakin onların məzmunu müəyyən şəraitlərə və kontekstə bağlı olaraq dəyişə bilər. Müasir cəmiyyətdə paremiloji ifadələrin mənası zaman-zaman az da olsa dəyişə bilər və bu dəyişikliklər paremiya sərhədlərinin dəyişməsinə səbəb ola bilər.

Struktur sərhədlər: Paremioloji vahidlərin strukturu da onların sərhədlərini müəyyən edir. Atalar sözləri, frazeologizmlər və məsəllər özünün müəyyən quruluşunu saxlayır, lakin bu struktur da dəyişikliyə uğraya bilir. Məsələn, bəzən paremioloji vahidlərdəki sözlərin sırası və ya leksik quruluşları cəmiyyətin müəyyən ehtiyaclarına uyğun olaraq dəyişir.

Hər bir dildə istifadə olunan paremioloji vahidlər dil daşıyıcılarının mədəniyyətini və sosial dəyərlərini ifadə edir. Beləliklə, paremiyaların sərhədləri mədəniyyətin xüsusiyyətləri ilə sıx bağlıdır. Məsələn, bir xalqa məxsus olan məsəl və ya atalar sözünü başqa bir mədəniyyətə tərcümə etmək çox zaman çətinliklər yarada bilər. Çünki, hər bir mədəniyyətin özünəməxsus düşüncə tərzi və təcrübəsi vardır ki, bu da onun dilindəki paremiyaların sərhədlərini müəyyən edir [6, s.67].

XIX əsrin dilçilik ədəbiyyatında atalar sözləri ilə məsəllər arasındakı fərq məsələsinin ardıcıl və qəti həllinə rast gəlinməsə də, İ.M. Sneqirev, A.A. Potebnya, V.I. Dal, F.I. Buslayev, I.I. İllustrov, E.A. Lyatski kimi dilçilərin əsərlərində bu məsələ ilə bağlı maraqlı fikirlər və şərhlər də vardır.

Tədqiqatçılar atalar sözləri və məsəllərin tərifini verərkən onların ifadə etdikləri mənanın xarakterini, formanın özünəməxsusluğunu nəzərə alırlar. Atalar sözünü məsəllərdən ayırmaq problemini dilçilər aşağıdakı mövqeydən həll edirlər: 1. *Semantik xüsusiyyətinə görə:* atalar sözünün ümumiləşdirici xarakteri və nəticə etibarilə onun didaktik xarakteri qeyd olunur, atalar sözü isə xüsusi şərh xarakteri daşıyır [4; 5; 9]. 2. *Məcazi mənanın olub-olmamasına görə*: atalar sözü əsasən iki mənalıdır və eyni zamanda ifadənin birbaşa məzmun planına malikdir. Atalar sözlərini təşkil edən sözlərin mənasına tam uyğun gələn və ifadənin məzmununun alleqorik planı, onu təşkil edən sözlərin mənası ilə heç də uyğun gəlmir [8; 11; 12; 13]. *3.Struktur-qrammatik meyar:* atalar sözü tamamlanmış düşüncəni və ya mülahizəni ifadə edən cümlə kimi başa düşülür, məsəl tamamlanmamış mülahizələri ifadə edir.

DOI:10.30546/gdu.5.2025

Bəzi tədqiqatçılar atalar sözləri ilə məsəlləri ayırd etmək probleminə struktur-qrammatik yanaşmanı əsas deyil, köməkçi meyar kimi qəbul edirlər. Belə ki, S.G. Qavrin hesab edir ki, "*bütün məsəllər iki növə bölünür: məsəl-cümlə, məsəl-söz birləşmələri*" [7,s.78]. O, iddia edir ki, atalar sözündə məzmun üzrə ümumiləşdirmə, məsəldə isə funksiya baxımından ümumiləşdirmə var, yəni atalar sözləri ümumiləşdirmə xarakterinə görə məsəllərdən fərqlənir.

A.E. Kulakovski dildə atalar sözlərini məsəllərdən ayırmağın çətinliyindən yazır. Alim, onların fərqinin xarakterik əlamətini "*birbaşa və məcazi məna daşıyan, atalar sözlərindən fərqli olaraq, məsəllərdə məcazi mənanın olmaması*" hesab edirdi [10, s.90].

N.V. Emelyanov isə bu fikrin tam əleyhinədir. Onun fikrincə, məsəllər atalar sözləri kimi geniş olmasa da, məcazi məna daşıyır [15,s.4].

Tədqiqatçılar atalar sözləri ilə məsəllər arasındakı əsas fərqi semantikada görür. Onların fikrincə, atalar sözləri həmişə ümumiləşdirilmiş məcazi məna daşıyır.

Atalar sözləri xalqın həyat təcrübəsini tam, dolğun mühakimələr, nəticələr, təlimlər şəklində ümumiləşdirən qısa xalq deyimləri, məsəllər isə obyekt və hadisələri obrazlı şəkildə müəyyən edən geniş deyimlərdir. Məsələn, *Arabanı ata aparmaz, arpa aparar; Bəxtikəm ova çıxdı, dağları duman aldı; Bəy nökərindənsə, çoban köpəyi olmaq yaxşıdır* [2].

V.M. Nikiforov da həmkarları ilə eyni fikirdədir: "Atalar sözü həyatın hər hansı bir hadisəsini düzgün müəyyənləşdirən, qiymətləndirən və sonradan reallığın təkrarlanan və ya oxşar təlatümləri zamanı istifadə olunan obrazlı ifadə, nitq obrazıdır. Atalar sözü, məsəldən fərqli olaraq, ümumiləşdirici xülasə və didaktik məna daşıyır..." [14,s.94].

N.V.Emelyanov yazır ki, atalar sözləri linqvistik örtüyü, məntiqi mühakimə kimi, adətən, subyekt-predikativ ikili struktura malik olan cümlədir. Məsəllər isə predmetin məcazi tərifləri kimi, öz məna və funksiyalarına görə cümlənin ayrı-ayrı üzvlərinə bərabərdir və cümlədə onları əvəz edir [15,s.77].

Əksər tədqiqatçılar qeyd edirlər ki, atalar sözləri və məsəllər, fərqli anlayışlardır, lakin onlar arasındakı yaxınlıq o dərəcədədir ki, onlar arasında dəqiq sərhəd çəkmək həmişə mümkün olmur. Həm atalar sözləri, həm də məsələlər xalqın mədəniyyətində əvəzsiz rol oynayır və insan təcrübəsinin dərin izlərini dilə gətirir. Oxşar cəhətləri olsa da, onların strukturları, istifadəsi və funksiyaları arasında müəyyən fərqliliklər mövcuddur. Bu fərqliliklər, hər iki növ paremiya ilə əlaqəli olan dərin mənaların necə ifadə olunduğunu və qəbul edildiyini göstərir. Atalar sözləri və məsələlər, həyatın təcrübə və dəyərlərini dil vasitəsilə ötürür, bu səbəbdən hər iki kateqoriya mədəniyyətlər arasında əvəzsiz bir körpü və əlaqə vasitəsi rolunu oynayır: Atalar sözləri və məsəllər arasındakı fərqli xüsusiyyətlər bunlardır:

Fərqli xüsusiyyətlər:

Həm atalar sözləri, həm də məsələlər xalqın mədəniyyətində əvəzsiz rol oynayır və insan təcrübəsinin dərin izlərini dilə gətirir. Oxşar cəhətləri olsa da, onların strukturları, istifadəsi və funksiyaları arasında müəyyən fərqliliklər mövcuddur. Bu fərqliliklər, hər iki növ paremiya ilə əlaqəli olan dərin mənaların necə ifadə olunduğunu və qəbul edildiyini göstərir. Atalar sözləri və məsələlər, həyatın təcrübə və dəyərlərini dil vasitəsilə ötürür, bu səbəbdən hər iki kateqoriya mədəniyyətlər arasında əvəzsiz bir körpü və əlaqə vasitəsi rolunu oynayır.

1. Atalar sözləri, çox vaxt bir davranışın və ya hadisənin müsbət və ya mənfi nəticələrini izah edən konkret həyat dərslərini ifadə edir. Məsəllər isə daha geniş mənaları ifadə edən, daha abstrakt və təcrübədən qaynaqlanan həyat qanunları ilə reallaşır.

2. Atalar sözləri daha çox konkret həyat təcrübəsinə əsaslanır və hər bir vəziyyətə yönəldilmiş konkret davranışa dair göstərişlər verir. Məsəllər isə daha abstrakt məna daşıyır və daha geniş təcrübələri, təbiət və insan davranışını əks etdirir.

DOI:10.30546/gdu.5.2025

3. Atalar sözləri gündəlik həyatda daha çox istifadə olunur və birbaşa müstəqil təcrübə və məsələlərə yönəlir. Məsələn, atalar sözləri çox vaxt sosial əlaqələrdə, münasibətlərdə və gündəlik davranışlarda tətbiq olunur. Məsəllər isə daha çox ümumi təcrübə və həyat dərslərini əks etdirdiyi üçün daha geniş məqamda istifadə olunur, o cümlədən müasir mədəniyyətin, siyasətin və təbiət elmlərinin müzakirələrində.

4. Atalar sözləri və məsəllər ifadə etdikləri xəbərin mahiyyətinə görə fərqlənir. Atalar sözü, bir qayda olaraq, əxlaqı ehtiva etmir; o, predmet və hadisələri xarakterik xüsusiyyətlərinə və ya hərəkətlərinə görə obrazlı şəkildə müəyyənləşdirir, onlara qiymət verir. İnsanlara xas xasiyyətləri ilə obrazlı danışırlar.

5. Atalar sözü və məsəllər də ümumilik xarakteri ilə fərqlənir. Ümumiləşdirilmiş məna atalar sözünün xarakterik xüsusiyyətidir. Söz yalnız funksiyaya görə ümumiləşdirilir.

6. Atalar sözlü cümlələr nəqli və nida ola bilər. Məsəl cümlələri nəqli, sual və nida xarakterli ola bilər.

7. Atalar sözləri, çox vaxt bir davranışın və ya hadisənin müsbət və ya mənfi nəticələrini izah edən konkret həyat dərslərini ifadə edir. Məsəllər isə daha geniş mənaları ifadə edən, daha abstrakt və təcrübədən gələn həyat qanunları ilə reallaşır.

8.Atalar sözləri daha çox konkret həyat təcrübəsinə əsaslanır və hər bir vəziyyətə yönəldilmiş konkret davranışa dair göstərişlər verir. Məsəllər isə daha abstrakt məna daşıyır və daha geniş təcrübələri, təbiət və insan davranışını əks etdirir.

9.Atalar sözləri gündəlik həyatda daha çox istifadə olunur və birbaşa müstəqil təcrübə və məsələlərə yönəlir. Məsələn, atalar sözləri çox vaxt sosial əlaqələrdə, münasibətlərdə və gündəlik davranışlarda tətbiq olunur. Məsəllər isə daha çox ümumi təcrübə və həyat dərslərini əks etdirdiyi üçün daha geniş məqamda istifadə olunur, o cümlədən müasir mədəniyyətin, siyasətin və təbiət elmlərinin müzakirələrində yer alır.

Atalar sözləri və məsəllərin xüsusiyyətlərinin təhlili bu vahidlərin ümumi və fərqləndirici xüsusiyyətlərini vurğulamağa imkan verir.

Ümumi xüsusiyyətlər: Həm atalar sözləri, həm də məsələlər xalqın düşüncə tərzini, mədəniyyətini və tarixi təcrübələrini əks etdirən dil vahidləridir. Bu ifadələr, xalqın qiymətləndirdiyi dəyərləri və həyatın müxtəlif sahələrinə dair tövsiyələri özündə birləşdirir. Həm atalar sözləri, həm də məsələlər təcrübə və həyatdan çıxarılmış dərsləri təqdim edir. Bu ifadələr, müxtəlif vəziyyətlərdə tətbiq edilə biləcək həyat qaydalarını özündə cəmləşdirir. Həm atalar sözləri, həm də məsələlər müdrikliyi ötürərək insanların düşüncə və davranışlarını istiqamətləndirir.

Hər iki növ paremiyalar, mücərrəd anlamlar və simvollarla zəngindir. Bir atalar sözü və ya məsəlin səsləndirilməsi yalnız konkret bir hadisəni deyil, həm də ümumi həyat qanunlarını ifadə edir. Bunlar, dilin simvolik təbiətinin bir göstəricisidir.

Həm atalar sözləri, həm də məsələlər çox vaxt qısa, yığcam ifadələrlə ümumi həyat qanunlarını təqdim edir. Onlar, geniş təcrübələri və həyati dərsləri bir neçə sözlə ifadə edirlər. Bu, onların məna yükünü daha güclü edir.

1. Atalar sözləri və məsəllər xalq müdrikliyinin daşıyıcılarıdır və ona görə də öz mənşəyini folklordan götürür. Onların yaradıcıları ana dili daşıyıcılarının təfəkküründür məhsuludur. Yəni həm atalar sözləri, həm də məsəllər çox ümumişlək ifadələrdir.

2. Atalar sözləri və məsəllər elə dil vahidləridir ki, onların ən mühüm funksiyası nitqin emosionallığını və ekspressivliyini artırmaqdır.

3. Atalar sözləri və məsəllərin əsas xüsusiyyəti ondan ibarətdir ki, onlar digər sabit birləşmələrdən fərqli olaraq tərbiyəvi məna daşıyır.

4. Atalar sözləri və məsəllər insan təcrübəsini ümumiləşdirir və baş verənlərə qiymət verir. Onlar insanların bir çox nəsillərinin müşahidələrinə əsaslanır.

DOI:10.30546/gdu.5.2025

5. Atalar sözləri və məsəllər cümlənin strukturu ilə bağlı predikativ ifadələr olan kommunikativ xarakterli sabit ifadələrdir.

6. Atalar sözü və məsəllər klişe şəklində, yəni hazır və sabit formada meydana çıxır.

Müəyyən edilmiş ümumi və fərqli cəhətlər belə qənaətə gəlməyə imkan verir ki, atalar sözləri ilə məsəllər arasındakı əsas fərq, bizim nöqteyi-nəzərimizdən semantik baxımdandır. Şübhəsiz ki, xalq üçün daha vacib olan cəhət bu ifadələrin idrak və ibrətamiz mənasıdır. Məsəllərin spesifikliyi məhz ondadır ki, onlar miniatürdəki bədii əsərlər kimi xalqın müəyyən ideyalarını, həyata münasibətini, müəyyən ictimai-tarixi təcrübələrini ifadə edir. Beləliklə, atalar sözləri ilə məsəlləri ayırmaq üçün nə məcazi mənanın varlığı meyarı, nə də qrammatik forma meyarı əsas götürülə bilməz.

Lakin qeyd etmək lazımdır ki, atalar sözünü məsəldən ayırmağa imkan verəcək aydın linqvistik meyarlar hələ elmdə təsbit edilməmişdir.

Paremioloji sistemdə atalar sözləri və məsəllərin yeri və mövqeyi nə qədər sabitləşmiş olsa da, frazeoloji vahidlərin və aforizmlərin də paremiologiyaya daxil olub olmaması heç də bütün dilçilər tərəfindən birmənalı qarşılanmır. Azərbaycan dilindəki atalar sözlərinin linqvistik xüsusiyyətlərini təhlil edən Zinyət Əlizadə frazeoloji sistemə atalar sözləri və məsəlləri də daxil edir [1]. Bizim fikrimizcə, alim öz mövqeyində çox haqlıdır.

Frazeoloji vahidlər dilin sabit, məcaziliyə və ekspressivliyə malik söz birləşmələridir. Bu vahidlər müəyyən bir mənanı ifadə edərkən, təkcə sözlərin birləşməsi ilə yaranan semantik məna deyil, həmin sözlərin əlaqəsi də xüsusi bir məna daşıyır. Frazeoloji vahidlər, ümumiyyətlə, mücərrəd və ya dolayısı ilə bir mənaya malik olur. Məsələn, *ara vurmaq, gözü dörd olmaq, hirsi başına vurmaq, o vaxtdan neçə sular axıb* və s. [2].

Frazeoloji vahidlərlə atalar sözləri və məsəllərin oxşar xüsusiyyətlərinə nəzər salaq: frazeoloji vahidlər də təkcə sözlərin mənalarını deyil, həmin sözlərin birləşməsinin yaratdığı xüsusi mənanı ifadə edir; atalar sözləri və məsəllər kimi, frazeoloji vahidlər də cəmiyyətin həyat təcrübəsini və təcrübələrdən alınan dərsləri əks etdirir; atalar sözləri də insanın həyatını və dünyagörüşünü əks etdirir və bu baxımdan həm frazeoloji vahidlər, həm də məsəllərlə əlaqəlidir; həmçinin, həm frazeoloji vahidlər, həm də atalar sözləri sosial həyatın və mədəniyyətin ifadəsidir.

Fərqli xüsusiyyətləri isə bunlardır: frazeoloji vahidlər, ümumiyyətlə, daha geniş bir kontekstdə istifadə olunur və konkret bir vəziyyəti, duyğunu və ya hadisəni ifadə edir; atalar sözləri və məsəllər həyatın daha geniş və ümumi aspektlərini əks etdirərkən, frazeoloji vahidlər konkret vəziyyətlərə, hərəkətlərə və duyğulara aiddir; atalar sözləri daha çox dərin hikmət və məsləhətlər verir. Onlar tez-tez insan davranışları, etik prinsiplər və sosial dəyərlərlə əlaqələndirilir; atalar sözləri daimi olaraq eyni formada istifadə olunur, lakin frazeoloji vahidlər, vəziyyətə görə dəyişə bilər.

Məsəllərlə frazeoloji vahidlərin oxşar xüsusiyyətlərinə isə bunlar aiddir: məsəllər də həyat təcrübələrinə və cəmiyyətin dəyərlərinə əsaslanır. Bu vəziyyət onları həm frazeoloji vahidlər, həm də atalar sözləri ilə əlaqəli edir; məsəllər də, həm frazeoloji vahidlər, həm də atalar sözləri kimi, toplum tərəfindən qəbul edilmiş bir gerçəyi, münasibəti və ya davranış nümunəsini ifadə edir. Məsəllərlə frazeologizmlərin fərqli xüsusiyyətləri isə məsəllərin daha çox nəsihət və ya ümumi həyat təcrübələrini əks etdirməsi, eyni zamanda daha geniş məna daşıması; frazeologizmlərin daha qısa və konkret olasıdır.

Aforizmlərin də paremioloji sistemdə az və ya çox dərəcədə yeri vardır. Aforizmlər yazıçılar, görkəmli şəxsiyyətlər, ziyalı insanlar tərəfindən deyilmiş hikmətli kəlamlardır. Aforizmlərin, bədii əsərlərin xalq tərəfindən sevilməsində, şöhrət qazanmasında, gənc nəslin tərbiyəsində böyük rolu olmuş və indi də vardır [3,s.28].

DOI:10.30546/gdu.5.2025

Aforizmlər daha çox qısa, lakin çox mənalı olan ifadələrdir. Aforizmlər bir məsəl və ya atalar sözü kimi dərin həyat hikmətini ifadə edə bilər, lakin onlar daha çox şəxsi düşüncələri, fəlsəfi və mədəni məsələləri əks etdirir. Zənnimizcə, aforizmləri atalar sözləri və məsəllərdən, frazeologizmlərdən fərqləndirən əsas nüans aforizmlərin müəllifli olmasıdır. Aforizmlər də, həm frazeoloji vahidlər, həm də atalar sözləri kimi, bir dərin məna daşıyır və cəmiyyətin dəyərlərini ifadə edir. Aforizmlər, atalar sözləri və məsələlər kimi, müdriklik və həyat dərsləri ehtiva edir. Bununla belə aforizmlərlə atalar sözləri və məsəllərin, frazeoloji vahidlərin fərqli cəhətləri də yox deyildir. Aforizmlər daha çox fəlsəfi və şəxsi düşüncələrə əsaslanır, tez-tez şəxsi görüşləri və həyat fəlsəfəsini ifadə edir. Eyni zamanda aforizmlər daha çox yazılı formadadır və xüsusi bir şəxs tərəfindən ifadə olunur. Atalar sözləri və məsəllər isə ümumi, kollektiv bir təfəkkür məhsuludur. Onu da qeyd etmək lazımdır ki, aforizmlər zamanla xalq arasında işləklik qazanaraq nəticədə müəllifini itirir, beləliklə atalar sözlərinə və yaxud frazeologizmə çevrilir. Məsələn, Ü.Hacıbəyovun müəllifi olduğu "*O olmasın, bu olsun*" ifadəsi xalq arasında o dərəcədə işləklik qazanmışdır ki, əsərlər tanış olmayan, xüsusilə gənc nəslin nümunələri bu ifadəni məsəl kimi qəbul edir [2,s.1115]. Bir çox atalar sözləri və frazeologizmlər var ki, onlar hər hansı bir əsərdən götürülsələr də, artıq müəllifləri xatırlanmır.

Nəticə:

Frazeoloji vahidlər, atalar sözləri, məsəllər və aforizmlər dilin mühüm komponentləri olaraq, bir-birilə sıx əlaqədə olan, lakin özlərinə məxsus xüsusiyyətlərə malik dil vahidləridir. Hər biri, müəyyən bir mənanı ifadə edərək, dilin və mədəniyyətin inkişafını, həmçinin insan düşüncə və davranışlarını əks etdirir. Oxşar cəhətləri olsa da, bu dil vahidləri müxtəlif istifadə məqsədlərinə və məqsədli auditoriyalara xidmət etsələr də, aralarındakı yuxarıda sadaladığımız oxşarlıqlar bu ifadələrin–atalar sözlərnin, məsəllərin, frazeologizmlərin, aforizmlərin hamısının paremioloji sistemə aid olduğundan xəbər verir. Beləliklə bu dil vahidlərinin hamısını dilin paremioloji sistemində öyrənmək daha məqsədəuyğun olardı.

Ədəbiyyat

1. Əlizadə Z. Atalar sözlərinin həyatı. B., Yazıçı, 1985, 243 s.
2. Həmidov İ., Axundov B., Həmidova L. Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti. Bakı, "Təhsil", 2009, 560 səh.
3. Hüseynov H. Mir Cəlalın aforizmləri.–Bakı: 2013, 167 s.
4. Бабкин А.М. Лексикографическая разработка русской фразеологии. М.-Л.: Наука, 1964. - 76 с.
5. Бондаренко Л.Ф. Структурно-семантические особенности пословиц как специфического разряда устойчивых фраз современного немецкого языка: Автореф. дис. ... канд. филол. наук. Киев, - 1977. -24с.
6. Борисова, Л. П. Лингвокогнитивный аспект исследования паремиологических единиц: На материале пословиц и поговорок якутского языка и их русских эквивалентов. Диссертации кандидат филологических наук 1999, 208 С.
7. Гаврин С.Г. Фразеология современного русского языка /в аспекте теории отражения/. Пермь: ПГПИ, 1974. - 269 с.
8. Жуков В.П. Словарь русских пословиц и поговорок. М.: Высшая школа, 1991-534 с.
9. Кожин А.Н. О разграничении пословиц и поговорок // Моск. обл. пед. ин-т им. Н.К. Крупской: Учен. зап. Т. 206. Вып. 14. М., 1967. -С. 3-12.
10. Кулаковский А.Е. Якутские пословицы и поговорки. Научно-исследовательский институт языка, лит-ры и истории. Якутск, 1945. -100 с.
11. Мокиенко В.М. Вглубь поговорки. Киев: Рад. шк., 1989. - 220 с.

DOI:10.30546/gdu.5.2025

12. Молотков А.И. Основы фразеологии русского языка. Л.: Наука. Ленингр. отд-ние, 1977. - 283 с.
13. Морозова Л.А. Пословицы и поговорки: К вопросу об определении и разграничении // Вестн. Моск. ун-та, Сер. Филология. 1972.-№2.-С. 57-65.
14. Никифоров В.М. Историческая основа пословиц и поговорок народа саха // Якутия и Россия: 360 лет совместной жизни. Якутск: ЯНЦ СО РАН, 1994. - С. 94-101.
15. Емельянов Н.В. Якутские пословицы и поговорки. Якутск: Якутское кн. изд-во, 1962. - 96 с.

THE BORDERS OF PAREMIOLOGICAL UNITS IN THE AZERBAIJANI LANGUAGE

Hacıyeva Leyla İlham qızı

Summary

Paremological units, as one of the richest and most intensively used elements in language, play an important role both in the structure of language and as a carrier of culture within the language. Paremological units consist of linguistic constructions that embody the experiences and values of a particular social and cultural environment. Generally, paremological units are expressions that carry deep meaning and convey life lessons, moral, and social principles. These language units reflect the worldview, life experience, and spiritual and social values of the people, and they are expressions passed down from memory to memory. Paremological units include proverbs, idioms, maxims, and aphorisms. However, the boundaries of these units sometimes cause disputes in linguistics. Which language units are considered as paremological units? While some scholars restrict the field of paremiology to only proverbs and maxims, other scholars expand the boundaries of these units by including idioms and aphorisms in the research area of paremiology. This article attempts to clarify the issue of the boundaries of paremological units. The works of various scholars are used in the study of this topic.

ГРАНИЦЫ ПАРЕМИОЛОГИЧЕСКИХ ЕДИНИЦ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

Гаджиева Лейла Ильхам кызы

Резюме

Паремиологические единицы, как одни из самых богатых и часто используемых элементов языка, играют важную роль как в его структуре, так и как носители культуры. Эти единицы представляют собой языковые конструкции, воплощающие опыт и ценности определённой социальной и культурной среды. Как правило, паремиологические единицы — это выражения с глубоким смыслом, передающие жизненные уроки, нравственные и социальные принципы. Они отражают мировоззрение, жизненный опыт, духовные и социальные ценности народа и передаются из поколения в поколение. К паремиологическим единицам относятся пословицы, фразеологизмы, изречения и афоризмы. Однако границы этих единиц иногда вызывают споры в лингвистике. Какие языковые единицы следует считать паремиологическими? В то время как одни учёные ограничивают сферу паремиологии только пословицами и изречениями, другие расширяют границы, включая в область исследований фразеологизмы и афоризмы. Настоящая статья направлена на прояснение вопроса о границах паремиологических единиц. В исследовании используются труды различных учёных.

Rəyçi:Filologiya elmləri doktoru, professor Şəhla Əhmədova
Daxil olma tarixi 11 iyun 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 145-148

DOI:10.30546/gdu.5.2025

UOT:82.

RÜFƏT ƏHMƏDZADƏNİN POEZİYASINDA MİRZƏ ƏLƏKBƏR SABİR İZLƏRİ

Həmidova Aytac Nəzər qızı
"Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyi"nin dissertantı
ORCID: 0009-0005-1419-9465
aytac.hamidova92@mail.ru

Xülasə: *Bu məqalədə Mirzə Ələkbər Sabirin zəngin satirik ənənələrinin Rüfət Əhmədzadənin poeziyasında necə uğurla davam etdirildiyi və yenidən işlənildiyi geniş şəkildə araşdırılıb. M.Ə.Sabirin poeziyasında cəmiyyətin sosial problemləri, ədalətsizlik, korrupsiya və mənəvi böhran kimi mövzular kəskin satirik yanaşma ilə işıqlandırılırdı və bu xüsusiyyətlər Rüfət Əhmədzadənin yaradıcılığında da açıq şəkildə görünür. Məqalədə göstərilib ki, R.Əhmədzadə M.Ə.Sabirin ictimai-siyasi tənqid ruhunu qoruyub saxlayaraq eyni zamanda öz dövrünün çağırışlarına uyğun yeni ifadə vasitələri və mövzular əlavə etmişdir. Rüfət Əhmədzadə klassik satirik poeziyanı qoruyub inkişaf etdirərək Azərbaycan ədəbiyyatının davamlılığına və zənginliyinə böyük töhfə verib.*

Açar sözlər: Mirzə Ələkbər Sabir, Rüfət Əhmədzadə, satirik poeziya, Azərbaycan ədəbiyyatı, ictimai tənqid.

Ключевые слова: Мирза Алекпер Сабир, Руфат Ахмедзаде, сатирическая поэзия, азербайджанская литература, социальная критика.

Keywords: Mirza Alakbar Sabir, Rufat Ahmadzadeh, satirical poetry, Azerbaijani literature, social criticism.

Azərbaycan satirik poeziyası xalqın ictimai-sosial həyatında baş verən mənfi halların, geriliyin və cahilliyin ifşasında mühüm rol oynamışdır. Bu poeziya ənənəsi XX əsrin əvvəllərində Mirzə Ələkbər Sabir yaradıcılığı ilə zirvəyə çatmış, onun satirik təfəkkürü, xalq ruhuna uyğun sadə və təsirli poetik dili sonrakı nəsil satiriklər üçün güclü yaradıcılıq məktəbinə çevrilmişdir. M.Ə.Sabirin açdığı bu yol illər sonra Azərbaycan poeziyasında Rüfət Əhmədzadə kimi ədəbi varis tərəfindən böyük ustalıqla davam etdirilmişdir.

Rüfət Əhmədzadənin poeziyası Sabirin poetikasına yalnız forma baxımından deyil, ideya-məzmun baxımından da yaxınlıq göstərir. O, Sabirin tənqid etdiyi sosial ədalətsizlik, riyakarlıq, nadanlıq kimi problemləri öz dövrünün reallıqları fonunda təhlil etmiş, klassik satira ənənəsini yeni poeziyada yaşatmağa nail olmuşdur. R.Əhmədzadənin M.Ə.Sabirə yazdığı nəzirələrdə, eləcə də fərdi satirik şeirlərində bu ideya və üslub oxşarlığı aydın sezilir.

Mirzə Ələkbər Sabir (1862–1911) Azərbaycan ədəbiyyatında satiranın inkişafında xüsusi rol oynayan böyük şairlərdəndir. O, **Molla Nəsrəddin** jurnalı vasitəsi ilə ictimai-siyasi satiranı xalq kütləsinə çatdıran, formaca sadə, məzmunca dərin bir üslub yaradan sənətkar kimi tanınır.

Azərbaycan ədəbiyyatında "Molla Nəsrəddin" jurnalının rolu danılmazdır; bu jurnal təkcə ictimai-siyasi satiranın inkişafına deyil, həm də şairlərin yaradıcılığının formalaşmasına böyük təsir göstərmişdir. Xüsusilə Mirzə Ələkbər Sabir kimi böyük şair üçün jurnalın mühiti həm ilham mənbəyi, həm də yaradıcılığının istiqamətvericisi olmuşdur. Jurnalın tənqidi ruhu və ictimai çağırışları Sabirin satirik poeziyasının məzmununu zənginləşdirərək onun əsərlərinə yeni nəfəs gətirmişdir. Bu baxımdan Ulduz Qəhrəmanova qeyd edir ki: **"Molla Nəsrəddin" jurnalının nəşri böyük şairin ilhamına qüvvət verərək onun yaradıcılığını**

DOI:10.30546/gdu.5.2025

müəyyən dərəcə istiqamətləndirirdi. Jurnalın ruhu Sabirin də şair təbiətinə tamam müvafiq idi." [6, s.9].

"Molla Nəsrəddin" jurnalı Sabirin həm estetik, həm də ideoloji baxımdan yüksəlişinə zəmin yaratmışdır.

M.Ə.Sabirin yaradıcılığı satirik gücü və sosial şüur oyandıran təhkiyəsi onun **poetik-nüfuzlu bir məktəb** kimi qəbul edilməsinə səbəb olmuşdur. Mirzə Ələkbər Sabir təkcə satirik poeziya sahəsində deyil, publisistika və tərcüməçilik istiqamətində də fəaliyyət göstərmişdir. Bununla əlaqəli **Mehparə Əliyeva** yazır: **"Lirik şeirlər, satiralar müəllifi tərcüməçiliklə də məşğul olmuş, felyetonları və məqalələri ilə məşhurlaşmışdır." [5, s.22]**

Mirzə Ələkbər Sabirin satirik poeziyası xalqın mənəvi həyatını, dərdini, ictimai təbəqələr arasındakı ziddiyyətləri, cəmiyyətin sosial-siyasi ağrı nöqtələrini poetik formada dərinliklə əks etdirir. Timuçin Əfəndiyev haqlı olaraq qeyd edir ki: **"Sabirin satirik şeirlərində millətin maddi və mənəvi əzabları, ağrıları, itirdikləri bütün detalları ilə poetik şəkildə ifadə olunur." [1, s.10].**

Onun satirik dili, poetik ustalığı və ictimai məsuliyyət hissi milli poeziyamızda satira janrının əsas dayaqlarını yaratmışdır. Rəfiq Zəka qeyd edib ki: "R.Əhmədzadə Sabirin kəşf etdiyi rəngarəng formalarda, vəznlərdə şeirlər yazmaqda hünər göstərir. O nədən yazırsa yazsın, fikirlərini aydın ifadə etməyə çalışır, yadda qalan misralarla oxucuları ələ almağı bacarır." [7, s.206].

M.Ə.Sabirin satirik ənənələrinin davamçısı olan R.Əhmədzadə də ictimai problemləri, insan taleyini, sosial haqsızlıqları özünəməxsus şəkildə ifadə edir. Ənənə ilə yeniliyin sintezində, forma və məzmun uyğunluğunda Rüfət Əhmədzadə həm Sabirə bənzəyir, həm də ondan fərqlənərək fərdi yaradıcılıq xüsusiyyətlərini qoruyur. Rüfət Əhmədzadənin "Futbolsayağı" adlı şeiri də bu baxımdan müəllifin satirik yenilikçiliyini və forma baxımından orijinallığını əks etdirən nümunələrdəndir.

"Zənn eyləməsinlər çalışıb "xal" yığıram mən,
Allaha Şükür, xalça-xalım boldur özümçün.
Hər cəhd ilə dövlət yığıram, mal yığıram mən.
Meydançası yox, top qapısı koldur özümçün.

Dil məndə, yalanla udaram topları hopla,
Yox, arifə rast gəlsəm, işim ötməsə gopla,
Doldur yenə yırtıq topu, dostum, təzə topla"
Doldur, çəkərəm zəhmətini, doldur özümçün." [3, s.37].

Rüfət Əhmədzadənin "Futbolsayağı" şeiri satirik üslubda yazılmış, sosial reallıqları incə bir istehza ilə tənqid edən orijinal poetik nümunədir. Şair burada futbol terminlərini məharətlə məcazi məna daşıyıcısına çevirərək, cəmiyyətdə mövcud olan mənfi halları – riyakarlığı, yalanı, qeyri-qanuni yolla qazanc əldə etməyi ifşa edir. "Xal yığmaq", "top qapısı", "meydança", "topu doldurmaq" kimi ifadələr adi idman terminləri olsa da, bu şeirdə korrupsiya, mənfəətçilik və ikiüzlülük anlamlarını daşıyır. İroniya ilə işlənmiş bu ifadələr şairin yaradıcılığındakı yeniliyə, satiranın müasir formalarını tətbiq etmə bacarığına nümunədir. Şair özünü bu cəmiyyətin bir parçası kimi təqdim etsə də, əslində mənfi obrazları canlandıraraq tənqid obyektinə çevirir. Onun dili həm sarkastik, həm də obrazlıdır; xalq danışıq dili ilə ictimai-etik problemləri poeziya müstəvisinə gətirməyi bacarır. Bu şeir Rüfət Əhmədzadənin Sabir məktəbinin davamçısı olduğunu, lakin eyni zamanda öz dəsti-xəttini formalaşdırdığını göstərir.

DOI:10.30546/gdu.5.2025

R.Əhmədzadənin "Səbr elə" şeiri ironik və satirik çalarlarla zəngin bir şeirdir. Şair burada xalqın əziyyət çəkən, zəhmətlə yaşayan, təhsil alan, lakin buna baxmayaraq cəmiyyətdə layiqli yer tapa bilməyən kəsimin faciəsini istehza ilə ifadə edir.

"Mən bala, keyf edim belə
Sən də darıxma, səbr elə!
Çox da ki təhsil almısan,
Meylini elmə salmısan,
Baxıb gör harda qalmısan?
Vaxtını vermisən yelə,
Mən bala, keyf edim belə,
Sən də darıxma, səbr elə!" [2, s.44].

Buradakı "mən bala, keyf edim belə" ifadəsi əslində, məsuliyyətsiz, cəmiyyətin resurslarından bəhrələnən, lakin heç bir real dəyər yaratmayan təbəqənin obrazıdır. Şeirdə "səbr elə!" ifadəsi tənqidi bir ironiya ilə işlənib – sanki əzabkeş xalqdan səbr istənilir, halbuki bu səbr istəyi ədalətsizliyə göz yummanı simvolizə edir. Təhsilə və elmə dəyər verənlərin nəticədə "yelə verdiyi vaxt" kimi qiymətləndirilməsi acı bir tənqid formasıdır. Rüfət Əhmədzadə Sabir kimi burada da sosial təbəqələr arasındakı ziddiyyətləri, haqq-ədalət problemini poetik vasitələrlə qabardır. Sadə və danışıq dilinə yaxın üslub Sabirin poeziyasını xatırladır və bu şeiri satirik poeziyanın müasir nümunələrindən birinə çevirir. Şair xalqın səbrinin tükəndiyi bir zamanda satiranı silah kimi istifadə edərək cəmiyyətdə baş verən haqsızlıqları işıqlandırır.

Rüfət Əhmədzadənin "Sabiranə" adlı bu şeiri həm məzmun, həm də forma baxımından klassik satiranın böyük ustası Mirzə Ələkbər Sabirə dərin bir ehtiramın ifadəsidir. Şair burada dövrün sosial-mənəvi problemlərini ustalıqla qabardır və Sabirin ənənəvi satirik üslubuna söykənərək öz dövrünü tənqid edir.

"Onda adamlar lal olub, kar olub,
İndi bu işlər təzə aşkar olub?
Sən də sağ olsan deyəcəkdin belə:
Yüzdə birin yazmamışıq biz hələ.
Bəzisinin canın alıb vəlvələ,
Sirləri aləmdə bu gün car olub?
Guya bu işlər təzə aşkar olub." [4, s.136].

Şeirdə "onda adamlar lal olub, kar olub" misrası ilə keçmişdəki ictimai susqunluq və laqeydlik nəzərdə tutulur. Ardınca verilən "İndi bu işlər təzə aşkar olub?" ritorik sualı, əslində, dəyişməyən reallıqlara, cəmiyyətin eyni qüsurlarla üz-üzə qalmasına işarə edir. Rüfət Əhmədzadə "Yüzdə birin yazmamışıq biz hələ" deyə Sabir irsinin nə qədər dərin və geniş olduğunu qəbul edir və bu irsin davam etdirilməsinin vacibliyini vurğulayır.

Satirik üslub, ictimai gerçəklərin tənqidi, ironik yanaşma və cəsarətli ifadə Rüfət Əhmədzadənin bu şeirini Sabirin poeziyasına yaxınlaşdırır. O, həm Sabirin mirasını yaşadır, həm də öz dövrünün gerçəkliklərinə şair gözü ilə baxaraq ictimai fikrə təsir göstərməyə çalışır. Bu baxımdan, Rüfət Əhmədzadənin poeziyasında Sabir izlərini aydın görmək mümkündür. O, Sabirin cəsarətini, xalqın dərdinə şərik olan qələm sahibinin vicdan səsini özündə yaşadır. Beləliklə, bu şeir həm Sabirin üslubuna bir ithaf, həm də çağdaş dövrün Sabiranə təfəkkürlə yenidən səsləndirilməsidir.

R.Əhmədzadənin satirik şeirlərində xalqın taleyinə biganə yanaşanlar, mənasız yerə öz kefində olanlar, cəmiyyətin dərdindən xəbərsiz qalanlar Sabiranə üslubla tənqid olunur. Bu isə onu göstərir ki, Rüfət Əhmədzadə klassik ədəbi irsin yalnız təsiri ilə kifayətlənmir, eyni zamanda bu irsi çağdaş cəmiyyətin problemlərinə uyğunlaşdıraraq poeziyasında yeni forma

DOI:10.30546/gdu.5.2025

və məzmunla təqdim edir. Sabirin irsindən qaynaqlanan bu poetik istiqamət Rüfət Əhmədzadə yaradıcılığında milli poeziyanın davamlılığını və dövrün ruhuna uyğunluğunu bir daha sübut edir.

Ədəbiyyat

1. Əfəndiyev Timuçin. Sabir satirasinda özünütanima və milli kimlik. 525-qəzet.- 2020.- 25 sentyabr.- S.10-11.
2. Əhmədzadə R.Z. Bu mənəm, mən deyiləm.- Bakı: Gənclik, 1976.- 118, [2] s.
3. Əhmədzadə R.Z. Düzü-düz əyrini-əyri.- Bakı: Gənclik, 1973.- 140 s.
4. Əhmədzadə R.Z. Hələlik.- Bakı: Yazıçı, 1991. - 192 s.
5. Əliyeva M. Humanist və demokratik ideyalar carçısı. Respublika.- 2022.- 28 may.- S.22.
6. Qəhrəmanova U. "Molla Nəsrəddin" jurnalında Mirzə Ələkbər Sabir imzaları / Axtarışlar: (ədəbiyyatşünaslıq, folklorşünaslıq, dilçilik və sənətşünaslıq) / AMEA, Naxçıvan bölməsi.- 2021.- №1.- S.9-17
7. Zəka Rəfiq Düzü-düz, əyrini-əyri/: Rüfət Əhmədzadənin eyni adlı kitabı haqqında// Azərbaycan.-1973.-N11.-S.205-208

СЛЕДЫ МИРЗЫ АЛЕБЕРА САБИРА В ПОЭЗИИ РУФААТА АХМЕДЗАДЕ

Гамидова Айтадж Назар кызы

Резюме

В данной статье подробно рассматривается, как богатые сатирические традиции Мирзы Алекпера Сабира были успешно продолжены и переработаны в поэзии Руфата Ахмедзаде. В поэзии М.А. Сабира такие темы, как социальные проблемы общества, несправедливость, коррупция и моральный кризис, были освещены с острой сатирической точки зрения, и эти черты также отчетливо видны в творчестве Руфата Ахмедзаде. В статье показано, что Р. Ахмедзаде, сохраняя дух социально-политической критики М.А. Сабира, добавил новые средства выражения и темы, соответствующие вызовам своего времени. Руфат Ахмедзаде внес большой вклад в преемственность и богатство азербайджанской литературы, сохранив и развив классическую сатирическую поэзию.

TRACES OF MIRZA ALEKBER SABIR IN THE POETRY OF RUFAT AHMEDZADE

Hamidova Aytaj Nazar

Summary

This article extensively examines how the rich satirical traditions of Mirza Alakbar Sabir were successfully continued and reworked in the poetry of Rufat Ahmadzade. In the poetry of M.A. Sabir, topics such as social problems of society, injustice, corruption and moral crisis were highlighted with a sharp satirical approach, and these features are also clearly visible in the work of Rufat Ahmadzade. The article shows that R. Ahmadzadeh, while preserving the spirit of M.A. Sabir's socio-political criticism, added new means of expression and themes in line with the challenges of his time. Rufat Ahmadzadeh made a great contribution to the continuity and richness of Azerbaijani literature by preserving and developing classical satirical poetry.

Rəyçi: Filologiya elmləri doktoru, akademik Rafael Hüseynov
Daxil olma tarixi 02 iyul 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 149-154

DOI:10.30546/gdu.5.2025

UOT:81.

BƏDİİ MƏTNLƏRDƏ TOPONİMLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

f.ü.f.d. Həsənova Nəzakət Aslan qızı
Azərbaycan Dillər Universiteti
nezakethasanovaaslan@gmail.com

Xülasə: *Onomastikanın uzun müddət dilin tarixi inkişafının öyrənilməsindəki rolu qiymətləndirilməmişdir. Xüsusi adlar, eyni tipli obyektlər qrupundan tək bir obyektin adının fərqləndirilməsi deməkdir. Bütün onimlərin öz mənaları var, amma çox vaxt adların əksər hissəsi üçün yalnız adlandırma funksiyası saxlanılır, onimlərin daşıdığı məna isə yaddaşlardan silinir. Məsələn, hər hansı bir ərazi, ətrafdakı mənzərənin hər hansı bir xüsusiyyəti, tarixi hadisələr və ya görkəmli şəxsiyyətlərin şərəfinə verilmiş (məsələn, Cəlilabad, Sabirabad və ya Füzuli) adlar və s. Bu baxımdan antroponimlər daha səciyyəvidir. Belə ki, toponimlər semantik funksiyanın itirilməsi ilə xarakterizə olunmadığı üçün, şəxs adları, bir qayda olaraq, daha dərin köklərə malikdir və onların yaranma tarixini izləmək olduqca çətindir.*

Cəmiyyət üzvlərini və eləcə də əşya və hadisələri bir-birindən fərqləndirən leksik vahid ad hesab edilir. Ad bəşər cəmiyyətinin qazandığı ictimai-mədəni və sosial nailiyyət olmaqla bərabər, həm də ictimai ehtiyacları ödəmək vasitəsidir. Dildəki hər bir xüsusi ad – onomastik vahid ictimai-tarixi inkişafın nəticəsidir.

Toponimlər həyatın bütün sahələrində olduğu kimi, bədii ədəbiyyatda da xüsusi mövqeyə malik olur. Hər hansı bir bədii əsəri toponimsiz təsəvvür belə etmək olmur. Çünki bədii ədəbiyyatda istifadə edilən onomastik vahidlər hər bir xalqın bədii təfəkkürünün ifadə vasitələrindən biri olan onomastik vahidlərin günümüzə qədər gəlib çıxmasında özünəməxsus rola malikdir. İngilis dilində yaranan coğrafi adlar dilin özü kimi qədimdir. Dil vahidi kimi coğrafi adlar da tarixi öyrənmək üçün dil faktlarına çevrilir və xalqın mənəvi tarixinin tərkib hissəsi olur. Hər hansı bir dilin həm keyfiyyət, həm də kəmiyyətcə dəyişməsi və inkişafı prosesin başqa mərhələlərində olduğu kimi terminoloji leksikada da özünü göstərir. Terminoloji leksika eyni zamanda dilin mənzərəsini əks etdirən, onun zənginliyini şərtləndirən əsas cəhətdir.

Açar sözlər: Üslubi toponimiya, funksional-ekspressiv, etnik xarakter, poetik dil, ümumi dil-nitq fonu, onomastik vahidlər.

Ключевые слова: Стилистическая топонимия, функционально-экспрессивный, этнический характер, поэтический язык, общий языково-речевой фон, ономастические единицы.

Key words: Stylistic toponymy, functional-expressive, ethnic character, poetic language, general language-speech background, onomastic units.

Bədii ədəbiyyatda işlənən toponimlər konkret bir ərazinin tarixi-siyasi coğrafiyasını əks etdirir. Onlar gerçəkliyə münasibətlərinin formasına görə iki qrupa bölünür: a) adi toponimlər; b) üslubi toponimlər.

Adi toponimlər təsviri xarakter daşıyıb, dəqiq və konkret yerləri bildirir.

Üslubi toponimlər isə yazıçıların yaradıcı fəaliyyətinin məhsuludur. Onlar əsərdə, mətndə estetik keyfiyyətləri, emosionallığı qüvvətləndirmək məqamında işlədilir. Adi toponim kimi onlar dil faktı, üslubi toponim kimi isə onlar nitq faktı kimi çıxış edir.

Toponomiya üslubi tədqiqatlara geniş material verir və bədii ədəbiyyatda üslubi çalarlıqlar əldə edir. Toponimlər öz üslubi funksiyasını əsasən bədii ədəbiyyatda əldə edir və xüsusi estetik çalarlığa malik olur.

DOI:10.30546/gdu.5.2025

Toponimlər bədii əsərlərdə müxtəlif məqsədlər üçün istifadə olunur:

1. Onlar bir çox hallarda özlərinin fiziki mənalarında işlənməklə konkret bir hadisənin baş verdiyi yeri bildirir:

After a day or two he had to leave ***London*** *"O bir-iki günə Londonu tərk etməli idi"* [1]

2. Müəllif bəzən öz fantaziyasında süni toponim yaradır. Məsələn, məşhur *Barsetshire* toponimi A. Trollofun pyeslərində mövcud olsa da, İngiltərədə bu adı daşıyan yaşayış məntəqəsi mövcud deyildir. Buna nümunə olaraq *Budmouth, Corvesgate, Knollsea* toponimlərini də göstərmək olar.

3. Toponimlər bədii ədəbiyyatda həmçinin müəyyən bir ərazinin keyfiyyətini və eləcə də həmin ərazidə baş vermiş hadisəni göstərmək məqsədilə işlədilir. Bu xüsusilə şer dilində toponimin sayəsində emosional atmosfer yaratmaq məqsədini güdür. Məsələn, "Yerlərə ad verilməsinə dair poemalarda", "Gonnaya" adlanan şerdə bunun şahidi oluruq:

A noise of laughter : southern ***Loughrigg*** *heard, And* ***Fairfield*** *anwserd with a mountain tone;* ***Helvellyn*** *far into the blue sky. Carried lady's voice [2, p.22].*

Üslubi toponimiya bədii üslubun funksional-ekspressiv, satirik və yumoristik əlamətlərini öyrənir. Bu üslubi çalarların yaranmasında, bu dildə danışan xalqın etnik xarakterinin, eləcə də toponimlərin daşıdığı obyektlərin xarakterik xüsusiyyətlərinin müəyyən edilməsində böyük rola malikdir.

Üslubi toponimlərin məcazi mənası yazıçıya öz ideyasını parlaq şəkildə ifadə etməyə imkan verir. Toponim üslubi material kimi düzgün, münasib məqamda işlədilir və bunun nəticəsində bədii əsərin keyfiyyəti xeyli dərəcədə yüksək olur:

My lodgings might easily have been none of those scruffy little houses by the station – from one ***Dafton*** *to another [3, s.23].*

Burada *Dafton* toponimi adlandırma funksiyasını daşımayıb, obyektin keyfiyyətinin ön planda verilməsi ilə, obyektə yönəlik emosional münasibətlə səciyyələnir və bu zaman toponim öz təbiəti etibarilə ümumi ismə yaxınlaşır. Bir çox Avropa dillərində toponimlərin ümumi isim çalarlığı əldə etdiyini aşkar edirik: *waterloo* – the last, decissive battle [4].

Toponimik vahidlər üslubi tədqiqat üçün çox zəngin material verir. Toponimlər bədii ədəbiyyatda üslubi çalar qazanır. Bədii ədəbiyyatda toponimik vahidlər əlavə estetik vəzifə və "üslubi yük" daşıyır və digər bədii məqsədlərə xidmət edir.

Yazıçının yenilik məharəti sözdə olan potensial mənalardan birini bədii məqsədə, üslubi manevrə uyğun formalaşdırmaqda, hərəkətə gətirməkdə özünü göstərir. Sözdəki mənaları yazıçı qayəsinə görə növbələşdirmək, onlardan birini, yəni məqsədə ən çox münasib olanı görmək isə həqiqi sənətkarın daima icra etdiyi dil əməliyyatıdır. Buna "üslubi seçim" deyilir.

Toponimlərdən və ümumiyyətlə onomastik vahidlərdən bədii əsərdə müxtəlif məqsədlərlə istifadə edilir:

1) real həyat hadisələri konkret bir ərazidə təsvir edilərkən həmin yerin adı olduğu kimi saxlanılır.

He had been spending a few weeks on a Carinthian lake and after a day or two in London was to go and with friends in Scotland [5, p. 123].

2) yazıçı təxəyyülünün məhsulu kimi süni toponimlərdən istifadə olunur.

Bernard Şounun "Augustus does his bit" satirik əsərindəki <u>*Pifflington*</u> *(piffle – boş söhbət, cəfəngiyyat deməkdir) [6].*

A. Trolonun əsərlərində tez-tez təsadüf olunan *Barsetshire* (İngiltərə xəritəsində belə qraflıq olmadığı halda); və ya T. Harrinin yaradıcılıq təxəyyülünün məhsulu olan <u>*Bubmauth*</u>, <u>*Knollsea*</u>, <u>*Cervesgate*</u> bu qəbildən olan toponimlərdir [4].

DOI:10.30546/gdu.5.2025

Azərbaycan ədəbiyyatında C. Məmmədquluzadənin kiçik hekayələrində bu vaxta qədər dilimizdə və bədii ədəbiyyatda rast gəlmədiyimiz toponimlərə təsadüf adirik. Məsələn, *Danabaş, Çaylax, Ulaxlı, Zurnalı, İtqapan, Pirsaqqız* və s.

Müəllif bu tipli süni surətdə yaradılmış toponimlərdən istifadə edərkən ifşa edəcəyi obyekti oxucunun yaddaşına daha dərindən həkk etmək məqsədi güdmüşdür.

3) Bədii əsərlərdə toponimlərdən müəyyən bir əlamət, keyfiyyət və ya hadisə ilə əlamətdar olan ərazinin adını ifadə etmək üçün istifadə olunur. Müasir dövrdə toponimlərdən istər bədii nəsrdə, istərsə də poeziya dilində geniş istifadə olunur.

Üslubi-poetik toponimika yer-yurd adlarının bədii ədəbiyyatda işlənmə məqamlarını, rolunu, müəyyən fikrə xidmət etməsini, satirik və yumoristik çalarlarını öyrənən tədqiqat sahəsidir.

Üslubi toponimika bədii ədəbiyyatın funksional-ekspressiv və funksional-üslubi xüsusiyyətlərini öyrənir. Burada əsasən bədii əsərlərdəki hadisələrin təsvir olunduğu yerə verilən adlar, onların üslubi xüsusiyyətləri, əsərin ideya-bədii təsir qüvvəsinin artmasında toponimlərin rolu, belə yer adlarının komik təbiəti, etnik xüsusiyyəti, obrazlılıq, ekspressivlik cəhətləri, bədii əsərdə xüsusi toponim yaradıcılığı, onlardan üslubi semantik məqsəd üçün istifadə olunması, yazıçının yaratdığı fərdi toponimikanın xarakterik xüsusiyyətləri və digər ekspressiv məsələlər tədqiq olunur.

Üslubi toponimlər xüsusi adların bir növü kimi obrazlılıq, emosionallıq, ekspressivlik keyfiyyətlərinə malik olduğundan bədii əsərdə fikrin parlaq ifadəsini, forma gözəlliyini şərtləndirən mühüm dil vasitələri kimi çıxış edir, dövrün mühüm problemlərini yüksək poetik dildə əks etdirmək işində sənətkara geniş imkanlar verir. Üslubi material kimi onomastik vahidlər düzgün seçildikdə, sənət əsərinin ümumi dil-nitq fonu dilin ifadəlik vasitələri ilə zənginləşmiş olur, yerində, məqamında işlənən toponimik vahidlər dilin bədiilik keyfiyyətini qat-qat artırır, ona güclü təsir göstərir. Məsələn:

Names he had mentioned – Damascus, Aleppo, Baghdad, Cantin – had quite enchanted her. (A. Wilson "Anglo-SaxonAttitudes) [1].

Bədii ədəbiyyatda xüsusi adların ümumi adlara keçməsi imkanından geniş istifadə olunur.

My lodgings might easily have been none of those scrukffy little houses by the station – from one Dafton to another [3, p.128].

Bu cümlədə *Dafton* toponimi birbaşa adlandırma funksiyasında çıxış etmir, müəyyən bir əlaməti, daha dəqiq desək, sadəlövhlüyü bildirmək üçün metaforlaşmış formada işlənir. *Dafton* toponimi hələ ümumi isimə çevrilməmişdir və ondan istifadə yazıçının baş verən hadisələrə emosional münasibəti ilə məhdudlaşır.Bir sıra tədqiqatçılar müəyyən etmişlər ki, Avropa dillərində olan coğrafi adlar asanlıqla ümumi isimlərə çevrilərək faktların ümumiləşdirilməsi zamanı istifadə olunur. Məsələn, *Waterloo, Panama* və s.

Waterloo – sonuncu, həlledici döyüş mənasında *"to meet one's Waterloo"* ifadəsində özünü göstərir [6].

Waterloo – Belçikanın məskunlaşmış ərazisidir.

Həm ingilis, həm də Azərbaycan dilində xüsusi adların ümumi isimlərə keçməsi və yeni məna kəsb etməsi halı geniş yayılmışdır. Məsələn, *Otello - qısqanc adam.*

Bu xüsusiyyətin bütün onomastik vahidlərə - həm toponimlərə, həm də antroponimlərə aid olması yuxarıdakı misallarda aydın görünür.

Bədii ədəbiyyatda üslubi toponimlərin əsas xüsusiyyətlərindən biri onların şəxslənməsi, yəni şəxs addları kimi müəyyən funksiyanı yerinə yetirməsidir.

DOI:10.30546/gdu.5.2025

You can only love a town if it loves you, and Warley would never love a correspondent. I had to love Warley property ,too. I had to take all she could give me: it was too late to enjoy merely her warm friendship" [3, s. 167].

Və yaxud:

Lancasire can look after herself without your help [3, p.156].

Bədii ədəbiyyatda toponimlər bir çox epitetlərlə birləşə bilər. Məsələn, *London-gloomy, dear, wonderful, beautiful, hateful, brilliant, suffering* və s. Müəyyən bir toponimin obrazlı-ekspressiv ifadəsi üçün bədii ədəbiyyatda müxtəlif vasitələrdən (metafora, metonimiya, müqayisə və s.) istifadə olunur.

Dilin söz xəzinəsinin toponimlərdən yeni sözlərin yaranması hesabına zənginləşməsi bütün dillərdə olduğu kimi, ingilis dilində də geniş yayılmışdır. Məsələn, *Manchester* toponiminin *toxuculuq sənayesi mərkəzi* mənasında işlənməsi və onun başqa obyektə keçirilməsi buna nümunədir [1].

Lowell – the Manchester of America.

Birmingham toponimi *metalqayırma sənayesinin mərkəzi* mənasında:

Liege – the Birmingham of Belgium [1].

Bədii ədəbiyyatda bəzi hallarda müəllif tərəfindən uydurulmuş ad, sonralar xalq arasında məşhurlaşıb coğrafi ada çevrilə bilir. Çarlz Kinqslinin *Westward Ho* əsərindən sonra həmin hadisələrin cərəyan etdiyi ərazi əsərin adı ilə adlandırılmışdır və bu toponim hal-hazırda da mövcuddur. Bu toponim yazıçının fərdi-üslubi toponimidir.

Atalar sözlərinin bu sahədə rolu daha böyük olmaqla diqqəti daha artıq cəlb edir. Məsələn,

When in Rome do as Romans do;

London's streets are paved with gold [6].

Araşdırmanın nəticələrinə əsasən deyə bilərik ki, onomastik vahidlər dildə məcazi məna əldə etməklə üslubi-emosional çalarlıqlar əldə edlir.

Hal-hazırda yer adlarının ənənəvi təsnifatı iki əsas qrupa bölünür – xüsusi və ümumi adlar. Əvvəllər bu bir sabit hal kimi qəbul olunurdu, əslində isə bu heç də belə deyil. O. T. Molçanova bu iki qrupun çevikliyini açıqlayaraq qeyd edir ki, xüsusi ad ümumi ad kimi, nəinki bir, hətta bir neçə silsilə adlara aid edilir. Bu səpgidə adlar böyük imkanlara malikdir. Onlar ümumi adlardan əmələ gəlmişlər. Bununla belə toponimlər işləndikcə nəinki obyektin yaranmasını, həm də bir faktı və ya onun xüsusiyyətini səciyyələndirə bilir. Beləliklə toponimlərin təkrarən istifadəsi imkanların müxtəlifliyi, onların istifadəsinin mürəkkəb mərhələsində ümumidən xüsusiyə və əksinə xüsusidən ümumiyə keçməyi təmin edə bilər [7, s.24].

Doğrudan da coğrafi adların funksiya müxtəlifliyi gözəçarpan dərəcədədir: toponimlər xüsusi şəraitdə ümumi isimlər kimi işlənir və ya bütövlükdə leksikanın bu bölməsinə keçə bilir. Onlar müxtəlif söz birləşmələrində geniş şəkildə istifadə edilirlər, sabit frazeoloji vahidlərin yaranmasında əsas olur və nəhayət nitqdə və bədii ədəbiyyatda bu və ya başqa üslubi effekti vermək üçün işlədilir.

Coğrafi adların ümumi adlara keçmə prosesi öz müxtəlif çeşidliyi ilə - toponimlə eyni yaranan əşya arasında xarakterlərin ayrılığı və mənaca bağlılığı faktorları ilə seçilir. Toponim sözlərin yaranmasının ən geniş yayılması metafora əsasında gerçəkləşir, çünki bu zaman xüsusi cəhətlər dildən coğrafi obyektlərə öz oxşarlığı və ya analoqu ilə keçir. Ancaq ingilis dilində başqa metod daha çox yayılmışdır, bu metod formal xarakter daşıyır və metonimiyaya əsaslanır. Əgər birinci metodda isimlər başqa toponimlərə genetik, yəni kökündən bağlıdırsa, ikinci metodda onlar tamam ayrı məna daşıyır, yəni əşyalar onların yarandığı yerlər və ya aşkar olunduğu yerlərin adları ilə adlandırılır:

DOI:10.30546/gdu.5.2025

Honiton – şəhər və *honiton* – şərit (əvvəllər bu şəhərdə istehsal edilibmiş);
Keswick - şəhər adı və *keswick* alma növü (o şəhərdə becərilib) [6].

Leeds sözü *yun parça istehsalı mərkəzi* mənasında lüğətdə əks olunmur, lakin nitqdə sərbəst şəkildə işlədilir. Beləliklə, ingilis toponimik neologizmlərin əsas hissəsi metonimiya üsulu ilə yaranır. Onların yaranma üsulları müxtəlifdir. Xüsusilə də coğrafi adın təyini funksiyasında çıxış edən terminoloji birləşmə böyük rol oynayır: *Kenilworth* və *Kenilworth ivy* (çəhrayı qərənfil növü). Bir toponimdən bir neçə terminoloji birləşmələr yaranır: *Bath - Bath brick – kərpic növü, Bath - un (bulka növü), Bath chair - təkərli kreslo, Bath metal - metal qarışığı, Bath stone - əhəng daşı.* Bu toponimin vəzifəsi yer adını (aşkar olunduğu, istehsal olunduğu yer) göstərmək deyil, əşyanın xarakterinin, xüsusiyyətinin və keyfiyyətinin müəyyən edilməsini göstərməkdir. Terminoloji birləşmələrin davamlılıq dərəcəsi fərqlidir – müəyyən hissə sözbirləşmələri kimi qalır və dildə bu cür işlədilir. Lakin onların əksəriyyəti sonradan inkişaf edərək ellipsin yaranmasına gətirib çıxarır, bu vaxt isim buraxılır və təyin funksiyası daşıyan toponim isimləşir:

Newmarket (toponim) - Newmarket coat, newmarket (xüsusi biçimli palto); Ribston pippin - ribston (alma növü); Newcastle - Newcastle disease – Newcastle (ev quşlarının xəstəliyi) [6]. Bununla belə bu prosesdə əmələ gəlmiş termin ilə köhnə toponimin əlaqəsi tamamilə pozula bilər.

Bu iki qrup yeni sözbirləşmələri həmişə dildə qabarıq şəkildə çıxış etmir: çox vaxt ikincilər birinciləri ləğv edir, bəzən isə onlar birgə çıxış edirlər, bu vaxt bir neçə omonim əmələ gəlir:

Oxford - Oxford (uzunboğaz çəkmə - Oxford shoes); Oxford (boz, polad rəngli boya - Oxford grey); Oxford (parça növü - Oxford shirting); Oxford (şalvar növü - Oxford bags) [4].

Gothamite – Cotham - şəhərinin sakini yox, *sadəlövh, sadə* - mənasını daşıyır.

a (wise) man of Gotham – sadəlövh [4].

Belə bir halın yaranması, yəni sözlərin istehsal olunan məhsulla, iqtisadiyyatla uzlaşması onların düzgün işlədilməsində müəyyən çətinliklər törədir. Amma onlar öz sahələrində işləndikcə bu hal tarazlaşır və hər zaman ümumişlək ədəbi leksikaya daxil edilmir. Bu cür omonimlər məhdud çeşidli sözləri əhatə edir və sənaye malları, paltar növləri, qida məhsulları və həmçinin heyvan növləri və faydalı qazıntılar bu cür sözlərdir. Həmçinin bu sözlər ayrı-ayrı elmi sahələrə aid edilir və ədəbi qat yaradır. Bu sözlərin çoxunu kökündən tamamilə ayırmaq olmur və buna edilən cəhd də tamam boşa çıxır.

Ədəbiyyat

1. http://www.bookfinder.com/author/Jennifer-seidl/
2. Wilde O. The Happy Prince. Longman, 2019, 231p.
3. Braine G. Room at the Top. United Kingdom, 1957, 256p.
4. Braine G. Room at the Top. United Kingdom, 1957, 256p.
5. Maugham W.S. Treatre. Longman, 1937, 304 p.
6. https://ru.wikipedia.org/wiki/Зооним
7. Молчанова О.Т. Топонимия Горного Алтая // Наука. – М., 1969. – 231 с.

PECULIARITIES OF THE USE OF TOPONYMS IN LITERARY TEXTS

Hasanova Nazakat Aslan

Summary

The role of onomastics in studying the historical development of language has long been underestimated. Proper names serve to distinguish a single object from a group of

DOI:10.30546/gdu.5.2025

similar objects. All onyms have meanings, but in many cases, they retain only the naming function, and the original meaning is forgotten. For example, certain place names may be based on features of the surrounding landscape, historical events, or in honor of prominent figures (such as Jalilabad, Sabirabad, or Fuzuli). In this regard, anthroponyms are more characteristic. Since toponyms are not typically associated with a loss of semantic function, personal names generally have deeper roots and tracing their origins can be quite difficult.

Names are lexical units used to distinguish members of society as well as objects and events. A name is not only a social and cultural achievement of human society, but also a means of satisfying social needs. Every proper name in the language—an onomastic unit—is a product of socio-historical development.

Toponyms, just like in all areas of life, hold a special place in literary works as well. It is almost impossible to imagine a literary work without toponyms. The onomastic units used in literature play a special role in preserving the artistic thinking of a people and in transmitting them to the present day. Geographical names that originated in English are as ancient as the language itself. As linguistic units, geographical names become linguistic facts for studying history and form part of a nation's spiritual heritage. Changes and development in any language, both in quality and quantity, are reflected in various stages of the process, including terminological vocabulary. Terminological vocabulary also reflects the linguistic landscape and contributes to its richness.

ОСОБЕННОСТИ УПОТРЕБЛЕНИЯ ТОПОНИМОВ В ХУДОЖЕСТВЕННЫХ ТЕКСТАХ

Гасанова Назакат Аслан кызы

Резюме

Роль ономастики в изучении исторического развития языка долгое время недооценивалась. Собственные имена служат для выделения одного объекта из группы однотипных. Все онимы имеют свои значения, однако в большинстве случаев сохраняется лишь функция называния, а изначальный смысл забывается. Например, некоторые географические названия могут быть связаны с особенностями окружающего ландшафта, историческими событиями или даны в честь выдающихся личностей (например, Джалилабад, Сабирабад или Физули). В этом отношении антропонимы являются более характерными. Поскольку топонимы, как правило, не теряют своей семантической функции, личные имена обладают более глубокой историей, и проследить их происхождение весьма затруднительно.

Имена являются лексическими единицами, которые различают членов общества, а также предметы и явления. Имя — это не только общественно-культурное и социальное достижение человечества, но и средство удовлетворения общественных потребностей. Каждое собственное имя в языке — ономастическая единица — является результатом общественно-исторического развития.

Топонимы, как и в других сферах жизни, занимают особое место и в художественной литературе. Трудно представить литературное произведение без топонимов. Ономастические единицы, используемые в литературе, играют особую роль в выражении художественного мышления народа и в сохранении его до наших дней. Географические названия, возникшие в английском языке, столь же древни, как и сам язык. Как языковые единицы, географические названия становятся языковыми фактами для изучения истории и составляют часть духовного наследия народа. Изменения и развитие языка, как качественные, так и количественные, проявляются и в терминологической лексике. Терминологическая лексика отражает языковую картину мира и является важным элементом её богатства.

Rəyçi: f.f.d., dosent Sahilə Bağır qızı Mustafayeva
Daxil olma tarixi 24 iyul 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 155-159

DOI:10.30546/gdu.5.2025

UOT:81.

NƏSİMİ POEZİYASINDA HÜRUFİ ANTROPOLOGİYAYA AİD TERMİNLƏR

f.ü.f.d., dosent Heydərova Xədicə İsabala qızı
AMEA Nəsimi adına Dilçilik İnstitutu
heyderova73@mail.ru

Xülasə: *Məqalədə İmadəddin Nəsimi poeziyasında hürufi antropologiyaya aid terminlərin işlənmə xüsusiyyətləri araşdırılır. Hürufilik XIV əsrdə Fəzlullah Nəimi tərəfindən formalaşdırılan ezoterik-fəlsəfi təlim kimi Quran ayələrinin, kainatın və insan bədəninin hərf-rəqəm sistemi ilə yozulmasına əsaslanır. Bu kontekstdə hürufi antropologiya insan vücudunu ilahi hikmətin yazısı, hər bir üzvü və xətti isə metafizik mənaların daşıyıcısı kimi qəbul edir. Nəsimi poeziyası bu təlimin ən parlaq ifadələrindən biridir. Onun şeirlərində baş, üz, göz, qaş, saç, dodaq, diş, dil, sinə, ürək, ayaq və digər anatomik terminlər sadəcə bədii obraz yox, həm də kosmik və ilahi semantik strukturların daşıyıcısı kimi çıxış edir. Araşdırmada müəyyən edilmişdir ki, ümumilikdə 51 anatomiya termini işlədilmişdir. Bu terminlərin 50 faizi türk, 26 faizi fars, 24 faizi isə ərəb mənşəlidir. Onların leksik, qrammatik və etimoloji təhlili göstərir ki, şairin dilində insan orqanizmi mikrokosmos, Tanrı isə makrokosmos kimi təsəvvür olunur. Qurani terminlərlə qurulan paralellər bədəni ilahi kitabın metaforasına çevirir. Nəsimi şeirində orqanların planet və bürclərlə assosiasiyası hürufi kosmologiyanın poetik leksikondakı əksini göstərir. Beləliklə, Nəsimi hürufi təlimin əsas sütunlarından biri olan antropoloji bədən modelini poetik dillə inşa etmiş və bu sahədə zəngin lüğəvi sistem yaratmışdır.*

Açar sözlər: Nəsimi, hürufilik, hürufi antropologiya, anatomiya terminləri, mikrokosmos, kosmologiya, poetik semantika

Ключевые слова: Насими, хуруфизм, хуруфийская антропология, анатомическая терминология, микрокосм, космология, поэтическая семантика

Keywords: Nasimi, Hurufism, Hurufi anthropology, anatomical terminology, microcosm, cosmology, poetic semantics

Giriş

Hürufilik XIV əsrdə Fəzlullah Nəimi tərəfindən yaradılmış ezoterik-fəlsəfi cərəyan olub, Quran ayələrinin, insan bədəninin və kainatın hərf-rəqəm sisteminə əsaslanan şərhinə dayanır. Bu təlimdə hərflər və saylar yalnız qrafik işarələr və ya riyazi vahidlər deyil, ilahi hikmətin, kosmik harmoniyanın və gizli biliklərin açarı kimi qəbul olunurdu. Hürufi düşüncəyə görə, kainat "ilahi kitab"dır və bu kitabın hər bir hərfi həm kosmosda, həm də insan vücudunda əksini tapır. Bu səbəbdən insan orqanizmi makroaləmin mikroskopik modeli, Tanrının varlığının yazıldığı "lövh" kimi təsəvvür edilirdi.

Hürufi antropologiya bu konsepsiyanın əsas sütunlarından biridir. O, insan bədənini yalnız fizioloji varlıq kimi deyil, həm də metafizik məna daşıyıcısı, batini hikmətin təcəllisi kimi izah edir. Bu baxışda hər bir üzv – baş, göz, qaş, dodaq, diş, sinə və s. – həm real funksiyaya, həm də kosmik-sembolik məzmun yükünə malikdir. İnsanın zahiri siması onun daxili mənəvi mahiyyətinin ifadəsi kimi qəbul olunur, üz cizgiləri isə "ilahi kitabın yazısı"na bərabər tutulur.

Nəsimi poeziyası bu nəzəriyyənin ən parlaq ifadə olunduğu mətndir. Şairin yaradıcılığında hürufi antropologiya leksik, qrammatik, etimoloji və poetik sistem üzərində qurulmuş geniş konseptual çərçivəyə malikdir. Nəsimi insan bədənini hərf-rəqəm sisteminə tabe edir, onun bütün üzvlərini ilahi məna daşıyıcısına çevirir və onları Qurani anlayışlarla poetik paralellər vasitəsilə metafizik mətnin hissəsi kimi təqdim edir.

DOI:10.30546/gdu.5.2025

Bu baxımdan V. Çağla Karslı haqlı olaraq qeyd edir ki, "hurufiliyə görə gözəllik mərkəzinin üz olması, ilahi xətlərin üzə işlənmiş olmasındandır. Üzdəki xətlər duyğularla qavranan, amma batini anlam daşıyan simvolik strukturlardır" [1, s. 146]. O. Mirqasımov isə göstərir ki, "insan bədəni hürufi təlimlərdə mikroaləm kimi təsəvvür olunur; onun hər bir orqanı, xətti və şəkli ilahi makroaləmin əksidir. Bu anlayış hürufi antropologiyanın əsasında dayanır və insan üzündəki cizgilərin – alın, qaş, göz və ağızdakı xətlərin – 'ilahi kitabın yazısı' kimi yozulmasına səbəb olur" [2, s. 129].

Beləliklə, hürufi antropologiyanın həm nəzəri, həm də poetik əsaslarını Nəsimi poeziyası vasitəsilə müşahidə etmək mümkündür. Bu poeziya yalnız dini-fəlsəfi təlimin bədii təcəssümü deyil, həm də klassik Azərbaycan ədəbiyyatında insanın metafizik və kosmik model kimi təqdim olunmasının ən zəngin nümunəsidir.

Müzakirə

Şairin poetikasında bir çox anatomik hürufi terminlər müşahidə edilir: *mizac, üz, vəch, surət, rux, alın, dodaq, ləb, dil, diş, qaş, əbru, zülf, göz, kirpik, ağız* və s.

Qeyd edilməlidir ki, bəzi qurani terminlər (*ayət, surət, Rəhman, rəbbani, kəlamullah* və s.), metaforlar (*bədr, ay, nəsrin, bərgi-nəsrin, qızılgül, xeymə* və s.) Nəsimi şeirində mütləq ilahi kəlamın insan simasında və vücudunda təcəllisi kimi məcazi şəkildə istifadə olunsa da, onlar antropoloji kateqoriyaya daxil deyil, poetik paralellik və bənzətmə vasitələridir.

Hürufilər Məhəmməd peyğəmbərin hədisinə ("Rəbbimi merac gecəsində əmrəd qətət olaraq gördüm") əsaslanaraq "əmrəd qətət"i ümmül-kitab surəti hesab edirlər: *"Ümmi-xətlər saç, iki kaş, dört kirpik olmaq üzrə 7 xətdir"* [7, s. 138]. *"Fəzlullah isə ümmül kitabın Həvvanın üzündəki xətlərin sayı qədər hərflərdən ibarət Fatihə surəsi olduğunu söyləyir və ümmül-kitabın sahibi hz. Məhəmməddir"* [5, s. 379]. Məhəmməd peyğəmbərin yuxarıda göstərilən hədisi ilə geniş tədqiqatlarımız var [3; 4].

Əbcəd hesabı da hürufi antropologiyanın əsas sütunlarından biri kimi insan bədəninə tətbiq olunurdu. Məsələn, "vücud" sözünün ərəb hərfləri ilə yazılışı (و ج و د) əbcədlə 6 + 3 + 6 + 4 = 19 edir. Bu da bəzi hurufi mənbələrdə 19 sayının ilahi tənasüb rəmzi kimi təqdim olunması ilə əlaqələndirilir. Bənzər şəkildə göz anlamı verən "ayn" (ع ی ن) = 50 + 10 + 70 – 130 kimi dəyərlərlə müəyyən kosmik və quraniləşdirilmiş uyğunluqlar qurulurdu. Hurufilər bu hesablamalardan istifadə edərək bədənin hər bir üzvünü ilahi sistemin parçası kimi izah edirdilər.

"Vücudum şəhrinin cəlladı dişdir
Nə ki loğma sunar, çeynər dəhanım" [6, II, s. 135]

Bu beyt hürufi təlimin əsas elementlərindən olan bədən üzvlərinin funksional və rəmzi dəyərini əks etdirir. Diş – 32 ədəd olmaqla fars əlifbasının metaforudur. Hürufilər bu dişləri hərflərin daşıyıcısı, dəhanı isə kəlamın çıxış qapısı kimi görürlər. *Loğma* yalnız qida deyil, həm də ilahi hikmətin simvoludur. Diş onu çeynəməklə – yəni zahirdən batinə keçməklə – mənanı açır. Beləcə, "vücud şəhəri"ndə hökmü icra edən "cəllad" məhz hərfləri doğrayaraq mənanı ifadə edən dişdir.

- *Üz / liqa / surət / üzar*: insan simasının bütöv mənzərəsini bildirir. Hürufi mənada mənəvi Kəbə, Rəhman surəti, "üz" Allahın zahiri təcəllası və Quran kəlamının daşıyıcısıdır;
- *Zülf / saç / geysu* Nəsimi yaradıcılığında Məhəmməd peyğəmbər və Quranı assosiativ olaraq simvolizə edir;
- *Dəhan / ağız / ləb / dodaq*: ilahi sözün çıxdığı müqəddəs mərkəzdir;
- *Diş* – 32 hərfin simvolu;
- *Qaş* – merac gecəsinin simvolu. Nəsimin şeirlərində çox zaman *qabü-qövseyn, öv ədna* və *merac* dini terminləri ilə yanaşı işlənir;

DOI:10.30546/gdu.5.2025

• *Kirpik / Göz* – idrak, nuru-kamilin vasitəsidir.

Bu etimoloji qatlar sözlərin yalnız anatomik yox, həm də mənəvi və kosmik anlamlar daşıdığını göstərir.

Nəsimi poeziyasında bəzən bədən üzvləri konkret planetlərlə və bürclərlə assosiasiya edilir. Məsələn: *dalaq* – Zühəl, *öd* – Mərrix, *bağırsaq* – Müştəri, Sünbülə, *göbək* – Mizan, *sinə* – Əsəd, *əmcək* – Sərətan. Bu cür identifikasiyalar həm hürufi kosmologiyanı, həm təbii-təbiblərin semantik və hərfi sistemlərini bir araya gətirir. *"Kimin ki, könlü dilədi ayağını öpmək, başını oynamaq ona müqərrər olmuşdur"* [6, II, s. 144] beyti ayaq orqanının metafizik anlamda ucaldıldığını göstərsə də, *ayaq* bürc və ya planetlərlə assosiasiya olunmur. Baş metaforu burada frazeologizmin tərəfi kimi çıxış edir: "başını oynamaq" ilahi iradəyə təslim olmaq, canını qurban vermək deməkdir.

"Büruc içrə əyaq Hutü, Həməl – baş,
Qəmər həm övkədir, bürcü zəbanım" [6, II, s. 203]

Bu beyt Nəsiminin hürufi sistemlə astro-tibbi və rəmzi semantikaları sintez etməsinin örnəyidir. Burada qədim astroloji təlimə əsasən bədən üzvləri bürclərlə əlaqələndirilir: *ayaq* – Hut (Balıq), *baş* – Həməl (Qoç), *övkə* (ciyər) – *Qəmər* (Ay) ilə, *zəban* (dil) – Əqrəb bürcünün ulduzu ilə. *Zəban* həm də farsca "dil" mənasında işlənir və burada Nəsimi öz dilini, yəni nitq və kəlamını ilahi ulduz nizamı ilə əlaqələndirir. Bu isə insanın mikrokosmos, Tanrının isə makrokosmos olması prinsipinə söykənir. Hurufi baxışa görə insanın bütün bədən üzvləri ulduzlar, saylar və hərflərlə birbaşa əlaqəli qurulmuşdur.

Tədqiqatımızda Nəsimi yaradıcılığında işlənən 50 anatomiya termini müəyyənləşdirildi. İnsan orqanizmi şairin dilində *mizac* adlanır. Anatomik orqanlar isə aşağıdakılardır:

1) Baş və üzə aid orqan adları (29 ədəd): *baş, sər, (y)üz, göz, ariz, vəch, liqa, surət, rüx, rüxsar, yanağ, üzar, alın, dodaq, ləb, dil , diş, qaş, qulaq, guş, əbru, saç, zülf, geysu, kirpik, ağız, dəhan, dimağ.*

2) Gövdə orqan adları (17 ədəd): *cigər, dil (farsca: ürək), (y)ürək, qəlb, öd, boy, tən, bədən, vücud, dalaq, bağırsaq, sinə, bağır, göbək, əmcək, həbli-vərid, damar.*

3) Aşağı və yuxarı ətraf orqan adları (3 ədəd): *əl, ayaq, pa(y) (farsca: ayaq).*

4) Mücərrəd anlayışlı orqan adı, ruhun yerləşdiyi yer (2 ədəd): *könül.*

Araşdırmalar nəticəsində məlum oldu ki, Nəsimi yaradıcılığında dini-təsəvvüfi terminlər, əsasən, ərəb və fars mənşəli olsa da, anatomik orqan adlarının çoxu məhz Azərbaycan-türk kökənlidir. Belə ki, 50 termindən 25-i Azərbaycan-türk (*(y)üz, ağız, alın, ayaq, baş, boy, bağır, bağırsaq, dalaq, damar, dodaq, dil, diş, əl, əmcək, göbək, göz, kirpik, könül, qaş, qulaq, (y)ürək, öd, saç, yanağ*), 13-ü fars (*cigər, sinə, dil, sər, ləb, rüxsar, rüx, guş, zülf, geysu, tən, pa(y), dəhan*), 12-i ərəb (*bədən, dimağ, vücud, qəlb, həbli-vərid, ariz, mizac, vəch, liqa, surət, əbru, üzar*) mənşəlidir. Leksik-qrammatik baxımdan bütün anatomik terminlər leksik yolla əmələ gəlmişdir. Yalnız ərəb mənşəli *həbli-vərid* sintaktik yolla yaranan anatomik termindir.

Nəticə

Aparılan araşdırma göstərir ki, İmadəddin Nəsimi poeziyası hürufi antropologiyanın zəngin və çoxşaxəli poetik modelini özündə ehtiva edir. Şairin poetik dünyasında insan orqanizmi yalnız bioloji varlıq deyil, həm də ilahi hikmətin yazıldığı metafizik mətn, "mikrokosmos"un canlı nümunəsi kimi təqdim olunur. Bu baxış hürufi təlimin əsas prinsiplərinə uyğun olaraq insan bədənini hərf-rəqəm sisteminə tabe edir və hər bir üzvü sakral semantikanın daşıyıcısına çevirir.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, Nəsiminin poeziyasında 51 anatomiya termini işlədilmişdir. Onların 25-i (50%) türk, 13-ü (26%) fars, 12-si (24%) ərəb mənşəli

DOI:10.30546/gdu.5.2025

sözlərdir. Bu fakt Nəsiminin hürufi sistemdə bədəni təsvir edərkən əsasən türk köklü leksikaya üstünlük verdiyini, lakin ərəb və fars mənşəli terminləri də poetik kontekstdə semantik cəhətdən zənginləşdirdiyini göstərir. Bütün terminlər leksik yolla formalaşmış, yalnız "həbli-vərid" ifadəsi sintaktik üsulla yaranmışdır ki, bu da söz yaradıcılığının spesifik nümunəsi kimi diqqətəlayiqdir.

Nəsimi poeziyasında *üz, göz, qaş, saç, dodaq, dil, diş* kimi üzvlər həm anatomik, həm də kosmik-mistik dəyərə malikdir. Onların bürclərlə və planetlərlə assosiasiyası qədim astroloji ənənələrin və islam-tibb təlimlərinin hürufi sistemdə sintez olunduğunu təsdiqləyir. Qurani terminlərlə qurulan poetik paralellər isə bədəni ilahi kitabın metaforasına çevirir. Beləliklə, insan vücudu zahirdə maddi varlıq, batində isə Allahın sözünün daşıyıcısı kimi təqdim olunur.

Əldə edilən nəticələr sübut edir ki, Nəsimi hürufi təlimin poetik-estetik əsaslarını təkcə fəlsəfi baxımdan deyil, həm də leksik-semantik müstəvidə inkişaf etdirən böyük sənətkardır. Onun poeziyasında anatomiya terminlərinin sistemli şəkildə işlədilməsi hürufi antropologiyanın yalnız dini-fəlsəfi ideya deyil, həm də bədii söz vasitəsilə formalaşmış xüsusi poetik model olduğunu göstərir. Bu, Nəsimi yaradıcılığının həm Azərbaycan ədəbi dilinin inkişafında, həm də orta əsr İslam mistik poeziyasında unikal yer tutduğunu bir daha təsdiqləyir.

Ədəbiyyat

1. Karslı, V. Ç. (2014). Hurufilik ve Sûfî Estetik: Nesîmî Örneği. İstanbul: İnsan Yayınları, 232 s.
2. Mir Qasımov, O. (2015). Words of Power: Hurufi Teachings between Shiʿism and Sufism in Medieval Islam. Leiden: Brill, 592 p.
3. Heydarova, Kh. Lexical Units Reflecting Anthropomorphism in Nasimi's Religious and Philosophical Views. // World Science. 17. Warsaw: Dolna. Available at: https://doi.org/10.31435/ws.4(86).2024.3242
4. Fi-surati-shabi-qatat: Поэтическое толкование хуруфийского антропоморфизма у Насими. «XXI asr tılshunoslıgı: tahlil va talqin». "Lınguıstıcs of the XXI century: analysis and interpretation". Özbəkistan Avgust, 2025 No 3, Vol. 2 20332 işarə, səh. 5-12
5. Nəsimi, İ. (2021). Seçilmiş əsərləri. I cild. Tərt.ed.: H.Araslı. Bakı: Şərq-Qərb nəşriyyatı, 336 s.
6. Nəsimi, İ. (2021). Seçilmiş əsərləri. II cild. Tərt.ed.: H.Araslı. Bakı: Şərq-Qərb nəşriyyatı, 376 s.
7. Usluer, F. (2009). Hurufilik: İlk Elden Kaynaklarla Doğuşundan İtibaren. İstanbul: Kabalcı Yayınevi, 626 s.

ТЕРМИНЫ, ОТНОСЯЩИЕСЯ К ХУРУФИЙСКОЙ АНТРОПОЛОГИИ В ПОЭЗИИ НАСИМИ

Гейдарова Хадижа Исабала кызы

Резюме

В статье рассматриваются особенности употребления терминов, связанных с хуруфийской антропологией, в поэзии Имадеддина Насими. Хуруфизм, возникший в XIV веке и основанный Фазлуллой Наими, представляет собой эзотерическое и философское учение, опирающееся на толкование аятов Корана, Вселенной и человеческого тела посредством буквенно-числовой системы. В рамках этой концепции человеческое тело воспринимается как проявление божественной мудрости, каждая

DOI:10.30546/gdu.5.2025

часть и линия которого обладает сакральным значением. Поэзия Насими является одной из наиболее ярких иллюстраций данной антропологической модели. В его произведениях анатомическая лексика (голова, лицо, глаза, брови, волосы, губы, зубы, язык, грудь, сердце, руки и ноги и др.) выступает не только в качестве художественных образов, но и как носитель космических и религиозно-метафизических значений. В ходе исследования выявлено 51 анатомический термин, из которых 50% имеют тюркское происхождение, 26% — персидское, 24% — арабское. Лексический, грамматический и этимологический анализ показывает, что в поэтическом языке Насими человеческий организм представлен как микрокосм, тогда как Бог мыслится как макрокосм. Параллели с коранической терминологией превращают тело в метафору «божественной книги». Ассоциации органов с планетами и зодиакальными созвездиями демонстрируют отражение хуруфийской космологии в поэтическом словаре. Таким образом, Насими предстает как поэт, создавший целостную модель «хуруфийского тела», в котором анатомическая лексика выполняет сакрально-символическую функцию.

TERMS OF HURUFI ANTHROPOLOGY IN NASIMI'S POETRY

Heydarova Khadija Isabala qizi

Summary

This article examines the use of terms related to Hurufi anthropology in the poetry of Imadaddin Nasimi. Hurufism, founded in the fourteenth century by Fazlullah Naimi, is an esoteric-philosophical doctrine that interprets Qur'anic verses, the cosmos, and the human body through a letter–number system. Within this framework, the human body is conceived as a manifestation of divine wisdom, with each organ, line, and feature carrying metaphysical significance. Nasimi's poetry provides one of the most vivid articulations of this anthropological model. Anatomical terms such as head, face, eyes, eyebrows, hair, lips, teeth, tongue, chest, heart, and limbs function not only as poetic imagery but also as vehicles of cosmic and religious meaning. The study identifies 51 anatomical terms in his works, among which 50% are of Turkic origin, 26% Persian, and 24% Arabic. Lexical, grammatical, and etymological analysis demonstrates that in Nasimi's poetic language, the human organism is depicted as a microcosm, while God represents the macrocosm. Qur'anic parallels transform the body into a metaphor of the Divine Book. Furthermore, the association of organs with planets and zodiac signs reflects Hurufi cosmology embedded in poetic discourse. Thus, Nasimi emerges as a poet who constructed, both linguistically and conceptually, the Hurufi body model. His creative lexicon highlights the convergence of anatomy, cosmology, and theology, establishing the body as a central symbol of mystical knowledge.

Rəyçi: Akademik Mövsüm Ağasoylu
Daxil olma tarixi 01 oktyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 160-163
DOI:10.30546/gdu.5.2025

UOT:80.

EVALUATING THE INFLUENCE OF MODERATION ON ESL LEARNER ENGAGEMENT IN GROUP CONVERSATIONS

Ismayilova Gunay Sabir
Ganja State University
ismayilovagunay2018@gmail.com

Annatasion: *Individuals learning English as a second language (ESL) often face significant difficulties when engaging in group discussions, largely due to limitations in their language proficiency. Although moderators or conversation facilitators can play a crucial role in bridging these communication gaps, there is a scarcity of empirical research that systematically measures the impact of such moderation on the quality and effectiveness of interaction in ESL group settings. This study addresses this gap by introducing a novel dataset comprised of 17 recorded sessions from an online ESL speaking group. These sessions included both those guided by moderators and those without any form of facilitation. To evaluate the influence of moderation, we developed a two-tiered assessment framework that merges an automated analysis of ESL conversational data with a tailored system for classifying different facilitation strategies employed by moderators. The findings from this approach indicate that moderation has a positive effect on maintaining the coherence and flow of topics during group discussions. This research thus offers valuable new perspectives on how structured conversational support can optimize learning environments for ESL participants.*

Keywords: moderation, ESL learners, engagement, group discussion, communication, facilitation, language learning, interaction, participation, autonomy, conversation analysis

Ключевые слова: модерация, учащиеся ESL, вовлечённость, групповое обсуждение, коммуникация, фасилитация, изучение языка, взаимодействие, участие, автономия, анализ разговора

Açar sözlər: moderatorluq, İELT tələbələri, fəallıq, qrup müzakirəsi, ünsiyyət, fasilitasiya, dil öyrənməsi, qarşılıqlı əlaqə, iştirak, müstəqillik, danışıq analizi

Literature Review

Most current tools and methods for dialogue evaluation have traditionally focused on assessing isolated language features, such as grammatical correctness or vocabulary usage. However, these approaches tend to overlook the dynamic and interactive nature of communication, especially in contexts involving multiple participants. Furthermore, studies examining the role of moderators in ESL discussions have noted that facilitators often use strategies like scaffolding, prompting, and clarifying to help learners overcome linguistic challenges. Yet, these insights are mostly drawn from small-scale, qualitative investigations such as case studies or interview-based research, which limits their applicability across diverse contexts.

To address these limitations, the present study employs a more extensive, data-driven approach that allows for scalable analysis of conversational moderation. This methodology not only enhances the objectivity of evaluation but also facilitates cross-context comparison of moderator behaviors within ESL learning environments.

Methodology

The research involved collecting and analyzing data from 17 online ESL group discussion sessions. These sessions were split between those that were moderated by trained ESL facilitators and those that were unmoderated, allowing for comparison between the two

DOI:10.30546/gdu.5.2025

conditions. The moderators involved were professional ESL instructors trained in second language pedagogy, employing a variety of facilitation techniques aimed at promoting learner participation and ensuring productive conversation flow.

To systematically assess the quality of the interactions, the study implemented a dual evaluation strategy. First, an automated dialogue quality assessment tool was used to quantify features related to engagement, coherence, and responsiveness within the conversations. This automated system examined micro-level indicators such as backchannel signals, turn-taking patterns, and referential coherence, alongside macro-level features like the overall tone and thematic consistency.

Second, the researchers adapted an existing moderation framework to categorize and analyze the specific strategies used by moderators. This customized framework identified various facilitation techniques, including active acknowledgment, encouragement, topic redirection, and clarification requests. By integrating both quantitative and qualitative data, the study achieved a comprehensive understanding of how different moderation approaches affect ESL group discussions.

Results

The findings from the analysis revealed several important trends regarding the role and effectiveness of moderation in ESL group discussions:

- **Positive Impact of Moderation:** Discussions that included active moderation demonstrated greater coherence and smoother transitions between topics. Moderators facilitated a more structured dialogue, helping participants navigate the conversation more easily.
- **Effective Facilitation Strategies:** Moderators who employed active listening skills—such as acknowledging contributions, providing verbal encouragement, and gently prompting quieter participants—were able to foster higher levels of engagement. These techniques encouraged learners to participate more freely and confidently.
- **Negative Effects of Over-Moderation:** In contrast, moderators who dominated the conversation by providing excessive information, personal opinions, or lengthy explanations tended to suppress learner interaction. This over-involvement reduced the learners' opportunity to speak and explore ideas independently, ultimately disrupting the natural flow of the discussion.

Discussion and Implications

The study underscores the crucial role that moderation plays in facilitating productive ESL group conversations. Effective moderation strikes a delicate balance: it provides enough structure to guide the discussion and support learners, while simultaneously allowing learners the autonomy to express their thoughts and develop language skills through authentic interaction.

For ESL instructors and program designers, these findings highlight the need for targeted training focused on moderation techniques that prioritize active listening and learner encouragement. Developing such skills in moderators can lead to more dynamic and inclusive discussions, where participants feel supported yet free to engage fully.

Additionally, the study demonstrates the utility of automated dialogue assessment tools as valuable resources for evaluating and improving conversational quality in educational settings. Particularly in remote or online learning environments, these tools offer scalable means to monitor interaction patterns and provide feedback to both learners and instructors.

By integrating these insights into practice, ESL programs can enhance the learning experience and improve communicative competence among language learners.

DOI:10.30546/gdu.5.2025

References

1. **Walsh, S. (2011).** *Exploring Classroom Discourse: Language in Action*. Routledge.
2. **Mercer, N., & Dawes, L. (2008).** *The value of exploratory talk*. In *Exploring Talk in School*. SAGE Publications.
3. **Vygotsky, L. S. (1978).** *Mind in Society: The Development of Higher Psychological Processes*. Harvard University Press.
4. **Ellis, R. (2008).** *The Study of Second Language Acquisition* (2nd ed.). Oxford University Press.
5. **Kim, H. J. (2014).** The role of group discussion in second language acquisition: A sociocultural perspective. *ELT Journal*, 68(3), 278–287.
6. **Long, M. H. (1996).** The role of the linguistic environment in second language acquisition. In *Handbook of Second Language Acquisition* (pp. 413–468). AcademicPress
7. **Nguyen, H. T., & Yang, L. (2015).** Enhancing ESL student classroom participation through group work: A sociocultural approach. *TESOL Journal*,6(1),111–132. → Investigates how structured group work and facilitator strategies affect ESL learner engagement.

EVALUATING THE INFLUENCE OF MODERATION ON ESL LEARNER ENGAGEMENT IN GROUP CONVERSATIONS

İsmayilova Gunay Sabir

Summary

This study investigates how conversation moderation affects the engagement of learners studying English as a Second Language (ESL) during group discussions. Recognizing that ESL learners often struggle to participate actively due to limited language proficiency, the research explores whether guided facilitation can improve communication and interaction in group settings.

To do this, the study analyzed 17 recorded online ESL group sessions—some with trained moderators and some without. It employed a dual-method approach: an automated tool was used to assess dialogue quality (e.g., coherence, engagement), and a customized framework was applied to evaluate different moderation strategies.

The findings show that moderation significantly improves the flow and coherence of discussions. Techniques such as active listening, verbal encouragement, and inclusive prompting were particularly effective in boosting learner participation. In contrast, over-moderation—where the facilitator dominates or shares too much—was shown to hinder natural conversation and reduce student talk time.

The study concludes that balanced and thoughtful moderation can enhance ESL learning environments, and recommends training facilitators in techniques that promote learner autonomy and authentic communication.

MÜZAKİRƏLƏRİN MODERATORLUĞUNUN İELT TƏLƏBƏLƏRİNİN FƏALLIĞINA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

İsmayilova Günay Sabir

Xülasə

Bu tədqiqat, ingilis dilini ikinci dil kimi (İELT) öyrənən tələbələrin qrup müzakirələrində iştirak fəallığına moderatorluğun təsirini araşdırır. Tədqiqat göstərir ki, İELT tələbələri dil biliyinin məhdudluğu səbəbindən müzakirələrə fəal qoşulmaqda çətinlik çəkirlər.

DOI:10.30546/gdu.5.2025

Bu səbəbdən, aparıcılıq (moderatorluq) üsullarının ünsiyyəti və qarşılıqlı əlaqəni yaxşılaşdırıb-yaxşılaşdırmadığı araşdırılır.

Tədqiqat çərçivəsində 17 onlayn qrup müzakirəsi qeydə alınıb — bəziləri təlim keçmiş moderatorlar tərəfindən idarə olunub, bəziləri isə nəzarətsiz keçirilib. Qiymətləndirmə üçün iki üsuldan istifadə olunub: biri avtomatlaşdırılmış sistem vasitəsilə dialoqun keyfiyyətini (məsələn, ardıcıllıq, fəallıq) ölçüb, digəri isə müxtəlif moderatorluq strategiyalarını təsnif etmək üçün uyğunlaşdırılmış çərçivədir.

Nəticələr göstərir ki, moderatorluq müzakirələrin axıcılığına və məzmunun davamlılığına müsbət təsir göstərir. Aktiv dinləmə, şifahi təşviq və iştirakçıların cəlb olunmasını təşviq edən metodlar tələbələrin iştirakını artırmaqda daha səmərəli olmuşdur. Əksinə, moderatorun çox danışdığı və ya həddindən artıq məlumat paylaşdığı hallar, təbii söhbət axınını pozaraq tələbələrin danışmaq imkanlarını məhdudlaşdırmışdır.

Tədqiqat nəticəsində belə qənaətə gəlinmişdir ki, balanslı və düşünülmüş moderatorluq İELT öyrənmə mühitini yaxşılaşdıra bilər. Bu baxımdan, moderatorların tələbə müstəqilliyini və təbii ünsiyyəti təşviq edən strategiyalara dair təlim alması tövsiyə olunur.

ОЦЕНКА ВЛИЯНИЯ МОДЕРАЦИИ НА ВОВЛЕЧЁННОСТЬ УЧАЩИХСЯ ESL В ГРУППОВЫЕ БЕСЕДЫ

Исмайлова Гюнай Сабир

Резюме

Данное исследование рассматривает, как модерация разговоров влияет на вовлечённость учащихся, изучающих английский как второй язык (ESL), во время групповых обсуждений. Поскольку учащиеся ESL часто испытывают трудности с активным участием из-за ограниченного уровня владения языком, исследование направлено на то, чтобы выяснить, может ли направленное фасилитирование улучшить коммуникацию и взаимодействие в групповой работе.

Для этого были проанализированы 17 записанных онлайн-сессий групп ESL - часть с обученными модераторами, часть без них. Применялся комбинированный метод: автоматизированный инструмент оценивал качество диалога (например, связность, вовлечённость), а также использовалась адаптированная система анализа различных стратегий модерации.

Результаты показали, что модерация значительно улучшает течение и связность обсуждений. Такие техники, как активное слушание, вербальное поощрение и инклюзивное стимулирование, особенно эффективно способствовали увеличению участия учащихся. Напротив, чрезмерная модерация - когда фасилитатор доминирует или говорит слишком много - мешала естественному разговору и сокращала время речи студентов.

Исследование делает вывод, что сбалансированная и продуманная модерация может улучшить учебную среду ESL, и рекомендует обучать фасилитаторов техникам, способствующим развитию автономии учащихся и подлинной коммуникации.

Rəyçi: Baş müəllim, filologiya üzrə fəlsəfə doktoru Kəmalə Rafiq qızı Əliyeva
Praktik xarici dillər kafedrasının 12 sentyabr 2025-ci il tarixli iclasın 1 saylı protokolu
Daxil olma tarixi 16 sentyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 164-171

DOI:10.30546/gdu.5.2025

UOT:811.512.162.

AZƏRBAYCAN DİLİNİN ŞİVƏLƏRİNDƏKİ LEKSİK DİALEKTİZMLƏRİN ARPAÇAY ŞİVƏLƏRİ İLƏ MÜQAYİSƏSİ

f.ü.f.d., dosent Qəmbərova Qüdsiyyə
AMEA Nəsimi adına Dilçilik İnstitutu
ORCİD ID: https://orcid.org/0000-0002-0989-400X
qudsiyye@bk.ru

Xülasə: *Türkiyə Respublikasının Qars vilayətinin Arpaçay köylərində yaşayan azərbaycanlılar türklər tərəfindən həm tərəkəmə türklər, həm də Qars yerliləri adlandırılır. Burada yaşayan türk soylu xalqın dil xüsusiyyətlərini öyrənmək məsələsi hələ XX əsrin 70-ci illərində meydana çıxmışdır. 1976-cı ildə Türk dil Qurumu Yayınları tərəfindən "Arpaçay köylərindən dərləmələr" adı altında prof. dr. S.Olcay, Dr. A.B.Erçilasun və E.Aslanın tərtibi ilə bir kitab çapdan çıxmışdır. 2016-cı ildə isə dr. Mahmut Sarıkayanın "Yukarı Arpaçayı boylarının sözvarlığı I. Kalıp sözler". adlı kiabı Ankarada nəşr olunmuşdur. Bu faktlar onu göstərir ki, bu ərazidə məskunlaşmış əhalinin dil xüsusiyyətləri türk tədqiqatçılarının diqqətindən kənarda qalmamış, zaman-zaman araşdırmaçıların marağında olmuşdur.*

Məlum olduğu kimi, Azərbaycan dilinin sərhədləri onun dövlət sərhədlərindən daha geniş əraziyə malikdir. Bu mənada Azərbaycan dili və dialektlərinin qonşu və qonşu olmayan dövlətlərin türk əsilli xalqlarının dili ilə müqayisəli öyrənilməsi maraqlı faktları aşkara çıxarmağa imkan verir.

Məqalədə Azərbaycan dilinin şivələrində mövcud olan bəzi dialektizmlər Türkiyənin Yuxarı Arpaçay boylarının şivələrinə məxsus dialektizmlərlə tutuşdurulur. Bu işdə dialektizmlərin üç növü üzərində araşdırma həyata keçirilmişdir: 1) leksik-fonetik dialektizmlər 2) etnoqrafik dialektizmlər 3) leksik dialektizmlər.Tədqiqatdan belə nəticəyə gəlmək olur ki, Azərbaycan dilinin leksik-fonetik dialektizmləri semantik baxımdan Türkiyə ərazisindəki Yuxarı Arpaçay şivələrindən kəskin fərqlənmir. Ortaya çıxan fonetik variantlılıq sözün lüğəvi mənasına təsir etmir: əcəl/əjəl – ajal, quvvat/quvat – quvvat/quvat, covab/cuğab - covaf/cuvaf və s.

Etnoqrafik dialektizmlər kimi araşdırmaya cəlb etdiyimiz aşıq(sümük) və çilə (40 gün) leksemlərinin etnolinqvistik təhlili göstərir ki, hər iki şivədə sözlərin semantik tutumu yaxın və ya eyni olmaqla, ortaq mədəni dəyərləri özündə birləşdirir. Leksik dialektizmlər adı ilə öyrənməyə cəhd edilimiş "dal" və "boğanaq" sözlərinin hər iki şivədəki məna və məzmunu, hətta derivatoloji imkanları aşkar olunur. Aparılan araşdırmadan məlum olur ki, hər iki şivə eyni dilə məxsus olub, bu gün fərqli ərazilərdə məskən salmış eyni xalqa məxsusdur. Dünyanın siyasi oyunlarında yer-yurdundan qopub ayrı düşmüş bir xalqın –Azərbaycan xalqının bir parçasıdır.

Açar sözlər: Azərbaycan dili, leksik dialektizm, Arpaçay, dialekt və şivə, etimologiya, etnoqrafik leksika, leksik-fonetik dialektizm

Ключевые слова: азербайджанский язык, лексический диалектизм, Арпачай, диалект и говор, этимология, этнографическая лексика, лексико-фонетический диалектизм.

Keywords: Azerbaijani, lexical dialecticism, Arpachay, dialect and accent, etymology, ethnographic lexicon, lexical-phonetical dialecticism

Dilçilikdə dialektizm anlayışı həm ədəbi dilin qarşılığı olan məhəlli xüsusiyyətlərin göstəricisi, həm də bədii əsərlərdə onlardan üslubi məqamlarda istifadə mənasını bildirir.Lüğəvi dialektizmlər müasir Azərbaycan ədəbi dilində qarşılığı olan bütün leksik

DOI:10.30546/gdu.5.2025

vahidləri əhatə edir. Bu leksemlər semantik zənginliyinə, morfoloji strukturuna və semantik səciyyəviliyinə görə çox rəngarəngdir. Dilçilikdə adlar qrupuna aid olan bütün sözlər, eyni zamanda hal, hərəkət və vəziyyət bildirən söz və ifadələr də leksik dialektizm hesab olunur.İnsanın iş, hal və vəziyyətinə dair geniş mənada əlamətini bildirən leksik vahidlər, eləcə də, nitqdə köməkçi vasitə kimi qiymətləndirilən sözlər də leksik dialektizm kimi qəbul olunur. Azərbaycan dilçiliyində leksik dialektizm termini altında həm də *etnoqrafik, leksik, leksik-fonetik,morfoloji, semantik və frazeoloji dialektizmlər* nəzərdə tutulur (Adilov M,1989).

Lakin bununla belə, sadalanan hər bir dialektizm növünün özünə xas çoxlu çeşidini də müəyyən etmək mümkündür. Məsələn, leksik dialektizm başlığına *leksik-fonetik,leksik-semantik və frazeoloji dialektizmləri* də daxil etmək mümkündür.

Məlum olduğu kimi, bütün ədəbi dillər dialekt əsasına malikdir. Əgər hansısa bir dil bu əsasdan məhrum olarsa, ən azından süniləşər və məhvə məhkum olar. Çünki dialekt xalqın yaratdığı "Ana dil" deməkdir. Burada "Ana dil" əsas dil, təməl dil, bünövrə dil mənasını ifadə edir. "Ana dil" xalqın dili hesab olunur. Xalqı yaradan tayfa birliklərinin maddi və mənəvi keçmişi, təfəkkürü və dünyagörüşünün məhsulu olan Ana dil – dialekt, onun şivələri isə tayfalara məxsus səciyyəvi cəhətlərlə fərqlənən təzahürlər kimidir. Azərbaycan dilinin mövcud dialektoloji lüğətinin sonuncu 2007-ci il nəşrində bu dilin şivələrini əhatə edən 11 mindən çox lüğəvi vahid cəmlənmişdir. Dialektologiyada mütəmadi gedən tədqiqat və araşdırmalar şivələrin lüğət arsenalının daha böyük (nəhəng) potensialını aşkar edir.Aparılan monoqrafik, tədqiqatlar, həmçinin dialekt və şivələrin areal dilçilik baxımından öyrənilməsi bunu göstərir ki, mövcud vəziyyətdə bu sahədə daha böyük, heyrətamiz dərəcədə zənginlik vardır.

Azərbaycan dialektologiyasında fonetik dialektizm, morfoloji dialektizm, leksik dialektizm terminləri müvafiq olaraq ədəbi dildən seçilən dialekt və şivələrə məxsus olan fonetik, morfoloji və leksik fərqliliyi ifadə edir. Məsələn, dildəki sözlərin şivə fonetikasına məxsus tələffüzü fonetik dialektizm hesab olunur. Azərbaycan ədəbi dilinin əlifba sistemində yer tutmayan səs və səs birləşmələrini ifadə etməyən *ų,ŋ, dz, x', ao, oa, ˜a, əa˜ və s.*hərf və hərf birləşmələri ilə işlənən *ųiųəx'(xəstəlik), xəŋgəl(körək), dzannıx(jilet)*və s.sözlər leksik-fonetik dialektizm hesab olunur. Buradayazılı və şifahi ədəbi dildən fərqli leksik-fonetik xüsusiyyətlər maraqlı fonetik hadisələrin mövcudluğunu və s. cəhətləri açıb nümayiş etdirir. Məsələn, *qa^{o}yçı, xə^{a}bər, saŋa, ərix', gedz, ųubux və s.* (Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlasının proqramı, 2022).

Eləcə də, ədəbi dildən semantik baxımdan fərqli olan leksik dialektizmlərin çoxmənalılığı, omonimliyi, sinonimliyi, hətta antonimliyini öyrənmək, ciddi elmi nəticələr qazanmağa gətirib çıxarır. Dilçilikdə frazeologiya mövzusunun leksika bəhsi daxilində öyrənilməsinin müəyyən bir əhəmiyyəti də qeyd etdiyimiz məsələ ilə bağlıdır. Bu, bir tərəfdən frazeologiyada sözün ekvivalentliyi məsələsini əsaslandırır, digər tərəfdən xalqın yaratdığı sözü yenidən xalqın özünə "yadigar" qoyur.

Beləliklə, araşdırmada Azərbaycan dilində leksik dialektizm hesab olunan sözləri *leksik-fonetik, etnoqrafik və leksik*dialektizm növlərinə ayıraraq Türkiyənin Yuxarı Arpaçay şivələri ilə müqayisədə öyrənmək qarşıya məqsəd qoyulmuşdur:

1)Leksik-fonetik dialektizmlər Azərbaycan dilinin dialekt və şivələrində müasir ədəbi dildən yalnız fonetik cəhətdən fərqlənən leksik vahidlər çoxdur. Dialektizm səciyyəli belə leksemlər, əslində yazılı ədəbi dildə də mövcuddur. İnsan həyatının müxtəlif amilləri belə dialektizmləri xalq ədəbi dilinin lüğət fonduna daxil edir.

Siyasət aləmində deyildiyi kimi, bir millətə aid olan iki dövlətdə yaşayan insanlar bir kökə mənsubdur. Eyni qanı daşıyan xalqın fərqli məkanlarda qərar tutması dildə çox ciddi fərq yarada bilməz. Burada cüzi fonetik dəyişmələr həm Azərbaycan dilinin şivələrində, həm

DOI:10.30546/gdu.5.2025

də Yuxarı Arpaçay boylarında müşahidə olunur. Məsələn, qalınlaşma hadisəsi ə →a əsasında Azərbaycan ədəbi dilində *əcəl*sözü, qərb qrupu şivələrində *ajal* kimi işlənir:– *Gəldi ajal, vermədi majal* (danışıqdan).

Bu hadisə Azərbaycan dialektləri arasında ahəng qanununu daha çox gözləyən qərb qrupu dialekt və şivələrində, həmçinin Naxçıvan qrupunun bəzi (Şahbuz, Şərur) şivələrində, Zaqatala-Qax, Muğan qrupu, Quba və Bakı dialektlərinə aid bir sıra kəndlərdə sözün müxtəlif mövqelərində xarakterikdir:- *zayıf, quvva, cuma və s.* Qazax, Qarabağ, Gəncə, Şərur, Şahbuz, Muğan və s. şivələrində də eyni hal müşahidə olunur. Qeyd edək ki, bu əvəzlənmə hadisəsi təkcə alınma sözlərə aid olmayıb, türk mənşəli sözlərdə də müşahidə olunur. Hətta, Zaqatala rayonunun bir sıra kəndlərində *gəl → gal, gen → gan, geniş → ganış* kimi işləndiyi də qeydə alınmışdır (Şirəliyev M, 2008: 41).

Eyni fonetik hadisə Türkiyənin Yuxarı Arpaçay köylərində də qeydə alınmışdır:quvvat/quvat (güc) (Azərbaycan dialektləri) → quvvat/quvat (Yuxarı Arpaçay); *şafa (şəfa)(Azərbaycan dialektləri) → baja (Yuxarı Arpaçay); taxsır (təqsir, günah) (Salyan, Neftçala, Bakı) → taxsır və s.*

Azərbaycan dialekt və şivələrində *a* səsinin *o* ilə əvəzlənməsinin bəzi şivə qrupları üçün xarakterik olduğu məlumdur. Yuxarı Arpaçay şivələrini nəzərdən keçirdikdə də, bu fonetik hadisənin şahidi oluruq. Məsələn, *comuş (camış)* Bakı dialektində, Salyan və Neftçala rayon şivələrində *[gomuş]* kimi tələffüz olunur. – *Gomuş diyər, qarnımı doydur, qora bassır məni* (Qəmbərova Q, 2020: 267).

a → u əvəzlənməsi Yuxarı Arpaçay ağızlarında *cuaf (cavab)* → Bakı dialekti və Muğan qrupuna məxsus əksər şivələrdə *covab/cuvab/cuğab* şəklində işlənir. Eləcə də Bakı və ətraf kəndlərdə *boca, bobat, hova, boba, popağ, noxoş* və s. (Mahmut S., 2016: 45) sözlərdə *a → o*əvəzlənməsini görürük.

Fonetik hadisələr içərisində səs artımı hadisəsi də Azərbaycan dialekt və şivələrində və canlı danışıqda intensivdir. Bu mənada *i* səsinin sonor səslərdən əvvəl artımı daha çox baş verir: *rəf – irəf; şkaf - işqaf; stəkan – istəkan; stol – istol* və s. (Mahmut S.,2016: 64-65.). Yuxarı Arpaçay şivələrində də proteza hadisəsinə rast gəlinir: *irek/irenk (rəng), irca (rica), irazı (razı)* və s. (Mahmut S., 2016: 11).

M.Şirəliyev söz əvvəlinə səs artımı (proteza) hadisəsinin iki halda baş verdiyini yazır; 1) söz əvvəlində *st, sk, sp, şk, ş* səslərindən əvvəl 2) söz əvvəlində *r* və bəzən də *l*səslərindən əvvəl (Şirəliyev M, 2008: 64). Müəllif proteza hadisəsinin baş verdiyi konkret sözlərin müxtəlif dialekt şivələrdəki tələffüz formasını da əks etdirmişdir. Demək olar ki, artıq canlı danışıq xüsusiyyəti qazanmış bu hala bütün dialekt və şivələrdə rast gəlmək mümkündür. Bəzi şivələrdə isə *i* səsinin bu vəziyyətdə *ı, u, e* səsinə keçməsini müşahidə etmək mümkündür. Məsələn: isdul – stol (Muğan qr. Qax, Qazax, Culfa, Ordubad, Naxçıvan, Şərur, Şahbuz; Agsu) → isdol/istol (Ağstafa)→ ustul (Bakı, Şəki, Muğan, Qazax, Qarabağ,Naxçıvan) və s. (Şirəliyev M., 2008: 65).

Türkiyənin Yuxarı Arpaçay ellərində də söz əvvəlinə sait artımı ən çox *r* səsindən əvvəl baş verir: *iras/irast (rast); irazı (razı); irehim (rəhim); irehmet (rəhmət);irek/irenk (rəng)* və s. (Mahmut S. 2016: 11).

Azərbaycan şivələrinin Qərb qrupu üçün aparıcı xüsusiyyət kimi qeyd olunan *c-j* samit əvəzlənməsi də Yuxarı Arpaçay şivələrində özünü göstərir: *ajdıx davası çehmeh* – maddi problemlərə görə dava etmək; *aj – lelöyun* – ac-yalavac; *aj-susuz qalmax* – ac- susuz qalmaq; *bijdihelemeh* – pis davranmaq və s. (Məhəmmədhüseyn Ş.1993:61, 99).

Azərbaycan dialekt və şivələrində maraqlı fonetik hadisələrdən biri də metatezahesab olunur. Əsasən, samit səslərə aid olmaqla, yanaşı və yanaşı olmayan hallarda baş verir:

DOI:10.30546/gdu.5.2025

qabiliyyət – qəlbiyyət; qiblə – qilbə; İbrahim – İbram; loyva – lobya, vağzal – vazğal; doğra – dorğa və s. (Şirəliyev M., 2008 :113).

Samit səslərin yanaşı və digər yerdəyişməsinə Yuxarı Arpaçay şivələrində də rast gəlinir: *qıryat (qeyrət), mehrim (mərhum), surfa (süfrə), micaz (mizac): nağlet(lənət)* və s. (Mahmut S., 2016: 4). Maraqlı cəhət ondadır ki, Müasir Azərbaycan dilində ədəbi dil səviyyəsində norma kimi qəbul olunan *torpaq, addım, caq(g)al, saq(g)al, saq(g)ız, sekgiz, tappıltı, uddum, yeddi* və s. kimi sözlər Türkiyə türkcəsinə nəzərən, şivə faktı kimi hesab olunur.

2) **Etnoqrafik dialektizmlər** Azərbaycan dilinin dialekt leksikası, bu xalqın tarixi keçmişini özündə qoruyub saxlamışdır. Dilimizin tarixi inkişafı və ədəbi dilin təkamül yolu və sabitləşməsi dialekt və şivə faktlarını aşkar etməyə geniş imkan verir. Bu cəhətdən etnoqrafik dialektizmlərin araşdırılması, ortaq olan leksik vahidlərin tapılması və digər məsələlər çox əhəmiyyətlidir. Azərbaycan dilində leksik dialektizmlər tematik cəhətdən çox rəngarəngdir. Buraya tayfa adları, qohumluq bildirən sözlər, məişət əşyaları, qədim çəki, dəyər bildirən sözlər, təsərrüfat həyatı, peşə və sənətlə bağlı olan dialektizmlər də daxildir.

Eyni zamanda hal, hərəkət və vəziyyət ifadə edən feili dialektizmlər də araşdırma üçün maraqlı faktlar verə bilər. Etnoqrafik dialektizmlər mənsub olduğu xalqın haqqında qiymətli milli – etnoqrafik biliklərlə zəngindir. Onlardan bir neçə faktı hər iki tərəfdən nəzərdən keçirək:

Aşıq/aşıx. Azərbaycan xalq oyunlarında işlənən *aşıq* xırda buynuzlu heyvanlara məxsus sümükdür. Azərbaycan xalqının məişət həyatında xırda buynuzlu heyvanların arxa ayağında yerləşən sümük lap qədim zamanlardan toplanmış və ondan müxtəlif oyunlarda istifadə olunmuşdur. Beləliklə, xalqın etnoqrafik yaddaşında "aşıq-aşıq" adlı uşaq oyunu qalmışdır. Əsasən, əziz Novruz günlərində bu oyun daha çox oğlan uşaqları arasında oynanılmışdır. Şair Şəhriyarın "Heydərbabaya salam" poemasında həmin səhnəni şair: -*Əli mənə yağıl aşıq verərdi, İrza mənə novruzgülü dərərdi*"- (Məhəmmədhüseyn Ş., 1993: 16) - deyərək,etnoqrafik mənzərə ilə bəzəmişdir.

Azərbaycan şivələrində "aşıq" sözünün "oyun" mənası ilə bağlı xeyli frazeoloji ifadə, atalar sözləri və zərb-məsəl vardır: - *Araz aşığından, Kür topuğundandır* ("heç nəyi özünə dərd etməmək" mənasında); *"altı aşığlığ (ölçü mənasında) boyu var, danışığına bax!"* (Neftçala); - *Aşığı to:xan durub (bəxti gətirmək)(Neftçala)* və s.

Göründüyü kimi, canlı danışıqda hətta, *aşığın* ölçü vahidi kimi işlənməsi də müşahidə olunur: -*Aşığı alcıdurmax – Bəxti gətirmək, şanslı olmaq* (Naxçıvan); *aşığı to:xandurmağ* (Neftçala, Salyan) və s. sinonimlik təşkil edir.

Eyni xalqın Arpaçay köylərindəki qardaşlarımızın da dilində "*aşıx ata bilməmək; aşıx atılmaz olmax (bacarıqsızlıq; qabiliyyətsizlik); aşıxoynamax(aşığ oynatmaq, oyun), aşığuduzmax (uduzmaq); aşıxsorumax (aşığın dik durması)* (Mahmud S, 2016:74).

Etnoqrafik dialektizmlər Azərbaycan xalqının milli məişəti, adət və ənənələrini özündə yaşadan söz və ifadələrdir. Etnoqrafik leksika ədəbi dilin lüğət fonduna daxil olub, xalqın etnomədəni dəyərlərinə dair məhəlli xarakterli dialektizmlərlə çox zəngindir. Məsələn, **çilə** leksemi Azərbaycan dilində istər müstəqil halda, istərsə də müxtəlif birləşmələrdə omonim səciyyəsi ilə meydana çıxmışdır: *çilə* – qadının doğumdan sonrakı 40 günü, *çiləda*ğ – Ağsu, Bərdə, Tabasaran və Zəngilanda dərman bitkisi mənasında; *çilə* – kiçik barmaq, çeçələ barmaq mənasında (Salyan, Neftçala) işlənir (Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlasının proqramı, 2022: 101).

Azərbaycan dilinin dialekt və şivələrində *çilə* morfemi əsasında bəzi etnoqrafizmlər də yaranmışdır. Məsələn, *çiləsi çıxmaq* (əksər şivələrdə körpənin doğulmasından keçən qırx gün, *çilə kəsmək, çiləyə düşmək, çilədən çıxmaq (çıxarmağ)* kimi birləşmələr *qırx* sakral

DOI:10.30546/gdu.5.2025

məzmunlu sayla bağlı inamı ifadə edir. Hətta, Bakı kəndlərində, xüsusən, Maştağa kəndində *çiləkəsənlər* və *çiləçıxaranlar, çilə ocağı, çilə piri,* hətta *Çiləkən* toponimi qədim inancı yaşadır. Xalqın inamına görə, çiləyə düşən körpə uşaq yaxşı inkişaf etmir, zəif olur. Onun üçün mütləq *çilə kəsilməlidir*. Bu işi xüsusi qabiliyyətli və Allah vergisi verilmiş olan *çiləkəsən* icra etməlidir. Əsasən Bakı kəndlərində yerli əhali *çildağa*, həm də, qədim tibbi müalicə üsulu kimi inanır. Xüsusilə, qorxunu aradan götürmək üçün çıldağçı insan bədənin müəyyən nahiyələrinə yanmış çubuqla və ya burulmuş və yandırılmış fitillə dağ basır. Bu prosedurun xəstəni tamamilə sağaltmasına səbəb olacağına insanlarda dərin inam vardır. Çox maraqlıdır ki, Türkiyənin Yuxarı Arpaçay ellərinin canlı şivələrində isə "çilə" sözünün əsasında yaranmış *çətinlik, sıxıntı, əzab-əziyyət, pis vəziyyət* və s. mənaları bildirən ifadələr vardır: *çilə çehmeh – sıxıntılara duruş gətirmək; çileden çıxmax – çətinliyi dəf etmək; çileden çıxartmax – insanı hövsələdən çıxarmaq, əzab-əziyyətə dözmək; çilesi dolmamax – əzablı günlərini gözləmək* və s. (Mahmud S. 2016: 122).

Düşünürük ki, Yuxarı Arpaçay şivələrində işlənən "çilə" dialektizminin "səbr, dözüm, sıxıntı, əzab və s." kimi mənalarının da mücərrəd mənada 40 sayı ilə bağlılığı vardır. Azərbaycan şifahi xalq ədəbiyyatında, xüsusən, nağıl və dastanlarda 40 sayı yuxarıda sadalanan semantikanı ifadə edir. Nağıl və dastanın qəhrəmanı 40 gün sınanır, 40-cı otaqda sirrin açılmasına ümid aşılanır, 40 gün, 40 gecə çətinlik çəkilir və s. Bir sözlə, 40 gün bir "çilə çəkilir". Əslində tibb elmində də 40 günün elmi-tibbi sınaq müddəti mövcuddur. Məlum "karantin" termininin mahiyyətində də məhz 40 gün dayanır. Fransız mənşəli karant(in) sözü, əslində,40 sayını bildirir.

Azərbaycan xalqının məişətində 40 gün temporal mənalı *çilə/çillə* sözündə qış fəslinin mərhələlərindən birini ifadə edir: "Böyük çilə/çillə"və "kiçik çillə" birlikdə 40 gün davam edərək, Novruzun gəlişi ilə başa çatır. İnsanlar "çilləni" bayram kimi qarşılayır, Azərbaycanın bəzi ərazilərində məxüsusi olaraq,"çillə bayramı" üçün, "çillə qarpızı" saxlayır və həmin gün kəsirlər. İnsanlar qışın sərtliyini yayın neməti ilə sanki unutmağa çalışır, tezliklə "çillədən" qurtaracaqlarına inamı ifadə edirlər.

3)Leksik dialektizmlər ədəbi dildə qarşılığı olan məhəlli xarakterli leksik ifadələrdir. Onları semantik cəhətdən ədəbi dildəki sözlərin sinonimi adlandırmaq da olar. Bu baxımdan leksik dialektizmləri tayfa dil əlamətlərini qoruyub yaşadan "canlı" şahidlər kimi dəyərləndirmək lazımdır. Bu mənada hər iki şivədə bəzi leksik dialektizmləri araşdırmaya çəlb edək:

Boğanağ/buğanax/bığanağ və s. variantlarında Azərbaycan dialekt və şivələrində *tozlu külək burulğanı* (Bakı, Neftçala, Salyan); yaxud *bürkü* mənası bildirir: *– Bi də: bığanağ var, ürəyim sıxılır* (danışıqdan).

Maraqlıdır ki, Azərbaycan dilinin Qarakilsə şivələrində isə "boğanax" *savaş, dava-dalaş* mənasında qeydə alınmışdır: *– Kəndin ə:ğində bir boğanax düşəndə başında eşitmirix'* (Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlasının proqramı, 2022: 60).

Qazax dialektində "*buğanax"* variantı *çayda əmələ gələn burulğan,* Çənbərək şivələrində isə *burula-burula əsən külək* mənasında işlənir (Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlasının proqramı, 2022: 68).

"Boğanax" canlı danışıqda həm də "havasızlıq mühiti" mənasını bildirir.Göründüyü kimi, sözün əsasında, kök hissəsində "boğulmaq" feilinin kök morfemi dayanır.

Dal. Azərbaycan ədəbi dilində də bəzən "arxa" sözünün sinonimi kimi işlənən "dal" leksik dialektizmi nitq hissəsi baxımından həm zərf, həm də sifət kimi işlənir. Məsələn: *dal qapı → arxa qapı(sifət); dal-dala(zərf) getmək – arxa-arxaya getmək* (Neftçala). Əslində, Azərbaycan dialekt və şivələrinin demək olar ki, əksəriyyətində işlənməsindən çıxış edərək demək olar ki, bu sözü ümumxalq danışıq faktı kimi də qeyd etmək olar. Belə ki, "dal"

DOI:10.30546/gdu.5.2025

sözünün dialekt və şivələrdə derivativ imkanları çoxdur. Ədəbi dilin lüğət fondunda da "dalbadal", *"dalan" (həyət, küçə), dalda (kənar, arxa yer)* və s. kimi sözlər eyni mofemdən düzəlmişdir.

Azərbaycan dilinin müxtəlif dialekt və şivələrində "dal" həm də "kürək" mənası verir: - *Uşağı dalına aldı, yola düzəldi*(danışıqdan) (Neftçala).

"Dal" morfemi əsasında yaranmış leksik dialektizmlərin ədəbi dildə qarşılığı olsa da, onların yaranma yolları və mənaları xeyli fərqlidir. Məsələn, "dalbasar" Ağdam rayon şivəsində "pəncərə sürgüsü", "dalda" (Bakı, Kürdəmir, Salyan, Oğuz rayon şivələrində "gizli, məxfi yer (Pulun daldadadı) (Bakı); eyni zamanda sığınacaq üçün yer; "dalda-dama" (Bakı) – xəlvət, gizli; "daldalığ" (Füzuli) – külək, yağış tutmayan yer; "dalday"//(Çənbərək) "daldey" (Barana, Qazax) - etibarlı yer; yağış və küləyin tutmadığı yer deməkdir (Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlasının proqramı, 2022: 113).

Bundan başqa, Masallı və Salyan rayon şivələrində "dalısürə" leksik dialektizmi "arxası ilə, dalınca" mənasını bildirir. Hətta Salyan şivələrində "müavin" mənasında "dallığ", müdafiəçi mənasında "dallığçı" sözləri də qeydə alınmışdır: - *Sədrin dallığı sözümü deməyə qoymur;* - *Ona batmaq olmaz, dallığçısıçoxdu* (Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlasının proqramı, 2022: 113).

"Dal" sözü əsasən "arxa" mənasında Yuxarı Arpaçay şivələrində də müxtəlif birləşmələrin tərkibində işlənir: *Dala qalmax, dalda durmax,daldaqoymax, dal-dala vermeh, dalıcaxgetmeh, dalına almax, dalına baxmamax, dalına minməh* və s.Qeyd etmək lazımdır ki, "dal" morfeminin bu şivələrdə də sözyaratma imkanı çoxdur. Türkiyənin Yuxarı Arpaçay şivələrində əsasən frazeoloji vahidlərin tərkibində öz mənasını hifz etmiş "dal" leksik dialektizmi də xeyli məhsuldar imkanını nümayiş etdirir: *dalını tutmaq – dəstəkləmək, dalında durmak – arxa olmak, dalını vermek – söykənmək* və s. (Mahmut S., 2016:127).

Beləliklə, Azərbaycan dilinin şivələrindəki leksik dialektizmlərin Türkiyənin YuxarıArpaçay şivələri ilə müqayisəsindən aşağıdakl nəticələr ortaya sıxır:

- Azərbaycan dilinin dialekt və şivələri və Yuxarı Arpaçay şivələri eyni kökün budaqları kimidir.
- Fonetik-leksik dialektizmlərin araşdırılması Türkiyənin Yuxarı Arpaçay şivələri ilə ortaqlıq təşkil edən sait və samit səs əvəzlənmələrinin, səs artımı və metateza kimi fonetik hadisələrin hər iki şivədə eyni halda baş verməsini aşkara çıxarır.
- Hər iki şivə üzərindəki çalışmalar fonetik fərqlənmələrin leksik dialektizmlərin semantikasına təsir etmədiyiniaşkar edir.
- Azərbaycan etnoqrafik dialektizmlərininTürkiyənin Yuxarı Arpaçay ellərində də var olduğunu göstərən söz və ifadələr onların eyni mədəniyyətin daşıyıcıları olmasını sübut edir.
- Azərbaycan ədəbi dilinə nəzərən leksik dialektizm hesab olunan sözlərin Yuxarı Arpaçay şivələrində də işlənməsi onların eyni xalqa məxsus olmasını aşkar edir.
- Araşdırma sübut edir ki, Azərbaycan xalqının məhəlli dili və Türkiyənin Yuxarı Arpaçay boylarının şivələri eyni dilin – Azərbaycan dilinin fərqli ərazilərdəki təzahürüdür.

Ədəbiyyat

1. Adilov M. Verdiyeva Z. Ağayeva F. İzahlı dilçilik terminləri// , Bakı: Maarif, - 1989.
2. Azərbaycan dilinin dialektoloji lüğəti// Bakı: Şərq-Qərb, - 2007.
3. Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlasının proqramı// Bakı: Elm və təhsil, - 2022.
4. Qəmbərova Q. Azərbaycan dilinin Neftçala rayon şivələri// Bakı: Səda, - 2020.
5. Məhəmmədhüseyn Şəhriyar. "Divani-Türki" // Bakı: Əlhuda-Sabah,- 1993.

DOI:10.30546/gdu.5.2025

6. Mahmut Sarıkaya. Yukarı Arpaçayı boylarının söz varlığı I. Kalıp sözler// Ankara: Vizyon yayınevi, - 2016.
7. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları. Ali məktəblər üçün dərs vəsaiti// Bakı: Şərq-Qərb, -2008.

СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ЛЕКСИЧЕСКИХ ДИАЛЕКТИЗМОВ АЗЕРБАЙДЖАНСКИХ ГОВОРОВ И АРПАЧАЙСКИХ ДИАЛЕКТОВ

Гамбарова Кюдсия

Резюме

Азербайджанцев, проживающих в деревнях района Арпачай провинции Карс Турецкой Республики, турки называют как терекеминскими тюрками, так и местными жителями Карса. Исследование языковых особенностей тюркоязычного населения этого региона начало привлекать внимание еще в 70-х годах XX века. В 1976 году под редакцией профессора С. Олджая, доктора А. Б. Эрджиласуна и Э. Аслана был опубликован сборник под названием «Собрания из деревень Арпачая» в серии изданий Турецкого языкового общества. В 2016 году в Анкаре была издана книга доктора МахмутаСарыкаи «Словарное богатство верхнего Арпачая. Том I. Устойчивые выражения». Эти факты свидетельствуют о том, что языковые особенности населения, проживающего в данном регионе, не остались без внимания турецких исследователей и периодически становились предметом научного интереса.

Как известно, ареал распространения азербайджанского языка превышает государственные границы Азербайджана. В этом контексте сравнительное изучение азербайджанского языка и его диалектов с языками тюркоязычных народов, проживающих как в соседних, так и в несоседних странах, позволяет выявить интересные языковые факты.

В данной статье некоторые диалектизмы, существующие в азербайджанских говорах, сопоставляются с диалектизмами, характерными для говоров верхнего Арпачая в Турции. В исследовании анализируются три типа диалектизмов:

1) лексико-фонетические диалектизмы
2) этнографические диалектизмы
3) лексические диалектизмы.

На основании проведённого исследования можно сделать вывод, что лексико-фонетические диалектизмы азербайджанского языка с семантической точки зрения не имеют существенных отличий от говоров Верхнего Арпачая, распространённых на территории Турции. Выявленная фонетическая вариативность не влияет на лексическое значение слова: əcəl/əjəl – ajal, quvvat/quvat – quvvat/quvat, covab/cuğab – covaf/cuvaf и др.

Этнолингвистический анализ этнографических диалектизмов, привлечённых к исследованию, таких как aşıq (кость) и çilə (сорок дней), показывает, что семантическое наполнение этих слов в обеих говорах близко или идентично, отражая общие культурные ценности.

В рамках изучения лексических диалектизмов была предпринята попытка сопоставить лексемы “dal” и “boğanaq”, и в результате установлено, что их значение, содержание, а также деривационные возможности в обоих говорах сходны.

Проведённое исследование подтверждает, что оба говора принадлежат одному языку и, несмотря на расселение по разным территориям, отражают речь одного и того же народа. Это — часть азербайджанского народа, разделённого политическими

DOI:10.30546/gdu.5.2025

процессами и геополитическими играми, в результате чего оказавшегося вдали от своей исторической родины.

A COMPARISON BETWEEN LEXICAL DIALECTICISMS OF ACCENTS OF AZERBAIJANI AND THE ARPACHAY ACCENTS

Gambarova Gudsiyya

Summary

Azeri people living in Arpachay villages in Kars Province of the Republic of Turkey are called by Turks as both Terekeme Turks and Locals of Kars. The objective of studying the linguistic features of the Turkic people living in the region existed in the 70th of the 20th century. A book titled "Compilations from villages of Arpachay" was published in 1976 in Turkey by the Turkish Language Association, composers of which were Prof. Dr. S. Olcay, Dr. A. B. Ercilasun and E. Aslan. Much later, in 2016, another book titled "Vocabulary of Upper Arpachay Regions I. Formulaic Expressions" by Dr. Mahmut Sarıkaya was published in Ankara. Both books are indicators of that linguistic features of people living in the area have not escaped the notice of Turkish researchers and have attracted their interest. As known, boundaries of Azerbaijani encompass a much broader areal than the borders of the Republic of Azerbaijan. In this regard, a comparative study of Azerbaijani and its accents in comparison to Turkic peoples of states bordering or not bordering on Azerbaijan may enable us to reveal interesting facts.

The article presents a comparison of several dialecticisms existing in Azerbaijani accents to dialecticisms special to Upper Arpachay Regions. The study was conducted on three types of dialecticisms: 1. Lexical-phonetical dialecticisms; 2. Ethnographic dialecticisms; 3. Lexical dialecticisms. The research enables us to conclude that lexical-phonetical dialecticisms of Azerbaijani do not differ essentially from Upper Arpachay accents of Turkey from semantical viewpoint. The observed phonetical variability does not have any influence on lexical meanings of words: *əcəl/əjəl – ajal, quvvat/quvat – quvvat, covab/cuğab – covaf/cuvaf* and etc.

An ethnolinguistic analysis of lexemes involved in the study as *aşıq* (bone) and *çilə* (40 days) in terms of ethnographic dialecticisms indicate that the semantical capacity of words in both accents is either the same or close and reflects mutual cultural values. The meaning and content of the *dal* and *boğanaq*words involved as lexical dialecticisms have been revealed in both accents together with their derivative capabilities. In conclusion, it may be assumed that both dialects belong to the same language and the same people, who is settled in different regions at the present time. They are a part of the Azerbaijani people separated from each other as a result of political events.

Daxil olma tarixi 26 sentyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 172-178

DOI:10.30546/gdu.5.2025

UOT:82-3.512.162

"KOBLANDIBATIR" ETNOENERGETİK SİSTEMİN ƏVƏZSİZ NÜMUNƏSİ KİMİ

Nağiyeva Jalə Xəlil qızı
Bakı Dövlət Universiteti,
Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının doktorantı
Jalakhalilova@yahoo.com

Xülasə: *Epos məfkurəsi bütün mahiyyəti və polifonik məzmunu ilə milli özünüdərkin ən mükəmməl nümunəsidir. Mifdən üzü bəri daşınanlar və mifin ehtiva etdiyi eyni sistem üzrə həm də əlavələrlə eposa ötürülmə xüsusiyyətinin aparıcılığı ilə funksional məzmun daşıyır. Dünya xalqlarının zəngin mədəniyyət abidələri arxaik qatın ən incə elementlərinə qədər mifə hansı şəkildə daxil olursa eyni axarda da eposda özünü ümdə olan kimi təzahür etdirir. "Bilqamıs", "Manas", "Oğuz Kağan", "Alpamış", "Boz Qurd", "Köç", "Törəyiş", "Kitabi-Dədə Qorqud", "Uralbatır", "Edige", "Corabatır", "Maday Kara", "Kitabi-Battal Qazi", "Koroğlu" və s. dastan silsiləsi türk etnik kodunun ana axarını müəyyənləşdirən monumental mədəniyyət hadisələridir. Daha doğrusu, dünyanın o başından günümüzə gələn etnosun türklük səviyyəsində həyat və yaşam salnaməsidir. Cahanşümul dövlət məfkurəsinə söykənən protürklər eyni düşüncəni və təsəvvürü sonrakı dönəmlərdə də bir kimlik nümunəsi olaraq əsas götürmüşlər.*

Kutsal nizam, ailə institutunun ortaya qoyduğu təsəvvür, eləcə də sosial konsorsiumun müəyyənləşdirdiyi təsəvvür modeli ən incə məqamları ilə qəbilə, tayfa sferasında təkrarlanmaqla gedilən yolun dönməzliyini olum-qalım səviyyəsində təlqinə köklənmişdir. Epik düşüncə bu prosesdə aparıcılığı öz üzərinə götürməklə həm də inam, etiqad, atalar sözü, məsəl, əfsanə, rəvayət, mərasim folkloru, rəqs, musiqi, uşaq oyunları və s. səviyyəsində də sərgiləməyi bir məqsədə çevirmişdir. "Koblandıbatır" bunun nümunəsi olaraq türk epos təfəkküründə milli özünüdərkin ən mükəmməl nümunəsi olaraq əsaslı təsəvvür formalaşdırır.

Açar sözlər. Epos, dastan, əfsanə, mif, atalar sözü, məsəl, mədəni qəhrəman, türk dastan ənənəsi və s.

Keywords. Epic, epic, legend, myth, proverb, parable, cultural hero, Turkish epic tradition, etc.

Ключевые слова. Эпос, эпос, легенда, миф, пословица, притча, культурный герой, турецкая эпическая традиция и т. д.

Anahtar kelimeler. Destan, destan, efsane, mit, atasözü, mesel, kültürel kahraman, Türk destan geleneği vb.

Giriş. "Koblandıbatır" qazax xalqının qəhrəmanlıq dastanıdır və bütünlükdə türk xalqlarının yaratdığı mədəniyyət abidələri ailəsində mükəmməllik sərgiləyən sənət örnəyi olaraq diqqət önünə gəlir. Dastan informasiyası invariant səviyyəsində mifik dünyanın hadisələri kontekstində əsaslı bir zənginlik sərgiləməklə bütünlükdə türk elləri boyu xalq yaddaşında yüz illər boyunca dolaşmışdır. Söyləyici repertuarında dillər əzbəri olan "Koblandıbatır" ustad akınların sirli-sehrli çalğısında və oxusunda həm də bir əxlaq, mənəviyyat toplusu olaraq qəlblərdə yaşarlıq qazanmışdır. Bu söyləmələr onu da deyək ki, təkcə qazaxların məskunlaşdığı coğrafi ərazilərlə məhdudlaşmamışdır, türk ellərini uyğurlardan qırğızlara, türkmanlardan özbəklərə qədər geniş bir auditoriyanı öz içinə almışdır. Folklorşünaslar öz təhlillərində məhz bunlara diqqət yetirməklə onun ehtiva etdiyi məzmuna həssaslıq göstərməklə, həm də akınlar baxımından söyləyici özünəməsxuxluğuna da diqqət yetirməyə çalışmışlar.

DOI:10.30546/gdu.5.2025

Epos tarixi gerçəkliyin bədii salnaməsi. Dastan türk xalqlarının tarixinin, məişətinin, ailə münasibətlərinin, eləcə də dövlət məfkurəsinin toplum səviyyəsində ən mükəmməl nümunəsi olaraq əsaslı təsəvvür sərgiləyir. "Manas", "Semetey", "Seytek" kontekstində olan zənginlik eyni axarda "Koblandıbatır", "Edige", "Alpamış", "Ayman-Şolpan", "Qız-Jibek" və s. kimi şedevrlərdə davam edir. Xalqın keçib gəldiyi yolun bədii salnaməsi olaraq səciyyələnən bu dastanlar maddi və mənəvi arealı, toplumun həyat və məişətində olanların ümumi mənzərəsini öz içinə almaq potensiyası ilə bir tarix olmaya yüklənir. Mənəvi materiyanın ötürülmə mexanizmləri ilə olanları sıralayan epos konstruksiyası stixial xarakteri ilə toplumun ruhani dünyasını üslub və təhkiyə mexanizmləri ilə əhatələməyi məqsədə çevirir.

"Koblandıbatır", eləcə də bu sistemin digər şedevrləri onu yaradan toplumların ən qədim təfəkkürü üzərində özünü nümayiş etdirməklə söyləyici repertuarında digər əlavələri də təmərgüzləşmələr və transformalar müstəvisində içinə almaqla davam edir. "Qazax qəhrəmanlıq eposunun ən qədim qatı patriarxal tayfa münasibətlərinin mövcud olduğu VIII-X əsrləri əhatə edir. Qəbilələrarası qapalılığın pozulduğu, qəbilələrin etnik konsoludasiyası, qəbilələrarası müharibələr, köçlər, başçıların xarizmatikliyi ilə seçilmiş insanlarla bağlı yaranmış rəvayətlər dastanların əsasına qoyulmaqla onların nüvəsini təşkil edirdi. Dastanların epik təhkiyə üslubunun formalaşması və inkişafı əsasən güclü qəhrəmanların adı ətrafında cilalanırdı. Belə epik nümunələrin bir sırasında digər məsələlərlə yanaşı, həm də qəhrəmanların mənşəyi haqqında məlumat verilir -Koblandı -qaraqıpçaq, Alpamış -kunqrat, Qəmbər -noğaylı tayfalarından olduqları və s. göstərilir" **(6, 218)**. Dastan informasiyası müəyyən hüdudlar daxilində konkret zamanı və hadisəni əhatələməklə diqqət önünə gəlir. Ancaq onun mahiyyətində olanlar və təhtəlşüur səviyyəsində işarələnmələr çox dərin qatları, ibtidai düşüncəyə dayananları bir məsəd və məram olaraq içinə almaq istəyi və məharəti ilə spesifikləşir. "Manas" **(7)** , "Kitabi-Dədə Qorqud" **(5)**, "Edige" **(11)** "Maday Kara" və s. timsalında olan hadisə və epizodlar bunun parlaq nümunəsidir.

"Koblandıbatır" başlanğıc və üst qatda olanlar kontekstində mükəmməl bir təsəvvürü diqqət önünə gətirir və onun geneloji sistemi digər əlavələrə də şərait yaradır. Zaman və məkan xronotopları aspektində özünü göstərən hadisə və epizodlar, akın söyləyiciliyinə dayanan təqdimatlar, epik qəhrəmanın səfərləri və elqurma düşüncəsi daxili simmetriyası və tipologiyası ilə bunları aydınlıqla göstərir. Məsələn, "Manas" ətrafında sistemli təhlillər aparan P.Əfəndiyev yazır: "Nəzərə almaq yerinə düşər ki, ayrı-ayrı manasçıların ifa etdikləri variantlarda (məs., Saqımbay Orozbakovun) dastan qəhrəmanı Manasın dövründən əvvəlki əsrlərdə bir neçə qırğız xanlarının adı çəkilir. Manasın şəcərəsi haqqında məlumat verilir. Bu epizodlar Manas haqqında kifayət qədər hərtərəfli məlumat əldə etməkdə böyük rol oynayır. Biz həmin hissədə Manasın babalarının, atasının yaşadığı mühitlə tanış olur, özünün dünyaya gəlməsi, uşçaqlıq çağları barədə geniş epik təfsilatla üzləşirik" **(3, 79)**. Epos etnosun tarix, mədəniyyət, elat həyat tərzi, dövlət məfkurəsi, mifik dünyagörüşü və s. haqqında ən möhtəşəm qaynaqdır. Folklorşünaslar, etnoqraflar, musiqişünaslar, tarixçilər və s. elm sahələrinin mütəxəssisləri **(1; 8; 9; 10)** çoxyönlü araşdırmalarında dastan informasiyasından yararlanmaqla mahiyyətə varır və daha dəqiq mülahizələr yürüdə bilmək imkanı qazanırlar. Çünki folklor etnokulturoloji mədəniyyətin təfəkkür intelleksiyasını əks etdirə bilmək baxımından müstəsna əhəmiyyət kəsb edir. Hansısa bayatı, nəğmə, atalar sözü, məsəl əfsanə, rəvayət dastan və s. etnosu ehtiva etmək potensiyası ilə daha dəqiq və təbii olan düşüncə modelidir.

Eposun bu cür əhatəlilik və dəqiqlik səviyyəsində formalaşdırdığı təsəvvür müstəsna imkanlılıqla diqqət önünə gəlir. "Qədim türk eposu, araşdırmalar göstərir ki, təxminən e. ə. I minilliyin ortalarında formalaşmışdır; həmin dövrə qədər türk eposunun hansı tarixi, ictimai-kulturoloji mərhələlərdən keçib gəldiyi barədə məlumatlar ya çox azdır, ya da yoxdur. I

DOI:10.30546/gdu.5.2025

minilliyin türk eposu (ümumən mədəniyyəti) isə e.ə. V minillikdən başlayaraq gələn Turan-Altay mədəniyyətinin varisi idi -türk, monqol və tunqus-mancur eposları kimi, tarixi bir diferensasiyanın nəticəsi idi" **(2, 13).** "Manas", "Koblandıbatır", "Kitabi-Dədə Qorqud", "Alpamış" və s. kimi böyük mədəniyyət abidələri həmin əski layın Turan-Altay mədəniyyətinin çox əski qatının oyanışı və hərəkətliyi timsalında əsrləri adlayaraq e.ə.V minillikdən e.ə. I minilliyə doğru irəliləyir. Əlbəttə bu axarın sərgilədiyi tendensiya əlavələrə şərait yaradır, təmərgüzləşmə və diferensasiya səviyyəsində gedən prosesləri də öz içinə alır. Burada diqqət yetirilməli digər məqam adı vurğulanan əvvəlki dönəmlərin mənzərəsi ilə əlaqədar olan təsəvvürlərdir. Dayanacaq yeri isə müxtəlif kontekstlərdə ayrı-ayrı epizodik düşüncə aspektində olan miflərdə olanlara bağlanır. Mif bütün bu olunan və yada gəlinənlərlə etnosun mövcudluğunun başlanğıc nöqtəsini və sonrakı dönəmlərin proseslərini içinə almaq, həm də eposa gətirib çıxarmaq baxımından əvəzsizdi. Milli mədəniyyət təsəvvürünün başlanğıc nöqtəsi funksiyasında özünü nümayiş etdirir və sözün həqiqi mənasında da belə bir stixiyanı özündə nümayiş etdirmək funksiyasına yüklənir.

Türk epos məfkurəsi və "Koblandıbatır". Türk epos məfkurəsinin ən möhtəşəm abidələrindən olan "Koblandıbatır" başlanğıc epizodu, eləcə də mətn axarında sərgilədiyi təsəvvür etnik mədəniyyətin əxlaq, davranış, sosium səviyyəsində təqdiminə köklənir və bilgi vermək spesifikası ilə nəzər-diqqəti cəlb edir.

Keçmiş, ötmüş zamanda,
Qaraqıpçaq elində,
Bir Koblandı varıydı.
Atası bunun Toktarbəy,
Xalqa yaxşı tanış bəy.
Qədərsiz idi varı. **(6, 10)**.

Mətn informasiyası və epik təhkiyənin təqdim etdiyi bilgi dövrü, onun bədii-estetik, tarixi-ideoloji aspektlərini özünəməxsusluqla canlandırmağa həssaslıq göstərir. Toktarbəyin xeyirxahlığı, zənginliyi, həyat şəraiti, gəzib-dolaşdığı yerlər və s. haqqında verilən məlimatlar epik qəhrəmanın həyat salnaməsi olaraq diqqət önünə gəlir. El-obada, qıpçaqlar arasında böyük şan şöhrət sahibi olan dastan informasiyası yaşadığı acıları da sıralamaq baxımından diqqətçəkici təsir bağışlayır. Bu və buna bənzər hadisələr müxtəlif zaman kəsiklərində yaranmış dastan nümunələrində, nağıllarda lazımı qədər özünü göstərə bilmək xüsusiyyəti ilə spesifikləşir. "Elin şan-şöhrətiydi" təsəvvürü ilə dillərdə dastan olan Toktarbəyin səksən yaşa qədərki həyatını, yaşam tərzini sərgiləyən epos məfkurəsi övladsızlıq acılarını da diqqət önünə gətirir və əsas motiv olaraq sonrakı prosesin gedişinə işıq tutur. Üzü gülməyən müdrik qocanın kədəri bütün qıpçaq elinin qəm-qüssəsi, ağrı-acısı kimi göstərilir və "bəxtinə düşən şahinin qırıq oldu qanadı" -deyə təqdim edilir.

"Toktar qüssələnirdi, qıpçaq kədərlənirdi" düşüncəsinin və yaşanan vəziyyətin çıxış yolu xalq yaddaşında, etnik şüurun müəyyənləşdirdiyi təsəvvürdə müxtəlif formalarda (əslində ifadəlilik anlamında eyni təsəvvürü sərgiləməklə) özünü göstərir. "Kitabi-Dədə Qorqud" eposunda bunun əvəzsiz örnəkləri var. "Dirsə xan oğlu Buğacın boyu", "Baybura oğlu Bamsı Beyrək boyu" bunun mükəmməl örnəyi olaraq əsaslı bir təsəvvürü, inam, etiqadlar baxımından problemin çözümü haqqında olanları arxaik qat kontekstində faktlaşdırır. "Oğlu-qızı olmayanı tanrı taala qarğayıbdır, biz dəxi qarğarız bəlli bilgil – dedilər.

(Elə olsa) səndənmidir? Məndənmidir? Tanrı taala bizə bir yetman oğlul verməz. Nədəndir? – dedi.

(Dirsə xanın xatununa qəhər gəldi, qara qıyma gözləri qan-yaş doldu) söyləmiş, görəlim, xanım, nə söyləmiş.

DOI:10.30546/gdu.5.2025

-Hey, Dirsə xan! Mənə qəzəb etmə! İncinib acı sözlər söyləmə! Yerindən uru durğıl! Ala çadırın yer üzünə dikdirgil! Atdan ayğır, dəvədən buğra, qoyundan qoç öldürgil! İç Oğuzun, Dış Oğuzun bəylərin üstünə yığnaq etgil! Ac görsən doyurğıl, yalıncıq görsən donatğıl! Borclunu borcundan qurtargil. Ulu toy eylə! Hacət dilə! Ola kim bir ağzı dualının alqışıyla tanrı bizə bir yetman əyal verə" **(5, 21)**. Göründüyü kimi, bu təfsilat bütünlükdə türk toplumunun təsəvvüründəki inamları, əxlaq və davranışı, nizamı, ağzı dualı timsalnıda alqışın müstəcəb olmasını vurğulayır. Dastan mətnində də həmin tövsiyyənin yerinə yetirilməsi ilə Dirsə xanın övladının (Buğacın) dünyaya gəldiyini görürük. Eyni təsəvvür və hadisə axarı "Koblandıbatır"da da təkrarlanır.

Üz tutdu ocaqlara,
Qurban kəsdi köhləni.
Bəybisəsi analıq
Çatanda əlli yaşa.
Düşdü uşaq boyuna. **(6, 11)**.

Ümumiyyətlə, epik yaddaş özünün funksional rolu və hadisələri əks etdirmə imkanları ilə müstəsna spesifiklik sərgiləyir. Uşağın dünyaya gəlişi, erkən yaşdan fərqli davranışları, altı yaşında qeyri-adi bacarıq, güc, ağılla özünü göstərməsi ("altı yaşa çatanda Koblan aslana döndü"), qonur atı minməsi, hərəkətlərinin qıpçağın sevinci, uğuru kimi anlaşılması etnosun yaşam fəlsəfəsini nümayiş etdirir. Türk dastan yaradıcılığı əks etdirmə üsulları, hadisə və epizodların qəhrəmanın həyatı timsalında baş verənləri ifadəyə köklənməklə əsaslı bir mükəmməlliklə, sistemin yaranışı ilə diqqət önünə gəlir. "Oğuznamələr" üzərində təhlillər aparan tədqiqatçılar bunları ənənənin ümumi axarı və qəlibləşmiş təsəvvür tipi olaraq təhlil edirlər. Məlum olduğu kimi, "Oğuznamə epik dünyanın mənzərəsinə, personajlar sisteminə, janrına, poetik ifadə üsullarına və s. görə özünəqədərki və özündən sonrakı, eləcə də onunla yanaşı epik ənənələrdən fərqlənir. Yəni Oğuznamə yaradıcılığı bu anlayışı ifadə edən bütün ölçülərə görə ayrıca epik ənənədir. Bununla yanaşı bu ənənə quru yerdə yaranmayıb. O, bütün epik ənənələr kimi, özündən əvvəlki şüifahi ənənəyə söykənir" **(4, 107)**. Əlbəttə istər Oğuznamə, istərsə də şifahi bədii düşüncənin bütün örnəkləri bazis olaraq ənənəyə dayanır və onun əsasında əlavə şaxələnmələrə, yeni model və epizodların gətirilməsinə səbəb olur.

"Koblandıbatır" türk epos yaradıcılığının ən mükəmməl örnəyi kimi söyləyicilərin (akınların) repertuarında daşınan elementləri, təhkiyə üsullarının əhatələdiyi zənginliyi özündə əks etdirməklə etnosun qəhrəmanlıq tarixini təcəssüm etdirir. Arxaik elementlər, bahadırlıq nağıllarına xas qəhrəmanlıq epizodları, düşmən üstünə gedişdən dövlətqurmaya qədər bir zənginlik burda ifadəsini tapır. Evlilik, yad tayfalarla üzləşmə, qəhrəmanlıqlar göstərmə, düşmən üzərinə gedişlər və qələbə bütün məqamları ilə toplumun yaşam fəlsəfəsini, mücadiləsini əhatələyir. Doxsan nökər qul, Yestemis, Koblandı birgə fəaliyyəti ilə Toktarbəyə arxa olur. Qonşu məmləkətdə Köktim -Aymaq xan haqqında bilgi verən Yestemiş (qoçaq qul) onun ərazisinin gözəlliklərindən, qızından (Qurtqa) söhbət açır və Koblandıda ona qarşı məhəbbət yaranır, onu görmək fikrinə düşür. Yestemisin Koblandını fikrindən daşındırmaq cəhdləri baş tutmur, silahlanıb Qurtqanı görməyə gedir. Hadisə axarında baş verənlər, yaranmış xaosun (atanın qızını ərə verməsi, toy mərasimi, qoyulan şərt (sikkənin vurulması və s.) nizamı və qəhrəmanlıqlar bütün incəlikləri ilə dastanda özünə yer alır. Qurtqanı alıb yurduna dönən Koblandı "pirlər, övliyalar kömək oldu" söyləyir.

Dastanda Koblandının həyatının müxtəlif məqamları, onun səfərləri, düşmən üzərinə gedişləri, el qurma töreni və s. təfsilatlı şəkildə özünün ifadəsini tapır. Ayrı-ayrı epizodlar, məsələn, toy mərasimi və onun elat səviyyəsində ənənəviləşməsi müxtəlif səviyyələrdə özünə yer alır. "Əkədən sənə yaxın kimidi", Qaraqıpçaq çölündə Koblandıya münasibət, doğmadan yaxın olma, onun bir qəhrəman kimi uca tutulması elat təsəvvüründə böyük, alp-ərən

DOI:10.30546/gdu.5.2025

statusunu sərgiləyir. Dastan informasiyası xalq mərasim zənginliyində "otuz gün şənləndilər, qırx gün kef etdilər" baxımından qəhrəmanın və türk toplumunun toy, şülən təsəvvürünü açıqlayır. "Əgər səbr eyləsən məqsədinə çatarsan" deyimi bu baxımından xalq düşüncəsində daşlaşmış ifadə kimi min illərin gəldiyi nəticənin yekun aktıdır. Koblan, Qarlıqa, Qurtqa şəxsində dastanda ifadəsini tapan hadisələr ailə, dostluq səviyyəsində nümunəyə çevrilir. Dastan öz janr imkanları ilə qəhrəmanlığı baba, ata oğul (Toktarbəy, Koblandı, Kiikbay) timsalında təqdim etməklə etnosun yaşarlığı aspektində reallığın, mövcudluğun nişanəsi olmanı sərgiləyir.

Nəticə. Beləliklə, "Koblandıbatır" janr müstəvisində əhatələdiyi məzmunla etnosun tarixini, arxaik yaddaşda olanlardan üzü bəri yaşananları, adət-ənənəsini, məişətini və s. əks etdirmək baxımından nümunəyə çevrilir. Aparılan mücadilə, Koblandının Kobikti, Şoşay xan, Alşaqırla və s. qarşılaşmaları və qələbələri, son olaraq Qarlıqa adlı igid qızla qarşılaşması və ondan Kiikbay adlı oğlunun olması türk xalqları timsalında mübarizənin və yaşamın dönməzlik göstəricisidir.

"Alpamış", "Koblandı", "Qəmbər", "Qırx batır", "Çülsə-qız", "Ayman Şolpan" və s. mədəniyyət abidələrinin əhvalat, hadisə və söyləmədən geniş həcmli strukturda dastana gəlişi tədrici və həm də uzunmüddətli bir proses kimi xalqın qəhrəmanlıq tarixini öz içinə almaq xüsusiyyəti ilə səciyyələnir. Folklorşünaslar, etnoqraflar, dastan tədqiqatçıları bir istiqamətdə bu nümunələrin mühüm qismini Qızıl Orda dönəmi ilə bağlayırlar. Ancaq türk xalqlarının dastan təsəvvürü mahiyyətində olanlarla daha qədimlərə bağlanır, protürk zamanında olanlardan, Turan-Altay mədəniyyətindən üzü bəri gəlinən yolu özündə ehtiva etmək imkanları ilə spesifikləşir. Bütünlükdə bunlar ənənənin davamlığına və gəlinən yolun zənginliyinə bağlanmaqla mənəvi materiyanın etnopotensiya səviyyəsində ötürücülüyünü diqqət önünə gətirir.

Ədəbiyyat

1.Ауэзов М. Киргизская народная героическая поэма «Манас». Киргизский героический эпос Манас. Москва: издательство Академии Наук СССР, 1961, с.15-84 (378 с.)
2. Cəfərov N. Klassiklərdən müasirlərə. Bakı: Çaşıoğlu, 2004, 272 s.
3. Əfəndiyev P. Dastan yaradıcılığı. Bakı: ADPU, 1999,166 s.
4. Əsgər Ə. Oğuznamə yaradıcılığı. Bakı: Elm və təhsil, 2013, 340 s.
5. Kitabi-Dədə Qorqud. Bakı: Gənclik, 1978, 182 s.
6. Koblandıbatır". Bakı: Elm və təhsil, 2017, 316 s.
7. Manas. I c, Bişkek, 2014, 370 s.
8. Рошияну Н. Традиционные формулы сказки. Главная редакция восточной литературы издательства «Наука», Москва, 1974, 215 стр.
9. Селезнев Ю.В. Элита Залатой Орды. Казань, Издательство «Фен» АН РТ, 2009, 232 стр.
10. Урманче Ф. Тюркский героический эпос. Казань, Института языка, литературы и искусства, 2015, 448 стр.
11. Эдиге. Вариант И.Капаева; худож. перевод на рус. яз. Ф.Сидахметовой. Половецкая луна. 1991, №1, стр.38-64.

DOI:10.30546/gdu.5.2025

"KOBLANDYBATYR AS AN IRREPLACEABLE EXAMPLE OF THE ETHNOENERGETIC SYSTEM

Naghiyeva Jale Khalil

Summary

The epic ideology is the most perfect example of national self-awareness with all its essence and polyphonic content. It carries a functional content with the leading feature of being transferred to the epic by the same system that the myth contains, as well as by additions. The rich cultural monuments of the peoples of the world, down to the most subtle elements of the archaic layer, in whatever way they enter the myth, manifest themselves in the epic as the main stream. “Bilqamıs”, “Manas”, “Oğuz Kağan”, “Alpamış”, “Boz Qurd”, “Köç”, “Törəyiş”, “Kitabi-Dədə Qorqud”, “Uralbatır”, “Edige”, “Corabatır”, “Maday Kara”, “Kitabi-Battal Qazi”, “Koroğlu” and other epic series are monumental cultural events that determine the main stream of the Turkic ethnic code. More precisely, it is a chronicle of the life and existence of the ethnos at the level of Turkism from the beginning of the world to the present day. Pro-Turks, who are based on the ideology of the universal state, have taken the same thought and idea as a model of identity in later periods.

The sacred order, the idea put forward by the family institution, as well as the idea model determined by the social consortium, are rooted in the inculcation of the irreversibility of the path taken by repeating it in the tribal and tribal spheres at the level of existence. Epic thought, by taking the lead in this process, has also made it its goal to exhibit it at the level of belief, creed, proverbs, parables, legends, narrations, ceremonial folklore, dance, music, children's games, etc. As an example of this, "Koblandibatır" forms a fundamental idea as the most perfect example of national self-awareness in Turkish epic thought.

“КОБЛАНДЫБАТЫР” КАК НЕЗАМЕНИМЫЙ ПРИМЕР ЭТНОЭНЕРГЕТИЧЕСКОЙ СИСТЕМЫ

Нагиева Жала Халил

Резюме

Идеология эпоса, при всей ее сути и полифоническом содержании, является наиболее совершенным образцом национального самосознания. Те, которые были перенесены из мифа и имеют функциональное содержание, обусловленное особенностью их передачи в эпос с дополнениями, в соответствии с той же системой, которая содержится в мифе. Богатейшие памятники культуры народов мира, вплоть до самых тонких элементов архаического слоя, проявляются в эпосе так же, как и в основном. Эпические циклы “Bilqamıs”, “Manas”, “Oğuz Kağan”, “Alpamış”, “Boz Qurd”, “Köç”, “Törəyiş”, “Kitabi-Dədə Qorqud”, “Uralbatır”, “Edige”, “Corabatır”, “Maday Kara”, “Kitabi-Battal Qazi”, “Koroğlu” и другие являются монументальными культурными событиями, определяющими русло тюркского этнического кода. Точнее, это летопись жизни и существования этноса на уровне тюркизма, дошедшая от начала мира до наших дней. Протурецкие сторонники, которые основывались на идеологии универсального государства, использовали ту же мысль и концепцию в качестве модели идентичности в более поздние периоды.

Священный порядок, концепция, выдвигаемая институтом семьи, а также концептуальная модель, определяемая социальным консорциумом, коренятся во внедрении необратимости пройденного пути путем его повторения в родовой и племенной сфере, на уровне бытия. Ведущую роль в этом процессе играет эпическая

DOI:10.30546/gdu.5.2025

мысль, а также верования, символы веры, пословицы, притчи, легенды, сказки, обрядовый фольклор, танцы, музыка, детские игры и т. д. Он поставил перед собой цель выставляться на самом высоком уровне. Примером этого является «Кобландибатыр», формирующий фундаментальную идею как наиболее совершенный образец национального самосознания в турецкой эпической мысли.

"KOBLANDIBATUR" ETNONERJIK SISTEMIN VAZGEÇILMEZ BIR ÖRNEĞI OLARAK

Nagiyeva Jale Halil

Özet

Destanın ideolojisi, bütün özü ve çok sesli içeriğiyle, millî benliğin en mükemmel örneğidir. Mitlerden aktarılan ve aynı sistemle, mitin içerdiği eklemelerle destana aktarılabilme özelliğinden hareketle işlevsel bir içeriğe sahip olanlar. Dünya halklarının zengin kültürel anıtları, arkaik katmanın en ince unsurlarına kadar, ana metinde olduğu gibi destanda da kendini gösterir. "Bilqamıs", "Manas", "Oğuz Kağan", "Alpamış", "Boz Qurd", "Köç", "Törəyiş", "Kitabi-Dədə Qorqud", "Uralbatır", "Edige", "Corabatır", "Maday Kara", "Kitabi-Battal Qazi", "Koroğlu" gibi destansı diziler Türk etnik kodunun ana akımını tanımlayan anıtsal kültürel olaylardır. Daha doğrusu, dünyanın başlangıcından günümüze kadar gelen Türklük düzeyindeki etnosun yaşam ve varoluşunun bir kroniğidir. Evrensel devlet ideolojisini esas alan Türk yanlıları da daha sonraki dönemlerde aynı düşünce ve kavramı kimlik modeli olarak kullanmışlardır.

Aile kurumunun ortaya koyduğu kavram olan kutsal düzen, toplumsal konsorsiyumun tanımladığı kavramsal model, kabile ve aşiret alanında tekrarlanarak gidilen yolun geri döndürülemezliğinin varoluş düzeyinde aşılanmasından kaynaklanmaktadır. Bu süreçte destansı düşüncenin yanı sıra inançlar, mezhepler, atasözleri, benzetmeler, efsaneler, masallar, törensel folklor, dans, müzik, çocuk oyunları vb. ön plandadır. En üst seviyede performans sergilemeyi kendine hedef edinmiş. "Koblandibatır" bunun bir örneği olup, Türk destan düşüncesinde millî benliğin en mükemmel örneği olarak temel bir düşünceyi oluşturmaktadır.

Rəyçi: dosent Etibar Talıblı
Daxil olma tarixi 16 iyul 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 179-184

DOI:10.30546/gdu.5.2025

UOT: 811.

AZƏRBAYCAN VƏ TÜRK DİLLƏRİNDƏ CƏMLİK ŞƏKİLÇİLƏRİNİN FUNKSİONALLAŞMASI

Qəribova Pərvin Yaşar qızı
Bakı Dövlət Universitetinin dissertantı
garibovaparvin@gmail.com

Xülasə: *Həm Azərbaycan, həm də türk dilində -lar şəkilçisi adların digər qrammatik kateqoriyalarının (hal və mənsubiyyət kateqoriyaları) şəkilçilərindən fərqlənir. Belə ki, hal və mənsubiyyət şəkilçiləri sözlər arasında qrammatik əlaqələrin yaranmasına xidmət edir. Dilçilikdə belə bir müddəa var ki, hal yalnız sözlər bir-biri ilə əlaqəyə girdiyi zaman meydana çıxır. Başqa sözlə desək, söz birləşməsi və cümlədən kənarda hal yoxdur. Mənsubiyyət şəkilçiləri də ikiüzvlü paradiqmanın (sahib şəxs və mənsub əşya) elementləri kimi özlərini aparır. Bunlardan fərqli olaraq -lar şəkilçisi yalnız artırıldığı sözlə əlaqədə olur və həmin sözün sərhədindən kənarda fəaliyyət göstərmir.*

Məqalədə oğuz qrupu türk dillərinə aid olan Azərbaycan və türk dillərində çoxluq, cəmlik bildirən çəkilçi morfemlərin funksionallaşma xüsusiyyətləri öyrəniləcək.

Məqalənin yazılmasında müxtəlif elmi mənbələrdən istifadə olunmuşdur.

Açar sözlər: şəkilçi, cəmlik, türk, Azərbaycan, funksionallıq, türk.

Ключевые слова: суффикс, множественное число, турецкий язык, Азербайджан, функциональность, турецкий язык.

Key words: suffix, plural, Turkish, Azerbaijan, functionality, Turkish.

Son dövrlərdə Azərbaycan dilçiliyində cəmliyin iki növü fərqləndirilir. Bunlardan biri "adi cəmlik növü", digəri isə "təxmini cəmlik növü" başlıqları adı altında nəzərdən keçirilir. Qeyd eləmək lazımdır ki, cəmliyin adi və təxmini növlərinin ayrılması özünü doğrultmur və bu mülahizə ilə razılaşmaq olmaz. Dildə kəmiyyət anlayışı müxtəlif üsullarla ifadə oluna bilər. Lakin həmin üsulların hamısı morfologiya bəhsində öyrənilməli deyil.

Müasir türk dilində cəmlik anlayışı *-lar, -ler* şəkilçisi ilə ifadə olunur. Kəmiyyət kateqoriyası əşyalar arasında kəmiyyət fərqini göstərir. İsimlər cəmdə olarkən ahəngə görə *-lar, -ler* kəmiyyət şəkilçisini qəbul edir. Məsələn, *kapı-lar, pencere-ler, tavşan-lar, kuzu-lar, yatak-lar* və s. T.Banquoğluna görə, eyni cinsdən birdən çox varlıqları ifadə etmək üçün isimlərin sonuna *-lar, -ler* şəkilçisi gətirilir. Məsələn, *ağaclar, kumlar, kazlar, kadınlar, duyğular, görüşler* [2, s.322].

Azərbaycan və türk dillərində əşyaların tək olmasını göstərmək üçün xüsusi bir forma yoxdur. Bundan çıxış edərək deyə bilərik ki, bu dillərdəki kəmiyyət kateqoriyası təküzvlü paradiqmaya malikdir. *-lar*[2] şəkilçisini qəbul etmiş isimlər əksər halda cəmlik semantikasının yaranmasına xidmət etsələr də, onların şəkilçisiz qarşılıqları təkliyi ifadə edə bilmir. S.Yılmaz doğru olaraq qeyd edir ki, Türkiyə türkcəsində cəm şəkilçisi qəbul etməmiş isim, hər isim əsası isimlə ifadə olunan varlığın birini deyil, eyni növdən varlıqların hamısını təmsil etdiyindən və şəkilçi qəbul etməmiş isim əsasında "sıfır morfem" olmadığından ismin tək forması kimi dəyərləndirilə bilmir. Həmin təklik semantikası ismin müstəqim mənasının bir parçası kimi başa düşüldüyündən semantik araşdırma sahəsi daxilində qiymətləndirilməlidir [14, s.218]. Uyğun fikrə digər tədqiqatçılarda da rast gəlirik. D.Aksana görə, türk dilində təklik və cəmliyi bildirmək üçün xüsusi əlamətlər yoxdur və təklik-çoxluq yalnız *-lar / -ler* şəkilçisi ilə bildirilir. O, Cənubi Afrikadakı bantu dillərindən biri olan suaxili dilini nümunə göstərərək deyir ki, bu dildə isimlər altı əşya sinifinə ayrılır. Bunlardan birincisi insan sinifidir

DOI:10.30546/gdu.5.2025

ki, bu sinifə aid isimlər təkdə və cəmdə fərqli şəkilçilər qəbul edirlər: *mtu* "insan", *watu* "insanlar, əhali" [1, s.256-257].

Qeyd eləmək lazımdır ki, cəm şəkilçisi qəbul etməmiş isimlər təkliyi ifadə etmədiyi kimi, həmin şəkilçini qəbul etmiş isimlər də həmişə cəmlik semantikasını ifadə edə bilmirlər. Bu cəhəti qədim türk dilinin Azərbaycan və türk dillərindəki izi hesab etmək olar. Məlum olduğu kimi, qədim türk dilində cəmlik şəkilçiləri, o cümlədən də *-lar, -lər* şəkilçisi çox az işlənir [7, s.8]. K.Qrönbek qədim türk dilində cəmlik şəkilçilərinin yalnız bir neçə titul və qohumluq bildirən sözə artırıldığını göstərərək bu dildə çoxluğun bərabərlik bildirdiyini söyləyir [6, s.50]. O, buna nümunə kimi abidələrin dilində işlənmiş *bəglər, ekelerim, öglerim, kunçuylarım* sözlərini göstərir. Uyğur abidələrində *-lar, -lər* şəkilçisinin istifadəsinə diqqət çəkən A.fon Qaben qeyd edir ki, bir çox isimlər bu şəkilçini qəbul etsələr də, məntiqi baxımdan təkdə hesab olunurlar. Çünki buradakı *-lar* morfemi cəmlik bildirməyib, hörmət, sayğı ifadə edir. Müq. et: *bodisawatlar* "bir bodisatva" [5,s. 62]. Uyğun fikir C.Başdaş tərəfindən də söylənilmişdir [3, s.55]. Orta türk dövrü abidələrinin dilində də uyğun vəziyyətlə qarşılaşırıq [4, s.21-25]. Bütün bunlar Azərbaycan və türk dillərində şəkilçisiz formanın təklik ifadə etməsi barədə geniş yayılmış mülahizəyə yenidən baxmağı gündəmə gətirir.

Azərbaycan dilində tək-cəm qarşıdurmasını araşdıran Y.M.Seyidov yazır ki, bəzən kəmiyyət kateqoriyasına məxsus tək-cəm qarşıdurması zəifləyir, hətta sıfra enir. Məsələn, *birinci - birincilər, o - onlar* qarşıdurmaları təbii səslənirsə, *uzaq -uzaqlar* formalarını eyni mənada işlətmək olur: *Dostum çox uzaqda yaşayir // Dostum çox uzaqlarda yaşayır. 13-lər* formasına isə tək qarşı tərəf müəyyən etmək mümkün olmur. Bu rəngarəngliyə baxmayaraq, *-lar, -lər* şəkilçisi qəbul etmiş müxtəlif nitq hissələrində cəmliyin ümumi qrammatik əsası pozulmur [13, s.162].

Həm Azərbaycan, həm də türk dilində *-lar*^{2} şəkilçisinin yaratdığı semantika uyğun gəlir. Bu dillərdə *-lar*^{2} şəkilçisinin yaratdığı semantikanı aşağıdakı şəkildə ümumiləşdirmək olar:

1. Təkdə olan isimlərə artırılaraq əşyaların sayının birdən çox olduğunu ifadə edir. Məsələn, azərbaycanca *kitablar, qələmlər, ağaclar*; türkcə *kuzular, insanlar, kadınlar* və s. Ç.Hüseynzadə *-lar*^{2} şəkilçisinin bu şəkildə işlənməsini Azərbaycan dili üçün norma hesab edir [7, s.94].

2. Topluluq ifadə edən isimlərlə işlənərək növ, hissə, çeşid semantikası ifadə edir, eyni zamanda qoşulduqları sözlərin semantikasını gücləndirməyə xidmət edir. Məsələn, azərbaycanca *sular, daşlar, qumlar, göylər*; türkcə *ordular, havalar, sürüler, diziler* və s. Əslində istər Azərbaycan, istərsə də türk dilində topluluq semantikası ifadə edən isimlər cəm şəkilçisi qəbul etməməlidir. Çünki onların semantikasında kəmiyyət anlayışı ifadə olunmuşdur. T.Banquoğlu yazır ki, bu mövqedə *-lar*^{2} şəkilçisi qəbul etmiş isimlər toplu anlayışların özünün cəmliyini bildirməyə xidmət edir [2, s.322]. F.R.Zeynalov qeyd edir ki, *ağac, daş* və s. bu qəbildən olan topluluq anlayışı əks etdirən isimlər həmin qrupa daxil olan bütün ağacları, daşları bildirməyə xidmət edir. Başqa sözlə, burada konkret ağacdan, daşdan söhbət getmir. Toplu isimlərə *-lar/ -lər* şəkilçisi əlavə edildikdə ümumi anlayış bir növ məhdudlaşır, konkretləşir [13, s.117].

Qeyd etmək lazımdır ki, toplu isimlərin cəm şəkilçisi qəbul etməsi orta türk dövründən başlayaraq ayrı-ayrı alimlər tərəfindən göstərilmişdir.

3. Xüsusi isimlərə əlavə olunaraq həmin adları ümumiləşdirməyə xidmət edir. Məsələn, azərbaycanca *nizamilər, füzulilər, səmədlər, rəsullar*; türkcə *Mevlanalar, Fatihler, Yunuslar, Sinanlar, Karacaoğlanlar* və s. B.Xəlilov bu münasibətlə yazır ki, xüsusi isimlər varlığı tək olan anlayışları bildirir. Ona görə də xüsusi isimlər adi halda cəm şəkilçisi qəbul edə bilmir. Lakin bəzən qürur, vətənpərvərlik, fərəh hisslərini qabarıq vermək üçün xüsusi isimlər *-lar, -*

DOI:10.30546/gdu.5.2025

lər cəm şəkilçisi ilə işlənir. Məs.: *Koroğlular, Nizamilər, Füzulilər, Babəklər* və s [8,s.46]. Əlavə edək ki, *-lar*^{2} şəkilçisi xüsusi isimlərlə işlənərək tayfa, nəsil, sülalə anlayışlarını da ifadə edə bilir. Türk dilçisi Z.Korkmaz bu dil hadisəsini bir az fərqli şəkildə izah edir: "Xüsusi isimlər tək varlığı ifadə etdikləri üçün cəmlik şəkilçisi qəbul etməzlər. Lakin bunlar ailə, boy, millət, bir dinin mənsubları və qrup kimi topluluqları bildirdikləri zaman *-lar*^{2} şəkilçisi qəbul edirlər: *Avşarlar, Osmanlılar, Karakeçililer, Budistler* və s." [9, s.257]. Azərbaycan dilində də *-lar* şəkilçisi bu semantikanı ifadə edə bilir. Müq. et: *Ağqoyunlular, Qaraqoyunlular, Səfəvilər, Şirvanşahlar, Salarilər* və s.

4. Bəzi isimlərə və əvəzliklərə artırılırkən cəmlik bildirməyib, hörmət və nəzakət ifadə edir. Bu cəhət Azərbaycan dili ilə müqayisədə türk dilində daha açıq şəkildə özünü büruzə verir. Müq. et: *Bu toplantı sayın Cumhurbaşkanının himayelerinde yapılmışdır; Sayın Başbakan Operayı işleriyle birlikte şereflendirdilər*. F.R.Zeynalov da türk dillərində I və II şəxsi ifadə edən əvəzliklərin cəm formalarına cəm şəkilçisi artırmaqla hörmət və nəzakət semantikasının yaradıldığını göstərir. Müq. et: *biz - bizlər, siz - sizlər* [13, s.119]. Həqiqətən də, təkcə Azərbaycan və türk dillərində deyil, digər türk dillərində də bu di təzahürü ilə qarşılaşırıq.

Azərbaycan və türk dillərində *-lar*^{2} morfeminin istifadəsində müəyyən fərq də müşahidə olunur. Belə ki, türk dilində *-lar*^{2} şəkilçisinin yerinə yetirdiyi bir funksiya Azərbaycan dilində *-gil* şəkilçisi ilə verilir. Müq. et: türkcə *Aliler, Hasanlar, Turqutlar, dayımlar, halamlar, ablamlar* ~ azərbaycanca *Əligil, Həsəngil, Turqutgil, dayımgil, bibimgil, (böyük) bacımgil*. Qeyd edək ki, Azərbaycan və qismən də türk dili istisna olunmaqla bütün türk dillərində *-lar*^{2} şəkilçisi bu mövqedə işlənir. Bu, reprezentativ çoxluq semantikasıdır.

Çoxluğun reprezentativ tipi barədə nəzəri dilçilikdə də müəyyən fikirlər var. Məşhur "Qrammatikanın fəlsəfəsi" əsərinin müəllifi O.Yespersen çoxluğun reprezentativ tipini "nisbi cəmlik şəkli" (plural of appoximation) adlandırır. Bu münasibətlə o yazır ki, dəqiq mənada bir növə aid olmayan bir neçə əşya və şəxs bir formada birləşən zaman onu "nisbi cəmlik şəkli" (plural of appoximation) adlandıracağız [14, s.229-230].

Azərbaycan dilində kəmiyyət kateqoriyasını tədiq edən A.Aslanov yazır ki, *-gil* şəkilçisinin başlıca vəzifəsi topluluq ifadə etməkdir. Bununla ifadə edilən topluluq qeyri-müəyyən xarakter daşıyır ‹...›. *-gil* şəkilçisi vasitəsilə ifadə olunan topluluq öz obyektinə görə, əsasən, iki xarakterdə olur:

1) eyni bir ailəyə, familiyaya mənsub olan üzvlərin topluluğunu bildirir. Məsələn, *xalamgil, nənəmgil, Salmangil, Rüstəmgil* deyildiyi zaman müəyyən bir ailə toplu şəkildə başa düşülür;

2) eyni bir sahədə işləyən, peşə, sənət və ya vəzifə etibarı ilə bir-biri ilə əlaqədə olan bir neçə şəxsin topluluğunu bildirir.

Nəzərə almaq lazımdır ki, *-gil* şəkilçisini qəbul etmiş sözlər canlı xalq danışıq dilində, eləcə də Azərbaycan dilinin şivələrində ədəbi dillə müqayisədə daha çox işləkliyə malikdir. Faktlar sübut edir ki, *-gil* morfemi və onun derivatı olan *-gillər* morfeminin yaranma tarixi o qədər də qədim deyildir. Azərbaycan yazılı abidələrinin materialları aydın şəkildə göstərir ki, XIX əsrə qədər Azərbaycan dilində belə şəkilçi mövcud olmamışdır.

Kəmiyyət anlayışının dildə ifadəsini araşdıran M.Qıpçaq Azərbaycan dilindəki bu şəkilçi barəsində yazır: *"-gil* şəkilçisi artırılmış sözlərin mətndaxili təhlili müasir Azərbaycan dilində istifadə olunan bu morfem haqqında aşağıdakıları müəyyənləşdirməyə imkan verir:

1. *-gil* şəkilçisi Azərbaycan dilində vahid fonetik səs tərkibinə malikdir. Bu baxımdan *-gil* morfemi digər şəkilçilərdən (iki və dörd cür yazılan şəkilçilərdən) formal cəhətcə fərqlənir.

2. *-gil* şəkilçisinin fəaliyyət dairəsi dardır.

DOI:10.30546/gdu.5.2025

3. *-gil* şəkilçisi topluluq mənası yaratmağa xidmət edir. Lakin topluluq mənasını morfoloji üsullarla yaratmaq təkcə türk dillərində deyil, ümumən bütün dünya dillərində geniş yayılmamışdır. İstər türk dilləri, istərsə də dünya dilləri topluluq mənasını leksik vasitə ilə ifadə etməyə çox meyillidir.

4. *-gil* şəkilçisi Azərbaycan dilində həm xüsusi, həm də ümumi isimlərə artırıla bilir.

5. *-gil* şəkilçisi söz kökündən sonra işlənə bildiyi kimi, mənsubiyyət şəkilçisi qəbul etmiş sözlərdən sonra da işlənə bilir.

6. *-gil* şəkilçisi yalnız müəyyən qrup sözlərə (qohumluq terminləri, ad və familiyalar) artırıla bilir.

7. *-gil* şəkilçisindən sonra cəmlik şəkilçisi olan *-lar, -lər* şəkilçisi də işlənir və bu, topluluq çalarını daha da qüvvətləndirməyə xidmət edir" [10, s.230-231].

Azərbaycan dilinə aid yazılmış tədqiqat əsərlərində *-gil* şəkilçisindən ya sözdüzəldici şəkilçi kimi bəhs olunur, ya da bu morfem ümumiyyətlə yada salınmır. Stabil formaya malik olan az məhsuldar *-gil* şəkilçisi məhdud dairədə işlənərək bir sıra xüsusi və ümumi isimlərdən müəyyən bir ailənin (topluluq halında), qrupun başçısını ifadə edən isimlər düzəldir. Bu şəkilçi əsasən qohumluq terminlərinə qoşulur. Məsələn, *atamgil, anamgil, bacımgil, qardaşımgil, dayımgil, Əligil, Hüseyngil* və s. Bu şəkilçinin qoşulduğu söz müəyyən qrup şəxsi ifadə etməklə yanaşı, həmin şəxslərin yerləşdiyi məkan anlayışını da ifadə edir. Məsələn, *Mən dünən anamgilə getmişdim. Əligildə dünən toy idi* . B.Xəlilov da *-gil* şəkilçisini sözdüzəldici şəkilçi hesab edir [8, s.33-34].

Amma nəzərə almaq lazımdır ki, *-gil* şəkilçisini sözdüzəldici şəkilçi kimi xarakterizə etmək kifayət qədər çətindir. Çünki bu morfem mənşəyindən asılı olmayaraq istənilən şəxs adına artırıla bilir. Müq. et: *Həsəngil, İvangil, Klintongil, Əbu Fərəcgil* və s. Görkəmli rus türkoloqu A.N.Kononov *-gil* şəkilçisini topluluq-cəmlik şəkilçiləri sırasında nəzərdən keçirir və bu morfemin pratürk dövründən türk dillərində işlənməsi, daha sonralar öz fəaliyyət dairəsini daraltması barədə mülahizə irəli sürür.

Qeyd olunmalıdır ki, türk dilində də *-gil* morfemi özünü göstərir. Məsələn, *Aligil, Yaşargil, Oğuzgil, Orhangil, dayımgil, anangil, halasıgil* və s. *-gil* şəkilçisi müasir dövrdə şivələrdə çox işlək vəziyyətdədir. Türk ədəbi dilində bir çox hallarda istifadə olunsa da, son dövrlərdə onun yerinə cəmlik şəkilçisi istifadə olunur. Həqiqətən də, türk dili şivələrində bu şəkilçi geniş dairədə müşahidə olunur. Z.Korkmaz da bu şəkilçinin (*-gil* morfemi və onun derivatı olan *-giller* morfeminin) türk danışıq dilində və şivələrdə çox istifadə olunduğunu, türk ədəbi dilində bir qayda olaraq onun yerinə *-lar*[2] şəkilçisinin işlədildiyini göstərir. Alimin fikrincə, bu şəkilçidən özləşmə hərakatı zamanı botanika və zoologiyaya aid termin yaradıcılığında istifadə olunmuşdur: *ananasgiller, buğdaygiller, cevizgiller, atgiller, ayıgiller, köpekgiller* və s. [9,s. 47]. Buradan aydın olur ki, Z.Korkmaz *-gil* və *-giller* şəkilçilərini sözdüzəldici şəkilçi hesab edir. T.Banquoğlu da bu morfemi "-ler adları" başlığı altında nəzərdən keçirir və sözdüzəldici şəkilçi hesab edir [2,s. 188-189]. Qeyd etmək lazımdır ki, *-gil* şəkilçisinə başqa aspektdə yanaşan tədqiqatçılar da var. Fikrimizcə, hər hansı şəkilçinin mənşəyindən çıxış edib onun dilin qrammatik quruluşundakı yerini müəyyənləşdirmək düzgün sayıla bilməz. Şəkilçinin dilin qrammatik sistemində yerini müəyyən etmək üçün onun istifadə olunma xüsusiyyətləri nəzərə alınmalıdır.

Azərbaycan və türk dillərində *-lar* cəmlik şəkilçisi söz kökünə digər şəkilçilərlə müqayisədə daha çox yaxın işlənir. Türk dilini tədqiq edən tədqiqatçılar *-lar* cəmlik şəkilçisinin bu cəhətinə xüsusi diqqət yetirmişlər. Cəmlik şəkilçisinin ifadə etdiyi qrammatik nüans yalnız artırıldığı sözün tərkibində qalır. Cəmlik şəkilçisi artırıldığı sözü digər sözlərlə əlaqələndirməz. Yəni sözlər arasında əlaqə quran münasibət şəkilçisi deyildir. Bu baxımdan adların digər münasibət şəkilçiləri olan mənsubiyyət, hal və sual şəkilçiləri qarşısında

DOI:10.30546/gdu.5.2025

tamamilə başqa bir mövqe tutur . *"-lar*[2] şəkilçisi adların təsriflənmə şəkilçisidir. Lakin bu şəkilçinin təsiri yalnız artırıldığı ismin sərhədləri içində qalır, adların yalnız tək formalarını ehtiva edir. Adların digər təsriflənmə şəkilçiləri adlar ilə cümlənin digər üzvləri arasında əlaqə qurduqları üçün bunların istifadə sərhədi digər sözlərin sərhədinə qədər də uzanmışdır. *-lar*[2] cəm şəkilçisində isə belə xüsusiyyət yoxdur. Bu baxımdan cəm şəkilçisi təsriflənmə şəkilçiləri içərisində əhatəsi ən dar olan şəkilçidir. Bu xüsusiyyətinə görə cəmlik şəkilçiləri mənsubiyyət, sual və hal şəkilçilərindən əvvəl gəlir: *ev-ler-i-n-den, sokak-lar-da*".

Bizim fikrimizcə, Azərbaycan və türk dillərində cəmlik semantikasının yaranmasına xidmət edən *-lar*[2] və *gil (-gillər / -giller)* şəkilçilərini funksional şəkilçilər kimi dəyərləndirmək olar. Bu şəkilçilər yeni sözlər yaratmadığı kimi, sözlər arasında qrammatik əlaqələrin əmələ gəlməsinə də xidmət edə bilmirlər. Göstərilən şəkilçilərin bu xüsusiyyətlərini nəzərə alaraq deyə bilərik ki, Azərbaycan və türk dillərinin morfoloji quruluşunun uzun sürən tarixi inkişafı nəticəsində bu dillər cəmlik semantikasını ifadə etmək üçün xüsusi forma yaratmışlar. Nəzərə almaq lazımdır ki, leksik və sintaktik vasitələrlə deyil, morfoloji üsulla cəmlik semantikasının ifadə olunması dilin ümumiləşdirmə və mücərrədləşdirmə gücünü göstərir, bu vasitələrin mövcud olduğu dilin qrammatik quruluşunun kifayət qədər yüksək inkişaf etdiyini ortaya çıxarır. Azərbaycan və türk dillərində istər adi cəmliyin, istərsə də reprezentativ cəmliyin ifadə olunması üçün xüsusi formaların olması bunu aydın şəkildə göstərir.

Ədəbiyyat

1. Aksan D. Her Yönüyle Dil. Ana Çizgileriyle Dilbilim, Ankara: Türk Dil Kurumu Yayınları, 1995. 568 s.
2. Banguoğlu T. Türkçenin Grameri, Ankara: Türk Dil Kurumu Yayınları, 2007. 628 s.
3. Boran B. Orta Türkçede İsim Çekim Eklerinin Kullanış Şekilleri ve Fonksiyonları, Basılmamış Yüksek Lisans Tezi, Diyarbakır: 2006. 260 s.
4. Gabain A.von. Eski Türkçenin Grameri, 2. Baskı, Ankara: Türk Dil Kurumu Yayınları, 1995. 331 s.
5. Grönbeck K. Türkçenin yapısı, 2. Baskı, Ankara: Türk Dil Kurumu Yayınları, 2000. 148 s.
6. Gülsevin G. Eski Anadolu Türkçesinde Ekler, 1. Baskı, Ankara: Türk Dil Kurumu Yayınları, 1997. 156 s.
7. Hüseynzade Ç. Azerbaycan Türkçesinde Teklik-Çokluk Kategorisi Üzerine // Bilig, Yaz / 2006. S. 38. s. 93-102.
8. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası, II hissə, Bakı: "Adiloğlu" nəşriyyatı, 2003. 354 səh.
9. Korkmaz Z. Türkiye Türkçesi Grameri. Şekil Bilgisi, 3. Baskı, Ankara: Türk Dil Kurumu Yayınları, 2009. 1224 s.
10. Qıpçaq M. Kəmiyyət anlayışının dildə ifadəsi (tarixi-tipoloji tədqiqat), Bakı: Elm, 2000. 453 səh.
11. Seyidov Y. Azərbaycan dilinin qrammatikası. Morfologiya (nəzəri kurs), Bakı: Bakı Universiteti nəşriyyatı, 2000. 403 səh.
12. Yılmaz Y. {-mAk} ve {-mA} Eklerinin Hal Ekleriyle Münasebeti // Turkish Studies, 7/2, 2012, Spring, p. 1267-1280.
13. Zeynalov F. Türk dillərinin müqayisəli qrammatikası, I hissə (Fonetika, leksika, morfologiya), Bakı: "MBM" nəşriyyatı, 2008. 354 səh.
14. Есперсен О. Философия грамматики, Москва: КомКнига, 2006. 408 стр.

DOI:10.30546/gdu.5.2025

ФУНКЦИОНАЛИЗАЦИЯ МНОЖЕСТВЕННЫХ ЦИФР В АЗЕРБАЙДЖАНСКОМ И ТУРЕЦКОМ ЯЗЫКАХ

Гарибова Парвина Яшар

Резюме

И в азербайджанском, и в турецком языке суффикс -лар отличается от суффиксов других грамматических категорий существительных (падежных и относительных категорий). Таким образом, падежные суффиксы и суффиксы принадлежности служат для создания грамматических отношений между словами. В языкознании есть такое положение, что падеж появляется только тогда, когда слова соприкасаются друг с другом. Другими словами, вне фразы или предложения не существует падежа. Притяжательные суффиксы также ведут себя как элементы двухчленной парадигмы (владелец и объект). В отличие от них, суффикс -lar связан только со словом, к которому он добавлен, и не действует за пределами этого слова.

В статье будут изучены особенности функционализации морфем множественного и множественного числа в азербайджанском и турецком языках, принадлежащих к огузской группе тюркских языков.

При написании статьи использовались различные научные источники.

FUNCTIONALIZATION OF PLURAL SUFFIXES IN AZERBAIJAN AND TURKISH LANGUAGES

Garibova Parvin Yashar

Summary

In both Azerbaijani and Turkish, the suffix -lar differs from the suffixes of other grammatical categories of nouns (case and affiliation categories). Thus, case and affiliation suffixes serve to create grammatical relationships between words. In linguistics, there is such a provision that the case appears only when words come into contact with each other. In other words, there is no case outside the phrase or sentence. Possessive suffixes also behave as elements of a two-member paradigm (possessor and object). Unlike these, the suffix -lar is only associated with the word to which it is added and does not function outside the boundary of that word.

In the article, the features of the functionalization of plural and plural morphemes in Azerbaijani and Turkish languages belonging to the Oghuz group of Turkic languages will be studied.

Various scientific sources were used in writing the article.

Rəyçi: prof. Rüfət Rüstəmov
Daxil olma tarixi02 iyul 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 185-189

DOI:10.30546/gdu.5.2025

UOT:

AZƏRBAYCAN COĞRAFİ ƏFSANƏLƏRİNDƏ TƏBİƏT KULTUNUN POETİK İNİKASI

Zeynalova Züleyxa Hafiz qızı
Azərbaycan Universitetinin
Tərcümə və filologiya fakültəsi doktorantı
ORCID: 0009-0007-3275-4447
zuleykha.zeynalova@rambler.ru

Xülasə: *Məqalə Azərbaycan coğrafi əfsanələrində təbiət kultunun poetik inikasını araşdırmağa həsr olunmuşdur. Əsas məqsəd dağ, su, göl, ağac və daş kimi təbiət obyektlərinin folklor mətnlərində necə mifik və poetik məna daşıdığını, xalq yaddaşında milli-mədəni kimliyin formalaşmasına və qorunmasına necə xidmət etdiyini üzə çıxarmaqdır. Tədqiqat göstərir ki, coğrafi əfsanələr yalnız məkan adlarının izahı deyil, həm də xalqın dünyagörüşünün, dini-mifoloji təsəvvürlərinin və tarixi təcrübəsinin poetik ifadəsidir. Dağ kultu qəhrəmanlıq və müqəddəsliyin, su və göl motivləri təmizlənmə və bərəkətin, ağac və daş obrazları isə davamlılıq və mənəvi gücün rəmzi kimi təqdim olunur. Əfsanələrdə sel, ildırım və tufan kimi təbiət hadisələrinin kollektiv yaddaşda mənalandırılması xalqın təbiətə münasibətini yalnız praktiki deyil, həm də etik və mənəvi çərçivədə izah edir. Nəticələr göstərir ki, bu əfsanələr folklorun sadəcə estetik qatını deyil, həm də milli kimliyin poetik kodlarını üzə çıxarır. Onların öyrənilməsi gənc nəsillərə ekoloji dəyərlər və tarixi şüur ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.*

Açar sözlər: ağac, daş, dağ, göl, su.
Ключевые слова: дерево, гора, камень, озеро, вода.
Key words: mountain, stone, lake, tree, water

Giriş: Azərbaycanın zəngin folklor xəzinəsində coğrafi əfsanələr özünəməxsus bir dünyadır – burada dağlar danışır, çaylar hekayə söyləyir, göllər sirrlərini nəsillərə ötürür. Bu əfsanələr xalqın təxəyyül gücü ilə tarixi yaddaşının qovşağında formalaşmış, məkan adlarının arxasında gizlənən hekayələri poetik dillə bəşər mədəniyyətinə bəxş etmişdir. Onlar sadəcə "niyə bu məkan belə adlanır?" sualına cavab deyil, həm də xalqın öz kimliyini, mənəvi dünyasını və təbiətlə münasibətini ifadə edən bədii kodlardır.

Dağ kultu qəhrəmanlığın və müqəddəsliyin, su və göl motivləri təmizlənmənin və bərəkətin, ağac və daş obrazları isə davamlılığın və ilahi gücün rəmzi kimi təqdim olunur. Hər bir coğrafi obyekt yaddaş məkanına çevrilərək xalqın tarixini, dünyagörüşünü və mənəvi dəyərlərini nəsillərə ötürür. Bu hekayələrdə faktla mif, gerçəkliklə bədii təxəyyül birləşir, nəticədə məkanın adı kimlik pasportunun poetik nişanına çevrilir.

Beləliklə, Azərbaycan coğrafi əfsanələrində təbiət kultunun poetik inikası yalnız folklor janrının estetik qatını deyil, həm də milli-mədəni kimliyin canlı xəritəsini ortaya qoyur. Onların öyrənilməsi xalqın yaddaşını anlamaq, mədəni köklərini üzə çıxarmaq və gələcək nəsillərə mənəvi irs kimi təqdim etmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Təbiət kultunun mifoloji əsasları: Təbiət kultu ən qədim inanclarda dünyanın mahiyyətini izah edən, insanla məkan arasında görünməz bir müqavilə yaradan mifik-sakral sistemdir; burada dağ, su, ağac və daş yalnız fiziki obyekt deyil, "müqəddəsin görünüşü" – hierofaniya kimi dərk olunur və məkanın mənası poetik dillə açılır [5, s. 14]. Sakral və profan aləmlərin sərhədini izah edən yanaşmaya görə, təbiət əlamətləri rituallar və hekayələr vasitəsilə fərqli vaxt qatlarını birləşdirir, gündəlik reallığa ilkin zamanın gücünü gətirir [6, s. 23]. Belə bir baxışda əfsanə həm yaddaşı oyadan işarələr sistemi, həm də insanın varlıqla ünsiyyət qurmaq üsuludur; məhz buna görə təbiət kultu folklorun mərkəzi semantik oxuna çevrilir [5, s. 27].Mifoloji sistemlərdə elementlərin rəmzi yükü ardıcıl şəkildə qurulur: dağ dikey kosmik oxu, su başlanğıc və təmizlənmə, ağac həyat dövrü və nəsil yaddaşı, daş isə davamlılıq və andın möhkəmliyini təcəssüm etdirir; bu, mifin dilində həm süjet, həm də simvol səviyyəsində işləyir [12, s. 210]. Simvol–məzmun əlaqəsi sabit bir kod olaraq poetik mətnin daxilində

DOI:10.30546/gdu.5.2025

yenidən "oxunur" və hər dəfə icma təcrübəsində təsdiqlənir; beləliklə, təbiət obrazları həm etnoqrafik praktikaya, həm də poetik semantikaya çevik şəkildə bağlanır [13, s. 28].

Azərbaycan mifoloji düşüncəsində bu kodların yerli formaları aydın görünür: göy-dağ motivi ilahi yaxınlıq və sığınacaq anlayışı ilə, su kultu isə həyatın bərpası və bərəkət ideyası ilə şərh olunur [2, s. 45]. Coğrafi məkanın mifik inikası ilə bağlı mətnlərdə göl "sirli başlanğıc", bulaq "şəfa mənbəyi", mağara isə "gizli aləmə qapı" kimi təqdim edilir; bu, məkanın yalnız təsviri deyil, onun daxili mənasının bədii mətndə mədəni yaddaşa çevrilməsidir [11, s. 52].Coğrafi əfsanələr bu kultu toponimlər vasitəsilə dilə gətirir: məkan adı yaddaş nişanına dönür, adı çəkilən hər dağ və çay bir hekayəni hərəkətə gətirir, hekayə isə adı yenidən mənalandırır [7, s. 65]. Janr səviyyəsində toponimik mətnlərin poetik strukturu "nədən belə adlanır?" sualına verilən mifik cavabın formasıdır; burada izah edən süjetlə adın semantik sahəsi üst-üstə düşür və nəticədə məkanın adı kollektiv identikliyin işarəsinə çevrilir [1, s. 92].Təbiət kultunun poetik inikasında bədii təsvir, metaforik yüklənmə və arxetipik quruluş birlikdə işləyir: dağ qəhrəmanlığın dikeyi, su təmizlənmənin horizontu, ağac isə nəsil xəttinin vertikal xatırladıcı sütunu kimi tərtib olunur; simvolik xəritə mətnin ritmini, ritus isə bu ritmin icra mexanizmini təşkil edir [13, s. 115]. Bu baxımdan təbiət obrazı sadəcə dekor deyil, mətnin mənasını daşıyan struktur vahididir; poetik səviyyədə işləyən hər bir işarə icmanın yaddaşını aktual edir və onu yeni oxunuşlara açır [8, s. 103]. Mədəni yaddaş nəzəriyyəsi kontekstində təbiət kultu "saxlayan daşıyıcılar" – mətn, ritus, simvol və məkan üzərindən hərəkət edir; bu daşıyıcıların koordinasiyası icmanın kimlik sahəsini sabit saxlayır və keçmiş təcrübəni indiki anla bağlayır [4, s. 70]. Ənənəvi inanclarda təbiət obyektinin ətrafında qurulan ayin və söyləm formulları yalnız inancların deyil, həm də sosial nizamın yaddaşda təkrarıdır; beləliklə, kult semantikası kollektiv etikaya çevrilir və davranış kodu səviyyəsində yaşayır [6, s. 31].Mifoloji təhlildə fakt və uydurma arasındakı sərhəd poetik funksiya ilə şərtlənir: süjetin məqsədi "tarixi necə olmuşdu" sualını deyil, "məkan niyə belə mənaya malikdir" sualını cavablandırmaqdır; bu, janrın iç qanunudur və məhz bu səbəbdən təbiət kultu narrativləşdikcə toponimləşir [10, s. 58]. Əfsanənin verdiyi izah, qalıcı daş yazısı kimi, adın yanında dayanır və nəsillər onu yeni şəraitdə yenidən oxuyur; beləliklə, məkanın adı poetik yaddaşın pasportunu daşıyır [14, s. 117].

Nəticə etibarilə, təbiət kultu Azərbaycan coğrafi əfsanələrinin semantik mərkəzidir: sakral–profan sərhədini hiss etdirən hierofaniyalar məkana dəyər, ada isə yaddaş funksiyası qazandırır; bu prosesdə simvol, ritual və hekayə bir-birini tamamlayaraq məkanın mənasını tarixi və poetik qatlarda möhkəmlədir [5, s. 27; 12, s. 215; 7, s. 72]. Bu əsasların aydınlaşdırılması növbəti bölmələrdə dağ, su, ağac və daş obrazlarının konkret mətndaxili işlənmə üsullarını və onların milli-mədəni kimliklə necə əlaqələndirildiyini sistemli şəkildə izləməyə imkan verəcək [2, s. 49; 11, s. 60].

Azərbaycan coğrafi əfsanələrində təbiət obyektlərinin poetik inikası: Azərbaycan coğrafi əfsanələrinin əsas semantik qatını təbiət obyektlərinin mifik-poetik obrazları təşkil edir. Bu obrazlar yalnız məkanın adını izah etmir, həm də kollektiv yaddaşda xalqın dünyagörüşünü və mənəvi dəyərlərini qoruyur. Eliade qeyd edir ki, təbiətin sakral obrazları mədəniyyətlərin "ilk simvolları"dır və onlar vasitəsilə insan kainatla münasibətini poetik dillə qurur [5, s. 27]. Azərbaycan əfsanələrində dağ, su, göl, ağac və daş kimi obyektlərin mifoloji kodu xüsusi əhəmiyyət kəsb edir və milli kimliyin bədii yaddaş xəritəsini yaradır.

Dağ kultu və onun qəhrəmanlıq və müqəddəsliklə əlaqələndirilməsi: Azərbaycan folklorunda dağ obrazı həm qəhrəmanlıq, həm də müqəddəslik simvolu kimi təqdim olunur. Dağ yüksəkliyi, əlçatmazlığı və əzəməti ilə qəhrəmanın sınaq məkanı, müqavimət və mübarizənin mərkəzi kimi görünür. Koroğlu qalası və Babəklə bağlı əfsanələrdə dağ yalnız coğrafi məkan deyil, həm də mübarizənin və azadlıq iradəsinin rəmzinə çevrilir [1, s. 92; 9, s. 74]. Həmin əfsanələrdə dağın zirvəsinə qalxmaq qəhrəmanın mənəvi gücünü, xalqın müqavimətini və qalibiyyət arzusunu təcəssüm etdirir. Digər tərəfdən, dağlar müqəddəslik daşıyıcısı kimi çıxış edir: dağın zirvəsində tikilən pir və ya məbəd sakral məkan anlayışının formalaşmasına səbəb olur. Tokarev göstərir ki, dağ kultu dünyanın bir çox xalqlarında "kosmik ox" funksiyasını daşıyır və Azərbaycan əfsanələrində bu funksiya qəhrəmanlıq və müqəddəsliklə sintez olunur [12, s. 198].

Su və göl motivləri: təmizlənmə, müqəddəslik və sirli başlanğıc kimi funksiyası: Su və göl motivləri Azərbaycan əfsanələrində həyatın, bərəkətin və ilahi təmizliyin simvolu kimi təqdim olunur.

DOI:10.30546/gdu.5.2025

Xalq inancına görə, bulaq və ya göl çox vaxt müqəddəs başlanğıcın təcəssümüdür: əfsanələrdə göllərin yaranması Tanrının iradəsi ilə izah olunur, su isə həm təmizlənmə, həm də şəfa mənbəyi kimi təqdim edilir [2, s. 53; 11, s. 60]. Göyçə gölü, Gəncə gölü və digər su hövzələri ilə bağlı əfsanələrdə onların yaranması xalqın göz yaşları və ya ilahi bir qüvvənin hökmü ilə əlaqələndirilir. Bu poetik şərh suyun yalnız təbii hadisə deyil, həm də kollektiv yaddaşda əxlaqi və dini dəyər daşıyıcısı olduğunu göstərir. Eliade-nin vurğuladığı kimi, su kultu "yenidən doğuluş" anlayışını daşıyır və bu, Azərbaycan əfsanələrində özünü aydın şəkildə göstərir [6, s. 102].Əfsanələrdə göl motivi həm də sirli başlanğıc ideyası ilə bağlıdır. Göllərin dərinliyi və sonsuzluğu xalq təfəkküründə başqa aləmə keçid kimi təsəvvür olunur. Bu, həm kosmoqonik təsəvvürlərin qalıqlarını yaşadır, həm də xalqın metafizik dünyagörüşünü əks etdirir. Hüseynli qeyd edir ki, göllərlə bağlı əfsanələr çox vaxt "müqəddəs mərkəz" funksiyası daşıyır və bu, məkanın kollektiv kimlikdəki rəmzi gücünü daha da artırır [8, s. 77].

Beləliklə, Azərbaycan coğrafi əfsanələrində dağ və su kultu həm qəhrəmanlıq və müqavimət, həm də müqəddəslik və təmizlənmə semantikası ilə təqdim olunur. Bu motivlər folklorun sadəcə estetik obrazları deyil, milli yaddaşın və tarixi şüurun formalaşdırıcı elementləridir.

Ağac və daş kultunun əfsanələrdə simvolik obrazları: Azərbaycan coğrafi əfsanələrində ağac və daş motivləri kollektiv yaddaşın ən dərin mifoloji qatlarından biridir. Ağac kultu türklərin qədim kosmoqonik təsəvvürləri ilə bağlıdır; o, həm həyatın, həm də nəsil ardıcıllığının simvolu kimi çıxış edir. Azərbaycan əfsanələrində müqəddəs ağac çox vaxt qoruyucu qüvvə, Tanrıya yaxınlaşma vasitəsi və bərəkət mənbəyi kimi təqdim olunur. Bəzi əfsanələrdə kəndin və ya tayfanın taleyi müqəddəs ağacın sağ qalması ilə əlaqələndirilir; ağacın quruması isə xalqın üzərinə gələn bəlanın işarəsi kimi yozulur [2, s. 89]. Həmçinin əfsanələrdə ağacın budaqları bəzən göyə doğru uzanaraq "kosmik ox" funksiyası daşıyır və insanla ilahi dünya arasında körpü rolunu oynayır [5, s. 134].Daş kultu isə əfsanələrdə davamlılıq, möhkəmlik və müqəddəs andın rəmzi kimi çıxış edir. Qədim inanca görə, insanın verdiyi andın şahidi daş ola bilər və daş onu əbədiləşdirir. Azərbaycan əfsanələrində daşlaşma motivləri də geniş yayılmışdır: günahkarın və ya qəddar hökmdarın daş kəsilməsi motivi ilahi ədalətin təzahürü kimi təqdim edilir [12, s. 211]. Bundan başqa, pir daşları, qəbir daşları və "göz yaşı daşı" kimi motivlər xalqın yaddaşında sakral funksiyaya malikdir. Bu baxımdan daş yalnız fiziki obyekt deyil, həm də kollektiv yaddaşın və tarixi təcrübənin poetik işarəsidir [13, s. 112].

Təbiət hadisələrinin (sel, ildırım, tufan) kollektiv yaddaşda poetik forması:Təbiət hadisələri Azərbaycan coğrafi əfsanələrində çox zaman ilahi qüvvənin təcəllisi kimi təqdim olunur. Sel, ildırım və tufan kimi hadisələr xalq təfəkküründə yalnız təbii fəlakət deyil, həm də ilahi xəbərdarlıq və ya cəza forması kimi mənalandırılır. Əfsanələrdə kəndlərin sel altında qalması günahların cəzası və ya ədalətsizliyin nəticəsi kimi yozulur; selin arxasında isə təmizlənmə və yenidən doğuluş ideyası dayanır [6, s. 102].İldırım və şimşək isə xalq inancında Tanrının səsi və ya xəbərdarlıq işarəsi kimi təsvir olunur. Bəzi əfsanələrdə ildırımın düşdüyü yer müqəddəsləşdirilir və orada tikilən pir və ya ocaq kollektiv yaddaşda ilahi gücün izi kimi qorunur [7, s. 144]. Tufan motivi isə daha geniş kosmoqonik semantika daşıyır: dünya bəlalardan təmizlənir, insanlıq sınaqdan keçir və nəticədə yeni həyat dövrü başlayır. Bu mifoloji təfsir folklor mətnlərində poetik dillə təqdim olunur, hadisənin sadəcə təbii proses deyil, həm də mənəvi dərs və kollektiv yaddaşın xəbərçisi olduğu vurğulanır [5, s. 141].

Beləliklə, ağac və daş kultu ilə yanaşı, təbiət hadisələrinin poetik obrazları da Azərbaycan coğrafi əfsanələrində kollektiv yaddaşın qorunmasında mühüm yer tutur. Onlar xalqın tarixi təcrübəsini yalnız fakt kimi deyil, mənəvi-etik dərs kimi təqdim edir, milli kimliyin poetik kodlarını gələcək nəsillərə ötürür.

Təbiət kultunun milli-mədəni kimlikdə rolu: Azərbaycan coğrafi əfsanələrinin ən mühüm funksiyalarından biri təbiət obyektlərini milli kimliklə bağlamaqdır. Dağ, çay, göl, ağac və daş kimi motivlər xalqın yalnız məişət həyatını deyil, həm də mənəvi dəyərlərini formalaşdırır. Hər bir təbiət obyektinin adı əfsanə vasitəsilə izah edilir və bu izah xalqın kimlik koduna çevrilir. Məsələn, dağ obrazı qəhrəmanlıqla, müqəddəs ağac həyatın davamlılığı ilə, su və göl isə təmizlənmə və ilahi bərəkətlə eyniləşdirilir [2, s. 89; 8, s. 77]. Beləliklə, coğrafi əfsanələr milli kimliyi sadəcə tarixi faktlarla deyil, poetik simvollar vasitəsilə qoruyur. Assmannın mədəni yaddaş konsepsiyası bu mexanizmi aydın izah edir: kollektiv yaddaşın daşıyıcıları məhz simvol və rituallar üzərində qurulur, coğrafi əfsanələr isə bu funksiyanı özündə birləşdirir [4, s. 73].

DOI:10.30546/gdu.5.2025

Təbiət kultunun tarixi şüurun formalaşmasına təsiri də xüsusi diqqətəlayiqdir. Tarixi hadisələrin çoxu əfsanələrdə məkanla əlaqələndirilərək təbiət obrazı üzərindən mifləşdirilir. Məsələn, kəndlərin sel altında qalması ədalətsizliyin cəzası, dağın uçması xalqın günahının nəticəsi, bulağın yaranması isə müqəddəs bir şəxsin duası ilə bağlı izah olunur [6, s. 102; 12, s. 211]. Bu cür təfsirlər faktları sadəcə xatırlamaq üçün deyil, mənalandırmaq və kollektiv yaddaşda dərs kimi saxlamaq üçündür. Tokarev qeyd edir ki, mifoloji yozum tarixi hadisəni əbədiləşdirir, ona poetik çalar verir və onu yaddaşda daha güclü təsirə malik edir [12, s. 198]. Azərbaycan əfsanələrində bu mexanizm aydın şəkildə müşahidə olunur: tarixi hadisə məkanla bağlılaşdırılaraq simvola çevrilir və nəticədə milli şüurda uzunmüddətli iz buraxır.

Əfsanələrin gənc nəsillərə ekoloji dəyərlər və mənəvi kodlar ötürmə funksiyası da çox mühümdür. Bu mətnlərdə təbiət obyektləri yalnız sakral simvol kimi deyil, həm də mühafizə olunmalı varlıq kimi təqdim olunur. Müqəddəs ağacın kəsilməsinin fəlakət gətirməsi, bulağın çirklənməsinin günah sayılması, daşların müqəddəs nişanə kimi qorunması gənc nəsillərə təbiətə münasibətdə məsuliyyət hissi aşılayır [7, s. 144; 9, s. 74]. Bu, folklor mətnlərinin ekoloji dəyərləri ötürən təbii pedaqoji funksiyasını ortaya qoyur. Hacıyev də vurğulayır ki, toponimik əfsanələr xalqın yalnız tarixi yaddaşını deyil, həm də mənəvi-etnik kimliyini nəsillərə çatdıran mühüm vasitədir [7, s. 92].

Nəticə etibarilə, təbiət kultu Azərbaycan coğrafi əfsanələrində milli kimliyin qorunmasının, tarixi şüurun möhkəmləndirilməsinin və ekoloji-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsinin əsas mexanizmlərindən biridir. Bu əfsanələr həm milli-mədəni kodları, həm də insan–təbiət münasibətlərini poetik dillə ifadə etməklə xalqın mədəni kimliyini qoruyur və gələcəyə daşıyır.

Nəticə: Azərbaycan coğrafi əfsanələrində təbiət kultunun poetik inikası xalqın minilliklər boyu formalaşdırdığı dünyagörüşün, tarixi yaddaşın və milli-mədəni kimliyin canlı ifadəsidir. Dağ, su, göl, ağac və daş kimi təbiət obyektləri sadəcə coğrafi reallıqlar deyil, həm də kollektiv yaddaşın daşıyıcıları kimi çıxış edir. Onların əfsanələrdə qəhrəmanlıq, müqəddəslik, təmizlənmə və bərəkət kimi məna yükləri ilə təqdim olunması təbiətin insan həyatındakı funksional rolunu aşaraq mədəniyyətin simvolik koduna çevrilir.Əfsanələrin təbiət hadisələrini – seli, ildırımı, tufanı – yalnız təbii fəlakət kimi deyil, mənəvi dərs, ilahi xəbərdarlıq və yenidən doğuluş işarəsi kimi təqdim etməsi göstərir ki, folklor xalqın tarixi şüurunu qorumaqla yanaşı, onun dünyaya mənəvi münasibətini də poetik dillə ifadə edir. Gənc nəsillərə ötürülən bu hekayələr həm ekoloji dəyərlərin, həm də milli kimliyin mühüm daşıyıcılarıdır.

Beləliklə, təbiət kultunun coğrafi əfsanələrdəki poetik inikası yalnız folklorun estetik qatını deyil, həm də milli-mədəni kimliyin əsas dayaqlarından birini təşkil edir. Onlar həm tarixi faktların mifik-poetik yaddaşda yaşamasını təmin edir, həm də xalqın mənəvi kodlarını gələcək nəsillərə ötürərək Azərbaycan mədəniyyətinin davamlılığını möhkəmləndirir.

Ədəbiyyat

1. Abbasov, H. Azərbaycan xalq ədəbiyyatında əfsanə janrı. – Bakı: Elm, 2002. – 248 s.
2. Abdullayev, C. Azərbaycan mifoloji düşüncəsinin qaynaqları. Bakı: Şərq-Qərb, 2010.– 312 s.
3. Ахмедов, Э. Топонимические предания и историческая память. Баку:Наука, 1998., 190 с.
4. Assmann, J. Cultural Memory and Early Civilization. – Cambridge: Cambridge University Press, 2011. – 318 p.
5. Eliade, M. The Sacred and the Profane: The Nature of Religion. – New York: Harcourt, 1957. – 256 p.
6. Eliade, M. Myth and Reality. – New York: Harper & Row, 1963. – 232 p.
7. Hacıyev, T. Azərbaycan folklorunda toponimlərin semantikası. – Bakı: Nurlan, 2015. – 276 s.
8. Hüseynli, M. Azərbaycan coğrafi əfsanələrinin poetik xüsusiyyətləri. – Bakı: Elm və Təhsil, 2018. – 220 s.
9. Məmmədli, A. Azərbaycan əfsanələri və toponimlərin mifoloji əsasları. – Gəncə: GDU nəşriyyatı, 2008. – 180 s.
10. Propp, V. Istoricheskiye korni volshebnoj skazki. – Moskva: Labirint, 2000. – 364 s.
11. Qasımov, Y. Azərbaycan folklorunda coğrafi məkanın mifoloji inikası. – Bakı: Elm, 2012. – 260 s.
12. Tokarev, S. A. Mify narodov mira. – Moskva: Sovetskaya Entsiklopediya, 1982. – 720 s.

DOI:10.30546/gdu.5.2025

13.Toporov, V. N. Mif. Ritual. Simvol. Obraz. – Moskva: Progress, 1995. – 330
14.Zamanov, F. Azərbaycan xalq əfsanələrinin janr xüsusiyyətləri. – Bakı: Maarif, 1976. – 200 s

ПОЭТИЧЕСКОЕ ОТРАЖЕНИЕ КУЛЬТА ПРИРОДЫ В АЗЕРБАЙДЖАНСКИХ ГЕОГРАФИЧЕСКИХ ЛЕГЕНДАХ

Зейналова Зулейха Гафиз кызы

Резюме

Статья посвящена исследованию поэтического отражения культа природы в азербайджанских географических легендах. Основная цель заключается в том, чтобы показать, каким образом природные объекты — гора, вода, озеро, дерево и камень — наделяются мифическим и поэтическим смыслом в фольклорных текстах и как они способствуют формированию и сохранению национально-культурной идентичности в народной памяти. Исследование демонстрирует, что географические легенды — это не только объяснение происхождения топонимов, но и поэтическое выражение мировоззрения народа, его религиозно-мифологических представлений и исторического опыта. Культ горы предстает как символ героизма и святости, мотивы воды и озера — как очищение и изобилие, а образы дерева и камня олицетворяют устойчивость и духовную силу. Осмысление природных явлений — таких как наводнения, молнии и бури — в коллективной памяти раскрывает отношение народа к природе не только в практическом, но и в этическом и духовном измерении. Результаты показывают, что данные легенды выявляют не только эстетический пласт фольклора, но и поэтические коды национальной идентичности. Их изучение имеет важное значение для передачи молодому поколению экологических ценностей и исторического сознания.

THE POETIC REFLECTION OF NATURE CULT IN AZERBAIJANI GEOGRAPHICAL LEGENDS

Zeynalova Zuleykha

Summary

The article is devoted to exploring the poetic reflection of the nature cult in Azerbaijani geographical legends. The main objective is to reveal how natural objects such as mountains, water, lakes, trees, and stones embody mythical and poetic meanings in folklore texts and contribute to the formation and preservation of national-cultural identity in collective memory. The study shows that geographical legends are not merely explanations of place names but also poetic expressions of the people’s worldview, religious-mythological perceptions, and historical experience. The mountain cult appears as a symbol of heroism and sacredness, while water and lake motifs signify purification and abundance. Tree and stone images represent continuity and spiritual strength. The interpretation of natural phenomena such as floods, lightning, and storms in collective memory illustrates that the people’s attitude toward nature is framed not only in practical but also in ethical and spiritual dimensions. The findings demonstrate that these legends reveal not just the aesthetic layer of folklore but also the poetic codes of national identity. Their study plays an important role in transmitting ecological values and historical consciousness to younger generations.

Rəyçi:dosent İsmayılova Saidə
Daxil olma tarixi 08 oktyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 190-193

DOI:10.30546/gdu.5.2025

UOT:811.

MUCH, MANY, LITTLE, FEW, A LOT OF, PLENTY OF SÖZLƏRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ VƏ QARŞILIĞI

dosent Həmidov Allahverdi
Gəncə Dövlət Universiteti

Xülasə: *Məqalədə həm ingilis , həm də Azərbaycan dilində işlənən az, çox sözlərinin işlənmə xüsusiyyətlərindən və onların fərqli cəhətlərindən bəhs edilir. Burada az və çox sözlərinin sayılan isimlərə " few", "many", sayılmayan isimlərlə isə "little" və "much" sözlərinin işləndiyi qeyd edilir ,ancaq Azərbaycan dilində həm sayılan həm də sayılmayan isimlərlə eyni "az", "çox" sözlərinin işləndiyi qeyd edilir.*

Açar sözlər: Cümlə, feil, mübtəda, sayılan isimlər, sayılmayan isimlər, az, çox, əlaqə, müxtəlif, fərqli, tərcümə, dil, nitq, xalq, həyat, dost, işlətmək, söz.

Key words: Sentences, verb, subject, countable nouns, uncountable nouns, little, few, relation, different, distinctive, translation, language, people, life, friend, to use, word.

Ключевые слова: предложение, глагол, существительные подсчитаны, лот, обратная связь, разные, разные, перевод, язык, речь, народ, жизнь, друзья, слово.

Azərbaycan dilindən fərqli olaraq "much"-çox , "little"-az sözləri sayılmayan isimlərlə işlədilir.

- Məsələn: much time- çox vaxt
  much luck- çox uğur
  little energy- az enerji
  little money- az pul

▪ A lot of / lots of / plenty of sayılmayan və cəm isimlərlə işlədilir.

- Məsələn : a lot of luck - çox uğur lots of time - çox vaxt
  A lot of friends- çoxlu dostlar lots of people- çoxlu adamlar
  Plenty of money- çoxlu pul plenty of ideas- çoxlu idealar

Nümunələrdən görünür ki , ingilis dilində "çox", "çoxlu" sözləri müxtəlif sözlərlə ifadə olunur, həm sayılmayan həm də cəm isimlərlə işləndiyi halda, Azərbaycan dilində "çox" sözünü ifadə edir.

▪ Plenty= more than enough

Müəyyən hallarda plenty- çox , kifayət, qədərdən artıq kimi mənasında da işlədilir.

- Məsələn : There is no need to hurry . We have got plenty of time.
  Tələsməyə ehtiyyac yoxdur. Bizim çox vaxtımız var.

Bu nümunədə "plenty" sözünün yerinə "more than enough" ifadəsini işlətmək olar.
We have got more than enough time .
Bizim kifayət qədər vaxtımız var.

▪ I have had plenty of to eat , I don't want any more.
Mənim yeməyə çox azuqəm var, mən daha yemək istəmirəm.
Bu cümlədə də "plenty" sözünün yerinə "more than enough" ifadəsini işlətmək olar.

▪ I have had more than enough to eat. Mənim yeməyə kifayət qədər azuqəm var.
Yəni bəs qədər- çox.

▪ Much, many sözləri xüsusən inkar və sual cümlələrində istifadə olunur .
A lot (of) ifadəsini də işlətmək mümkündür.

▪ Məsələn : We didn't spend much money. Biz çox pul xərcləmədik.

DOI:10.30546/gdu.5.2025

Bu nümunədə “much” sözünün yerinə “a lot of” ifadəsini işlətmək olar.

✓ Do you know many people ? Siz çox adam tanıyırsınız ?

Bu nümunədə “many” əvəzinə “a lot of” ifadəsini işlətmək olar.

➢ Do you know a lot of people ?

Yuxarıdakı nümunələrdən də göründüyü kimi “ much, many ” sözləri inkar və sual cümlələrində işlədilmişdir.

➢ I don’t go out much.

I don’t go out a lot.

Bu cümlələrdə much və a lot Azərbaycan dilinə yalnız bir sözlə - çox sözü ilə tərcümə olunur.

Nəqli (təsdiq) cümlələrində a lot (of) daha çox işlədilir.

Much - İngilis danışıq dilinin nəqli cümlələrində adət halını almamışdır, yəni işlədilmir.

➢ We spend a lot of money. We spend much money.

Biz çox pul xərclədik. Bu cümlədə çox sözü a lot of ilə ifadə olunub. İkinci cümləni müqayisə üçün vermişik, çünki yuxarıda qeyd edildiyi kimi much sözünü işlətmək danışıq normasına uyğun deyildir.

➢ He goes out a lot. He goes out much.

O gəzməyə çox gedir. Burada da ikinci cümlədə verilmiş much sözünü işlətmək düzgün hal deyildir.

Nəqli cümlələrdə many sözünün işləndiyini görürük, ancaq a lot (of) ifadəsinin işlədilməsi ingilis dilində daha məqbul hesab edilir.

➢ A lot of people (many people) drive too fast.

Çox adam maşını yüksək sürətlə sürür.

Verilmiş cümlədə “a lot of , many” sözlərinin hər ikisi dilimizə “çox” sözü kimi tərcümə edilir.

Yadda saxlamaq lazımdır ki, nəqli cümlələrdə, həmçinin “too much” , “so much”- həddindən çox ifadələri işlədilir.

▪ Məsələn : We spent too much money. Biz həddindən çox pul xərclədik.

Little and few – az (without a – qeyri müəyyən artiklsız) inkar ideyalardır , yəni qeyd etdiyimiz sözlər not much , not many – çox deyil mənalarını ifadə edir.

▪ Məsələn :We must be quick. There is a little time (not much, not enough time).

Cəld olmalıyıq. Az vaxtımız var.

A little sözünü “ not much, not enough time ”söz birləşmələri ilə də ifadə etmək olar.

➢ He is not popular. He has few friends (not many, not enough friends)

O məhşur deyil. Onun az dostu var. Bu cümlələrdə not popular, not many – çox deyil mənasını verir, few friends- az dost, not enough- kifayət qədər deyil mənasındadır.

▪ Lap az – very few- sayılan isimlərlə , very little- lap az sayılmayan isimlərlə işlədilir.

▪ Məsələn : There is very little time- Lap az vaxt var.

He has very few books- Onun lap az kitabları var.

▪ A little and a few – are more positive. A little (sayılmayan isimlərlə), a few (sayılan isimlərlə) işlədilir, lakin little, few- az mənasında işləndiyi halda a little , a few müsbət mənada , yəni bir qədər, bir neçə mənalarını verir.

➢ Məsələn :Let’s go and have a walk. Gəl gedək, biraz gəzək.

We have got a little time before the train leaves.

Qatar yola düşməzdən əvvək bir qədər vaxtımız var.

DOI:10.30546/gdu.5.2025

Bu cümlədə a little time, some time, enough time ifadələri az mənasında deyil bir qədər, kifayət qədər mənalarında işlədilir.

Do you speak English? Sən ingiliscə danışırsan ?

A little – bir qədər (so we can talk a bit. Deməli, bir balaca, bir qədər danışa bilərik.)

- A few=some, a small number – bir qədər ,az miqdarda
- Məsələn : I enjoy my life here. Mən burada həyatımdan həzz alıram.

I have a few friends and we meet quite often.

Mənim bir neçə / bir qədər dostum var və biz tez-tez görüşürük. (a few friends = not many, but enough to have a good time)

A few friends- bir neçə= not many- çox yox, but enough to have a good time – yaxşı vaxt keçirmək üçün bir qədər, kifayət qədər vaxt

-When did you last see Farid ?

- A few days ago = Some days ago

- Fəridi axırıncı dəfə nə vaxt görmüsən ?

- Bir neçə gün əvvəl.

Burada a few days ago- bir neçə gün əvvəl mənasında işlədilir.

✓ Müqayisə:

He spoke <u>little</u> English , so it was difficult to communicate with him.

O, ingiliscə az danışdı . Beləliklə onunla danışmaq çətin oldu.

He spoke <u>a little</u> English, so we were able to communicate with him.

O bir qədər ingiliscə danışdı, beləliklə, biz onunla danışa bildik.

Yuxarıda qeyd etdiyimiz cümlələrdə little, a little sözləri eyni olsa da , qeyri-müəyyən artikl onların dilimizə müxtəlif cür tərcümə edilməsində müəyyən rol oynayır.

- Little- ilk öncə yadda saxlamaq lazımdır ki, sayılmayan isimlərlə işlədilir. Amma Azərbaycan dilində həm sayılan həm də sayılmayan isimlərlə işlədilir.
- Məsələn :

Anam bu gün az süd aldı.

Atam qardaşıma az kitab aldı.

She is lucky. She has few problems.(=çox yox),(not many problems)

O bəxtəvərdir.Onun az problemi var.

Things are not going so well for her. She has a few problems.(=some problems)

İşlər onun üçün o qədər də yaxşı getmir. Onun bir neçə, bir qıədər problemi var.

Cümlələrdən də məlum olur ki, <u>few</u>, <u>a few</u> sözləri eyni olsa da , Azərbaycan dilində few-az , a few – bir az, bir neçə mənasında tərcümə edilir və sayılan isimlərlə işlədilir.

- Yadda saxlamaq lazımdır ki, <u>only a little</u> , <u>only a few</u> ifadələri inkarlıq mənalarında işlədilir.

➢ Məsələn :

We must be quick . We have <u>only</u> got a <u>little</u> time.

Tələsməliyik, çox az vaxtımız var.

The village was very small. There were only a few houses.

Kənd çox balaca idi. Çox az ev var idi.

- İngilis dilini mükəmməl öyrənmək istəyənlər dilin bu incəliklərinə diiqət yetirməlidirlər.

DOI:10.30546/gdu.5.2025

MUCH,MANY, LITTLE, FEW, A LOT OF, PLENTY-THE INTERPRETATION THESE WORDS IN AZERBAIYAN LANGUAGE

Hamidov Allahverdi

Summary

The article is dealt with the features of the words “little” and “ few”, “many”and “much” in English and as well as in Azerbaijan language. Here the author shows the distinctive aspects of these words in English and Azerbaijan language. In English “little” and “much” are used with uncountable nouns and “ few” and “many” are used with countable nouns. But being distinct in Azerbaijan language is noticed that with countable and uncountable words are used the same words “az” and “çox”.

МНОГО, ОЧЕНЬ МНОГО, МАЛО,НЕМНОГО, БОЛЬШЕНСТВО-ПЕРЕВОД ЭТИХ СЛОВ НА АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Гамидов Аллахверди

Реэюме

Статья посвящена описанию свойств и отличительных особенностей слов “мало и много”, употребляемых в английском и азербайджанском языка. В статье обращается внимание на тот фактор, что в английском языке слова “мало и много” в исчисляемых существительных используются как “ Bewmany”, а в неисчисляемых существительных они выражаются словами “little” и “much”. В азербайджанском языке данные слова в исчисляемых и неисчисляемых существительных употребляются в своем прямом эначенин.

Rəyçi: dosent Zahirə Əliyeva
Daxil olma tarixi 18 oktyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 194-198
DOI:10.30546/gdu.5.2025

UOT:82-09.

СТРУКТУРНЫЕ ЭЛЕМЕНТЫ НАЦИОНАЛЬНОГО И ИНТЕРНАЦИОНАЛЬНОГО ТИПА ХАРАКТЕРА

Касимова Мая Мехтиевна
Бакинский Славянский университет
qasimova.m@mail.ru

Аннотация: *Отличительной особенностью в исследовании русской и русскоязычной прозы Азербайджана второй половины XX начала 90-х годов XXI века является внимание к постановке одной из основных проблем социалистического реализма – проблеме национального и интернационального. Рассматриваемая нами проблема, как в русском, так и азербайджанском литературоведении, на сегодняшний день считается практически неразработанной. Представленный аспект проблемы разрабатывался в русском и азербайджанском литературоведении, начиная с XIX века. Интерес к её постановке в эти годы получил отображение в разработке русскими декабристскими писателями исторических тем и сюжетов, характерных и для творчества азербайджанских писателей.*

Ключевые слова: национальный тип, характер, проза, реализм, литературоведение.
Açar sözlər: milli tip, xarakter, nəsr, realizm, ədəbi tənqid.
Key words: national type, character, prose, realism, literary criticism.

В 60-70-е годы XX века в эпоху социалистического реализма, рассматриваемая нами проблема ставилась в русской прозе на материале произведений В.Астафьева, Ф.Абрамова, В.Распутина, В.Белова, В.Шукшина, а в русскоязычной азербайджанской прозе на материале произведений Ч.Гусейнова, Н.Расулзаде, И.Р.Рустамовых, Ю.Самедоглы.

Во второй половине XIX века в исследованиях этнопсихологов Г.Штейнталь, М.Лацарус, В.Вундт и др., наиболее полное выражение получила идея «*национального духа*». Однако, основа подлинно научной теории в постановке проблемы, наряду с высказываниями русских и азербайджанских классиков А.С.Грибоедова, А.И.Герцена, Л.Н.Толстого, Ф.М.Достоевского, М.Ф.Ахундова, Д.Джабарлы была уже заложена классиками марксизма-ленинизма. В этот период времени для творчества многонациональных писателей были характерны переходы. От реального предмета к воображаемому, иначе говоря, от предметности быта к обобщению, от очерковой достоверности к лирически проникновенному монологу.

Фундирование проблемы и ее изучение в связи с художественным осмыслением её закономерного процесса во второй половине XX века обусловило, функционирование проблемы, в связи с необходимостью выявить не только формальные, но и реальные признаки ее системы элементов. Именно они стали формировать новые типы характеров в художественных произведениях. Общеизвестным стало определение национального и интернационального типа характера, как совокупности наиболее устойчивых психических качеств. Национальный и интернациональный тип характера стал в большей или меньшей степени социально-этнической общностью. Литературу конца 80-х годов – начала 90-х годов XX века отличает разнообразный подход к проблеме с точки зрения определения существенных качеств их типа характера. На сегодняшнее время существуют различные определения национального и интернационального типа характера. И

DOI:10.30546/gdu.5.2025

некоторые из них являются отражением в психике героя современника с учетом ее своеобразных национальных условий существования. В гуманитарной науке, понятие «*национальный*» и «*интернациональный*» – цитадель духовных, культурных и этнонациональных особенностей народа, некое синтезирующее единство. Их ценностные ориентиры просматриваются писателями в прозе и публицистике в рамках исторических, социально-экономических условий жизни героя-современника, скрепляющих героев разных наций в единую культуру. Структурными элементами в становлении проблемы является осознание героя представителем определенной этнической общности, нации, культуры. В этом случае его личность становится идентичной социокультурным, национальным и этническим образцам. Среди многочисленных теорий национального и интернационального типа характера героя, во все периоды становления художественной литературы, наиболее популярными были географо-климатическая концепция национального характера (Монтескье), биологическая теория (Б.Кидд), культурологическая концепции О.Шпенглера и А.Тойнби. Полученные результаты культурологических исследований Г.Д.Гачева, И.В.Кондакова, Д.С.Лихачева, рассматривались в сравнительно-историческом ключе.

В XX веке появились разные школы в изучении феномена «*национальный*» и «*интернациональный*» тип характера. И среди них американская этнопсихологическая школа (А.Кардинер, Р.Бенедикт, М.Мид, Р.Мертон, Р.Линтон), исходившая из существования у разных национально-этнических групп специфических национальных типов характера. Проявляющихся в стойких психологических чертах отдельной личности и, отражающихся в её «культурном поведении». В их разработках при определении понятия «нация» выделяется, в первую очередь, понятие «*базисная личность*», включившая в себя общие для представителей многонациональных писателей национальные черты личности, как и характерные качества ее национальной культуры.

В частности, американский исследователь Дж.Самнер утверждал, что главной трудностью в понимании черт чужого национального типа характера является этноцентризм (термин был введен им же в 1906 году) – склонность воспринимать и оценивать жизненные явления и черты иной культуры, а также другие национально-этнические группы сквозь призму традиций и ценностей представителей своей группы.

Черты национального и интернационального типа характера рассматривались в качестве «*модальных личностей*». С точки зрения относительной частоты проявления их черт типа характера среди героев какой-либо нации. В филологической школе понятие «*национального типа характера*» крайне сложно и спорно. Ее адепты при рассмотрении национального типа характера опираются на свой понятийный аппарат. В том числе на лигвистику (А.Потебня) и фольклористику (Ф.Буслаев).

Мы, рассматривая категорию «*национального и интернационального»* должны учесть, что необходимо изучать ее черты сквозь призму социокультурных факторов, которые проецируются в художественной литературе как тип определенной культуры. В связи с тем, что постановка проблемы способствует формированию конкретного типа личности с определенным набором индивидуальных качеств, нужных для воспроизведения существующей на сегодняшнее время модели национального быта, то определение «*национальный*» и «*интернациональный*» выступают в качестве ключевого понятия в творчестве ряда русских и русскоязычных азербайджанских и многонациональных писателей. Структурные элементы национального и интернационального типа характера стали обнаруживать себя с разных концептуально-

DOI:10.30546/gdu.5.2025

теоретических позиций. На сегодняшнее время никто не может дать полную классификацию точек зрения на национальный и интернациональный тип характера.

Найдя свое воплощение в работах ряда ученых, рассматриваемая нами в данной статье проблема не рассматривалась учеными глобально, но постоянно включалась в круг их научных интересов. Вот почему в суждениях о том, что есть «национальный» и «*интернациональный*» тип характера, и что обозначается под понятием «*национальная литература*» нам следует опираться только на факты и реалии литературоведческих разработок не только русских, азербайджанских, но и зарубежных исследователей, начиная с конца XIX века. Приметным фактом литературной жизни рубежа 1960-1990-х годов XX века стала полемика вокруг статей молодого критика Виктора Чалмаева [4 с. 7]. Поэтические метафоры, которыми он описывал черты русского национального типа характера: «*песенность натуры*», «стыдливость русской души», «национальная одаренность, здоровье как черта величия русской души», скорее были формой воплощения любви к своему народу самого критика, одним из первых отразивших возрастающую тягу общества к национальной самоидентификации. Все те, кто признавал сущность и значимость черт национального и интернационального типа характера, понимали, что их следует изучать в широком контексте национальной и интернациональной культуры многонациональных писателей. В.А.Шошин писал, что «в последние годы – вопросы национального своеобразия, национальных традиций, закономерно привлекают внимание все более широкого круга специалистов-исследователей: философов, литературоведов, критиков. Структурные элементы, опирающиеся на частные, так и общие вопросы национальной специфики искусства, сущности национального характера и особенности развития многонациональной советской литературы» (3. с. 9) поднимали вопрос о правомерности категории типа характера в условиях обострения процессов национального самоопределения, доходящего, порой до крайних проявлений национализма. В западной и отечественной науке при определении черт национального и интернационального типа характера одни отдают приоритет географическим факторам, другие социальным. При этом основной упор делается на анализе определяющего компонента в формировании особенностей психики нации. Понятие национального типа характера определяется через особенности общих психологических черт, присущих национальному сообществу. Национальный тип характера в своей основе имеет присущие только ему формально-аналитические структурные элементы. Без них нет понятия национальный тип характера.

В западной и отечественной науке при определении национального типа характера одни отдают приоритет географическим факторам, другие социальным. При этом основной упор делается на анализе социокультурной среды как определяющего компонента в формировании особенностей психики нации. В исследованиях, затронутой нами проблемы можно выделить три основные группы ученых. Одни авторы, фокусируя внимание на специфичности, неповторимости каждой нации, структурируют народы на жестоко фиксированные и противостоящие друг другу национально-этнические группы. Другая группа исследователей склонна считать, что само понятие национальный характер является фикцией, беспочвенной гипотезой, лишенной реальной объективной основы, сугубо идеологической и поэтому ненаучной категорией, принципиально не верифицируемой , пригодной лишь для спекулятивных умозаключений. Третья группа ученых занимает крайне промежуточную позицию между двумя крайними точками зрения. Одни считают что понятие национальный характер имеет теоретико-методологическую и практически- политическую ценность,

DOI:10.30546/gdu.5.2025

хотя и ограниченную в силу больших методологических его эмпирического изучения и версификации полученных результатов. Вместе с тем в любой нации есть некие доминанты которые и позволяют говорить о национальном характере как объективном феномене народного бытия.

Изучая национальный характер, необходимо иметь в виду следующие моменты. Во-первых, любой национальный характер противоречив. Как целостное образование он совмещает в себе пары противоположностей.-добро и зло, трудолюбие и леность, свободолюбие и раболепие, смирение и бунт, жесткость и сострадание. Раскрыть негативные и усилить позитивные черты психологии народа – значит раскрыть его наиболее значимые социально-психологические черты. Уникальна структура психологических особенностей нации, характер взаимосвязей между элементами. Психологический склад нации включает как относительно устойчивые, так и временные черты, а политическая ситу может усилить или, напротив ослабить степень их проявления. Не опровергая наличие природных, генетически обусловленных различий в содержании психических процессов представителей различных национальностей, и всей нации, от метим что в формировании склонностей, интересов. ценностных ориентаций, стереотипов мышления и поведения не меньшее значение имеют социально-политические и культурные факторы. В переломные кризисные периоды национальный характер в значительной степени определяет стиль политического поведения нации. Необходимо добавить, что национальный характер не есть величина абсолютно постоянная, он меняется, хотя и медленно. Неправомерно теоретически и практически утверждать о принципиальной незыблимости каких-либо свойств национального характера. В 30-е годы психологи Л.С.Выготский, А.В.Лурия утвердили тезис об историческом характере человеческой психики. С изменением тех или иных свойств, качеств национального характера, с определенным временным интервалом меняются и соответствующие стереотипы о нем. Понятие национального характера не теоретико-аналитическое, а оценочно-описательное. А впервые его стали употреблять путешественники, а за ними географы, этнографы для обозначения специфических особенностей поведения и образа жизни народов.

Литература

1. Овчаренко, А.И. Большая литература: Основные тенденции в развитии советской художественной прозы 1945-1985). Шестидесятые годы / А.И.Овчаренко. – Москва: Современник, – 1985. – 446 с.
2. Овчинникова, О.С. Проблема народного характера в романах В.М.Шукшина: / Автореферат кандидатской диссертации / – Москва, 1982. – 16 с.
3. Чалмаев, В.А. Василий Шукшин на рубеже веков и столетий: Новое прочтение // – Москва, Литература в школе, – 2010. № 1. – с. 14-19.
4. Əliyeva, N. Bədii qəhrəman və nəsrin janrdaxili dəyişmələri fərdi üslub problemi / Əliyeva, N. 60-80-ci illər Azərbaycan nəsrində qəhrəman və üslub axtarışları. – Bakı, – 1997, – s. 117-151.

DOI:10.30546/gdu.5.2025

STRUCTURAL ELEMENTS OF THE NATIONAL AND INTERNATIONAL CHARACTER TYPES

Qasimova Maya Mehdi

Summary

A distinctive feature in the study of Russian and Russian-language prose of Azerbaijan from the second half of the 20th century to the early 1990s of the 21st century is the focus on one of the key issues of socialist realism—the issue of the national and the international. This problem, both in Russian and Azerbaijani literary studies, is still considered to be largely unexplored. The presented aspect of the issue has been developed in Russian and Azerbaijani literary criticism since the 19th century. Interest in its formulation during these years was reflected in the development by Russian Decembrist writers of historical themes and plots, which were also characteristic of the works of Azerbaijani writers.

MİLLİ VƏ BEYNƏLMİLƏL XARAKTER TİPİNİN STRUKTUR ELEMENTLƏRİ

Qasımova Maya Mehdi qızı

Xülasə

XX əsrin ikinci yarısından XXI əsrin 90-cı illərinin əvvəllərinə qədər olan dövrdə Azərbaycan rus və rusdilli nəsrinin tədqiqində fərqləndirici xüsusiyyətlərdən biri sosialist realizminin əsas problemlərindən biri olan milli və beynəlmiləl məsələsinin qoyuluşuna diqqət yetirilməsidir. Bu problem həm rus, həm də Azərbaycan ədəbiyyatşünaslığında bu günədək demək olar ki, yetərincə işlənilməmiş hesab olunur. Təqdim olunan aspekt XIX əsrdən başlayaraq rus və Azərbaycan ədəbiyyatşünaslığında işlənmişdir. Həmin dövrdə bu məsələyə olan maraq rus dekabrist yazıçılarının həm Azərbaycan ədəbiyyatına da xas olan tarixi mövzu və süjetləri işləməsində öz əksini tapmışdır.

Rəyçi: prof. Zemfira İsa qızı Rüstəmova
Daxil olma tarixi 30 sentyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 199-203

DOI:10.30546/gdu.5.2025

UOT:80.

PREZİDENTLƏRİN ANDİÇMƏ DİSKURSUNUN MƏNƏVİ - İDRAKI VƏ KOMMUNİKATİV ASPEKTLƏRİ

Rəsulova Cəmilə Xosrov qızı
Azərbaycan Dillər Universiteti
rasulova_camila@adu.edu.az

Xülasə: *Tədqiqat andiçmə diskursunun koqnitiv və praqmatik xüsusiyyətlərinin araşdırılmasına həsr edilib. Məqalədə andiçmə nitqinin mənəvi-idraki, kommunikativ və sosial aspektləri, eləcə də prezident nitqlərində performativ və deklarativ funksiyaların auditoriyaya təsiri təhlil olunur. Koqnitiv yanaşma çərçivəsində konsept, freym, metafor və metonimiya kimi strukturların nitqin semantik və struktur səviyyələrindəki rolu müəyyən edilir. Analiz göstərir ki, nitqin leksik, üslubi, estetik və ekspressiv xüsusiyyətləri onun idraki və praqmatik funksiyalarını reallaşdırır. Tədqiqat andiçmə diskursunun konseptual və praqmatik təbiətini kompleks şəkildə anlamağa imkan verir.*

Açar sözlər: andiçmə nitqi, prezident diskursu, koqnitiv yanaşma, praqmatik aspekt, konsept.

Key words: inaugural address, presidential discourse, cognitive approach, pragmatic aspect, concept.

Ключевые слова: инаугурационное выступление, президентский дискурс, когнитивный подход, прагматический аспект, концепт.

Andiçmə diskursu yalnız dil hadisəsi kimi deyil, həm də mənəvi dəyərlərin, sosial məsuliyyətin və şəxsi öhdəliyin dil müstəvisində ifadəsi kimi çıxış edir. Onun koqnitiv və praqmatik aspektlərdən araşdırılması diskursun digər yanaşmalardan, xüsusən fəal, üslubi və arqumentativ təhlillərdən fərqləndiyini göstərir. Bu yanaşma diskursun strukturunu müəyyən edən formal qaydalardan çox, dil istifadəçilərinin mental proses və ifadə mexanizmlərinə yönəlir. Andiçmə çıxışlarının bu baxımdan spesifik və fərqli xüsusiyyətləri mövcuddur. Diskursun psixoloji aspektdən öyrənilməsi onun strateji strukturundan deyil, yaranma prosesində iştirak edən leksik və sintaktik vahidlərin mənasının dərk edilməsindən irəli gəlir. Beləliklə, diskurs natamam mental aktların və onların ardıcıllığının tədqiqi vasitəsilə izah olunur. Tədqiqatlar çərçivəsində verbalizasiyanın strukturu, üsulları, dinamikası, konseptlərin əlamətlərinin obyektləşdirilməsi və dil vasitələri ilə ifadəsi, həmçinin struktur-məzmun modelləşməsinin müxtəlif aspektləri araşdırılmışdır. Bununla yanaşı, konseptlərin funksionallığı, inkişafı və onların emosional, ideoloji, koqnitiv və aksioloji komponentlərinin müəyyənləşdirilməsi istiqamətində mühüm nəticələr əldə olunmuşdur. Bu nəticələr andiçmə diskursunun daha dərindən öyrənilməsi üçün mühüm metodoloji baza yaradır.

Andiçmə nitqi siyasi performativlərin nümunəsi kimi qiymətləndirilməlidir. V.V. Boqdanov, J. Serlin bölgüsünə əsaslanaraq, nitq aktlarını assartivlər, direktivlər, komissivlər, deklarativlər və ekspressivlər kimi təsnif edir [2, s.34]. Lakin performativ xarakterli mətnlər bu bölgüyə tam şəkildə daxil edilmir. İnaqurasiya nitqinin performativliyinin mərkəzində prezidentin andiçmə aktı dayanır və bu məqam nitqin semantik nüvəsini formalaşdırır. Performativlik xüsusiyyətləri onun janr təbiəti ilə sıx bağlı olub, nitqi epideytik ritorikanın digər janrlarından fərqləndirir. K. Kempbel və K. Ceymson bu tip nitqlərin əsas xüsusiyyətlərini aşağıdakı kimi müəyyənləşdirirlər:

– dinləyici auditoriyanı vahid xalq və millət anlayışı ətrafında birləşdirmək;
– milli-ənənəvi dəyərlərin mənbəyi kimi keçmişə müraciət etmək;
– prezidentlik institutuna hüquqi legitimlik qazandırmaq [5, s.68].

DOI:10.30546/gdu.5.2025

Yuxarıda sadalanlara istinad edərək, inaqurasiya nitqinin dörd əsas funksiyasını göstərmək olar: inteqrativ, inspirativ, deklarativ, performativ.

İnteqrativ funksiya millətin vahidliyi, birliyi anlayışlarının onun tarixi inkişafında özünü doğrultması ilə şərtlənir. Belə bir funksiyanın həyata keçməsində əsas rolu eksplisit markerlər oynayır. Məsələn, Fransua Olandın inaqurasiya çıxışındakı nitqində əsasən, *Les Français - fransızlar, le peuple français - fransız xalqı, dans l'Hexagone - Fransada, une France réunie - vahid Fransa* kimi söz və ifadələrə rast gəlirik.

Auditoriyaya koqnitiv təsir qismində ümid, gələcəyə inam, əminlik, etibar kimi hisslər reallaşır.

İnsiparativ funksiya milləti böyük amallara həvəsləndirmək uğrunda baş tutan fəaliyyətdir. Prezident auditoriyanı xoşbəxt gələcəyə ruhlandırmalı və öz nitqinin inandırıcılığı ilə xalqı inandırmalıdır. Bu funksiya çətinlikləri dəf edəcəyinə vəd baxımından da mühüm rola malikdir. Qeyd edək ki, Azərbaycan prezidentlərinin inaqurasiya nitqlərindən fərqli olaraq, Amerika prezidentlərinin andiçmə nitqində üstünlük dərəcələrinin işlədilməsinə daha çox rast gəlirik.

Məsələn, B.Klintonun inaqurasiya nitqində *the world's oldest - dünyanın ən qədim, the world's greatest democracy - dünyanın ən böyük demokratiyası, the world's strongest - dünyanın ən güclü* kimi söz və ifadələrinin işlədilməsi buna nümunə ola bilər.

İlham Əliyevin digər nitqinə nəzər salaq: *"İqtisadiyyatın şaxələndirilməsi siyasəti davam etdirilir və qarşıdakı illərdə də bu istiqamət əsas prioritetlərdən biri olacaq. Məqsədimiz növbəti on ildə qeyri-neft sektorunun həcmini iki dəfə artırmaqdır. Bu strateji hədəf bir il əvvəl müəyyən edilmişdir və düşünürəm ki, bu məqsədə çatmaq üçün kifayət qədər resurs və potensial mövcuddur "* (İ.Əliyevin andiçmə nitqi, 19 Oktyabr, 2013) [8].

Bundan başqa, prezident millətini qarşıda duran böyük işlər və onun ənənəvi dəyərlərinin təsbihi uğrunda ilhamlandırır. Prezident auditoriyanı xoşbəxt gələcək ümidi ilə ruhlandırır və nitqi ilə öz sələflərinin ənənələrinin davamçısı olacağına xalqı inandırır. Bu da inspirativ funksiyanın dil vasitələrilə ifadəsidir.

Deklarativ funksiya yeni prezidentin idarəçilik prinsiplərini və gələcək fəaliyyət istiqamətlərini bəyan edən müraciət xarakterli çıxış kimi səciyyələnir.

Məsələn, İlham Əliyevin 19 oktyabr 2013-cü il andiçmə nitqində deyilir: "*Xarici siyasətimizin əsas istiqamətləri olduğu kimi davam etdiriləcəkdir… qarşılıqlı hörmət, bərabərhüquqlu tərəfdaşlıq və daxili işlərə müdaxilə etməmə prinsipləri əsasında qurulacaq*…" [8].

Bu mətn prezidentin xalqın narahatlıqlarını dərk etdiyini və ümummilli həmrəyliyə sadiq qaldığını nümayiş etdirir. "İnvestisiya", "əməkdaşlıq", "iqtisadi imkanlar" kimi leksik vahidlər bu mövqeni gücləndirir.

Performativ funksiya isə prezidentin fərdi şəxsiyyətindən çox, onun prezidentlik statusunu ön plana çıxarır. Burada nitq liderin hazırlıq səviyyəsini və natiqlik bacarığını göstərən vasitəyə çevrilir. Prezident çıxışı vasitəsilə xalqın taleyüklü məsələlərinə diqqət çəkir və lider kimi bilik, məsuliyyət və müdriklik nümayiş etdirir. Aşağıdakı nitqə diqqət yetirək:

"Dünən ölkəmizdə Dövlət Müstəqilliyi Günü qeyd olundu. Düşünürəm ki, prezident seçkiləri və onların nəticələri xalqımızın dövlət müstəqilliyinə verdiyi növbəti dəyərin ifadəsidir. Bu seçkilər Azərbaycan xalqının iradəsini tam şəkildə əks etdirmişdir. Seçkilər azad, ədalətli və şəffaf şəkildə keçirilmişdir və onların nəticələri xalqın iradəsini açıq şəkildə ortaya qoyur. Bununla da Azərbaycan xalqı son on ildə görülən işlərə öz yüksək qiymətini vermişdir." (İ.Əliyevin andiçmə nitqi, 19 Oktyabr, 2013) [8].

DOI:10.30546/gdu.5.2025

Bu mətndə tarixin dəyərlərinin əksini görmək olar. Milli-mənəvi və mədəni-etik dəyərlərə konseptual yanaşma geniş şəkildə əks olunmuşdur. Performativ funksiyanın reallaşmasında dil vasitələrinin əhəmiyyəti açıq şəkildə nəzərə çarpır.

Koqnitiv dilçilikdə belə qəbul olunur ki, ətraf aləm və reallıqlar insan şüurunda konseptlər şəklində formalaşır və bu konseptlərin əsasını freymlər təşkil edir. Müasir tədqiqatlarda freym bir neçə konsepti birləşdirən, onların məzmununu müəyyənləşdirən struktur vahid kimi dəyərləndirilir. Freymin əsas komponentlərindən biri olan slotlar sintaktik konstruksiyalar vasitəsilə modelləşdirilir və bu, sabit söz birləşmələrində, idiomlarda və nitq ştamplarında özünü göstərir.

U. Eko "Oxucunun rolu" əsərində freymi empirik və semiotik anlayış kimi izah edir [4, s.10]. Onun və İ. Van Deykin fikirlərinə əsasən, freym stereotipik situasiyaların təsvirinə xidmət edən informasiya strukturudur; bu struktur qavrayış prosesini asanlaşdırır və insanın dil vasitəsilə informasiya mübadiləsini həyata keçirməsinə imkan yaradır. [6, p.362]

Beləliklə, freym konseptin əsasını təşkil edən biliyin vahidi sayılır və müəyyən mədəni kontekstdə tipik, vacib məlumatı özündə ehtiva edir [3, s.16]. Koqnitiv struktur daha ümumi xarakter daşıdığı halda, freym milli-mədəni xüsusiyyətləri əks etdirən daha konkret məna vahididir. İnaqurasiya diskursunun formalaşmasında koqnitiv-pragmatik strategiyalar müxtəlif istiqamətlərdə təzahür edir: birlik və həmrəylik tənzimləyiciləri, şüura təsir edən idrak strategiyaları, adresatın aksioloji sisteminə yönəlmiş təsir strategiyaları, həmçinin proqnozlaşdırma, məlumatlandırma, pozitiv reprezentasiya, oyandırma və manipulyasiya strategiyaları. Bir neçə nümunəyə nəzər salaq:

Let us commit ourselves to ensuring that the coming four years become the most remarkable in our nation's history. By the time America celebrates its 200th anniversary, let it be as vibrant and full of promise as it was at its inception, shining as a beacon of hope for the entire world. (Riçard M. Nikson 20 Yanvar, 1973). *("Gəlin, birlikdə and içək ki, Amerikanın tarixindəki növbəti dörd ili ən gözəl dördilik edəcəyik, belə ki, öz 200 illik ad gününə o, yaradıldığı ilk gündəki kimi gənc və yaşadıcı, həmçinin də bütün dunyaya işıq verən mayak kimi olacaq").*[9]

Bu nümunədə cəmiyyətin hisslərini tənzimləməyə çağıran strategiyaların reallaşdırılması müşahidə olunur. Beləliklə, inteqrasiya nitq taktları vasitəsilə ifadə olunur və əsas məqsədi dinləyiciləri vahid xalq kimi birliyə səsləməkdən ibarətdir. Bu nümunədə "unity" (birlik) birliyə çağırışı simvolizə edir, "let us" (gəlin) ifadəsi isə həm bu məqsədə xidmət edir, həm də inteqrasiyanın açıq göstəricisi kimi təqdim edilir. Bundan əlavə, pozitiv reprezentasiya strategiyası ümumilikdə ümid taktikası ilə həyata keçirilir. Xüsusilə, Amerikaya *beacon of hope for all the world,* yəni bütün dunyaya işıq verən mayak kimi baxılır.

Prezident auditoriyaya praqmatik təsir göstərərək onu məlumatlandırır, fəaliyyətə səfərbər edir, ümid hissi aşılayır və bəzən manipulyativ məqsədlə emosional təsir göstərir. Beləliklə, konseptual yanaşma çıxışda tətbiq olunan strategiyaların seçimini müəyyənləşdirir.

Prezidentlərinin andiçmə nitqlərində vital konsept çərçivəsində prezidentin simasında əminlik və etibar hisslərinin praqmatik effekti reallaşır. Sosial konseptlərdə isə praqmatik baxımdan apelyasiya – xalqın həyat fəallığını və ictimai motivasiyasını gücləndirən əsas faktor kimi çıxış edir.

Andiçmə nitqlərinin koqnitiv və praqmatik xüsusiyyətlərinin təhlilində metaforik və metonimik strukturların araşdırılması mühüm əhəmiyyət kəsb edir. Bu vahidlər fərdi konseptlər əsasında formalaşır və onların qarşılıqlı əlaqəsi nəticəsində freym yaranır. Məsələn, "Bakı said that" (Bakı deyir ki) ifadəsində "Bakı" paytaxt konseptini təmsil etsə də, onunla əlaqəli olan Azərbaycan siyasi hakimiyyəti və partiyalar həmin freym daxilində yer

DOI:10.30546/gdu.5.2025

alır. Bu halda “Bakı” sözünün nominativ mənası genişlənir, yeni semantik freym formalaşır və lüğəvi məna transformasiyası baş verir. Eyni prinsip metaforik ifadələr üçün də keçərlidir.

Metaforların yaranması insanın təbiəti müşahidə etmə qabiliyyəti, obyektlər arasındakı formal və funksional oxşarlıqların qavranılması ilə bağlıdır. Koqnitiv metaforların formalaşması bu assosiasiyaların qurulması prosesinə əsaslanır. C. Lakoff və T. Johnsonun fikrincə, metaforlar insan şüurunda dilin yaranmasından əvvəl mövcud olub və konseptual sistemin əsasını təşkil edir. Onlara görə, insan düşüncəsi metaforik xarakter daşıyır və gündəlik dil bu metaforik təfəkkürün təzahür formasıdır. Bu hal dünyanın idrakında kateqoriyalaşdırma və xüsusiyyətlərin fərqləndirilməsi prinsipi ilə əlaqəlidir [7, s.56].

Praqmatik baxımdan dil üslubu kommunikativ məqsədlərə çatmaq üçün markerlənməmiş dil vasitələrinin istifadəsinə əsaslanır. Üslubi təhlildə kontekstual faktorların və xüsusi dil strukturlarının nəzərə alınması da mühüm əhəmiyyət kəsb edir. Beləliklə, mətnin üslubi çalarları eyni zamanda dilin praqmatik funksiyasının tərkib hissəsi kimi çıxış edir [1, s.67].

Bu prosesdə koqnitiv məna ümumi mənadan çıxaraq metaforik məna ilə əlaqəli motivasiya xarakteri daşıyır və bu da obraz-assosiasiya səviyyəsində baş verir. Mənanın motivasiyası, daha dəqiq desək, onun metaforik təsviri yeni strukturların – freymlərin, prototipik situasiyaların və ssenarilərin yaranmasını təmin edir. Koqnitiv sistemdə metaforların modelləşdirilməsi, geniş izahedici potensiala malik olmaqla, dil hadisəsi olaraq metaforun aid olduğu linqvistik elementləri də əhatə edir.

C.Lakof və T.Consonun fikrincə, metafor insan təfəkküründün ayrılmaz bir elementidir. Hər bir mədəniyyətin daşıyıcısında həmin mədəniyyətin etnik xüsusiyyətlərini əks etdirən metaforlara rast gəlmək mümkündür. Məsələn, türk xalqlarının inanclarında yuxu ilə ölüm arasında assosiasiyanın qurulması diqqətəlayiqdir. Türk xalqlarının baxışlarına görə, yuxu ölüm deyil; yuxu təkrarlanan bir haldır, ölüm isə birdəfəlik baş verən bir prosesdir. Bu inanclar əsasən yuxu ilə ölüm arasında paralelliklərin qurulmasına səbəb olmuşdur. Türklərə görə, yuxu zamanı dünya unudulur, insan hər şeydən bixəbər olur və bu, müəyyən mənada ölümə bənzədilir. Beləliklə, yuxu ilə ölüm arasındakı assosiasiyanın əsasını bu cür düşüncə tərzi təşkil edir. Bu yanaşma, həmçinin, insanların mədəni-psixoloji baxışları və keçmiş təcrübələri ilə uyğunlaşır.

Eyni zamanda, vətənpərvərlik də bu cür konseptual çərçivədə dəyərləndirilə bilər. Məsələn, "*Vətən evdən başlayır*" ifadəsi bu çərçivədə anlam qazanır.

Bu baxımdan belə bir nəticəyə gəlmək olar ki, hər bir xalqın mədəni freymləri fərqli ola bilər. Bu fərqlilik isə əsasən həmin xalqın etnopsixoloji xüsusiyyətlərindən və yaşadığı sosial mühitdən asılıdır. Bədii diskursda bu istiqamətdə tədqiqatların aparılması freymlər, onların linqvokoqnitiv xüsusiyyətləri barədəki fikirləri xeyli zənginləşdirərək, konseptual metafor və metonimiyaların, habelə hiperbolanın etnokulturoloji mahiyyətini açmağa imkan verəcəkdir.

Aparılan təhlillər göstərir ki, nitqin strukturunda dilin lüğəvi zənginliyi, intonasiya çalarları, poetik və estetik funksiyaları, ekspressivlik dərəcəsi, eləcə də onun idraki və kommunikativ aspektləri mühüm əhəmiyyət kəsb edir. Bu xüsusiyyətlər dilin yalnız formal səviyyəsini deyil, eyni zamanda onun semantik, emosional və üslubi qatlarını da üzə çıxarır. Nitq və onun məhsulu olan diskurs və mətnlər vasitəsilə dilin funksional potensialını, mənaların formalaşma mexanizmini, idraki fəaliyyətlə bağlı konseptual strukturları və kommunikativ məqsədlərə yönəlmiş ifadə vasitələrini müəyyənləşdirmək mümkündür. Nəticə etibarilə, nitqdə müşahidə olunan linqvopoetik, estetik və praqmatik göstəricilər dilin dinamik təbiətini, həmçinin onun koqnitiv (idraki) və kommunikativ yönlərini kompleks şəkildə dəyərləndirməyə imkan yaradır.

DOI:10.30546/gdu.5.2025

Ədəbiyyat

1. Abdullayev, Y.M. Müasir Azərbaycan dili / Y.M.Abdullayev, Y.M.Seyidov, A.Q.Həsənov. – Bakı: Maarif, – 1972. – 474 s.
2. Богданов, В.В. Текст и текстовое общение / В.В.Богданов. СПб. СПбГУ, 1993. 63 с.
3. Дейк, ван Т.А. Язык, познания, коммуникация / Т.А. ван Дейк.Москва: 1989. – 200 с.
4. Эко, У. Роль читателя: Исследования по семиотике текста / У.Эко – Москва: Изд-во РГГУ, Пер. с англ. и итал. С.Серебряного. СПб.: Symposium, – 2005. – 502 с.
5. Campbell, K.K., Jamieson, K.P. Inaugurating the Presidency // Form, Genre andthe Study of Political Discourse - Columbia: S. Car., – 1986. – p. 394–411
6. Dijk, van T. Critical Discourse Analysis. In: A Handbook of Discourse Analysis. – Oxford: Blackwell, – 2001. – p.352-371.
7. Lakoff, G. Metaphors we live by / G.Lakof, M.Johnson. – Chicago: – 1980. – 244 p.
8. https://lib.aliyev-heritage.org/az/66679364.html
9. https://www.archives.gov/exhibits/american_originals/inaugtxt.html

MORAL-COGNITIVE AND COMMUNICATIVE ASPECTS IN INAUGURAL ADDRESSES OF PRESIDENTS

Rasulova Jamila Xosrov

Summary

The study examines the cognitive and pragmatic features of the inaugural address. It analyzes the cognitive, communicative, and social aspects of the inaugural speech, as well as the impact of performative and declarative functions in presidential addresses on the audience. Within the cognitive approach, the roles of concepts, frames, metaphors, and metonymy at the semantic and structural levels of speech are identified. The analysis demonstrates that lexical, stylistic, aesthetic, and expressive features of speech, realize its cognitive and pragmatic functions. The research provides a comprehensive understanding of the conceptual and pragmatic nature of the inaugural address.

МОРАЛЬНО-КОГНИТИВНЫЙ И КОММУНИКАТИВНЫЙ КОНЦЕПТЫ В ИНАУГУРАЦИОННЫХ РЕЧАХ ПРЕЗИДЕНТОВ

Расулова Джамила Хосров кызы

Резюме

Статья посвящена когнитивным и прагматическим особенностям инаугурационного дискурса. В статье анализируются когнитивные, коммуникативные и социальные аспекты инаугурационной речи, а также влияние перформативной и декларативной функций в инаугурационных выступлениях президентов на аудиторию. В рамках когнитивного подхода определяются роли концептов, фреймов, метафор и метонимий на семантическом и структурном уровнях. Анализ показывает, что лексические, стилистические, эстетические и экспрессивные характеристики речи реализуют её когнитивные и прагматические функции. Исследование обеспечивает комплексное понимание концептуальной и прагматической природы инаугурационного дискурса.

Rəyçi: prof. Azad Məmmədov
ADU-nun Dünya Dilləri kafedrasının 10 oktyabr 2 sayli iclası protokolu
Daxil olma tarixi 20 oktyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 204-208

DOI:10.30546/gdu.5.2025

UOT:82-09.

ŞƏXSİYYƏTİ İFADƏ EDƏN ATALAR SÖZLƏRİNİN MƏNA GÜCÜ

Həşimova Nərgiz Polad qızı
"Azərbaycan" Universitetinin doktorantı
https://orcid.org/0000-0002-0216-4784
nargiz.hashimova@azmiu.edu.az

Xülasə: *Məqalə şəxsiyyəti ifadə edən atalar sözlərinin məna gücü adlandırılıb və bu səbəbdən də məqalədə əsas diqqət şəxsiyyətə aid olan atalar sözlərində işlədilən sözlərin, birləşmələrin məna gücündən yazılıb. Şəxsiyyəti ifadə edən atalar sözlərinin ifadə etdiyi mənanın güclü təsirinin kontekstdən asılı olduğu və şəxsiyyətin özünün gücü ilə ifadə olunduğu xüsusi olaraq diqqətə çatdırırlır. Məqalədə şəxsiyyətə aid olan atalar sözlərinin müsbət və mənfi mənaları haqqında məlumat verilir.*

Açar sözlər: söz, məna, güc, şəxsiyyət, müsbət, mənfi, kontekst
Key words: word, meaning, power, identity, positive, negative, context
Ключевые слова:слово, значение, сила, идентичность, позитив, негатив, контекс

Bəşər dilinin, ayrı-ayrı xalqların dillərinin konkret olaraq nə vaxt meydana gəldiyini müəyyənləşdirmək əslində mümkün olan iş deyildir; məsələ yalnız belə qoyulur ki, dilin tarixi bəşəriyyətin tarixi ilə eynidir, hər bir xalqın tarix səhnəsinə çıxışı onun dilinin də həmin tarixdən mövcudluğunun göstəricisi sayılır. Lakin dildəki ayrı-ayrı sözlərin meydana gəlmə və inkişaf tarixçəsini öyrənmək dilçilərə nəsib olmuşdur. Bu fonda frazeoloji birləşmələrin yaranması və inkişafı tarixçəsini də izləmək mümkündür. Faktlar göstərir ki, frazeoloji birləşmələrin bir hissəsi dilin hələ ilkin inkişaf mərhələsində yaranmış, qədim yazılı abidələrdə qeydə alınmış və sonrakı şəraitlərdə daha çox inkişaf etmişdir. Məsələn, məlumdur ki, ərəb dilində Qurani-Kərimdə və başqa dini mətnlərdə sabitləşmiş söz birləşmələri sonralar bütövlükdə dilin başqa sahələrində də analoji vahidlərin yaranmasına yol açmış [8, s.45], bu eləcə də başqa müsəlman xalqlarının dillərinin frazeoloji sisteminin zənginləşdirilməsində böyük rol oynamışdır. Tədqiqatçılar yazırlar ki, Azərbaycan dili frazeologiyasının tarixi inkişaf yolunu öyrənmək üçün "Avesta"nın, "Kitabi-Dədə Qorqud"un, Orxon-Yenisey abidələrinin, M. Kaşğarinin "Divanü-lüğatit-türk" əsərinin, folklor materiallarının dilini araşdırmaq lazım gəlir [8, s.3-5]. Bu proses ümumiyyətlə bütün dünya xalqlarının dillərində cərəyan etmiş, İncildən və onun əsasında yazılmış ilkin elmi və bədii əsərlərdən külli miqdarda frazeoloji vahidlər xristian xalqlarının dillərinə daxil olmuşdur. Xüsusən, son iki əsr ərzində dillərarası ünsiyyətin qlobal səviyyəyə qalxması nəticəsində xristian xalqlarının dillərindən belə frazeoloji vahidlərin müsəlman xalqlarının dillərinə, müsəlman xalqlarının dillərində təşəkkül tapmış frazeologizmlərin isə xristian xalqlarının dillərinə yayılması baş vermiş, bununla dünya səviyyəsində leksik, terminoloji və onomastik mübadilə ilə yanaşı, frazeoloji mübadilə də həyata keçirilmişdir.

Frazeoloji birləşmələrin tarixən daha qədimdən formalaşmış hissəsi başlıca olaraq xalqların mifik təfəkkürü, məişət tərzi, həyat təcrübəsi, həmçinin daha çox bədii folkloru əsasında yaranıb-yayılmış və sonralar öz mənbəyindən uzaqlaşaraq metaforik məna kəsb etmiş, yeri gəldikcə həyatın hər bir sahəsində və ən əsası isə yazılı mətnlərdə işlədilməyə başlamışdır. Bunlar ümumxalq təfəkküründün ədəbi dilə bəxş etdiyi ən böyük dil xəzinəsidir.

Yazılı mətndən yayılıb ümumiləşmiş frazeoloji vahidlər müxtəlif zümrələr arasında məşhurlaşandan sonra yenidən yazılı mətnlərə o cümlədən bədii əsərlərin dilinə qaytarılır və təkrar işlədilməyə başlayır.

Şəxsiyyətə aid atalar sözlərinin həm müsbət, həm də mənfi mənası ola bilər.

DOI:10.30546/gdu.5.2025

“Konnotasiya nədir?” Bu suala cavab verək və sonra fikrimizi davam etdirək:

A.Peter yazır*: “Konnotasiya, hər hansı bir sözün və ya ifadənin açıq və ya hərfi mənası olan denotasiyasına əlavə olaraq daşıdığı ümumi şəkildə başa düşülən mədəni və ya emosional assosiasiyadır. Konnotasiya, xoş və ya xoşagəlməz emosional əlaqəsi baxımından tez-tez müsbət və ya mənfi kimi təsvir olunur*” [9, s. 5].

Konnotasiya, sözün denotativ (və ya hərfi) mənalarından fərqli olaraq daşıya biləcəyi emosional təsirlərə və assosiasiyalara aiddir. Feil: connote. Sifət: connotative. Həmçinin intension və ya sense adlanır. Sözün konnotasiyası müsbət, mənfi və ya neytral ola bilər. O, həmçinin mədəni və ya şəxsi ola bilər. Bir nümunə:

To most people the word cruise connotes--suggests--a delightful holiday; thus its cultural connotation is positive. If you get seasick, however, the word may connote only discomfort to you; your personal connotation is negative. (Vocabulary by Doing, 2001)

R. Nordquist konnotasiyanı belə izah edir: *“Mənalar, sözün hərfi mənasından kənara çıxan emosional və ya mədəni mənalardır. Mənalar şəxsi və ya mədəni baxışlardan asılı olaraq müsbət, mənfi və ya neytral ola bilər. "Qəbilə" və ya "qorunma" kimi sözlər bəzi qruplar üçün mənfi mənalar yarada bilər və onların qavrayışına təsir göstərə bilər”* [10, s.1].

P. Culicover "Nümunələr və Mənalar" (1998) kitabında yazır ki, konnotasiya dil öyrənənlər üçün "problem sahəsidir": *“[Çünki] o, münasibətin ifadəsi üçün vacib bir mexanizmdir, mesajların qeyri-müəyyən niyyətini anlamaq üçün öyrənənlərin bundan xəbərdar olması çox vacibdir”* [4, s. 12].

D.Kristal isə konnotasiyanı belə iazh edir: “Sinonimlər qrupunu təyinatlarına görə ayırd etmək mümkün deyildir, lakin onlar adətən *ar, automobile, runabout, buggy, banger, bus, hot rod, old crock, racer*və s. kimi məna fərqləri əks etdirirlər” [3, s. 11].

R.B.Moore isə belə yazır: “Qəbilə" ibtidailik və ya gerilik mənasını verdiyindən, yerli Amerika xalqlarına istinad edərkən mümkün olduqda "millət" və ya "xalq" termininin istifadəsinin əvəz edilməsi təklif olunur” [7, s. 12].

Sözün lüğəvi mənasından, yəni birbaşa lüğət tərifindən başqa, onun fərqli mənaları da mövcuddur. Bu təbəqələrin tarixən fərqli çalarları olduğunu bilmək xüsusilə vacibdir. Təbəqələrin həmçinin dil öyrənənlər və oxşar sözlər arasında seçim edib düzgün vəziyyətdə düzgün olanı istifadə edə bilənlər üçün də təsiri vardır.

Dilçilik sahəsində sözün konseptual mənası, sözün ola biləcəyi yeddi məna növündən yalnız biridir. Məsələn:

Affektiv məna: danışan və ya yazıçı üçün yalnız lüğət mənalarından daha çox real dünyada onunla hansı mənanın əlaqəli olduğu; subyektiv məna anlamını verir. Xeyriyyəçilik haqqında danışan baş direktor və rahibə iki fərqli məna ifadə edə bilər.

Kollokativ məna: müntəzəm olaraq birlikdə işlədilən sözlər. Məsələn ingilis dilində “pretty” və “handsome” sözləri. Hər ikisi "gözəl" və "yaraşıqlı" mənalarında işlədilir, lakin bu sözlər daha çox bir cinslə əlaqələndirilir. Tanımadığınız bir şəxs haqqında söhbətə şahid olursunuzsa, onun “handsome” olması sizə əsas verir ki, həmin şəxsin kişi cinsinə aid olduğunu düşünəsiniz və s.

Konseptual məna: sözün lüğətdəki tərifi; təsviri tərifi kimi anlaşılır. Lüğətdə A *cougar* - “A cat” mənasını verir. İnsanlarla bağlı kontekstlərdə və vəhşi təbiətlə bağlı olmayan kontekstlərdə bu terminin başqa mənaları da vardır.

Konnotativ məna: müəyyən bir sözün istifadəsi ilə kontekstə gətirilən alt mətn və təbəqələr; subyektiv. Bir sözün mənaları auditoriyadan asılı olaraq mənfi və ya müsbət ola bilər. Məsələn, liberal və ya mühafizəkar olmaq etiketi, insanın onu istifadə etmək niyyətindən və onu eşidən və ya oxuyan şəxsdən asılı olaraq yaxşı və ya pis ola bilər.

DOI:10.30546/gdu.5.2025

İngilis dilində insanların zehnində artıq həkk olunmuş emosiyaların və ya əvvəlcədən müəyyən edilmiş assosiasiyaların növündən asılı olaraq bir neçə növ konnotasiya istifadə olunur. Növlər belə müəyyən edilir: Pozitiv konnotasiya; İnkar konnotasiya; neytral konnotasiya.

Müsbət mənalar:

Mahiyyət etibarilə müsbət olan gizli mənalar müsbət mənalardır. İstənilən sözlə yaxşı assosiasiyalar onları bu etiket altında təsnif etməyə vadar edir.

Məsələn, "Əlverişli" demək olar ki, həmişə alıcı üçün idarəolunan, lakin insanların sosial-iqtisadi vəziyyəti ilə xoş bir əlaqəsi olan minimal qiymət nöqtəsinə aiddir.

Mənfi mənalar:

Sözlər, əsasən, oyadan hisslərinə görə avtomatik olaraq mənfi bir şeylə əlaqələndirilir.

Misal üçün, əlverişli şeylərə "ucuz" deyilə bilər ki, bu da orta keyfiyyətli olmaq kimi mənfi əlavə məna daşıyır.

Neytral mənalar:

Əlavə mənaları olan, lakin xüsusilə müsbət və ya mənfi əlaqələri olmayan sözlər neytral mənalardır. Bu mənalar çox vaxt sözlərin hərfi mənalarına ən yaxındır. Nümunəyə davam edərək, "Ucuz" bahalı olmayan bir şeyə aid etmək üçün istifadə olunan bir sifətdir. Əlçatan və ucuz ilə eyni mənaya malikdir, lakin nə çox müsbət, nə də çox mənfi mənalar daşımır.

Positive	Neutral	Negative
Indulgent	Pre-occupied	obsessive
Gentle	timid	Cowardly
Interested	Curious	nosy
Bold	Confident	Brash
Inexpensive	Affordable	cheap

Atalar sözü və məsəllər xalqın hərtərəfli həyatı və məişəti, təfəkkür tərzi, əmək fəaliyyəti, tarixi ilə sıx bağlı olduğundan onların mövzu dairəsi çox genişdir. Həyatın, məişətin, təsərrüfatın elə bir sahəsi yoxdur ki, xalq o barədə atalar sözü və ya məsəl yaratmamış olsun. Elə buna görədir ki, atalar sözləri və məsəlləri həyatın müxtəlif məsələlərinə aid ibratamiz məzmunlu qısa kəlam, hikmətli sözlər kimi qəbul edirlər. Həm atalar sözləri, həm də məsəllər xalq zəkasının məhsuludur.

Hər bir el nümunəsi müəyyən məqsədlə yarandığı kimi, müəyyən ideya da tələqin edir. Şifahi xalq ədəbiyyatının hər bir nümunəsi xalqın təxəyyülünün, təfəkkürünün məhsulu olduğu kimi atalar sözləri və məsəllər də həyat təcrübəsi nəticəsində meydana çıxır. Onların hər biri özündə xalqın həyatını, məişətini, yaşayış tərzini əks etdirir. Hər birini oxuyanda qarşımızda böyük bir dövr canlanır: həmin dövrdə xalqın güzaranı, insanların bir-birinə və təbiətə münasibəti, siniflər arasındakı fərqlər, ictimai ziddiyyətlər, bir sözlə dövrü səciyyələndirən xüsusiyyətlərlə tanış oluruq. Məsələn, bəzi ingilis atalar sözü və məsəllərində ictimai bərabərsizlik, siniflər arasındakı əksliklər, varlı-yoxsul, aclıq-toxluq məsələsi aydın surətdə əks olunur.

İngilis dilində şəxsiyyətə aid olan çox sayda atalar sözləri mövcuddur. Yəni hər hansı bir şəxsiyyətin müəyyən xüsusiyyətlərini əks etdirən atalar sözləri:

Məsələn şəxsiyyətə aid olan bir atalar sözünü təhlil edək:

Character is power! –Xarakter gücdür!

Məlum olduğu kimi, xarakter hər hansı bir şəxsiyyətə aid olan ən güclü xüsusiyyət, insan keyfiyyətidir. İstənilən rəhbərin (yaxud şəxsin) inkişaf etdirə biləcəyi ən güclü

DOI:10.30546/gdu.5.2025

qüvvədir. "Nə üçün? -desək", çünki xarakter əslində şəxsiyyətin qoruyucusudur. Xarakter əslində həyatda şəxsiyyətin (yaxud fərdin) məqsədini, vizyonunu və məqsədlərini həyata keçirərkən həm şəxsi, həm də peşəkar baxımdan uğur qazanmağa imkan verən bir xüsusiyyətdir. Xüsusilə Liderlikdə, rəhbərlikdə xarakterin Gücü çox vacibdir.

Bu atalar sözü müsbət konnotasiyaya malik olan bir deyimdir.

Azərbaycan xalqının lideri möhtərəm Prezidentimiz İlham Əliyevə aid bu atalar sözünü ürəklə işlətmək olar. Belə ki, möhtərəm prezidentimizin güclü duruşu, xarakteri ilə biz Qarabağ müharibəsində qalib gəldik. Bəli – deyə bilərik ki, prezidentimizin xarakteri çox güclüdür. *Xarakter gücdür!*- deyəndə ağıla ilk növbədə Ali Baş Komandan gəlir. Möhtərəm Prezidentin güclü xarakteri, gücü sayəsində vətənimiz dünya xalqları içində özünə layiqli yeri tutur. Onun bütün çıxışları güclü xarakterinin, güclü duruşunun göstəricisidir.

Bir nümunəni oxuyaq:

Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyününün bərpası uğurunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerində oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır [1, s.9].

Burada xarakterin gücü necə görünür: 1) Azərbaycan uğurunda mübarizəni diqqətə çatdırır; Azərbaycanın ərazi bütövlüyünü ön plana çıxarır;

2) Əsgər və zabitlərin qəhrəmanlığını xüsusi qeyd edir, düşmənələrə vurulan zərbələri vurğulayır, ordumuzun zabit və əsgərlərinin qəhrəmanlığını qeyd edir;

3) Düşmənin uğursuz olmasını diqqətə çatdırır;

4) Azərbaycanın şərəfli missiya yerinə yetirdiyini vurğulayır və s.;

Digər nümunə:

Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində -30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar [1, s.9].

Xarakterin gücü bu nümunədə tam şəkildə əks olunur. Mətndəki əminlik Prezidentin güclü xarakterindən gəlir.

Buker T. Vaşinqton demişdir: "Xarakter Gücdür". Xarakter bizim kim olduğumuzun və özümüzü necə apardığımızın hərəkətverici qüvvəsidir. Xarakter, istər qrupda, istərsə də təkbaşına olmağımızdan asılı olmayaraq, etdiyimiz işlərin tonunu müəyyən edir. Duayt L. Mudi deyir: "Xarakter qaranlıqda olduğunuz şeydir". Başqa sözlə, təkbaşına etdiyimiz şeyləri ictimaiyyətdə də edə bilməliyik. Xarakter həmçinin dürüstlüyün sinonimi ola bilər. Hər iki söz insanın hərəkətlərində əxlaqi cəhətdən düzgün olmalı olduğunu bildirir.

Xarakter fərdin özünəməxsus zehni və əxlaqi keyfiyyətləridir. Bir insanın yaxşı nüfuzu kimi təsvir olunur. Xarakter həmçinin məhəbbət, sevinc, sülh, səbir, xeyirxahlıq, yaxşılıq, sədaqət kimi də qəbul edilir.

Ədəbiyyat

1. Zəfər yolu. Bakı: Qanun nəşriyyatı, 2020, 340 s.
2. Arora S. L. The Perception of Proverbiality. Proverbium: Yearbook of International Proverb Scholarship 1, 1-38, (1984).
3. Crystal D. The Cambridge Encyclopedia of the English Language. Cambridge University Press, 2003, 506 p.

DOI:10.30546/gdu.5.2025

4. Culicover P. W. Parataxis and Simpler Syntax. In M. José Béguelin, M. Avanzi, & G. Corminboeuf (Eds.), Actes du 1er Colloque International de Macrosyntaxe Vol. 2. Bern: Peter Lang, 2010, 14 p.
5. Doyle C. C., Mieder, W., & Shapiro, F. R. The Dictionary of Modern Proverbs. Yale: Yale University Press, 2012, 294 p.
6. Grandl, C. "The Perception of Proverbiality" in Extinct Languages. In O. Lauhakangas & R. Soares (Eds.), Proceedings of the 3rd Interdisciplinary Colloquium on Proverbs. Tavira: Tipografia Tavirense. pp. 146-156, 2010.
7. Moore R.B. Racism in the English Language. In *The Production of Reality*, ed. J. O'Brien, 2005, 119 p.
8. Məmmədova G., Məmmədova K. İngilis dilinin frazeologiyasında atalar sözləri və onların semantik xüsusiyyətləri // Filologiya məsələləri. 2007, № 1, s. 45-51.
9. Peter A. White. Feelings and JEA Sequences. Psychological Metaphysics. Routledge, 2017, 315 p.
10. https://www.thoughtco.com/denotations-and-connotations-1692726
Choosing the Best Words: Denotations and Connotations
11. Valiyeva N.Ch. Azerbaijani-English-Russian phraseological dictionary. Baku: 2006, 460 p.

THE POWER OF MEANING OF THE WORDS OF THE PROVERBS EXPRESSING PERSONALITY

Hashimova Nargiz Polad

Summary

The article is named as the meaning power of proverbs expressing personality, and therefore the main focus of the article is on the meaning power of words and combinations used in proverbs relating to personality. It is especially emphasized that the strong impact of the meaning expressed by proverbs expressing personality depends on the context and is expressed by the power of the personality itself. The article provides information about the positive and negative meanings of proverbs relating to personality.

СИЛА СМЫСЛА СЛОВ В ПОСЛОВИЦАХ, ВЫРАЖАЮЩИХ ЛИЧНОСТЬ

Хашимова Наргиз Поладовна

Резюме

Статья посвящена теме силы смысла пословиц, выражающих личность, поэтому основное внимание в ней уделяется силе смысла слов и сочетаний, используемых в пословицах, относящихся к личности. Особо подчеркивается, что сила воздействия смысла, выражаемого пословицами, выражающими личность, зависит от контекста и выражается силой самой личности. В статье представлена информация о положительных и отрицательных значениях пословиц, относящихся к личности.

Rəyçi: dosent Mustafayeva Sahilə Bağır qızı
”İfadə tərzi, gözəl danışmaq, müraciət vasitəsi, səliqə və s. kimi məzmunlar bildirən ərəb mənşəli ”üslub” sözü dilimizdə hələ orta əsrlərdən işlənməyə başlamış və bütün Şərqdə olduğu kimi,Azərbaycanda da geniş yayılaraq*”Bəlağət, İnşa, Fəsahət”* kimi elmlərin yaranmasına əsas vermişdir*”***(6,s.7).**

1908-ci ildə ilk olaraq Hafiz Məhəmmədəmin Şeyxzadə “Fəsahət və bəlağət, fənni inşa və kitabət” adlı dərslik yazmışdır.Bu kitab dövrü üçün üslubiyyata dair (108 səhifəlik) gözəl bir metodik vəsait olmuşdur və dil müəllimlərinə Azərbaycan dili tədrisinin keyfiyyətini yaxşılaşdırmaq, şagirdlərlə aparılacaq üslubiyyat məşğələlərinin keyfiyyətini yüksəltmək işində xeyli kömək etmişdir. Metodik bir əsər olmuşdur. Həmin kitab üç fəsildən ibarətdir:

Birinci fəsil “Fənni inşa və kitabət” sözünü izah etməklə başlayır. Müəllif yazır ki ”....Kitabət, lüğətdə yazı yazmaq mənasındadır. Fəqət islahda isə məna anlaşılacaq surətdə şəxsin yazı yazmasıdır.Daha doğrusu, mənaya dəlalət etmək şərti ilə qəvaidə müvafiq fikrə mülayim və səmə mütabiq tərzdə təhrifən ifadeyi-məram deməkdir. Əgər yazılan kəlimat səlis və vazeh olmazsa, ondan məna çıxarmaq müşkül və bəlkə qeyri-qabildir. Kitabət və inşa, əlfazi-mütəradifədən, yəni ikisi bir mənaya dəlalət etməkdə isə də, kitabət üsuli-qələmə, yəni hökumət dairələrində cari olan rəsmə müvafiq yazı yazmaq; inşa isə qəvaidi-ədəbiyyə mütabiq olmaq şərti ilə təsviri -məram və icadi-kəlam eyləməkdən ibarətdir*”***(9.s,261).**

Kitabın ikinci fəslində fəsahət və bəlağətdən danışılır: ”...Bəlağət”- bir məramın hüsni-surətdə ədası, düzgün və sənətli ifadə olunması deməkdir. Sonra elmi bəlağətin mənşə və məxəzindən bəhs edilir, təşbeh, məcaz, kinayə və istiarə kimi bədii təsvir vasitələri şərh edilir.Daha sonra elmi-bəyanın izahı verilir: elmi bəyan- təsviri-məram və bəyani əfkardə kəlam daha yığcam və daha zəngin vermək yollarını öyrədir;elmi-bədii - kəlamın ləfzi və mənəvi təzyinatından bəhs edən fəndir; fəsahət-bir dilin düz və xətasız, asanlıqla söylənib yazılması deməkdir” **(9.s,261-262).**

DOI:10.30546/gdu.5.2025

1919-cu ildə yazılmış"Ədəbiyyat dərsliyi" kitabının müəllifləri ***H.Cavid və A.Şaiqdir***. Bu dərslikdə müzəyyən və ali üslublardan ancaq ikisi – "üslubi-sadə" və "üslubi-müzəyyən əsas götürülmüşdür.

1933-cü ildə ***A.Tağızadə və X.S.Xocayevin*** müəllifliyi ilə "Müxtəsər üslubiyyat" adlı dərslik yazılmışdır.

Görkəmli dilçilər, eləcə də metodist alimlər üslubiyyatla bağlı belə bir qənaətə gəlmişlər ki,

"...Dil vahidlərinin müxtəlif ifadəlilik imkanlarını, onların üslubi keyfiyyətlərini öyrənən elmə üslubiyyat deyilir"**(3.s,11).**

"...Üslubiyyat dilin ifadəlilik vasitələrinin məqsədəuyğun surətdə istifadəedilmə qayda-qanunlarından, xüsusiyyət və əlamətlərindən, ifadə vasitələrinin sistem təşkil etməsi xüsusiyyətlərinə görə formalaşan müxtəlif üslubların əlamətdar cəhətlərindən bəhs edən bir elmdir*"* **(2.s,24).**

"...Üslubiyyat nitq üslublarını, üslubi priyomları və dilin ifadəlilik vasitələrini və onların ifadə olunan məzmuna münasibətini tədqiq edən dilçilik şöbəsidir"**(5. s, 8).**

"...Məntiqi olaraq, "üslubi fonetika","üslubi leksika", "üslubi morfologiya", "üslubi sintaksis" anlayışları özünü doğrultmur,çünki əgər üslubiyyata materialı fonetika, morfologiya və sintaksis verirsə, onda bu üslubiyyat sahələri "fonetik üslubiyyat", "leksik üslubiyyat","sintaksis üslubiyyat" terminləri ilə əvəz edilsə, daha məqsədəuyğun sayılar" **(1. s, 11).**

Üslubiyyata verilən ayrı-ayrı təriflər bir daha onu göstərir ki, filologiyanın bu sahəsi dil materialını xüsusi bir istiqamətdə təhlil edən bir elmdir.Buna görə də, üslubiyyat deyərkən dil üslubları haqqında, müxtəlif nitq vasitələrinin işlədilməsinin qanunauyğunluğunu öyrənən elm başa düşülməlidir.

1992-ci ildə ***Prof. A.Qurbanovun*** nəşr etdirdiyi "Dil və üslub" əsəri də öz məzmunu və mahiyyəti, elmi yeniliyi ilə diqqəti xüsusi olaraq cəlb edir. Əsərin məziyyətlərindən biri də budur ki, tədqiqatçı linqvistik üslubiyyatın təkcə əlamət və xüsusiyyətlərindən danışmaqla kifayətlənməmiş, həmçinin onun növləri haqqında da məlumat verib göstərmişdir ki, dilçilik üslubiyyatının mövzu və məqsədindən asılı olaraq aşağıdakı növləri meydana gəlmişdir: a) ümumi və xüsusi üslubiyyat; b) nəzəri və təcrübi üslubiyyat; c) təsviri, tarixi və müqayisəli üslubiyyat **(8. s,161).**

Dilçilik üslubiyyatının ciddi tədqiqata ehtiyacı olan məsələlərdən biri də praktik üslubiyyatdır.Praktik üslubiyyatın başlıca vəzifəsi üslubi normaları öyrənmək və tətbiq etməkdir.

Görkəmli üslubiyyatçı ***M Kojina*** yazır: **"**Praktik üslubiyyatın vəzifəsi tədbiqi normativ fənn kimi tədris və mətbuat vasitəsi ilə nəzəri üslubiyyatın prinsiplərini həyata keçirməkdir.... praktik üslubiyyat danışanı üslubi duyma əsasında tərbiyə etməlidir, onu bu və ya digər funksional üslubun normaları ilə tanış etməlidir" Bu üslubiyyat dilin üslubları haqqında ümumi məlumatları, dil vasitələrinin emosional-ekspressiv boyalarını, dil vasitələrinin sinonim-liyini, ədəbi dilin üslubi normalarını və fərdi üslubları əhatə edir. Praktik üslubiyyat şəraitdən, məzmun və məqsəddən asılı olaraq nitqin müxtəlif imkanlarını, dilin bədii keyfiyyətlərini öyrənir" **(5.s. 11).**

Praktik üslubiyyatın əsas məqsədi bədii mətnləri təhlil etmək, dilin leksik, morfoloji və sintaktik üslubi rəng və ayrıntılarını açıqlamaqdır. Onun əsas vəzifəsi üslubi normaları öyrənmək və tətbiq etməkdir. Belə olduqda, üslubi normalar nitqin *düzgünlük, dürüstlük təmizlik ifadəlilik, rəngarənlilik, münasiblik* kimi xüsusiyyətlərinin yaranmasına kömək göstərir.

DOI:10.30546/gdu.5.2025

Praktik üslubiyyatın məqsəd və vəzifələri aşağıdakı problemlər üzrə dəqiqləşdirilir və istiqamətləndirilir:

1) Praktik üslubiyyat funksional üslublarla bağlı olduğuna görə onlar haqqında ümumi məlumat verməlidir, çünki dil vahidlərinin nitq prosesində seçilməsi və onlardan istifadə bu və ya digər funksional üslubun rəngləri və boyaları ilə əlaqədar mümkündür.

2) Praktik üslubiyyatın ikinci vəzifəsi nitq üçün son dərəcə önəmli olan dil vahidlərinin hiss – həyəcan və ifadəlilik, məna çalarlarını təyin etməkdir, yəni emosional və ekspressiv və həm də emosional-ekspressiv fərqləndirmələrini.

3). Praktik üslubiyyatın zəruri vəzifələrindən biri sinonimik dil vahidlərini, yəni sinonim sözlər və sinonim cümlə növlərini və sinonimik morfoloji vasitələri-şəkilçiləri öyrənmək və ortaya çıxarmaqdır ki, bu da nitq prosesi, funksional üslubların fəaliyyəti zamanı gerçəkləşə bilər. **(1,s.48)**

Bundan da belə aydın olur ki, üslubiyyatın əsas vəzifəsi dili bütün struktur boyu öyrənməkdir, yəni həm səsləri, həm formaları, həm işarələri və onların ayrı-ayrı hissələrini.

D.Rozental praktik üslubiyyatın mövzusuna aşağıdakı məsələləri daxil edir:

1. Dil üslubları haqqında məlumat
2.Dilin ekspressiv-emosional rəng bildirən təsvir vasitələri
3.Dil vasitələrinin sinonimliyi **(10, s.10)**

Buna görə də üslubiyyat deyərkən dil üslubları haqqında, müxtəlif nitq vasitələrinin işlədilməsinin qanunauyğunluğunu öyrənən elm başa düşülməlidir.

Praktik üslubiyyata aid aid məsələlərdən biri də orta məktəbdə ana dilinin tədrisi ilə bağlı *üslubiyyat məşğələləridir*.Əgər qrammatik məşğələlərin məqsədi dilin ümumi normalarını öyrənmək yolu ilə şagirdlərə düzgün nitq mənimsətməkdirsə, üslubiyyat məşğələlərinin məqsədi də fikir və hisslərimizin rəngarəng cəhətlərini ifadə etmək üçün dilin ixtiyarında olan bütün vasitələri öyrənməklə nitqin aydın və dəqiqliyini təmin etməkdir.

Proqramda V sinifdən başlayaraq XI sinfə qədər Azərbaycan dilində əməli yazılar ucun xüsusi saatlar ayrılmışdır. Lakin muşahidələr onu gostərir ki, muəllimlər əməli yazılar ücün ayrılan bu saatlardan səmərəli istifadə etmirlər. Əvvəla, proqramda əməli yazılar ucun muəyyən edilən saatlar cox azdır. Orta məktəbi qurtaran bəzi şagirdlərin ərizə, tərcumeyi-hal, protokol və s.yaza bilməmələrini nəzərə alaraq, muəllimlərin bu sahəyə diqqət yetirmələri vacibdir. Proqramda muxtəlif siniflərdə şagirdlərə nəyi öyrətməyin lazım olduğu qeyd edilmişdir. Məsələn, V sinifdə əməli təlimat (hansı işi necə yerinə yetirməli), elan, VII sinifdə divar qəzeti ücün qeydlər, gorulmuş iş haqqında hesabat, VIII sinifdə ərizə, protokol, tərcumeyi-hal (bu əməli yazılar ucun standart formanın, ştampların xarakterik olması), IX sinifdə protokol (nisbətən murəkkəb forması),hesabat (gorulmuş konkret iş uzrə), arayış, X-XI siniflərdə etibarnamə,tərcumeyi-hal, bəyanat və b. əməli yazıların adları qeyd olunmuşdur. Lakin Azərbaycan dili dərsliklərində əməli yazı numunələrinə təsaduf edilmir.

X-XI sinif şagirdləri ucun yazılmış "Azərbaycan dili dərsliklərində ərizə, arayış, bildiriş, akt, etibarnamə, muqavilə kimi əməli yazı numunələri oz əksini tapmışdir. Hər sinif dərsliyində bu cur əməli yazı numunələrinin verilməsi cox faydalı olardı.

Ə.Əfəndizadənin "Orta məktəbdə imla" (Bakı, 1993), ***Z.Əliyevanın*** "İfadə yazı ucun mətnlər" (Bakı, 1974) kitablarında da əməli yazı numunələrinə təsaduf olunmur. ***M.Aslanovun*** "İfadə yazı mətnləri" (Bakı, 1974) kitabında ərizə, tərcumeyi-hal, vəkalətnamə numunələri verilmişdir.

Son illərdə ***Hüseyn Hüseynovun*** "Əməli yazılar" (Bakı,1995) kitabcası isə ancaq bu məsələyə həsr olunmuşdur. Muəllimlər yeri gəldikcə mənbələri göstərilən əməli yazılardan

DOI:10.30546/gdu.5.2025

istifadə edə bilərlər. Əməli yazıları elə öyrətmək lazımdır ki, orta məktəbi qurtaran hər bir şagird onlardan istifadə etməyi bacarsın.

Son illərdə ***Şəmil Sadiq, Elxan Nəcəfov və Arif Əsədov*** tərəfindən hazırlanmış "Azərbaycan dili" kitabında kifayət qədər əməli yazı numunələri

verilmişdir Muəllimlər bu numunələrdən geniş istifadə edə bilərlər. Müxtəlif usullardan istifadə etməklə əməli yazılar dərs prosesində yoxlanılır və noqsanlar aradan qaldırılır**.(11,s.49)**

Kamran Əliyev abituriyentlər üçün Azərbaycan dili dərsliyində işgüzar sənədlərin dili barədə məlumat verərək qeyd edir ki, "... bu sənədlər xüsusi dövlət əhəmiyyəti daşımır, konkret məsələ ilə bağlı tərtib edilir.İşgüzar sənədlər bunlardır: ərizə, tərcümeyi-hal, izahat, elan, bildiriş, reklam, anons, afişa, arayış, protokol, rəy, teleqram, annotasiya, akt. İşgüzar sənədlər həcmcə, adətən, rəsmi sənədlərə nisbətən kiçik olur və onlarda bəhs olunan məsələ barəsində daha konkret, daha aydın məlumat verilməsi, həmçinin imla xətalarının olmaması bu cür sənədlərin mükəmməlliyini, yararlılığını müəyyən edir.İşgüzar sənədlərin hazır formaları olur ki, bu və ya digər məsələ ilə bağlı göstərişlər həmin hazır formalra yazılır.Bu ona görə vacibdir ki, sənəddə artıq sözlər, ifadələr işlədilməsin, imla xətalarına, cümlə qüsurlarına yol verilməsin.Sənədlərin savadlılıq dərəcəsi cəmiyyətin mədəni səviyyəsini göstərir **(4, s.111**).

Demək, yuxarıda qeyd olunan fikirlərdən belə qənaətə gəlmək olar ki, sözü seçib öz yerində düzgün işlətmək, sözün məna çalarlarını mətndə nəzərə almaq, fikri daha təsirli ifadə edən vasitələr tapmaq imkanlarını öyrənmək üslubiyyatın vəzifəsidir.

Mövcud durumda üslubiyyat üzrə məktəb kursunda proqramın tələbinə uyğun olaraq I yarımildə "Üslubiyyat haqqında məlumat","Azərbaycan ədəbi dilinin üslubları", "RNİ: əməli yazı (referat)","Bədii üslub nədir?", "Sözün poetik funksiyası (poetizm)", Keçilmişlərin təkrarı","I yarımildə keçilənlərin testlərlə yoxlanması" movzuları daxil edilmişdir. II yarımildə məktəb kursunda "Üslubiyyat"məşğələlərinə 34 saat vaxt verilmişdir **(12)**.

Proqramın məzmunundan aydın olur ki, bilik, bacarıq və vərdişlərin müəyyən edilməsi və reallaşdırılmasında başlıca olaraq 2 istiqamət diqqət mərkəzində saxlanılır:1) Mənimsənilmiş bilik, bacarıq və vərdişlərdən davamlı təhsil prosesində istifadə olunması;2). Qazanılmış bilik və bacarıqlardan praktik fəaliyyətdə istifadə edilməsi.

Prof. Y.Seyidovun redaktəsi ilə nəşr edilmiş V-XI siniflər üçün Azərbaycan dili proqramında qeyd olunur:

"Üslubiyyat üzrə aparılan məşğələlərdə şagirdlər bilməlidirlər:

-üslubiyyat anlayışının mahiyyətini;

-funksional üslubların təzahür formalarını;

-fərdi üslubun xüsusiyyətlərini.

"*Üslubiyyat üzrə aparılan məşğələlərdə şagirdlər bacarmalıdırlar:*

-üslubiyyatı dilçilik elminin bir şöbəsi kimi fəqrləndirməyi;

-funksional üslubları bir-birindən fərqləndirməyi;

-fərdi üslubu ayırmağı" **(7, s. 58)**.

Müasir dövrdə fəal təlimin quruluşuna uyğun olaraq hazırlanmış proqramda qeyd olunur ki,.."Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə şagird:

- dinlədiyi fikirlərlə bağlı mühakimələrini əsaslandırır;
- Azərbaycan dilində aparılan tədbirlərdə çıxış və təqdimatlar edir;
- oxuduğu mətnlərin məzmunu və üslubu haqqında rəy və mülahizələrini bildirir; -nitqin müxtəlif üslub və tiplərində mətnlər qurur;

-sərbəst tərcümə bacarığı nümayiş etdirir" **(13).**

DOI:10.30546/gdu.5.2025

Ümumtəhsili başa vuran hər kəs təhsilini müxtəlif formalarda müstəqil davam etdirməli, həyatını, fəaliyyətini istədiyi kimi qurmalı olur. Bunun üçün özünün idraki, hissi və psixomotor imkanlarına əsaslanır, dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarından istifadə edir. Eyni zamanda cəmiyyətin bir üzvü kimi həyatda praktik fəaliyyət göstərir. Azərbaycan dili təliminin məzmununu, strateji imkanları müəyyənləşdirilərkən bunlar nəzərə alınır.

Mədəni nitqə yiyələnmək üçün dilin yalnız leksik-qrammatik normalarını gözləmək kifayət etmir. Bunun üçün nitq üslubi cəhətdən də düzgün qurulmalıdır.Yəni danışarkən elə sözlər seçilməli, cümlələr elə qurulmalıdır ki, fikir dəqiq vəaydın ifadə oluna bilsin. Danışan və ya yazan işlətdiyi hər bir sözün əhəmiyyətini,onun nəzərdə tutulan fikrin ifadəsi üçün nə dərəcədə yararlı, dəqiq olmasınınəzərə almalıdır. Həm danışıq, həm də yazıda hər hansı bir söz öz həqiqimənasından başqa, digər mənalarda da işlənilir. Mənadan doğan forma rəngarəngliyidilin üslubi imkanları əsasında yaranır ki, bütün bunlar dilin üslubiyyat bəhsində öyrənilir. Şagirdlər Azərbaycan dilinin fonetik, leksik və qrammatik imkanlarını həm nəzəri, həm də praktik cəhətdən öyrənilməli, nitqin dəqiqliyi, yığcamlığı, ahəngdarlığı,bədiiliyi üçün üslubi imkanlardan yerində, ünsiyyətin tələblərinə uyğun istifadə etməyi, ədəbi dilimizin ifadə vasitələrindən konkret şəraitlə bağlı yararlanmağı bacarmalıdır.

Fonetik, leksik, morfoloji, sintaktik normalar ədəbi dilin strukturu iləbağlı olub nitqin düzgünlüyünü təmin edirsə,üslub normaları leksik-qrammatik normaların bir növ törəməsi olub nitqin gözəlliyini, ifadəliliyini, dəqiqliyini artırmaqla ünsiyyəti asanlaşdırır, onun təsirli, cəlbedici olmasını, danışan, oxuyan və dinləyənin ən incə məqamları, mətləbləri ifadə və dərk edə bilməsini təmin edir.

Fonetik vasitələr nitq prosesində işlənmə yerinə, məqamına görə müəyyən üslubi mahiyyət kəsb edir ki, onlardan ən başlıcası ahəngdarlıqdır. Ahəngdarlıq nitqin səlisliyi, gözəlliyi, onun dinləyənə xoş təsir bağışlamasıdır.Məsələn,

Al ilə ala gözlərin aldadıb aldı könlümü,
Alın gör nə al edər, kimsə irişməz alinə (İ.N)

Dilimiz öz təbiətinə, səslənməsinə görə ahəngdar dillərdən biridir. Bu ahəngdarlığı yaradan bir sıra vasitələr, xüsusiyyətlər vardır ki, onlardan ən başlıcası lüğət tərkibinə daxil olan sözlərin özünəməxsus strukturudur, başqa sözlə, səsdüzümüdür. Xalq zəkasının, müdrikliyinin ümumiləşdirilmiş bədii ifadəsi olan atalar sözü, zərbi-məsəl və aforizmlərdən ünsiyyət prosesində geniş istifadə olunur. Bu yığcam, müdrik, obrazlı ifadələr öz dərin mənaları ilə yanaşı, gözəl səslənməyə də malikdir.Orada səslərin, xüsusən samit səslərin alliterasiyası, saitlərin assonansı deyilişdə ahəngdarlıq yaradır, qulağayatımlı edir. Məsələn,

Əl mənim, ətək sənin;Gec gələn qonaq öz kisəsindən yeyər; Uşağı yemək böyütməz, fərəh böyüdər; Ərənlər üçəcən deyiblər; Gözələ göz dəyər, qəlbə söz; Gördü hənək, görmədi dəyənək; Kiçikdən xəta, böyükdən əta. İt əl çəkdi motal əl çəkmədi;Çatana çatır, çatmayana bir daş atır;Torpağını torba ilə daşıtdırmaq; Taylı tayını tapmasa, günü ah-vaynan keçər;Çala, çala çalağan olar.(Atalar sözləri)

Danışıq zamanı üslubi effekt və səlislik yaratmaq, lüzumsuz təkrarlara yol verməmək, fikin daha təsirli,ifadəli və dəqiq ifadə edilməsi məqsədilə rəngarəng sinonimlərdən istifadə olunur ki, onlar nitqin təsir gücünü artırır, emosionallıq və ekspressivlik yaradır ki,onlar incə məqamları ifadə etmək üçün geniş və rəngarəng üslubi imkanlara malikdir. Sinonimləri bilmək, onları nitqdə işlətməyi bacarmaq dili praktik sürətdə və yüksək səviyyədə bilməyin əlamətidir.

Məsələn, *Sübdən axşama kimi Səməd ağaca sərikli çığırardı, bağırardı və ağzına gələni də qardaşına deyərdi.(Y.V.Çəmənzəminli)* *- Söz*

DOI:10.30546/gdu.5.2025

bir olar, iki yox, Müqim! Yoxsa Alagözü lap bəbəklərinin içindən çıxaracağam, bildin, qandın, anladınmı? (S.Rəhimov)

Nitq hissələrinin də dilimizin üslubi cəhətdən zənginləşməsində geniş imkanları vardır.Onlar cümlədə həm öz morfoloji funksiyasını yerinə yetirir,həm də nitqin aydınlığını,yığcamlığını, səlisliyini, təsirliliyini təmin edir.Nitq hissəsinin yaratdığı üslubi çalarlıq onun leksik məna növləri, mənsubiyyət, hal, kəmiyyət, xəbərlik kateqoriyaları üzrə dəyişməsində özünü göstərir.

Şagirdlərin nitqinin üslubca zənginləşdirilməsi üçün qrammatikanın sintaksis hissəsinin xüsusi əhəmiyyəti vardır. Azərbaycan dili tədrisinin başqa sahələrinə nisbətən sintaksisin üstünlüyü ondadır ki, burada ayrı-ayrı mövzuların öyrədilməsi ilə əlaqədar olaraq şagirdlərə üslubi elementlər haqqında məlumat vermək imkanı vardır.Elə bir sintaktik vahid,quruluş yoxdur ki, nitqin üslubca zənginləşməsində bu və ya digər dərəcədə iştirak etməsin. Belə ki, dilin ən ifadəli vasitələri olan obrazlı vahidlər və məcazlar, eyni zamanda, sintaktik-üslubi fiqurlar rəngarəng üslubi imkanlara malikdir.Bu üslubi vasitələr, əsasən, leksikaya (məcazlar, frazeoloji ifadələr və s.) və sintaksisə (cümlə konstruksiyalarının üslubi xüsusiyyətləri, sintaktik fiqurlar və s.) aiddir. Nitqin üslubi rəngarəngliyinin təmin edilməsində dilin bədii təsvir vasitələrinin (metafora, metonimiya, sinekdoxa, epitet, müqayisə, bənzətmə,mübaliğə, tabu sözlər və s.) də rolu böyükdür.

Məktəb kursunda şagirdləri yüksək nitq mədəniyyətinə yiyələndirmək üçün həmin aspekt üzrə aparılan praktik işlərin keyfiyyətini artırmağa xüsusi diqqət yetirilməli,Azərbaycan xalqının zəngin ədəbi irsini, ən gözəl hikmətli parçaları, müdrik kəlamları seçib onlardan yeri gəldikcə istifadə etməyə səy göstərilməlidir.

Ədəbiyyat

1.Əfəndiyeva T. Azərbaycan ədəbi dilinin üslubiyyat problemləri. Bakı,2001
2.Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1992
3. Abdullayev A. Üslubiyyat məşğələlərinin metodikası. Bakı,1961
4. K.Əliyev. Azərbaycan ədəbi dilinin praktik üslubiyyatı. B-1992
5. Kojina M. Stilistika russkoqo yazıka. Mockва, 1977
6.Həsənov H. Nitq mədəniyyəti və üslubiyyatın əsasları.Bakı,1999
7.Ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün Azərbaycan dili proqramı, Bakı, 2002
8. Qurbanov A. Ümumi dilçilik.”Maarif”, II cild, Bakı,1993
9. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, 1966
10. Rozental D. Praktiçeskaya stilistika russkoqo yazıka. Mockва,1974
11.Sadiq Ş, Nəcəfov E, Əsədov A. “Azərbaycan dili” II nəşr,Bakı,2009
12.http://www.tehsilproblemleri.com/?p=11215
13.Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili (Dövlət dili kimi) fənn üzrə Təhsil Proqramı (Kurikulimu) (I-XI siniflər) Bakı,2013

ВАЖНЫЕ СТИЛИСТИЧЕСКИЕ ВОПРОСЫ ПРЕПОДАВАНИЯ ЯЗЫКА: БОГАТЫЙ СЛОВАРНЫЙ ЗАПАС, ВЫРАЗИТЕЛЬНЫЙ ЗАПАС И ЭЛЕГАНТНОЕ ПРОИЗНОШЕНИЕ

Кулиева Тахира Адуррахман кызы

Резюме

Стилистика – раздел языкознания, изучающий стили речи, стилистические принципы и средства выразительности языка и их отношение к выражаемому содержанию. Здесь чрезвычайно важно для речи определить смысловую окраску и

DOI:10.30546/gdu.5.2025

выразительность, оттенки значения языковых единиц. , изучать и применять на практике стилистика (стилистические нормы).

STYLISTIC ISSUES IN LANGUAGE TEACHING: RICH VOCABULARY, EXPRESSIVENESS, AND ELEGANT PRONUNCIATION

Guliyeva Tahira Abdurraxman

Summary

Stylistics is a branch of linguistics that studies speech styles, stylistic devices, and expressive means of language, and their relationship to the content being expressed. Here, the most important aspects of speech are to determine the emotionality, expressiveness, and shades of meaning of language units, and to study and apply practical stylistics (stylistic norms).

Rəyçi: dosent0 Gülarə Hüseynova
Daxil olma tarixi18 sentyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 231-233

DOI:10.30546/gdu.5.2025

UOT: -37.01

1-2-Cİ SİNİFLƏRDƏ "MÖVZU ÜZRƏ RƏSM" MƏŞĞƏLƏSİNİN TƏDRİSİNDƏ FƏAL TƏLİM METODLARINDAN İSTİFADƏ YOLLARI

Məmmədova Aybəniz Əli qızı, Musayeva Xəyalə Eyvaz qızı
Gəncə Dövlət Universiteti
sebine-sabina-memmedova@mail.ru

Xülasə: *Məqalədə ibtidai siniflərdə "Mövzu üzrə rəsm" məşğələsinin tədrisində fəal təlim metodlarının rolu və onların tətbiq yolları araşdırılır. Şagirdlərin yaradıcı düşüncə və təsəvvür qabiliyyətinin inkişafı baxımından bu metodların əhəmiyyəti vurğulanır. Müasir pedaqoji yanaşmaların tətbiqi ilə dərsin məhsuldarlığı artır və şagirdlərdə maraq və motivasiya formalaşır.*

Açar sözlər: fəal təlim, mövzu üzrə rəsm, ibtidai sinif, yaradıcı inkişaf, metodika
Ключевые слова: активное обучение, тематический рисунок, начальная школа, творческое развитие, методика
Keywords: active learning, thematic drawing, primary school, creative development, methodology

Təsviri incəsənət təhsili, xüsusilə ibtidai sinif şagirdlərinin yaradıcı və estetik təfəkküründün formalaşmasında mühüm yer tutur. 1-2-ci siniflərdə bu prosesin daha səmərəli həyata keçirilməsi üçün müəllimlər müasir və fəal təlim metodlarına üstünlük verməlidirlər. "Mövzu üzrə rəsm" məşğələsi şagirdlərə müşahidə etdiklərini ifadə etmək, duyğu və təəssüratlarını rəng və forma vasitəsilə təqdim etmək imkanı yaradır. Bu prosesdə müəllimin pedaqoji yanaşması və istifadə etdiyi üsullar həlledici rol oynayır.

Fəal təlimin əsasları

Fəal təlim dedikdə, şagirdin dərsdə passiv deyil, aktiv iştirak etməsi nəzərdə tutulur. Bu metodlarda şagird yalnız müəllimin dediklərini dinləyən deyil, araşdıran, sorğulayan və nəticə çıxaran bir fərd kimi yetişir.

Fəal təlimin əsas xüsusiyyətləri:

Problemyönlü düşüncə
Tənqidi yanaşma
Əməkdaşlıq və qrup fəaliyyəti
Şəxsi təcrübəyə əsaslanma

Bu metodlar şagirdin diqqətini cəlb etməklə yanaşı, onun marağını artırır və dərsi mənimsəməsini asanlaşdırır.

"Mövzu üzrə rəsm" Məşğələsinin Strukturu

Bu məşğələdə dərsin gedişi əsasən aşağıdakı mərhələlər üzrə təşkil olunur:

1. Mövzu seçimi və şagirdlərlə fikir mübadiləsi
2. Vizual materiallarla tanışlıq (şəkillər, videolar, nümunələr)
3. Eskizlərin çəkilməsi və ilkin ideyaların paylaşılması
4. Rəsmin yerinə yetirilməsi
5. Nəticələrin təqdimatı və qiymətləndirilməsi

Hər bir mərhələdə fəal təlim metodlarından istifadə dərsin keyfiyyətini artırır.

Fəal Təlim Metodlarının Tətbiqi

1. Klaster üsulu (qrafik sxemlə düşüncə inkişafı): Şagirdlər mövzu ilə bağlı fikirlərini vizual olaraq qeyd edir, mövzu ilə əlaqəli anlayışları təsvir edirlər.

DOI:10.30546/gdu.5.2025

2. Rol oynama: Şagirdlər müəyyən obrazlara girərək onların hiss və düşüncələrini ifadə etməyə çalışır, bu da yaradıcı təsvirə səbəb olur.

3. Qrup işi və ortaq rəsm: Kiçik qruplarda işləyərək birgə kompozisiyalar hazırlamaq həm əməkdaşlığı, həm də sosial bacarıqları inkişaf etdirir.

4. Sən tamamla: Müəllim başlanğıc hissəni təqdim edir, şagirdlər həmin rəsmi yaradıcı şəkildə tamamlayır.

5. "Təsəvvür et və çək": Uşaqlara müəyyən bir səs, nağıl, əhvalat təqdim olunur, onlar həmin təsəvvür əsasında çəkirlər.

İnkişaf Etməyə Yardımçı Vasitələr

İKT vasitələri: İnteraktiv lövhə, video təqdimatlar, rəqəmsal eskiz proqramları

Əlavə vizual materiallar: Reproduksiyalar, fotoşəkillər, sənət əsərləri

Motivasiyaedici suallar: "Sən bu səhnəni çəkən olsaydın, necə təsvir edərdin?", "Baş qəhrəmanın yerində olsaydın, nə hiss edərdin?"

Bu vasitələr vasitəsilə dərs həm əyləncəli, həm də öyrədici olur.

Qiymətləndirmə və Rəy

Şagirdlərin rəsmləri yalnız texniki keyfiyyətə görə deyil, fikir və təsəvvür zənginliyinə görə də qiymətləndirilməlidir. Müəllim rəyində şagirdin fərdi inkişafını nəzərə almalı və onu ruhlandırmalıdır. Aşağıdakı meyarlardan istifadə oluna bilər:

Mövzuya uyğunluq, Rənglərin seçimi, Kompozisiya quruluşu, Fikirin təqdimat.

Fəal təlim metodları ilə aparılan "Mövzu üzrə rəsm" məşğələləri şagirdlərdə yaradıcı düşüncə, müstəqil fikir yürütmə və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir. Bu yanaşma təhsilin keyfiyyətini yüksəltməklə yanaşı, uşaqlarda sənətə və ümumilikdə dərsə maraq formalaşdırır. Müasir təhsil konsepsiyası çərçivəsində bu metodların istifadəsi zəruridir.

Ədəbiyyat

1. Əliyev H., Məmmədova S. (2021). Fəal təlim metodları və tətbiqi yolları. Bakı: Maarif Nəşriyyatı.
2. Məmmədli T. (2020). İbtidai siniflərdə təsviri incəsənətin tədrisi metodikası. Bakı: Elm və Təhsil.
3. Qasımova L. (2022). Uşaqlar və yaradıcılıq: məktəbəqədər və ibtidai təhsil dövründə təsviri fəaliyyət. Gəncə: GDU nəşriyyatı.
4. Дьяченко О.М. (2019). Методика преподавания изобразительного искусства в начальной школе. Москва: Просвещение.
5. H. Gardner (2006). Multiple Intelligences: New Horizons. New York: Basic Books.

ПУТИ ИСПОЛЬЗОВАНИЯ АКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ НА ЗАНЯТИЯХ ПО ТЕМАТИЧЕСКОМУ РИСОВАНИЮ В 1–2-Х КЛАССАХ

Мамедова Айбаниз Али кызы, Мисаева Хаяла Ейваз кызы

Резюме

В статье рассматриваются роль и методы применения активных методов обучения на занятиях по тематическому рисованию в начальных классах. Подчеркивается значение этих методов для развития творческого мышления и воображения у учащихся.

DOI:10.30546/gdu.5.2025

WAYS OF USING ACTIVE LEARNING METHODS IN THEMATIC DRAWING LESSONS IN GRADES 1–2

Mammadova Aybaniz Ali, Musayeva Xayala Eyvaz

Summary

The article examines the role and implementation of active learning methods in teaching thematic drawing in the first and second grades. The importance of these methods in fostering students' creative thinking and imagination is emphasized.

Rəyçi: dosent Hüseynov Akif
Təsviri incəsənət kafedrasının 30 aprel 2025-ci il 08 saylı protokolu
Daxil olma tarixi 12 iyun 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 234-236

DOI:10.30546/gdu.5.2025

UOT:796.

YANIQLAR VƏ DONMALAR ZAMANI MÜALİCƏ BƏDƏN TƏRBİYƏSİ

Həsənov Etibar Firuddin oğlu, Əlizadə Ülvi Hüseyn oğlu
Gəncə Dövlət Universiteti

Xülasə: *Yanıq xəstəliyində orqanizmin fəaliyyəti çox məhdudlaşır, xəstə uzun müddətdə fəal hərəkətdən qalır. Bu şəraitdə müalicə bədən tərbiyəsinin aparılması çox böyük müalicəvi xüsusiyyət kəsb edir. Müalicə bədən tərbiyəsilə müntəzəm məşğul olan xəstələrdə həm sistemlərin fizioloji fəaliyyətinin bərpası, həm də orqanizmin fiziki yükə readaptasiyası, onun müqavimət qüvvəsi, ümumi və xüsusi fəaliyyətinin tez bərpa olmasına zəmin yaranır.*

Donmalarda sinir, ürək – damar və başqa sistemlərin kəskin pozğunluqlarının nəzərə alaraq, müalicə bədən tərbiyəsini həmin üzv və sistemlərin xəstəliklərində aparılan müalicə bədən tərbiyəsi formasında aparılması daha çox müsbət nəticə verir.

Açar sözlər: yanıq xəstəliyi, yanıq dərəcələri, müalicə bədən tərbiyəsi, donmalar zamanı müalicə

Ключевые слова: ожоговая болезнь, степени ожогов, лечение физкультурой, лечение обморожений

Key words: burn disease, degrees of burns, physical therapy, frostbite treatment

Yanıqlar-yüksək hərarət, elektrik cərəyanı, kimyəvi maddələr və radiasiyanın təsirindən toxumaların tamlığının pozulması kimi yaranan patoloji prosesə deyilir. Yanıqlar ağırlığına görə 4 dərəcəyə bölünürlər.

I dərəcəli yanıqla yanmış nahiyənin rəngi qızarır, ağır olur

II dərəcəli yanıqla qızartı və ağrı ilə yanaşı sulu qabarlar əmələ gəlir

III dərəcəli yanıqda sulu qabarlar partlayır, açıq yara əmələ gəlir

IV dərəcəli yanıqda həmin yerdə bütün toxumalar ölür və hətta "kömürləşmə" olur.

Kliniki müşahidələr göstərir ki, çox zaman yanığın bir neçə dərəcəsi birdən baş verir. Orqanizmin bütün səthinin 5% yuxarı yanığı zamanı xəstənin müalicəsi mütləq klinikada aparılmalıdır.

Yanığın sağalması və nəticəsi onun nahiyəsindən və dərəcəsindən asılıdır. Məsələn, boyunda və böyük oynaqların ətrafında baş verən yanıqlar çox zaman birləşdirici toxumanın inkişafı ilə qurtarır ki, bu da oynaqlarda hərəkətin kəskin məhdudlaşdırılmasına (kontraktura) səbəb olur.

III – IV dərəcəli yanıqlarda toxumaların parçalanma məhsulu orqanizmə zəhərləyici təsir göstərə bilər. Nəticədə mərkəzi sinir, ürək – damar, tənəffüs, ifrazat, endokrin və başa sistemlərin fəaliyyəti pozulur ki, bütün bu simptomların cəmi yanıq xəstəliyi kimi üzə çıxır.

Yanıq xəstəliyi 4 əsas dövrdə keçir:

1. Yanıq şoku
2. Kəskin yanıq toksemiyası
3. Septikotoksemiya
4. Rekonvalestsensiya (sağalma)

Yanıq şoki geniş sahədə yanğı törədən amilin təsirindən yaranan kəskin ağrının nəticəsində baş verir. Belə yanıqların 20% - ölümlə qurtarır. Yanıq zamanı xəstəliyin ilk dövründə ürək – damar və böyrəklərin funksiyası kəskin pozulur, bəzən sidiyin ifrazı tam kəsilir (anuriya). Kəskin yanıq toksemiyası (zəhərlənməsi) geniş sahədə yanığın 3 – 4 –cü günü müşahidə olunur. Bu, yanıq sahəsində toxumaların parçalanma məhsullarının və orada çoxalan mikrobların toksinlərinin qana keçib bütün orqanizmi zəhərlənməsindən irəli gəlir. Xəstənin vəziyyəti çox ağırlaşır, yuxusu pozulur, hərarəti artır, psixi pozğunluq yaranır. Əgər

DOI:10.30546/gdu.5.2025

yanığın müalicəsi gecikdirilərsə, həmin sahə irinləyir, yanıq septikotoksemiyası inkişaf edir. Xəstənin vəziyyəti kəskin ağırlaşır, hərarəti 40 – 41^0 –yə qalxır, bütün sistemlərin fəaliyyəti pozulur, pnevmoniya, mədə yarası kimi ağırlaşmalar olur.

Xəstə gündə 30 – 40 q. Zülal itirdiyindən çox arıqlayır, əzələləri çox atrofilləşir. Belə xəstənin müalicəsi uzun çəkir və bəzən ölümlə nəticələnir. Belə yanıqlatın müalicəsində dermatom autoplastikadan (yəni xəstənin özünün başqa nahiyələrindən götürülən dərinin yanıq nahiyələrinə köçürülməsi) istifadə olunur. Eyni zamanda kompleks müalicə aparılır (dərmanlar, xüsusi qida, müxtəlif zülali məhsullar və s.)

Yanıq xəstəliyində orqanizmin fəaliyyəti çox məhdudlaşır, xəstə uzun müddətdə fəal hərəkətdən qalır. Bu şəraitdə müalicə bədən tərbiyəsinin aparılması çox böyük müalicəvi xüsusiyyət kəsb edir. Müalicə bədən tərbiyəsilə müntəzəm məşğul olan xəstələrdə həm sistemlərin fizioloji fəaliyyətinin bərpası, həm də orqanizmin fiziki yükə readaptasiyası, onun müqavimət qüvvəsi, ümumi və xüsusi fəaliyyətinin tez bərpa olmasına zəmin yaranır.

Fiziki hərəkətlərin baş beyin qabığında oyanma və ləngimə proseslərinə göstərdiyi reflektor təsir bu proseslərin fizioloji çərçivə daxilində nizamlanmasına, beyin qabığı ilə daxili üzvlər arasında normal əlaqənin bərpasına, maddələr mübadiləsinin normal səviyyədə getməsinə və beləliklə xəstəliyin bərpa dövrünün qısalmasına səbəb olur.

Xəstənin hərəkət rejimindən asılı olaraq müalicə bədən tərbiyəsi müxtəlif formalarda aparıla bilər:

1. Səhər gigiyenik gimnastikası
2. Müalicə gimnastikası
3. Sərbəst məşğələ və s.

Bütün bu formalarda mexano və əməm terapiyasından, masajdan, mütəhərrik oyunlardan istifadə etmək olar.

Müalicə bədən tərbiyəsinə xəstə şok halından çıxdıqdan sonra başlamaq lazımdır. Yanıq xəstəliyinin II və III dövründə aparılan müalicə bədən tərbiyəsinin məqsədi:

1. Mərkəzi sinir sisteminin fəaliyyətini normaya qaytarmaq
2. Daxili üzvlərdə ağırlaşmaların qarşısını almaq
3. Kardioserpirator sistemin normal fəaliyyətini bərpa etmək
4. Toxumaların trofikasını nizamlamaq.
5. Oynaqların hərəkətliyini saxlamaq

Hipostatik pnevmoniyanın profilaktikası kimi tənəffüs hərəkətlərinə geniş yer verilir. Xəstənin tam zəiflədiyi dövrdə müalicə bədən tərbiyəsini ehtiyatla aparmaq lazımdır. Hərəkətlərin 36 – 38^0 suda aparılması atrofilləşmiş əzələlərin işini asanlaşdırır.

Donmalar zamanı müalicə bədən tədbiyəsi

Aşağı temperaturun təsirindən yerli və ümumi donma baş verir. Məlumdur ki, insan orqanizminin hərarəti nisbi sabitdir (36 – 37^0)Bu hərarət soyuğun təsirindən aşağı düşə bilər. Hərarət 30^0-yə qədər endikdə toxumalarda bir sıra patoloji dəyişikliklər yaranır. 25^0 –dən aşağı düşməsi ilə ölümlə nəticələnir.

Donmalar yerli pozğunluğa görə 4 dərəcəyə bölünür:

I dərəcəli donmada həmin nahiyənin rəngi ağarır (damarlar büzüldüyünə görə) və ağrılar olur.

II dərəcədə isə donmuş nahiyədə isə serozlu maye ilə dolu suluqlar əmələ gəlir.

III dərəcədə isə donmuş nahiyədə dərinin hüceyrələri ölür, suluqlar partlayır və açıq yara əmələ gəlir.

IV dərəcədə nahiyənin bütün toxumaları, sümük və oynaqlar pataloji prosesə tutulurlar.

I və II dərəcəli donmalar da düzgün müalicə aparıldıqda tam sağalma, III dərəcəli donmaların çoxu çapıq (birləşdirici) toxumasının inkişafı ilə nəticələnir. IV dərəcədə

DOI:10.30546/gdu.5.2025

donmalarda (yuxarı və aşağı ərtaflarda) həmin nahiyəni kəsib atmaq (amputasiya) lazım gəlir. Donmalar erkən və tam müalicə olunmadıqda bir sıra fəsadlara və ağırlaşmalara səbəb olur (limfadenit, irinli artrit, osteomielit və s.).

Donmaların müalicəsinə çox erkən başlamaq lazımdır. İlk növbədə onların qan dövranını 30 – 36^0 –li su vannalarında masajın köməyilə fəallaşdırılır. Sonrakı dövrlərdə ölmüş toxumaları aradan götürmək, infeksiya yayılmasının qarşısını almaq, dəri autoplastikası aparmaq, bütün toxumaların ölmüş hissəsini amputasiya etmək və başqa tədbirlər görülməlidir. Donmalar zamanı müalicə bədən tərbiyəsi yanıqlardakı kimi aparılır.

III – IV dərəcəli donmalarda damarların spazması nəticəsində toxumaların oksigenlə təmini pozulur. Yaranmış hipoksiyanı aradan götürmək üçün müalicə bədən tərbiyəsinə başlamaq lazımdır.

Donmalarda sinir, ürək-damar və başqa sistemlərin kəskin pozğunluqlarının nəzərə alaraq, müalicə bədən tərbiyəsini həmin üzv və sistemlərin xəstəliklərində aparılan müalicə bədən tərbiyəsi formasında aparılması daha çox müsbət nəticə verir.

Ədəbiyyat

1. H.İ.Qasımov.,Q.M.Cəvərov.“İdman təbabəti müalicə bədən tərbiyəsi masaj”. Bakı. Mütərcim. 2002
2. H.İ.Qasımov. “İdman təbabəti. Bakı “Təbib” 1992
3. M.Ə.Babayev., A.A.Əliyev., V.H.Quliyev. “İdman təbabəti və gigiyena”. Bakı. 2012
4. Flənku İ.P. “Osnovı gigiyenı i pitaniya”. “Mediçina”. 2005
5. Dembo A.T. “Vraçebnıy kontrol v sporte” Moskva. “Mediçina” 1988

ЛЕЧЕНИЕ ФИЗКУЛЬТУРОЙ ПРИ ОЖОГАХ И ОБМОРОЖЕНИЯХ

Гасанов Этибар Фуруддин оглы, Ализаде Ульви гусейнович

Резюме

При ожоговой болезни активность организма резко ограничивается, и больной длительное время не может двигаться. В этих условиях лечебная физкультура имеет весьма значительную терапевтическую ценность. У больных, регулярно занимающихся лечебной физкультурой, закладывается основа для восстановления физиологического функционирования систем, а также реадаптации организма к физической нагрузке, его устойчивости, быстрого восстановления общей и специфической активности.

Учитывая острые нарушения со стороны нервной, сердечно-сосудистой и других систем при отморожениях, проведение лечебной физкультуры в форме лечебной физкультуры, проводимой при заболеваниях этих органов и систем, дает более положительные результаты.

PHYSICAL TREATMENT FOR BURNS AND FROSTBITE

Gasanov Etibar Furuddin Əlizadə Ülvi Hüseyn oğlu

Summary

In case of burn disease, the body's activity is sharply limited, and the patient cannot move for a long time. In these conditions, therapeutic exercise has a very significant therapeutic value. In patients who regularly engage in therapeutic exercise, the foundation is laid for the restoration of the physiological functioning of systems, as well as the body's readaptation to physical activity, its stability, and the rapid restoration of general and specific activity. Considering the acute disorders of the nervous, cardiovascular and other systems in frostbite, therapeutic exercise in the form of therapeutic exercise, carried out for diseases of these organs and systems, gives more positive results.

Rəyçi: baş müəllim Cabbarov Urfan
Bədən tərbiyəsi və idman kafedrasının 18 sentyabr 2025-ci il tarixli iclasın 8 saylı protokolu
Daxil olma tarixi 25 sentyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 237-239

DOI:10.30546/gdu.5.2025

UOT:355.

TAM ORTA MƏKTƏBLƏRDƏ GƏNCLƏRİN HƏRBİ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ İŞİNİN TƏŞKİLİ

Hüseynov Fikrət Bəhlul oğlu, Babayeva Nurlana B.
Gəncə Dövlət Universiteti

Xülasə: *Məqalədə, müasir dövrdə gənclərin milli adət-ənənələrə hörmət etməsindən, vətənə olan sevgi hissindən və hərbi biliklərə yiyələnməsindən, onların hərbivətənpərvərlik tərbiyəsi işində aktivliyinin daha da artırılmasından danışılır. Hərbi-vətənpərvərlik tərbiyəsinin uğurla həyata keçirilməsi, tam orta ümumtəhsil məktəblərində tədris prosesinin düzgün təşkili və quruluşu müxtəlif üsulların tətbiqindən asılılılğından bəhs edilir.*

Açar sözlər: Hərbi vətənpərvərlik; pedaqoji; milli-mənəvi; fəlsəfi; müstəqillik; sinifdənkənar; milli qəhrəman.

Ключевые слова: военная подготовка, педагогическая, национальная, военно-политическая ситуация, программа преподавания

Key words: military training, pedagical, national, militarily-political situation, the program of teaching

Azərbaycanın geosiyasi mövqeyi, regiondakı mürəkkəb hərbi-siyasi vəziyyət və dövlətimizin milli maraqlarının qorunması bu sahənin strateji əhəmiyyətini dahada artırır. Hərbi vətənpərvərlik tərbiyəsi-gənclərin vətənə məhəbbət hissini, dövlətə bağlılıq və hərbi nizam-intizamı ruhunda formalaşdırılması prosesidir. Bütün bu fəlsəfi, pedaqoji, psixoloji və sosioloji elmlərə əsaslanır. Fəlsəfi baxımdan vətənpərvərlik dəyərləri insanın mənəvi kamilliyinə, milli kimliyinə əsaslanır. Pedaqoji yanaşmada isə hərbi-vətənpərvərlik tərbiyəsi tədris proqram mövzularının məzmununa inteqrasiya edilməklə, müəllim-şagird münasibətləri çərçivəsində həyata keçirilir. Psixoloji yanaşma, gənclərin emosional inkişafı və motivasiyasını əsas götürərək, onların hərbi xidmətə hazır olması üçün zəruri şəxsi keyfiyyətlərin formalaşdırılmasına diqqət yetirir. Bu sahədə beynəlxalq təcrübələrin öyrənilməsi, eləcə də Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin nəzərə alınması xüsusi əhəmiyyətkəsb edir. Müasir məktəblərdə bu sahədə rast gəlinən problemlərdən biri şagirdlərin vətənpərvərlik ruhunun zəifliyi və çağrışaqədərki hazırlıq dərslərinin yetərincə maraqlı olmamasıdır. Pedaqoji baxımdan bu problem, tədris proqramlarının məzmununda yetərli dərinliyin olmaması və müəllimlərin hazırlıq səviyyəsinin qeyri-kafiliyi ilə əlaqədardır. Psixoloji aspektlərdə isə gənclərin milli kimliyə bağlılıq hissinin zəifləməsi, texnoloji asılılıq və sosial şəbəkələrin təsiri diqqət çəkir. Bu problemlərin həlli üçün hərbi vətənpərvərlik tərbiyəsinə innovativ yanaşmalar tətbiq edilməli, yeni texnologiyalardan istifadə edilməli və gənclərin bu prosesdə fəal iştirakı təmin olunmalıdır. Hərbi-vətənpərvərlik tərbiyəsinin elmi-nəzəri əsasları onun pedaqoji, psixoloji və fəlsəfi baxışlara söykənməsindən irəli gəlir. Bu tərbiyə növü gənclərin milli-mənəvi dəyərlərə əsaslanan vətəndaşlıq məsuliyyəti ilə formalaşması prosesidir. Müasir dövrdə vətənpərvərlik anlayışı yalnız vətənə məhəbbət hissi kimi deyil, həm də dövlətin ərazi bütövlüyünün müdafiəsində fəal iştirak üçün zəruri olan bilik və bacarıqların inkişafı kimi qəbul edilir. Fəlsəfi yanaşma baxımından vətənpərvərlik, insanın öz millətinə və dövlətinə bağlılığını ifadə edən mənəvi konsepsiyadır.

Azərbaycan milli-mənəvi dəyərlərinin bu anlayışdakı yeri xüsusi əhəmiyyət daşıyır. Xüsusilə, müstəqillik, Dövlət sərhəddinin qorunması uğrunda aparılan mübarizə və bu mübarizənin qəhrəmanlarının gənclərə nümunə olaraq təqdim edilməsi, onların şüurunda vətənpərvərlik hisslərini gücləndirir.Pedaqoji baxımdan hərbi-vətənpərvərlik tərbiyəsi, ümumi təhsil proqramlarının tərkibində əsas istiqamət kimi nəzərdən keçirilir. Bunun üçün

DOI:10.30546/gdu.5.2025

müəllimlərin elmi və metodiki hazırlığının səviyyəsi mühüm rol oynayır. Eyni zamanda fənlərarası inteqrasiya, sinifdənxaric və məktəbdən kənar tədbirlərin təşkili bu tərbiyənin effektivliyini artırmaqda mühüm vasitələrdən biridir. Psixoloji yanaşma isə gənclərdə şəxsiyyətin formalaşma prosesində emosional, mənəvi və davranış komponentlərinin vətənpərvərlik dəyərlərinə uyğun olaraq inkişaf etdirilməsini nəzərdə tutur. Bu prosesdə motivasiya və liderlik keyfiyyətlərinin təkmilləşdirilməsi əsas amillərdən biridir. Hərbi-vətənpərvərlik tərbiyəsinin nəzəri əsaslarının tədqiqində beynəlxalq təcrübənin öyrənilməsi də mühüm rol oynayır. Müxtəlif ölkələrin təcrübəsində bu tərbiyənin müxtəlif metodlarla həyata keçirildiyi müşahidə olunur. Azərbaycan üçün bu təcrübənin yerli dəyərlərlə inteqrasiyası xüsusi maraq doğurur. Tam orta ümumtəhsil məktəblərində hərbi-vətənpərvərlik tərbiyəsi, tədris proqramlarının məzmununda vətənpərvərlik dəyərlərinin əks etdirilməsi ilə başlayır. Bu prosesdə çağrışaqədərki hazırlıq dərsləri xüsusi yer tutur. Şagirdlərə vətənin müdafiəsini, intizamı, dövlətə sədaqət və qürur hissi aşılanmalı, onlarda məsuliyyət hissi formalaşdırılmalıdır.

Müəllimlərin bu prosesdə rolu danılmazdır. Onlar yalnız bilik vermək deyil, həm də gənclərin emosional və mənəvi inkişafına töhfə verməlidirlər. Bunun üçün müəllimlərin pedaqoji bacarıqları və metodik hazırlığı artırılmalıdır. Sinifdənkənar və məktəbdənkənar tədbirlər vasitəsilə şagirdlərə vətənpərvərlik nümunələri göstərilməli, milli qəhrəmanların, qazilərin həyat hekayələri ilə tanışlıq təşkil edilməlidir.Tədris prosesində interaktiv metodlardan və müasir texnologiyalardan istifadə bu sahədə 238nnovative yanaşmalardır. Şagirdlərə müxtəlif simulyasiyalar, hərbi oyunlar və layihələr vasitəsilə real situasiyaları anlama və həll etmək imkanı yaradılmalıdır.

Vətənpərvərlik tərbiyəsi yalnız tədris prosesində deyil, həm də məktəb həyatının digər sahələrində inteqrasiya olunmalıdır. Tarixi ekskursiyalar, şəhidlərin xatirəsinə həsr olunmuş tədbirlər və milli bayramlar bu istiqamətdə xüsusi əhəmiyyət daşıyır.

Hərbi-vətənpərvərlik tərbiyəsinin effektivliyini artırmaq üçün praktik fəaliyyətlər ön plana çəkilməlidir. Bu fəaliyyətlər gənclərin vətənə bağlılığını artırır və hərbi bilik və bacarıqlarını təkmilləşdirir. Tarixi abidələrə və şəhidlər xiyabanına ekskursiyalar, vətənpərvərlik mövzulu seminarlar və müsabiqələr bu istiqamətdə xüsusi əhəmiyyət kəsb edir.

Hərbi idman oyunları, simulyasiya proqramları və hərbi təlimlər gənclərin vətənpərvərlik hisslərini real təcrübə ilə zənginləşdirir. Bu cür fəaliyyətlər, həmçinin, onların fiziki hazırlığını və psixoloji dözümlülüyünü artırır. Müharibə iştirakcıları, silahlı qüvvələr veteranları və qazilərlə görüş gənclərdə vətənə sədaqət hisslərini dahada gücləndirir. Şəhidlərin xatirəsinin anılması və bu qəhrəmanların həyat hekayələrinin təqdim edilməsi gənclərdə vətənə olan məhəbbət hissini güclərdirir. Könüllülük fəaliyyəti də praktik təcrübənin bir hissəsi kimi nəzərdən keçirilir. Gənclər könüllü olaraq hərbi-vətənpərvərlik tədbirlərində iştirak etməli, vətənin müdafiəsi ilə bağlı tədbirlərə cəlb olunmalıdırlar. Hərbi-vətənpərvərlik tərbiyəsində qarşılaşdığımız əsas problemlərdən biri müasir dövrdə gənclərin vətənpərvərlik hisslərinin zəifləməsidir. Bu, qloballaşma, texnoloji asılılıq və 238nnova şəbəkələrin təsiri ilə əlaqədardır.Tədris proqramlarında mövzuya kifayət qədər yer ayrılmaması, müəllimlərin peşəkar hazırlıq səviyyəsinin aşağı olması və metodiki çatışmazlıqlar bu sahədə problemlər yaradır. Həmçinin, gənclərin motivasiyasının az olması və praktik tədbirlərin yetərli olmaması da diqqətə alınmalı məsələlərdir.

Bu problemlərin həlli üçün vətənpərvərlik tərbiyəsinə 238nnovative yanaşmalar tətbiq edilməli, texnologiyadan səmərəli istifadə edilməli və gənclərin bu prosesə daha aktiv cəlb olunması təmin edilməlidir.Gələcəkdə vətənpərvərlik tərbiyəsinin inkişafı üçün dövlət dəstəyi

DOI:10.30546/gdu.5.2025

artırılmalı, təhsil proqramlarına yeni metodikalar əlavə edilməli və məktəblərdə bu mövzuda tədqiqatların aparılması təşviq edilməlidir.

Ədəbiyyat

1. Hərbi bilik jurnalları 2015-2018.
2. İ.B.Əsgərov, T.R.Fərzəliyev. İbtidai hərbi təlimin metodikası. Bakı- 1999.
3.X.Q.Fətəliyev. Məktəbdə hərbi vətənpərvərlik tərbiyəsi. Bakı-1987.
4. İnternet resursları.

ОРГАНИЗАЦИЯ ВОЕННОЙ ПОДГОТОВКИ МОЛОДЁЖИ В СРЕДНЫХ ШКОЛАХ

Гусейнов Фикрет Бахлул оглы, Бабайева Нурлана

Резюме

В статье говорится об уважение к национальным традициям, о любви к родине и освоение военных знаний у молодёжи. Такие упоминается о правильной военной подготовки, об организации в средних школах, о правильной вы стройни системы и средств военной подготовки.

THE ORGANİZATİON MİLİTARİYTRAİNİNG FOR YATH İN SECONDARY SCHOOL

Guseynov Fikret Bekhlul, Babayeva Nurlana

Summary

In this arikle speaks about respect to national traditions, about respect to national traditions, about love of country and studying youth of military knavledge. Also speaks about organization system military schools.

Rəyçi:baş müəllim Məmmədova Mahnur
Daxil olma tarixi 30 sentyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 240-245

DOI:10.30546/gdu.5.2025

UOT:355.

MÜLKİ MÜDAFİƏDƏ İSTİFADƏ OLUNAN FƏRDİ VƏ TİBBİ MÜHAFİZƏ VASİTƏLƏRİ

Babayeva Sara Fərman qızı, Hüseynov Fikrət Bəhlul oğlu,
Ağayeva Elmira Cəbrayıl qızı
Gəncə Dövlət Universiteti

Xülasə: *Müasir qırğın silahlarından mühafizə məqsədilə əhalinin mühafizə qurğularında daldalandırılması, təhlükəli sahələrdən köçürülməsi ilə yanaşı, fərdi mühafizə və tibbi mühafizə vasitələrindən vaxtında və düzgün istifadə etməsi də çox vacib əhəmiyyətə malikdir. Bu mühafizə vasittələrindən istifadə ediməsi lüzumu onunla izah edilir ki, nüvə, kimyəvi və ya bakterioloji silah işlədilərkən əhali, qoşunlarn, mülki müdafiə dəstələrinin şəxsi heyəti müəyyən müddət radiaktiv maddələr (RM), zəhərləyici maddələr (ZM), yaxud bakterial vasitələriə (BV) zəhərlənmiş sahələrdə və ya atmosferdə qalmalı, ya da burada xilasetmə işiəri aparmalı olacaqlar.*

Açar sözlər: əleyhqaz, respirator, pambıq maska, aptekçə FMV, mühafizə, müdafiə

Ключевые слова: противогаз, респиратор, хлопчатый маска, аптекча ЧП, охрана, зашита

Keywords: respiratore, the mask, defence, securance, farmacy FMV

Fərdi mühafızə vasitələri bunlardan ibarətdir: - tənəffüs orqanların mühafizə vasitələri; - dəri səthinin miihafizə vasitələri; - tibbi mühafızə vasitələri.

Tənəffüs orqanlarını mühafızə vasitələrinə aiddir: - əleyhqazlar; - respiratorlar; - toz əleyhinə parça maska PTM-1; - pambıq-tənzif sarğı (VMP); - "Lepestok" tipli ən sadə vasitələr.

Əleyhqazlar. Əleyhqaz nəfəs orqanlarını, gözləri və insanın üz hissəsini radioaktiv, zəhərləyici və bioloji maddələrdən, işıq şualanmasının təsirindən və yandırıcı maddələrdən qoruyur.

Əleyhqazların aşağıdakı növləri mövcuddur: Mülki əleyhqazlar- QP-5, QP-5M,QP-7, QP-7V.

Uşaq əleyhqazları- DP-6, DP-6M, PDF-7, PDF-7D, PDF-7Ş.

Sənaye əlneyhqazları- Təcridedici əleyhqazlar - (İP-4, İP-46) və ya təcridedici oksigen cihazları (KİP-5, KİP-7, KİP-8).

Süzücü əleyhqazların ümumi quruluşu: - Süzücü-uducu qutu; - əleyhqazın üz hissəsi (şlem-maska); - çanta; - əleyhqazın üzlük hissəsindəki gözlüyün şüşələrini tərdən qoruyan tərləməyən plyonka, yaxud xüsusi qələm də daxildir. Onların iş prinsipi- insanın nəfəs aldığı havanı çirkli maddələrdən təmizləyərək, filtrləşdirmək.

Qutu ibarətdir: Dəmir qutunun içinə yerləşdirilmiş xüsusi uducular və tüstü əleyhinə suzgəcdən. Üz hissəsi ibarətdir: Rezin şlem-maskadan eynək qurğusu ilə. Klapan qovşağından.

QP-5 əleyhqazları (5 ölçüdə-0,1,2,3,4), (membranlı şlemmaskalar 4 ölçüdə) buraxılır.QP-5 əleyhqazları.

QP-5 əlyhqazı ibarətdir: 1, 4 - şlem-maskadan; 2- filtr-uducu qutudan; 3- çantadan; 5- tərləməyən plonkadan; 6- membrandan; 7- manjetlərdən.

QP-5 tipli əleyhqazların üzlük hissəsini seçərkən başı: yanaqlar-çənəaltı hissədən keçən dairəvi xətt üzrə ölçürlər. Alman nəticəni 0.5 sm-ə qədər yuvarlaqlayırlar.

Süzücü əleyhqaz QP-5-in üzlük hissəsini seçmək üçün adamın üzünün ölçülməsi

DOI:10.30546/gdu.5.2025

qaydası.Ölçünün nəticəsi Şlem-maskanın ölçüsü 63 sm qədər 0 63.5-dən 65 sm-ə qədər 1 65.5-dən 68 sm-ə qədər 2 68,5-dən 70.5 sm-ə qədər 3 71 sm - dən artıq 4

QP-7 tipli əleyhqazlar iki növdə buraxılır: QP-7 və QP-7V, onlar bir-birindən üzlük hissələri ilə fərqlənir. QP-7 əleyhqazı suiçmə tərtibatı olmayan MQP tipli üzlük hissə ilə komplektləşdirilir. QP-7V əleyhqazı isə su içmək üçün onda xüsusi qurğunun olması ilə fərqlənir. QP-7 əleyhqazları 3 ölçüdə olurlar: 1,2,3.

Şaquli çevrə - başı, kəllə-yanaqlar-çənəaltı hissə üzrə keçən dairəvi xətt ilə ölçməklə müəyyən edilir. Süzücü əleyhqaz QP-7-nin üzlük hissəsinin seçilməsi; a) üfüqi; b) şaquli.

Süzücü əleyhqazlara sənaye əleyhqazları da aid edilir. Onlar süzücü-uducu qutuları ilə fərqlənir. Sənaye əleyhqazlarına xüsusən kimya müəssisələrində işlədilən əleyhqazlar aiddir. Bu əleyhqazların qutuları xüsusiləşdirilmişdir, yəni müəyyən bir zəhərli maddədən mühafizə üçün nəzərdə tutulmuşdur, ona görə də qutunun tərkibində müxtəlif uducular və aerozol süzgəcləri ola bilər.

Mülki müdafiə sistemində yaşlı əhalinin mühafizəsi üçün R-2, ŞB-1 “Lepestok” daha geniş tətbiq edilir. R-2 və ya U-2K respiratorları tənəffüs üzvlərini radioaktiv tozlardan qorumaq üçün nəzərdə tutulmuşdur .

Süzücü respiratorların iş prinsipi ona əsaslanır ki, insanın tənəffüs orqanları yarımmaska vasitəsilə ətraf havadan təcrid edilir, nəfəs alınan hava isə aerozollardan süzücü materiallar paketində təmizlənir. Süzücü yarımmaska üç qat süzücü materialdan hazırlanmışdır. Xarici qat boz rəngli penopoliuretan materialdandır, daxilə hava keçirməyən polietilen plyonkaya iki ədəd nəfəsalma klapanı quraşdırılıb. Xarici qatla polietilen plyonka arasında polimer lifdən ibarət süzücü material yerləşdirilmişdir. Nəfəsvermə klapanı yarımmaskanın ön hissəsinə quraşdırılmış və xarici ekranla örtülmüşdür. Respiratorun sıxacı var, burunun ətrafında maskanı sıxıb üzə kipləşdirmək üçündür.

Yarımmaska başa başlıq hissə vasitəsilə bərkidilir ki, o da iki ədəd elastik və iki qeyri - elastik qaytanlardan ibarətdir. Elastik qaytanların toqqaları var, onlar vasitəsilə qaytanları başın ölçüsünə görə nizamlamaq mümkündür.

Nəfəs alarkən hava yarımmaskanın xarici səthində keçib süzülərək tozdan təmizlənir və nəfəsalma klapanlarında tənəffüs orqanlarına daxil olur. Nəfəs verərkən hava nəfəsvermə klapanından xaricə kənar edilir.

Onlar FH zamanı ilkin öz-özünə və qarşılıqlı tibbi yardım məqsədilə tətbiq edilir.

Uşaq əleyhqazları.

Uşaq əleyhqazları quruluşca müxtəlifdir: DP-6 uşaq əleyhqazları 1,5 yaşdan yuxarı kiçikyaşlı uşaqlar üçündür. Bu əleyhqaz DP-6M tipli yüngülləşdirilmiş süzücü-qutudan və üzlük hissə olaraq dörd (1.2.3.4) ölçülü MD-1 maskasından (uşaq maskası, 1-ci tipli) ibarətdir. müəyyən edilir. DP-6 əleyhqazı böyük yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. İri ölçülü süzücü-uducu qutu və üzlük hissə olaraq yalnız 5-ci ölçülü MD-1 maskası ilə komplektləşdirilmişdir. PDF-7 əlehqazları kiçik və böyük yaşlı uşaqlar üçündür- QP-5 tipli süzücü-uducu qutudan və üzlük hissə olaraq dörd (1.2.3.4) ölçülü MD-3 maskalarından ibarətdir. PDF-Ş əleyhqazı 7 yaşdan 17 yaşa qədər olan uşaqlar üçündür; QP-5 tipli süzücü-uducu qutudan və üzlük hissə olaraq iki ölçülü MD-3 maskaları və ya dörd (0.1.2.3) ölçülü şlem- maskalardan ibarədir. İbarətdir: - Süzücü qutu - QP-7K - Üz hissəsi (maska uşaq üçün 4-cü növ) - Üz hissəst gövdə və birləşdirici borudan ibarətdir. Əleyhqazın üz hissəsi 2 ölçüdən ibarətdir - 2,3. Uşaq əleyhqazlarının quruluşu (yuxarıda göstərilən xüsusiyyətlər istisna edilməklə) və iş prinsipi yaşlı adamlar üçün olan əleyhqazlarınkı kimidir.

DOI:10.30546/gdu.5.2025

Təcridedici əleyhqazlar- (İP-4, İP-46).

Təcridedici əleyhqazlar İP-4, İP-5 və ya təcridedici oksigen cihazları (KİP-5, KİP-7, KİP- 8) adamın tənəffüs orqanlarını ətrafdakı havadan tamamilə təcrid edir; nəfəs almaq üçün regenerativ (bərpaedici) patrondan alınan, yaxud oksigen balondan verilen oksigendən istifadə olunur. Belə əleyhqaz və cihazlar: havada ZM-in konsentrasiyası çox yüksək olduğu üçün ZM süzücü qutudan "keçmək" qorxusu yaradan və süzücü əleyhqaz etibarlı surətdə mühafizəni təmin etməyən hallarda; havada karbon 2-oksidin konsentrasiyası yüksək olduqda işlədilir. Oksıgenlə təchizetmə prinsipinə görə təcridedici əlyehqaz və cihazlar iki qrupa ayılır: - kimyəvi əlaqəli oksigenlə təchiz edən cihazlar - sıxılmış oksgenlə təchiz edən cihazlar.

Birinci qrupa İP-4, İP-46 M əleyhqazları aiddir.

İkinci qrupa İP-5, KİP-7, KİP-8 cihazları aiddir.

Respiratorlar

Tənəffus orqanlarnı radioaktiv maddə və bakterial vasitə aerozollarından (tozlarından), habelə zəhərli tüstilərdən mühafizə ücün respiratorlardan istifadə olunur. ZM buxarılarndan mühafizə üçün respiratorlar yararlı deyil. Yaşlı əhali üçün R-2, növlü respiratorlar mövcuddur. R-2 respıratoru süzücü yarmarkasından ibarətdir ki, ondan dəfələrlə istifadə etmək və 12 saatadək mühafizə olunmaq mümkündür. Respiratorlar əleyhqaza nisbətən daha yüngül, istifadə üçün daha sadə, rahat mühafizə vasitələridir. Lakin respiratorlar nəfəs orqanlarını havada zərərli maddələr yolverilən yüksək konesntrasiyasadan 10-15 dəfəyədək artıq olmayan hallarda mühafizə edir.

Tənəffiis orqanlarını mühafizə edən ən sadə vasitələr.

Belə vasitələrdən əhali respirator kimi istifadə edə bilər. Bunlar quruluşca çox sadədir, ona görə də əhalinin özü tərəfindən hazırlanan kütləvi vasitəsi olaraq işlədilməsi tövsiyə edilir. Tənəffüs orqanlarının ən sadə mühafizə vasitələrinə tozdan qoruyan parça maska PTM-1 və pambıqlı tənzif sarğı aiddir. Hər bir adamın iş ve yaşayış yerində belə mühafizə vasitələri olmalıdır.

Tozdan qoruyan PTM-1 parça maskası iki əsas hissədən - maskanın gövdəsindən və bərkidici hissədən ibarətdir. Maskanın gövdəsi 2-4 qat parçadan hazırlanır, onun göz yerləri olur ki, buraya şüşə lövhəcikləri (və ya hər hansı şəffaf material, plyonka) salınır. Maska başa onun yan kənarları boyu tikilmiş parça zolaq bərkidici hissə vasitəsilə geyilir

Fərdi tibbi mühafizə vasitələri (FTMV)

FTMV - fövqəladə hallar vaxtı zədələnmiş əhalinin profilaktikası və ona tibbi yardım göstərmək üçün nəzərdə tutulmuşdur. Bu vasitələrin köməyi ilə adamların həyatını xilas etmək, zədələnmənin qarşısını almaq yaxud onu xeyli dərəcədə zəiflətmək, bir sıra zəhərləyici amillərin təsirinə qarşı orqanizmin dayanıqlığını artırmaq mümkündür. Tabel üzrə olan fərdi tibbi mühafizə vasitələrinə aiddir: - fərdi aptekçə Aİ-2, Aİ-3, - kimya əleyhinə fərdi paket İPP-8, İPP-9; - fərdi sarğı paketi (MPP).

Bunlara radioprotektorlar, antidotlar və bakteriya əleyhinə maddələr, habelə qismən sanitariya təmizlənməsi vasitələrdaxildirlər. Radioprotektorlar - ionlaşdırıcı şüalanmanın təsir dərəcəsini zəiflədən maddələrə deyilir. Hazırda bunlardan ən çox istifadə ediləni həb şəklindəki sistamin adlı maddədir. Bu həbləri şüalanmadan 30-40 dəqiqə əvvəl qəbul etmək məsləhətdir. Antidotlar - ZM-in təsirini qarşısını alan və ya zəiflədən maddədir. Sinir-iflicedici təsirli, sianid turşusuna və digər sianlara, lüizitlə və qıcıqlandırıcı ZM-yə qarşı antidotlar vardır. Fosforlu-üzvü maddələr (FÜM) əleyhinə - afin, taren, atropin və s. sianidlərə qarşı - amiltitrit, propilnitrit adlı; lüizitə və arsin tərkibli digər maddələrə qarşı - unitol adlı antidotlar mövcuddur. Bu antidotlardan həm profilaktika, həm də ilk tibbi yardım vasitəsi kimi istifadə etmək mümkündür. Bakteriya əleyhinə maddələr - spesifik və qeyri spesifik profilaktika vasitələri növlərinə ayrılır. Spesifik profilaktika vasitələrinə zərdablar, vaksinlər,

DOI:10.30546/gdu.5.2025

anatoksinlər və bakteriofaqlar aiddir. Bu vasitələrin bəziləri fərdi apteçkədə cəmlənmişdir

Aİ-2 fərdi aptekçə. Aİ-2 fərdi aptekçəsində (fərdi dərman qutusunda) insan orqanizminə ionlaşdırıcı şüalanmalalarm, ZM və BV-nin təsirinin qarşısına alan və ya bu təsiri zəiflədən, habelə şok halının qarşısını alan preparatlar olur. Apteçkənin (fərdi dərman qutusunun) içərisində yanıqlar, yaralanmalar zamanı (ağrını aradan qaldırmaq üçün) öz-özünə və qarşılıqlı yardım üçün lazım olan, radioaktiv, zəhərli və qəza təhlükəli kimyəvi maddələrin təsirini azaltmaq, aradan qaldırmaq və yoluxucu xəstəliklərin qarşısının alınması üçün lazım olan vasitələr olur. Apteçkə narıncı rəngli plastik materialdan düzəldilmiş (fərdi dərman qutusu) yuvaciqlara malik, 90x100x20 mm ölçüdə, 130 qr çəkiyə malik plastmas qutudur. Havanın soyuq vaxtı maye halında olan dərman vasitələrinin donmaması üçün onu paltarın içəri cibində saxlamaq lazımdır. Dərman qutusunun yuvaciqlarında aşağıda göstərilən dərman maddələri yerləşdirilir: Yuvacıq № 1 - Sümüklər sınarkən, ağır yaralanma və geniş yanıqlar ağrı şokunun inkişaf etməsinə qarşı ağrıkəsən dərman - 1 ml 2%-li promedol məhlulu işlədilir; ağrıkəsici vasitə, şpris -tübikdə hazır halda olur. Sınıqlar zamanı, geniş sahəli yaralar, yanıqlarda istifadə edilir. Təcili hallarda inyeksiyanı paltarın üstündən də yeritmək olar. Yuvacıq № 2 - fosforüzvi zəhərləyici maddələrlə zəhərlənmələr zamanı istifadə olunan antidot. Zəhərlənmə təhlükəsi olduqda antidot qəbul edilir və bundan sonra əleyhqaz geyilir. Yuvacıq № 3 - antibakterial vasitə. Preparatdan radiasiyanın təsirindən yaranan mədə-bağırsaq pozuntularında, yoluxucu xəstəliklərin profilaktikasında istifadə edilir. Yuvacıq № 4 - radiasiyadan qoruyucu vasitə. Radiasiya təhlükəsi olduqda qəbul edilir. Yuvacıq № 5 - geniş təsir spektrli antibakterial vasitə. Yoluxucu xəstəliklərlə yoluxma təhlükəsi olduqda və ya yoluxma baş verdikdə, geniş ölçülü yanıq və yaralarda təcili profilaktik vasitə kimi istifadə olunur. Yuvacıq № 6 - radiasiyadan qoruyucu vasitə. Preparat atom elektrik stansiyasında baş verən qəzadan sonra, radiasiyalı ərazidə otlayan inəyin təzə südündən içdikdə 10 gün müddətində qəbul olunur. Preparat orqanizmə südlə daxil olan radioaktiv yodun qalxanvari vəz tərəfindən tutulmasının qarşısını alır. Yuvacıq №7 - qusmaya qarşı vasitə. Başda olan zədələnmələr,beyin silkələnmələri zamanı, eyni zamanda radioaktiv şüalanma baş verdikdə qusmanın profilaktikası məqsədi ilə istifadə olunur.

Kimya əleyhinə fərdi paket (İPP)- dəri səthinin ZM damcıları və ya dumanı ilə habelə radioaktiv maddə və bakterial vasitə aerozolları ilə zəhərlənmiş açıq sahələrini və bu sahələrə toxunan paltar hissələrini qismən sanitariya təmizlənməsindən keçirmək üçündür. İPP-81. Maye olan şüşə flakon; 2. 4 ədəd pambıq-tənzif salfetd; 3. yaddaş.Zəhərli kimyəvi maddələr əleyhinə paketlərdən insanın paltarına, bədəninə, fərdi qoruyucu vasitələrə və alətlərə düşmüş damcı- maye halda olan zəhərli, kimyəvi təhlükəli zəhərli maddələrin zərərsizləşdirilməsi məqsədi ilə istifadə olunur. Paketə 125-135 m! şüşə flakonda olan deqazasiyaedici vasitə və 4 pambıq - cuna tampon daxildir. Paket sellofan kisəcikdə yerləşdirilib. İstifadə zamanı paket açılır, tamponlardan biri flakonda olan məhlulla isladılır. İsladılmış tamponla dərinin açıq sahələri, əleyhqazın şlem- maskası silinir. Yenidən isladılan tamponla paltarın yaxalığı, manjetlər təmizlənir. Maye dəriyə qısa müddətli qıcıqlandırıcı təsir edir. Amma bu iş qabiliyyətinə təsir etmir. Yadda saxlamaq lazımdır ki, paketdə olan maye zəhərlidir və gözlər üçün təhlükəlidir. Buna görə də gözlərin ətrafını quru tamponla silib 2 %-li soda məhlulu ilə təmizləmək lazımdır. Bir sıra ZM, xüsusən fosforlu-üzvi maddələr hətta fiziki zədələnməsi olmayan dəri örtüyündən bədənə sürətlə sorula bildiyi üçün deqazasiyanın səmərəliliyi zəhərlənmədən sonra sanitariya təmizlənməsinə başlanması müddətindən bilavasitə asılı olur. Qismən sanitiriya təmizlənməsi ZM mühafizə edilməmiş dəri örtüyünə tə'sir göstərmədən sonrakı 5 dəqiqə müddətində keçirilsə, onda təmizlənmə son dərəcə səmərəli olacaqdır.

DOI:10.30546/gdu.5.2025

İPP-9

Fərdi sarğı paketi yanıqlara, yanıq yerlərinə sarğı qoymaq, habelə bə'zi növ qanaxmaları dayandırmaq üçün işlədilir. Fərdi sarğı paketindən yara səthinə birincili sarğı qoyulması məqsədi ilə istifadə edilir. O, bintdən (10 sm enində, 7 m uzunluğunda) və iki ədəd pambıq -cuna yastıqcıqdan ibarətdir. Yastıqcıqlardan biri hərəkətsiz halda bintin bir kənarına tikilib, digər yastıqcıq isə bint uzunu hərəkətlidir. Adətən bint və yastıqcıqlar mumlanmış kağıza bükülmüş halda sellofan və ya perqament kağızından olan üzlüyə (çexola) qoyulmuş halda olur. Paketin içində eyni zamanda sancaq da olur. Üzlüyün üzərində paketdən istifadə qaydası yazılır. Paketdən istifadə edərkən onu sol əldə tutub sağ əllə üzlüyün çərtilmiş kənarından dartaraq yapışdırılmış hissə qoparılır və içərisində mumlanmış paket və sancaq çıxarılır. Kağız örtüyün büküşündən sancağı çıxarıb müvəqqəti olaraq göz önündə paltara bərkidin. Mumlanmış kağız örtüyü ehtiyatla açıb sol əlinizdə bintin pambıq-cuna yastıqcıq tikilmiş kənarından tutun və sağ əlinizlə binti açın. Bu zaman ikinci yastıqcıq sərbəst açılır ki, onu bint boyu hərəkət etdirə bilərsiniz. Yastıqcıqların bir üzü qırmızı saplarla tikilib. Yardım göstərən vacib olduqda əlləri ilə yalnız yastıqcığın bu üzünə toxuna bilər. Yastıqcıqların digər tikişlər olmayan səthi yaranın üzərinə qoyulur. Kiçik yaralanmalarda yastıqcığın biri yara üzərinə qoyulur. Böyük ölçülü yaralarda, yanıqlarda hər ikisi yanaşı qoyulur. Deşilmiş ikitərəfli yaralarda yastıqcığın biri yaranın giriş, digəri isə çıxış hissəsinə qoyulur. Sonra dairəvi gedişlə yara bintlənib sancaqla bərkidilir. Paketin üzlüyünün daxili səthi steril olduğu üçün hermetik sarğıların qoyulmasında istifadə edilir. Paket əleyhqazlar üçün olan xüsusi çantalarda və ya paltarın cibində saxlanılır.

Dəri səthinin mühafizə vasitələri

DSMV - bədənin açıq sahələrini, paltarları və ayaqqabıları onların səthinə zəhərləyici maddələrin (ZM) damçıları, yoluxucu xəstəlik törədiciləri, radioaktiv toz düşməsindən, həmçinin qismən də işıq şüalanmasından təsirindən mühafizə etmək üçün nəzərdə tutulmuşdur. Mühafizə prinsipinə görə tabel vasitələrinin təcridedici və süzücü növləri olur. Yadda saxlamaq lazımdır ki, təcridedici mühafizə paltarlarında qalmaq müddəti məhduddur.

Tabel vasitələrinə aiddir: - yüngül mühafizə kostyumu L-1; - ümumqoşun mühafizə komplekti (OZK); - ZFO-58 markalı süzücü mühafizə paltarı komplekti (dəsti).

Yüngül mühafizə kostyumu L-1 insanın bədənin açıq sahələrini, paltarlarını və ayaqqabılarını onların səthinə zəhərləyici maddələrin (ZM) damçılarından, yoluxucu xəstəliklərin törədicilərindən, radioaktiv toz düşməsindən mühafizə etmək üçün nəzərdə tutulmuşdur. L-1 kostyumu müəyyən müddət ərzində istifadə etmək üçün nəzərdə tutulub. Zəhərləyici, radioktiv maddələrin (ZM, RM) və bakterial vasitələrin (BV) təsirinə məruz qaldıqda L-1 kostyumu xüsusi zərərsizləşdirmədən sonra dəfələrlə istifadə edilə bilər. L-1 kostyumu rezinləşdirilmiş materialdan və mühafizə çorabları ilə birlikdə hazırlanmış şalvardan, kapuşonlu kurtkadan, iki cüt iki barmaqlı əlcəkdən, şlemaltından və daşımaq üçün istifadə edilən çantadan ibarətdir. L-1 kostyumu 3 ölçüdə: - 1-ci ölçü- boyu 165 sm. olan insanlar üçün; - 2-ci ölçü- boyu 165 sm-dən 172 sm-dək olan insanlar üçün; - 3-cü ölçü- boyu 173 sm. və daha hündürboy insanlar üçün hazırlanır. Yüngül mühafizə kostyumu L-1:1 - pencək; 2-kapuşon; 3 - boğaz qaytanı; 4 - əlin baş barmağı üçün halqa; 5 - ara qaytanı; 6 - çanta; 7 - şalvar; 8 - çəkmələr; 9 - qaytanlar; 10 - bərkidicilər; 11 - əlcəklər.

L-1 kostyumu üç vəziyyətdə istifadə olunur - "yürüş", "hazır" və "döyüş". Mühafizə corabları üç ölçüdə hazırlanır: - birinci- 40 ölçüdə olan ayaqqabı üçün; - ikinci - 42 ölçüyə kimi olan ayaqqabı üçün; - üçüncü- 43 ölçüyə kimi olan və daha böyük ayaqqabılar üçün.

DOI:10.30546/gdu.5.2025

Ədəbiyyat

1. H.O.Ocaqov. Fövqəladə hallarda həyat fəaliyyətinin təhlükəsizliyi. Bakı 2010.
2. A.Musayev. Mülki müdafiə tibb xidmətinin təşkili. Bakı 2008.
3. R.Əkbərov, H.Həsənov, V.Məhərrəmov, S.Əliyev. İlk tibbi yardım. Bakı 2015.
4. N.Ələkbərli. İlk tibbi yardım qaydaları. Bakı 2009.
5. H.O.Ocaqov. Zəhərli maddələr və onlardan mühafizə. Bakı 2008.
6. M.T.Maksimov, H.O.Ocaqov. Radioaktiv çirklənmələr və onların ölçülməsi. Bakı. 2009.

THE METHODS OF PERSONAL AND MEDIKAL SECUCENCL IN CIVIL DEFENCE

Babayeva Sara Ferman, Huseynov Fikret Bechlul, Qarayeva Elmira Jabrail

Summary

There are many methods to defend population. This defence save the men of nuclear, radiactiv and other poisoned things.

МЕДИЦИНСКИЕ И ИНДИВИДУАЛЬНЫЕ СРЕДСТВА ЗАЩИТЫ ДЛЯ ГРАЖДАНСКОЙ ОБОРОНЫ

Бабайева Сара Фарман кызы, Гусейнов Фикрет Бехлул оглы, Гарайева Елмира Джабраил кызы

Резюме

В условиях ведения войн очень важно во время обеспечить населения средствами гражданской обороны и эвакуировать население с опасных зон. Этими средствами надо пользоваться во время атомной, химической и бактериологической оружия, заражения радиоактивными элементами, и проведения здесь защитных процессов.

Rəyçi: baş müəllim Məmmədova Mahnur
Daxil olma tarixi 15 oktyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 246-248

DOI:10.30546/gdu.5.2025

UOT:-37.01

TƏSVİR SƏNƏTİNDƏ SÜJET ANLAYIŞI

Məmmədova Aybəniz Əli qızı, Kazımova Səriyə Eyvaz qızı
Gəncə Dövlət Universiteti
sebine-sabina-memmedova@mail.ru

Xülasə: *Təsvir sənətində süjet anlayışı obrazların, hadisələrin və onların qarşılıqlı əlaqələrinin bədii ifadəsidir. Bu məqalədə süjetin bədii düşüncə sistemindəki rolu, tarixi inkişafı, klassik və müasir yanaşmalardakı yeri təhlil olunur. Süjetin formalaşmasında kompozisiya, simvolika, zaman və məkan əlaqələri geniş izah edilir.*

Bu məqalədə təsviri incəsənətdə süjet anlayışının mənası, onun inkişaf yolu, əsas komponentləri və tədrisdəki əhəmiyyəti geniş şəkildə təhlil olunur. Məqsəd süjetin sənətdə necə qurulduğunu, onun təsvir vasitələri ilə necə ifadə edildiyini və müasir dövrdə hansı yeniliklərin müşahidə olunduğunu araşdırmaqdır.

Açar sözlər: Təsviri sənət, süjet, kompozisiya, simvolika, obraz, bədii fikir.

Ключевые слова: Изобразительное искусство, сюжет, композиция, символика, образ, художественное мышление.

Keywords: Visual art, plot, composition, symbolism, character, artistic thought

Təsvir sənəti, duyğuların, fikirlərin və müşahidələrin vizual təsviridir. Bu sənət növünün əsas strukturlarından biri də süjetdir. Rəsm, qrafika, heykəltəraşlıq kimi janrlarda süjet, hadisənin və ya ideyanın konkret bədii təqdimat formasıdır. Süjet bədii ideyanın daşıyıcısı olmaqla yanaşı, tamaşaçı ilə emosional əlaqənin qurulmasında da əsas rolu oynayır.

Giriş: Təsviri incəsənət insanın ətraf aləmi, duyğuları, düşüncələri və həyat tərzini vizual vasitələrlə ifadə edən bir sənət sahəsidir. Bu sahənin əsas məqsədi təkcə gözəlliyi nümayiş etdirmək deyil, həm də müəyyən fikir və məzmunu çatdırmaqdır. Bu məzmunun ifadəsində "süjet" anlayışı mühüm rol oynayır. Süjet bədii əsərin ideyasının konkretləşmiş və hadisələr zəncirində formalaşmış bədii nüvəsidir. Təsviri sənətdə süjet obrazların, hadisələrin və münasibətlərin təsviri ilə həyata keçirilir.

Təsviri sənət tarixində süjet anlayışı zamanla müxtəlif cərəyan və üslublar çərçivəsində fərqli şəkildə şərh olunmuşdur. Qədim dövrlərdən başlayaraq müasir dövrədək sənətkarlar insan həyatının müxtəlif sahələrini—mifoloji, dini, tarixi və gündəlik məqamları—süjetlərlə əks etdirmişlər.

Bu məqalədə təsviri incəsənətdə süjet anlayışının mənası, onun inkişaf yolu, əsas komponentləri və tədrisdəki əhəmiyyəti geniş şəkildə təhlil olunur. Məqsəd süjetin sənətdə necə qurulduğunu, onun təsvir vasitələri ilə necə ifadə edildiyini və müasir dövrdə hansı yeniliklərin müşahidə olunduğunu araşdırmaqdır.

Təsvir sənəti, duyğuların, fikirlərin və müşahidələrin vizual təsviridir. Bu sənət növünün əsas strukturlarından biri də süjetdir. Rəsm, qrafika, heykəltəraşlıq kimi janrlarda süjet, hadisənin və ya ideyanın konkret bədii təqdimat formasıdır. Süjet bədii ideyanın daşıyıcısı olmaqla yanaşı, tamaşaçı ilə emosional əlaqənin qurulmasında da əsas rolu oynayır.

Süjetin anlayışı və mahiyyəti:

Süjet (fr. sujet – mövzu) – bədii əsərdə obrazlar vasitəsilə təqdim edilən hadisə və ya hadisələr silsiləsidir. Təsvir sənətində süjet yalnız bir hadisəni deyil, onun ətrafında cərəyan edən münasibətləri, emosiyaları, simvolik çalarları da əhatə edir. Bu, bir rəsmdə bütöv bir hekayənin vizual ifadəsidir.

DOI:10.30546/gdu.5.2025

Süjet anlayışı bir çox sənət nəzəriyyəçiləri tərəfindən müxtəlif aspektlərdə izah edilib. Məsələn, V. V. Kandinski süjeti daxili forma və məna ilə əlaqələndirir. Alberti və Leonardo da Vinçi isə süjetin insani hiss və davranışların bədii ifadəsi olduğunu qeyd edirlər.

Süjetin əsas komponentləri

Süjet aşağıdakı əsas komponentlərdən ibarətdir:

Hadisə – əsərdə baş verən hərəkət və ya vəziyyət.

Obrazlar – hadisəni daşıyan əsas bədii personajlar.

Məkan və zaman – süjetin baş verdiyi şərait.

Kompozisiya – süjetin quruluş forması və vizual tərtibatı.

Bu komponentlərin harmonik birliyi təsvir sənətində süjetin effektivliyini və mənəvi təsir gücünü artırır.

Təsviri sənət növlərində süjetin tətbiqi:

Rəssamlıqda süjet:

Tarixi, dini, məişət və portret janrlarında geniş tətbiq olunur. Məsələn, Rafaelonun "Atina məktəbi" əsəri konkret süjet xəttinə malikdir.

Qrafikada süjet:

Karikatura, illüstrasiya və plakatlarda süjet daha sadə və simvolik formada təqdim olunur.

Heykəltəraşlıqda süjet:

Məzmunun plastik ifadəsi vasitəsilə həyata keçirilir. Süjet burada forma və dinamika vasitəsilə oxunur.

Süjet və kompozisiya əlaqəsi:

Süjetin bədii dəyəri onun necə təqdim olunması ilə sıx bağlıdır. Kompozisiya süjetin strukturlaşdırılmasıdır. Kompozisiyanın elementləri – mərkəz, ritm, simmetriya, işıq-kölgə – süjetin semantik oxunuşunu formalaşdırır.

Məsələn, Karavaccionun "Müqəddəs Matfeyin çağırışı" əsərində süjet kompozisiyanın dramatik işıqlandırılması və istiqamətlənmiş baxışlarla tamamlanır.

Simvolika və süjetin dərinlikləri

Süjet bəzən açıq şəkildə təqdim olunmur, simvollar və metaforalar vasitəsilə gizli məna daşıyır. Xüsusilə ikonalar, miniatürlər və müasir avanqard sənətdə süjet simvolika ilə bəzədilir. Bu zaman tamaşaçı süjeti şərh etməli olur.

Misal: Salvador Dalinin "Ərimiş saatlar" əsərində konkret süjet yox, simvolik zaman qavrayışı süjet kimi çıxış edir.

Müasir sənətdə süjetin transformasiyası

Müasir incəsənətdə süjet daha çox konseptual yanaşmalarla təqdim olunur. Minimalizm, performans və instalyasiya kimi janrlarda süjet ənənəvi xəttini itirərək ideya formasına keçir. Bu, tamaşaçının şərh imkanlarını genişləndirir.

Nəticə

Süjet təsviri sənətdə yalnız bir hadisəni əks etdirməkdən daha artıqdır – o, bədii təfəkkürün strukturlaşmış formasıdır. Tarix boyu süjetin təqdimat formaları dəyişmiş, lakin onun sənətə verdiyi semantik dəyər dəyişməz qalmışdır. Bu səbəbdən süjet anlayışı sənət təhlilində və tədrisində əsas kateqoriyalardan biri kimi çıxış edir.

Ədəbiyyat

1. Alberti, L. B. "De Pictura", 1435.
2. Kandinski, V. "Rəssamlıqda ruhaniyyət haqqında", 1911.
3. Gombrich, E. "İncəsənətin hekayəsi".
4. Bax, M. "Məna və təsvir sənəti".

DOI:10.30546/gdu.5.2025

5. Arnheim, R. “İncəsənətdə vizual düşüncə”.

ПОНЯТИЕ СЮЖЕТА В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

Мамедова Айбаниз Али кызы, Казымова Сария Ейваз кызы

Резюме

Понятие сюжета в изобразительном искусстве представляет собой художественное выражение событий, образов и их взаимосвязей. В данной статье анализируется роль сюжета в системе художественного мышления, его историческое развитие, а также место в классических и современных подходах. Подробно рассматриваются такие компоненты, как композиция, символика, время и пространство.

THE CONCEPT OF PLOT IN VISUAL ART

Mammadova Aybaniz Ali, Kazımova Sarıya Eyvaz

Summary

In visual art, the concept of "plot" refers to the artistic expression of events, characters, and their interrelationships. This article analyzes the role of plot in artistic thinking, its historical development, and its position in both classical and modern approaches. The components of composition, symbolism, time, and space in the formation of plot are discussed in detail.

Rəyçi: Qoşqarova Elnarə
Təsviri incəsənət kafedrasının 30 aprel 2025-ci il 08 saylı protokolu
Daxil olma tarixi 24 iyul 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 249-253

DOI:10.30546/gdu.5.2025

UOT:613.2:663

SÜD MƏSHULLARININ XARAB OLMASINA QARŞI İSTİFADƏ OLUNAN MÜBARİZƏ METODLARI

Orucova Nailə Kamal qızı, Qəzənfərova Gülşən Vidadi qızı
Azərbaycan Dövlət Aqrar Universiteti
Naile_1989@mail.ru

Xülasə: *Süd məhsulları orqanizmaya lazım olan bütün bioloji aktiv elementlərdən ibarətdir.Əsas məqsəd bağırsaqların mikroflorasını qorumaqdır. Əgər süd məhsulu tez xarab olarsa deməli o təmizdir. 3-günə süd məhsulu otaq temperaturunda qıcqırıb xarab olmalıdır. Süd məhsullarını qaynadıb tez içmək lazımdır. Əgər məhsul 10-15 gün ərzində xarab olmursa, onu içmək olmaz Südün tərkibində 3-növ təhlükəli faktorlar var: bioloji, kimyəvi və fiziki faktorlar.*

Açar sözlər: süd məhsulu, xammal, mikroorqanizmlər, qıcqırma, bioloji amil, kimyəvi amil, fiziki amil, istehlakçı

Ключевые слова: молочный продукт, сырье, микроорганизмы, ферментация, биологический фактор, химический фактор, физический фактор, потребитель.

Key words: dairy product, raw materials, microorganisms, fermentation, biological factor, chemical factor, physical factor, consumer.

Səmərəli həyat tərzinin olması və sağlam qidalanmanın ilk şərti süd və süd məhsullarından istifadə etməkdir. Süd və süd məhsulları canlı orqanizmlərin boy və inkişafını təmin edən universal bir qida hesab edilir, insanların bütün ömrü boyu istifadə etdikləri və çox mühüm bioloji və qida əhəmiyyətinə malik vacib, əvəzolunmaz qidadır. Bu məhsulların tərkibində insan orqanizmi üçün vacib olan bütün qida maddələri və bioloji aktiv maddələr kifayət qədər var.

Onun ən əsas dəyəri bağırsaq mikroflorasını yaxşılaşdırmasıdır. Pis ekologiya, streslər, antibiotik və s. dərmanlarının tez-tez qəbul edilməsi, düzgün olmayan qidalanma bağırsaqların mikroflorasına güclü zərbə vurur. Nəticədə, orada yaşayan xeyirli mikroorqanizmlərin sayı kəskin surətdə azalır və əksinə, zərərli mikroorqanizmlərin sayı artır. Bu balans pozulduqda insanın immun sistemi zəifləyir. İmmun sistemin zəiflənməsi isə orqanizmdə müxtəlif xəstəliklər və pozğunluqların əmələ gəlməsinə yol açır. Ona görə də qida zəhərlənmələri zamanı ilk tibbi yardım kimi süd və ya qatığın qəbul olunması məsləhət görülür.

Təbii süd və ondan alınan süd məhsullarının tərkibinə qida əlavələri qatılmasa bu məhsul tez xarab olur. Süd məhsulları otaq temperaturunda üç gündən sonra qıcqırmalı, göbələkləşməli, kif bağlamalıdır. Bu da çox təbii haldır, yəni məhsulun təbii süddən hazırlandığını bildirir.[1]

Amma bu gün istifadə etdiyimiz bu məhsullar sağlamlığımıza zərər yetirə bilər. Bir çox hallarda təhlükənin qarşısını alsada, bəzən özü təhlükələr yaradır.

Təhlükəli məhsulların təhlükəlilik səviyyəsi qidanın tərkibindəki zərərli faktorlarla müəyyən edilir. Təhlükəli amillər 3 cür olur:

1. bioloji amillər - əsasən bura yoluxucu bakteriyalar, toksin buraxan parazitlər, viruslar və s. daxildir;
2. kimyəvi amillər – bura əsasən təbii şəkildə əmələ gələn qida əlavələri, pestisid qalıqları, toksinlər, təbiəti çirkləndirən amillər, kimyəvi maddələr və s. aiddir;
3. fiziki amillər- bura şüşə, dəmir, sümük, işçilərə aid və emal prosesində qida məhsulları içərisinə düşən digər əşyalar.

DOI:10.30546/gdu.5.2025

Dünyada qida sənayesinin tərəqqisi eyni zamanda, süd sənayesində böyük irəliləmələr olmuş və yeni, modern istehsal texnikalarının tərəqqisi ilə bağlı ayrı - ayrı məhsulların istehsalı həyata keçirilmişdir. Lakin süd və süd məhsullarının başqa qidalar kimi istehlakçı sağlamlığına pis təsir etməməsi üçün süd sənayesinə xüsusilə diqqət göstərmək vacibdir.

Son 10 ildir yer üzündə istehlakçı sağlamlığının mühafizəsinə dair bir istiqamət fəaliyyət göstərir və istehsalçılara edilən ən böyük təzyiq sağlam mühitdə və daxilində qoruyucu maddələri çox az olan məhsulların istehsal olunmasıdır.

Süd məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin qorunması sistemini əsasən 5 hissəyə ayırmaq düzgün olar:

- Good Manufacturing Practice (GMP);
- Quality control (QC);
- Good Hygiene Practice (Ghp);
- Chain control (CC);
- Hazard Analysis by Critical Control Points (HACCP).

GMP (yaxşı istehsalat təcrübəsi) – istehsal fəaliyyətinin ümumi şərtləri və üsullarıdır, sağlam məhsulun əldə edilməsini təmin edir. GMP prinsipləri ənənələr, məhsulların təhlükəsizliyi üzrə həyata keçirilən elmi-araşdırmaların nəticələri əsasında tərtib olunur və müvafiq dövlətlərarası sənədlərdə (EC göstərişləri) yaxud bələdiyyə nazirliklər tərəfindən irəli sürülən əmrlər, göstərişlərdə qeyd edilir. GMP bir sıra təklifləri və tələbləri vardır: maşınlar və avadanlıqlar, xammal və materiallar, bina və otaqlar, saxlanma və yığılma , nəqletmə və yerləşdirmə, sosial obyektlər, zərərvericilərə qarşı mübarizə, dezinfeksiya edilmə.

CC – nəzarət (xammaldan hazır məhsula doğru, istehsalçıdan istehlakçıya kimi gedilən yolun və zamanın müşayiət edilməsi). Adətən xammalın qəbulu prosesində onun keyfiyyəti hər hansısa bir nümunənin nəzarəti ilə müəyyən edilir və alınan nəticələr bütün partiyaya aid edilir. Təcrübələrdən məlum olur ki, məhsul partiyasının keyfiyyəti araşdırılan nümunənin keyfiyyətinə hər zaman uyğun gəlmir. Digər yandan təhlükəsizliyin yüksək göstəricilərinin araşdırmaların az edilməsi situasiyaları ilə də qarşılaşmaq mümkündür. Məhsul gəldikdə nəzarətin ardıcl şəkildə təşkili və mal gətirənlə hər zaman işin görülməsi, müəssisəyə gələn xammalın keyfiyyətini müəyyən etməyə və keyfiyyəti aşağı olan məhsulun daxil olmasını əngəlləməyə zəmin yaradır. Belə hallarda heyvanların yemləmə rasionu, saxlandığı mühit, istifadə olunan dərmanlar, sağım, soyudulma və saxlanma proseslərinin təşkil edilməsi, sağım üçün istifadə olunan və texniki avadanlıqların dezinfeksiyası və s. mühüm nəzarət edilməsi olan yerlərdir. Bu həm yüksək keyfiyyətli xammalın əldə edilməsinə, o cümlədən təchizatçının – təsərrüfatın texniki baxımdan yüksəlməsinə və inkişafına təkan verir. Bu yolla həm süd xammalının, həm də başqa xammal, qablaşdırma materiallarının, inqrediyentin əldə edilməsi zamanı da həyata keçirilməlidir. İşin belə təşkil edilməsi yüksək keyfiyyətli xammalın əldə edilməsinə şərait yaradır. Daim nəzarətdə olan, o cümlədən müəssisənin məhsulunu alan təşkilat da mövcud olmalıdır.

QC – keyfiyyətə nəzarət. İstənilən müəssisə öz istehsal prosesini müstəqil olaraq qurur və yəni onun istehsalat fəaliyyətini nizamlayan, istehsal edilən məhsulun keyfiyyət tərkibini və təhlükəsizliyini həyata keçirən şəxsin sənəd paketi mütləq şəkildə olmalıdır. Bu, işçilərin hər birinin müəyyən bir istehsal xəttində çoxlu reqlamentlərin və digər sənədlərin, instruksiyaların tərtib edilməsini tələb edir. İnstruksiya istehsal prosesi və məhsul üçün tam şəkildə fəaliyyəti özündə birləşdirməlidir. Misal üçün, harda, nəyə nəzarət olunmalı, nümunələr hansı ardıcıllıqla istifadə edilməli, üsul və vasitələrdən hansını seçməli, nəticələr nə cür formalaşdırılmalı, nəticələr haqda kimə informasiya ötürməli, yayınmalar zamanı hansı tədbirlər görülməlidir.

DOI:10.30546/gdu.5.2025

GHP – yaxşı gigiyenik təcrübədir, istehsalın çox ciddi sanitar mədəniyyətidir. Keyfiyyəti yüksək olan süd məhsulları epidemiyalara qarşı bir çox ciddi gigiyenik tədbirlərin görüldüyü zaman alına bilər. Bu gigiyenik tədbirlərə müəssisənin kanalizasiya, soyuqla təchizat, su təchizatı, məişət binalarının avadanlığı, işçilərin şəxsi gigiyenası, sanitar vəziyyəti laborator nəzarətin təşkili, istehsalatın vacib dezinfeksiyaedicilərlə təmin olunması, deratizasiya və dezinfeksiya aiddir. Bura eyni zamanda, əmək şəraitinə ventilyasiya nəzərət də daxildir. İşin yüksək nəticəsi şəxsi gigiyena qaydalarına və eyni zamanda da sanitar gigiyenik rejimlərə nə dərəcədə riayət edilməsi ilə müəyyən edilir. Hazır məhsulun içinə gəmiricilərin, kənar lazımsız maddələrin, həşəratların, mikroorqanizmlərin və s. düşməsinin qarşısının alınması əsas məqsəddir. Bu işlər əsasən müəssisədaxili nəzarətin doğru təşkili yolu ilə həll olunur.

Hazard Analysis by Critical Control Points (HACCP). Müasir dövrdə HACCP qida təhlükəsizliyinin idarəolunmasında ən səmərəli sistem hesab olunur. HACCP sistemi hazır məhsula yox, istehsal prosesi zamanı buraxılanı müəyyən edir. Bu standart, məhsulun istehsalının başlanğıcından sonuna kimi, təhlükəsiz və istifadəyə yarayan qidanın istehsalı üçün lazımlı şərtləri irəli sürür. Həmin sənəd, xüsusi sahələrdə lazım olan ixtisaslaşmış kodekslər üçün özək, təməl strukturunu ifadə edir. Bu cür xüsusi kodlar və təlimatlar həmin sənədlə və (HACCP) sistemilə, təlimatlarla birgə istifadə olunmalıdır. Standartın bütün bölmələri təhlükəsiz və istifadə üçün uyğun olan məhsul hazırlamağa, istehsalatdan satış məntəqəsinədək olan bütün məhsul zənciri boyunca istifadə edilən sanitariya prinsiplərini təyin etməyə imkan verir.

Məhsulların istehsalı prosesində təhlükəsizlik göstəricilərinin təmin olunması üçün birinci istehsalda aşağıdakılara diqqət edilməlidir:

- QT üçün xarici aləmin təhlükəli olan ərazilərdən uzaq tutulması;
- QT üçün təhlükə hallarının olmaması üçün bitki və heyvan xəstəlikləri, parazitlərə ciddi nəzarət təşkili;
- sanitariya şərtlərinə müvafiq qida məhsullarının istehsalının həyata keçməsi üçün bəzi tədbirlərin görülməsi. Digər qida məhsullarındakı kimi süd məhsulları və süddə da bir sıra təhlükəsizlik göstəriciləri olmalıdır, bunlar aşağıdakılardır:

1.Kimyəvi təhlükəsizlik göstəriciləri: Kimyəvi təmizlik maddələri; Pestisidlər; Toksiki metallar; Nitrit, nitrat və N-nitroso birləşmələr; Poliklorinlənmiş bifeniller; Allergik maddələr; Plastik və qablaşdırma materiallarındakı baytar artıqlar; Kimyəvi qatqı maddələr

2.Bioloji təhlükəsizlik göstəriciləri: Patogenik G bakteriyalar; Patogenik G+ bakteriyalar ; Parazitlər və Protozoalar ; Mikotoksinler ; Viruslar

3. Fiziki təhlükəsizlik göstəriciləri: Zərərli maddələr ; Taxta ; Metal ; Şüşə ; Plastik ; Daş. [2]

Azərbaycanda istehsal olunan süd məhsullarının 60%-i quru süddən hazırlanır. Quru süddən hazırlanan məhsulların yararlılıq müddəti uzun olur. İstehsalçılar mallarını "ölməz" etmək istəyirlər. Əgər bazarda satılan xama, qaymaq və digər süd məhsullarının yararlılıq müddəti üç aydan çoxdursa, bu, tərkibinə çoxlu kimyəvi maddələr vurulan "ölü" məhsul deməkdir. Həmin kimyəvi maddələr südün tərkibindəki canlı bakteriyaları öldürdüyü kimi, insan bədəninə düşəndə də bağırsaqlarda olan mikrofloranı məhv edir.

Təəssüf ki, ölkəmizdəki süd məhsullarında bu hallar mövcuddur. Dörd il əvvəl müəyyən qrup alim süd məhsullarının yararlılıq müddətinin artırılması üçün işlərə başlayıb.

Fermer təsərrüfatlarında, xüsusən də, Muğan zonasında brusellyoz xəstəliyi geniş yayılıb. Təəssüf ki, kəndlilər bu xəstəliyi olan heyvanları məhv etmir, hətta, bəzən onu başqa

DOI:10.30546/gdu.5.2025

birinə satırlar. Ümumiyətlə, kənd yerlərində hazırlanan süd məhsulları soyuducuda yeddi, otaq temperaturunda isə üç gün saxlanıla bilər.

İstehlakçılar bütün südləri qaynadıb içməlidirlər. Çünki onların keyfiyyəti kifayət qədər təmin olunmayıb.

Öncəliklə məhsulun yararlılıq müddətinə fikir verməlidir, müddət ötübsə, alınmamalıdır. Əgər istehsal və yararlılıq müddəti yapışdırılıb qoparılan kağızda qeyd olunubsa, həmin məhsullar alınmamalı, bundan başqa, bəzən yararlılıq tarixi qapaqda da yazılır, istənilən vaxt həmin qapağı dəyişmək mümkün olduğundan bu tip məhsullardan da imtina edilməlidir. [3]

Hər bir istehlakçı özü təcrübə aparmalıdır, əgər aldığı məhsul 10-15 günə xarab olmursa, bu məhsullardan uzaq olunmalıdır. Həmçinin vakuum şəraitində bağlanmış məhsulun qapağı şişibsə, açanda qıcqırmış tam verirsə, üstündə göbələklər əmələ gəlibsə, o məhsuldan istifadə edilməməlidir.

Ağzı açılmış paket südlər soyuducunuzda ən çox 2-3 gün qalmalıdır. Əgər qutu açılmayıbsa, son istifadə tarixinə qədər saxlaya bilərsiniz.

Ədəbiyyat

1. Əzimov Ə. M., Axundova N. Ə., Qədimova N. S. Süd və süd məhsullarının texnologiyası, Bakı 2015,455s.
2. Qurbanov N. H., Qurbanova A. A., Məhərrəmova M. H., İskəndərova M.M. Mikrobiologiya, sanitariya və gigiyena kursundan laboratoriya praktikumu.
Dərs vəsaiti, Bakı, "İqtisad Universiteti" nəşriyyatı 2015. – 200s.
3. "Qida məhsullarının təhlükəsizliyinə və qida dəyərliliyinə gigiyenik tələblər "sanitariya epidemioloji qaydalar və normativlərin təsdiq edilməsi
haqqında" Azərbaycan Respublikası Səhiyyə Nazirliyi 30.04.2010 – cu il tarixli saylı əmri.

МЕТОДЫ БОРЬБЫ С ПОРЧЕЙ МОЛОЧНОЙ ПРОДУКЦИИ

Оруджева Наиля Камаль, Газанфарова Гульшан Видади

Резюме

Молочные продукты содержат достаточное количество всех питательных и биологически активных веществ, важных для организма человека. Его главное значение – улучшение микрофлоры кишечника.

Если молочная продукция быстро портится, значит, она чистая, не содержит добавок. Молочные продукты должны забродить, плесне веть и плесневеть через трое суток при комнатной температуре. Это очень натурально, а это значит, что продукт изготовлен из натурального молока.

В молоке есть 3 типа опасных факторов: биологические факторы, химические факторы и физические факторы.

Потребители должны кипятить и пить все молоко. Потому что их качество недостаточно обеспечено. Каждый потребитель должен экспериментировать сам, если купленный им товар не портится через 10-15 дней, ему следует держаться подальше от этих продуктов.

DOI:10.30546/gdu.5.2025

METHODS TO COMBAT SPOILAGE OF DAIRY PRODUCTS

Orujova Naila Kamal, Gazanfarova Gulshan Vidadi

Summary

Dairy products contain sufficient quantities of all nutrients and biologically active substances important for the human body. Its main significance is improving intestinal microflora.

If dairy products spoil quickly, it means they are pure and do not contain additives. Dairy products should ferment, mold, and become moldy after three days at room temperature. It is very natural, which means that the product is made from natural milk.

There are 3 types of hazards in milk: biological factors, chemical factors and physical factors.

Consumers should boil and drink all milk. Because their quality is not sufficiently ensured. Every consumer should experiment for himself, if the product he purchased does not spoil after 10-15 days, he should stay away from these products.

Daxil olma tarixi 03 sentyabr 2025-ci il

Elmi Xəbərlər Jurnalı *Nömrə 5, 2025* 254-256

DOI:10.30546/gdu.5.2025

ŞAHMATÇI PSİXOQRAMMASI

Həsənov Etibar Firuddin oğlu, Ağayev İlham Mansur oğlu
Gəncə Dövlət Universiteti

Xülasə: *Şahmatçının psixoloji hazırlığı ilk növbədə özünü analiz etmək qabiliyyətindən başlayır. Yəni, hər bir şahmatçı mənfi xüsusiyyətlərini bilməli və onların aradan qaldırılması üçün çalışmalıdır. Bu problemlərin həllində valideynlərin rolu daha böyükdür, çünki göstərilən mənəvi dəstək şahmatçını psixoloji cəhətdən gücləndirir.*

Açar sözlər: şahmatçının psixoloji hazırlığı, şahmatçı psixoqramması, psixologiya və şahmat, şahmat ustası, peşəkar şahmatçı.

Ключевые слова:психологическая подготовка шахматиста, психограмма шахматиста, психология и шахматы, шахматный мастер, профессиональный шахматист.

Key words:psychological preparation of a chess player, psychogram of a chess player, psychology and chess, chess master, professional chess player.

İlk dəfə şahmatçının psixoloji "analizini" praktikaya tətbiq edən E.Lasker olmuşdur. Lasker nəinki rəqibin oyun"stilini"hətta onun xarakterini də öyrənirdi. M.Botvinnik isə bu prinsipi daha da inkişaf etdirmiş və rəqiblə olan ən xırda nöqsanlara və davranışlara belə nəzər yetirmiş. Məsələn: bir dəfə Botvinnik M.Eyvlnin oyununu izləyəndə görür ki, Eyvl vəzirlə "uzun" gedişlər edir. Bu şəkildə edilən gedişlər sanki Eyvlnin xoşuna gəlirmiş. Botvinnik bu davranışın, Eyvlnin hündür boya malik olması ilə bir əlaqənin olduğunu düşünür. Məhz bu möhtəşəm "psixoloji" yanaşma, Botvinnikə Eyvl üzərində bir çox üstünlüklər qazandırdı. Əgər "d1"dəki vəzir, "e2" və "h5" xanalarına gediş edə bilirdisə, Eyvl bu xanaların içərisində ən uzaq məsafədə olanını seçirdi. Ümumiyyətlə, şahmatçının fiziki və psixoloji durumu, müsbət və mənfi cəhətləri, intellektual və fantaziya səviyyəsi "şahmatçı psixoqrammasında" öz əksini tapır.

Fiziki göstərici: Əgər şahmatçının fiziki cəhətcə zəifliyi varsa, onda o, oyunda olan üstünlüyün sonadək saxlanılmasında və ümumiyyətlə turnirin, uğurlu bir şəkildə yekunlaşdırılmasında çoxlu çətinliklərlə rastlaşır.

Möhkəm iradə: Oyun zamanı yaranmış gərginliklərin aradan qaldırılmasında, şahmatçının "misilsiz dostu".

Təmkin: "Kritik" oyun vəziyyətində, şahmatçının öz fikir və emosiyalarının idarə olunmasında əvəzolunmaz bir yoldaş.

Diqqətin bir dəfə cəmlənməsi: Əgər şahmatçı bütün fikrini, düşüncəsini və diqqətini yalnız lövhəyə yönəldirsə, bu nəticə etibarı ilə uğurun qazanılmasına bir "stimuldur"

Oriyentasiya: Oyunda vəziyyətin doğru və düzgün qiymətləndirməsində, o cümlədən, fiqurlar arasındakı qarmoniyanın müəyyən edilməsində əvəzolunmaz istiqamətlənmə.

Yüksək intellektual düşüncə: Məqsədyönlü şəkildə hazırlanmış "taktika gedişat", mükəmməl və səliqəli "oyun planı" şahmatçının səviyyəcə hansı intellektual düşüncəyə malik olduğunu göstərir.

"Şahmat" – psixologiyasının bir hissəsidir desək yanılmarıq. Çünki, oynanılmış oyuna baxmaqla insanın necə dərin düşündüyünü, onun qorxaq olub – olmadığını, "emosiyaların" hansı istiqamətdə inkişaf etdiyini və s. bölmək olar. Bir çox şahmatçılar rəqiblərin psixoloji cəhətdən zəif olan məqamlarını öyrənərək onlara qarşı məharətlə istifadə edirlər. Şahmatçı nəinki oyun hazırlığı cəhətdən, hətta psixoloji cəhətdən də tam hazır olmalıdır. Ciddi psixoloji hazırlıq şahmatçının nəticəsini minimum "20%" qaldıra bilər. A.Alyoxin bütün bu məqamlara diqqət yetirilməsinə önəm vermişdir.

DOI:10.30546/gdu.5.2025

Bir çox şahmatçılar, hətta dünya çempionları belə oyun əzrində kobud səhvlərə yol vermişlər. Buna səbəb, hazırlıq səviyyəsindən daha çox "Şahmat səhvlərin psixologiyasını" göstərmək olar. Səhvlərin çoxu bu şəkildə baş verir: oyunçu kombinasiya fikirlərində lövhədə olan vəziyyətdən xəyalən ayrılaraq qurmaq istədiyi vəziyyəti gözünün qabağına gətirməyə çalışır, amma ilkin tərpənməz vəziyyət hesabını tam dəqiqliyinə əngəl törədərək səhvin buraxılmasına səbəb olur. Bu kimi misalları, o cümlədən, oyunqabağı psixoloji hazırlığın necə aparılması haqqında məsləhətləri, kitabın vərəqlərini səhifələdikcə öyrənəcəksiz.

Şahmatçının psixoloji hazırlığı ilk növbədə özünü analiz etmək qabiliyyətindən başlayır. Yəni, hər bir şahmatçı mənfi xüsusiyyətlərini bilməli və onların aradan qaldırılması üçün çalışmalıdır.

Bu problemlərin həllində valideynlərin rolu daha böyükdür, çünki göstərilən mənəvi dəstək şahmatçını psixoloji cəhətdən gücləndirir.

Oyunqabağı psixoloji hazırlıq:

1.Rəqibinizdən hər cəhətcə geri qalmadığınızı və hətta üstün olduğunuzu bilməlisiniz. Məsələn: yaşca böyüklük, daha erkən şahmatla məşğul olmağınız, müəlliminizin daha güclü olması, gün ərzində rəqibə nisbətən hazırlığı daha çox vaxt ayırmanız, uğurların və medalların daha çox olması və s. Bütün bunlar, sizi rəqibdən psixoloji cəhətdən daha güclü edir və oyunqabağı qorxunu aradan qaldırır.

2.Özünü səbrli aparmaq və rəqibin qıcıq yaradan zarafatlarına məhəl qoymamaq.

3.Özünüzü qürurlu göstərməyə çalışın və bir şeyi unutmayın ki, rəqib sizdən qorxur və bunu biruzə vermir.

4.Əgər rəqib qorxursa demək ki, uduzacaq və sizdən həm psixoloji, həm də hazırlıq cəhətdən daha zəifdir.

5.Qarşılaşmanın hansı nəticə ilə bitməsindən asılı olmayaraq, bunu hədəfə gedən yolda bir pillə hesab edin.

6.Hazırlıq səviyyəsi (məs: kompyüterdə üstün reytinqli oyunçunu məğlub etmək, özündən yaşca böyük rəqibə qalib gəlmək və s.) yaxşı olan şahmatçı özündə inam hiss edir və bu da onun psixoloji durumunu gücləndirərək turnurdə uğurlu iştirakına səbəb olur.

Psixoloqlar yaddaşın möhkəmləndirilməsində "Şahmat"ı effektli bir üsul kimi göstərmişlər. O, cümlədən, çətin hallarda tez və optimal çıxış yolunun tapılmasına, yeni ideyaların qurulmasına və s. müsbət təsir göstərir.

Çox maraqlıdır ki, həkimlər "Alçqeymer" (yaddaş zəifliyi) xəstəliyinə qarşı mübarizədə "Şahmat" oyununu məsləhət görürlər. Çoxları belə hesab edir ki, şahmat – yüksək intellektə malik olan kəslər üçündür. Bəli! Şahmat karyerasının qurulmasında yüksək intellektə ehtiyac var. Lakin, gərgin və sistemli şəkildə olan məşq "yatmış" intellektin oyanışına və inkişafına səbəb ola bilər. Həmçinin elmi araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, şahmat insanın "beyin yarımkürələrinin" hər ikisini aktivləşdirərək "yaradıcılıq qabiliyyətini", düşünmə sürətini, oxumaq qabiliyyətini artırır, fikir dayanıqlığını azaldaraq diqqətin cəmlənməsinə səbəb olur.

"Əvəzi olmayan intellektdən lazımınca istifadə etməyə dəyər!"

Məğlubiyyət iki cür kiçik və böyük məğlubiyyət. Oyunu uduzmaq kiçik, yarışda yer tuta bilməmək isə böyük məğlubiyyət kimi qəbul ediləsi olsa, sonucda hər ikisi şahmatçının məyus olmasına səbəb olur.

"Mən həmişə qalib gəlməliyəm!" deyən kəs, çox zaman ziddi uğurlara nail ola bilmir, çünki, özlüyündə elə fikirləşir ki, bir oyunu uduzsa hamı onun haqqında danışacaq. Lap dəqiq desək, belə insanlarda uduzmaq qorxusu yaranır ki, bu da, onların öz potensiallarından

DOI:10.30546/gdu.5.2025

lazımınca yararlanmasının qarşısını alır. Peşəkar şahmatçılar arasında belə insanlara rast gəlinməməsi buna bir misaldır.

Tarixdə yalnız bir şahmatçı istisnalıq təşkil edir. Bu da "11"ci dünya çempionu Bobbi Fişerdir. O, keçirilməli olan qarşılaşmadan imtina etmiş və 1975–ci ilin 3 aprelində FİDE tərəfindən titulu əlindən alınaraq Karpova vermişdir. Fişerin qarşılaşmaya gəlməməsi görüş qaydaları ilə əlaqələndirilsə də, bu daha çox "Məğlubiyyət qorxusu" nun olmasına dəlalət edirdi.

Şahmatçı hər iki rəqibinə qalib gəlməyi bacarmalıdır.

Blyumenfeldin oynadığı oyunda, belə bir maraqlı hadisə baş vermişdir. Həmin oyunda 40–cı gediş edilməli idi və bu gedişi Blyumenfeld etməli idi. Maraqlısı ondadır ki, o, 40 –cı gedişdə artıq "mat" elan edə bilirdi. Amma buna baxmayaraq hələm də fikirləşməkdə davam edirdi və sonadək ümid edirdi ki, şahmat ustası bu gedişi etməyəcək. Vaxtın çox az olmasına baxmayaraq Blyumenfeld dayanmadan fikirləşirdi. Bu da rəqibi daha da ümidləşdirirdi. Lakin son saniyədə həmin gözlənilən gediş edilir. Rəqib isə təəccüblə soruşur: Siz nə üçün bu qədər düşünürdünüz? Matı görmüşdünüz? – Görürdüm – amma başa düşə bilmirdim ki, niyə siz təslim olmursuz!

Ədəbiyyat

1. Ə.Qasımov – Şahmat oyunu. Bakı – 1948
2. V.Qrişin., Y.İlyin. – Şahmat Əlifbası. Bakı – 1988
3. А.Мальчев. Испанская партия.
4. A.Zeynallı., P.Əliyev – Şahmat aləminə səyahət. Bakı – 1986
5. Учителью о шахматах. Москва. 1986.
6. Rəsul İbrahimov – Ümumtəhsil məktəbləri üçün dərslik. Çaşıoğlu. Bakı – 2013

ПСИХОГРАММА ШАХМАТИСТА

Гасанов Этибар Фуруддин оглы, Агайев Ильхам Мансур оглы

Резюме

Психологическая подготовка шахматиста начинается, прежде всего, с умения анализировать себя. То есть каждый шахматист должен знать свои отрицательные черты и работать над их устранением. Большую роль в решении этих проблем играют родители, поскольку оказываемая моральная поддержка укрепляет шахматиста психологически.

PSYCHOGRAM OF A CHESS PLAYER

Gasanov Etibar Furuddin, Agayev Ilham Mansur

Summary

Psychological preparation of a chess player begins, first of all, with the ability to analyze oneself. That is, each chess player must know his negative traits and work on eliminating them. Parents play a major role in solving these problems, since the moral support they provide strengthens the chess player psychologically.

Rəyçi: Cabbarov Urfan
Daxil olma tarixi 19 sentyabr 2025-ci il

DOI:10.30546/gdu.5.2025

Çapa verildiyi tarix 04.11.2025
Çap vərəqi: 15,4 ç.v. Tiraj :300 ədəd
Gəncə Dövlət Universitetinin nəşriyyatı
Ünvan: Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429
E-mail: ***elm@gdu.edu.az,*** *(+99422) 266 01 88*

DOI:10.30546/gdu.5.2025